# *RAMAZAN*

# *DÜŞÜNCƏLƏRİ*

*Müəllif və tərtibçi: fil.e. n.*

*Mirzəyeva Yeganə*

[www.azerislam.com](http://www.azerislam.com)

## *ÖN SÖZ ƏVƏZİ*

***Bismillahir Rahmənir Rahim. Əlhəmdulilləhi Rabbil aləmin.***

***Ərrahmənir Rahim. Məliki yevmiddin. İyyakə Nəbudu va İyyakə nəstəin İhdinə sıratəl mustaqin. Sıratəlləlazinə ənamtə aleyhim ğeyril mağdubi aleyhim va la-d-dallin.*** Amin.

*Bismillahir Rahmənir Rahim. Mərhəmətli, Rəhmli Allahın adı ilə! Həmd olsun Allaha – aləmlərin Rəbbinə. Mərhəmətli, Rəhmli olana. Din gününün sahibinə. Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən Yardım diləyirik. Bizi doğru yola yönəlt. Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və azmışların yox.*

*Amin. Amin. Amin.*

Muhammədə peyğəmbərə və onun ailəsinə, dostlarına Salam olsun. Salam olsun bütün Peyğəmbərlərə. Salam olsun Kainatımıza. Salam olsun əs - Salama təslim olanlara. Allahım, bizlərin də üzərindən salamını, rəhmətini, bərəkətini əsirgəmə. Həmd olsun Sənə, Uca Rəbbimiz.

*AMİN, AMİN, AMİN*

Xaliqi – Kainat halbuki bir...
İştə Quran və Kəbə həp birdir.
Əhli – İslama həp bu birliyi biz
Nəşrü isbata qeyrət etməliyiz.

Hüseyn Cavid

Ramazan düşüncələri. Allahın ayələrində düşünənlər üçün ibrətlər vardır. Ağıl neməti Rəbbimizin yaratdığı ən sevimli bir varlıqdır və sevərək yaratdığı bu neməti Rəbbimiz yalnız sevdiklərinə lütf etmişdir. Insan Allahın sevdiyi, sevərək var etdiyi, yer üzünün Xəlifi təyin etdiyi bir varlıq. Və ağıl nemətilə şərəfləndirilən İnsanın borcudur düşünmək, təfəkkür etmək. Təfəkkür edən Rəbbinə yol alacaq. **Oxu**maq üçün var edilən İnsan Yaradanın ayələrini oxuduqca Ona Yaxınlaşacaq. Və **Sübhanəllah** deyərək Onun qarşısında səcdəyə gedəcək. Deməli, Onun adı ilə **OXU** insanı İnsan olmağa götürəcək.

Ramazan...Ramazan Quranımızın doğum ayıdır. Ramazan göylərin qapılarının daim açıq olduğu bir qapıdır. Ramazan sevərək yaradan Allahın sevdiyi qullarına ucu – bucağı olmayan

lütfüdür. Ramazan xəzinəsi, sevgisi, lütfü, mərhəməti geniş olan Allahın sevdiyi qulları ilə görüş məqamıdır. Ramazan vəhy ayıdır. Qəlbimizi vəhy üzərində kökləyək.

Bu kitab bir Ramazan ayında doğulan düşüncələrimin sizinlə paylaşılmasıdır. Çünki, mənim dinim paylaşanların dinidir. Sahib olduğumuz şeylərdən Allah yolunda paylaşmaq, bölüşmək. İstər maddi, istər mənəvi. Və mən də bu kitabla düşüncələrimi sizinlə paylaşıram. Və bu fürsəti mənə lütf edən Allaha həmd edirəm. Həmd olsun bizə düşünmək, Onu tanımaq neməti bəxş edən mərhəmətli Allahımıza. Zatən ondan başqa tərifəlayiq kimsə yox.

Bütün varliq alıəminin bir Kitab olduğunu öyrəndim. Nədir varlıq? Hər bir var olan bir Kitabdır. Nədən Kitabdır? Çünki, hər bir yaradılmışın bir yaradılma, var olma səbəbi vardır. Hər bir yaradılmış oxunmaq üçün yaradılmışdır. İnsan isə həm oxuyan, həm də oxunulan bir Kitabdır. Kitablar hər oxuyana öz müəllifini tanıdır. Allahın ayələri Allahı tanıtmaq üçün var edilmişdir. Allahı tanımaq özü-özlüyündə bir ibadətdir. Bu səbəbdəndir ki, Allah İnsanları və cinləri ibadət etmək üçün yaratdım - deyə bildirməktədir. *Abd* olmaq şərəfinə yiyələnən İnsanın da dəyəri vəzifəsini nə dərəcədə icra etməsindən asılıdır. Bunları təfəkkür edərək, bizlər də Allaha layiqli qul ola bilmək üçün vəzifəmizə sarılmağa cəhd etdik. Allahın cəhd edənlərə yardımına güvənərək Onun yolunda Onun dinini layiqincə yaşaya bilmək və bu işdə başqalarına da faydalı ola bilmək niyyəti ilə bu işə girişdik. Və hər bir kəsi Yaradanın Varlıq Kitabını oxumağa çağırırıq. Allahın adı ilə başlayan Oxu Ona səcdə ilə davam etməkdədir. Ona səcdə isə bütün dünyalarda xoşbəxtliyin qarantıdır. Bu xoşbəxtliyi dadan kimsə, yəni Ona səcdə, təvəkkül, təslim, ibadət, itaət xoşbəxtliynə varan hər kəs ətrafındakıları da bu neməti dadmağa çağırır. Müsəlman adını qazanaraq salam daşıyıcısı olan hər fərd Allah yolunda, Allah dinində faydalı olmağa can atır. Mahiyyətində *salam* daşıyan Müsəlmanın missiyası faydalı olmaqdır. Ən böyük fayda da Yaradandan ayrı düşmüş ruhlara Allaha aparan yolları göstərməktədir. Faydalı ola bilməyin bir nemət olduğu düşüncəsində olaraq, sizlərin də ruhunuzun, qəlbinizin Uca Varlıqla nurlanmasına bir vəsilə olmaqla fayda nemətindən pay almağa sevinərik.

Amma, nədənsə insanlar Allah üçün var olmağa çalışan *salam* daşıyıcılarını öz dünyalarına, öz aləmlərinə qapanmaqla suçlayırlar. Çox maraqlıdır, sevdiyinin sevdiklərini sevməkdənsə insan eqoistlik edərək, xoşbəxtlik yolunu tapmış birinin dünyasına qalxmaqdansa, qarşılarındakını öz aləmlərinə dəvət edirlir. Allah üçün yaşamağa çalışan biri üçün isə həqiqi aləm yalnız Fatihədə bildirilən nemət yolu olan Məlik Allaha məxsus yoldur.

Bizlər yalnız cəhd etdik. Şərəfli İnsan ola bilməyin gözəlliyini, xoşbəxtliyini çatdırmağa cəhd etdik. Təbii ki, qüsurlarımız mövcuddur. Çünki, biz adi insanlarıq. Qüsursuz olan yalnız Uca Allahdır. Biz Allahın yolunda yürüməyi öyrənməyə və öyrətməyə cəhd edən, Şərəfli İnsan ola bilməyi gecə - gündüz Rəbbimizdən diləyən Adəm övladlarından biriyik. Biz öyrənib, öyrətmək və faydalı ola bilmək niyyəti ilə yaşayan Adəm övladlarıyıq. Allaha layiqli qul olmaq

ən böyük məqsədimizdir. Quranı yaşamaq duamızdır. Quranı öyrənmək və öyrətmək dünya yolumuzdur.

***"And olsun Zamana (əsrə) İnsan ziyan içindədir. Yalnız imanı gətirən, saleh əməlləri edən, bir - birinə haqqı və səbri tövsiyə edənlərdən başqa.***" (ƏSR surəsi)

Biz ziyan içində olmaqdan Rəbbimizə sığınırıq.

***Bismillahir Rahmənir Rahim. Əlhəmdulilləhi Rabbil aləmin. Ərrahmənir Rahim. Məliki yevmiddin. İyyakə Nəbudu va İyyakə nəstəin İhdinə sıratəl mustaqin. Sıratəllələzinə ənamtə aleyhim ğeyril mağdubi aleyhim va la-d-dallin.***

Amin.

*Bismillahir Rahmənir Rahim. Mərhəmətli, Rəhmli Allahın adı ilə! Həmd olsun Allaha – aləmlərin Rəbbinə. Mərhəmətli, Rəhmli olana. Din gününün sahibinə. Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən Yardım diləyirik. Bizi doğru yola yönəlt. Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və azmışların yox.*

*Amin. Amin. Amin.*

*Qeyd*: Yazılar Ramazan ayında yazıldığı üçün əsasən Ramazan ayının fəzilətli, gözəl əməllərinə çağırışlarla zəngindir. Bəzi məqalələrdə çağırışları olduğu kimi saxlamışıq.

Məqalələrin bir şəxsin ünvanına, təfəkkürünə yönəlməsi yanlışdır. Hər kəs qaynağını Vahid Güc, Elm mənbəyi olan Allahdan alır. Məqalələrdə müəyyən tərcümələrin varlığı ilə yanaşı, bizlərin də Allaha aparan yollarındakı informasiyalar yer almışdır. Əs-Salama təslim olan hər salam daşıyıcısının həqiqi məqsədi yalnız Allahın vahid dininə xidmət etməkdir. (*Allah yanında din əlbəttə islamdır; Ali –İmran, 19)*

Din - yoldur, məqsəddir, yaşam tərzidir, təfəkkür, düşüncə formasıdır. Din Yaradana tərəf aparan yoldur. Yaradan həm də Özünə tərəf aparan yolun Sahibi, hamisidir. Din bizim yolumuzdur. **Rəbbimizin təqdir etdiyi din** bizim yolumuzdur.

*Ey dinin Sahibi, bizi doğru dinə yönəlt. Bizi nemət verdiyin kimsələrin dininə yönəlt.*

*Allahım, Sənə yaxınlaşmaq üçün etdiyimiz bu xeyirli işi bizdən qəbul et. Bizləri də salamından, rəhmətindən, bərəkətindən məhrum etmə. Sənə təslim olanlara nurundan pay ver.*

**Əs –səlamu aleykum**
**Üzərimizə salam olsun**

*"İman gətirməmiş Cənnətə düşməzsiniz,*
*bir-birinizi sevməmiş isə iman gətirə bilməzsiniz.*
*Mən sizə bir şey deyəcəyəm, onu etsəniz, bir-birinizi sevərsiniz:*
*aranızda* ***salam*** *vermək adətini yayın!"*
Məhəmməd peyğəmbər(sas)

Salam, təslim, islam, müsəlman eyni köklü sözlərdir, mənşəyi eyni, mahiyyəti eyni, yolu eyni. Nədən görüşdüyümüz bütün insanlara salam deyirik? Nədən bu an ilk sözümüz salam olur. Salam barədə heç düşündükmü? Salam da hər bir var olmuş kimi Allahın ayəsidir. Allah buyurur: "Mənim ayələrim düşünənlər üçündür" Biz də dua edək. *"Ya Rəbbimiz, Sən öyrədənsən, Sən yönləndirənsən, bizə Salamı öyrət. Ya Rəbbim, Salam Sənin adlarından biridir. Əs- Salamı bizə tanıt. Bizə salam ehsan eylə. Ey mülkün sahibi olan Allah! Sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən. Salam Allahım, bizləri də salamından məhrum etmə!"*

Salam Allahın adlarından biridir. Salam duadır. Salam İslamdır. Salam dəvətdir. Salam hər təhlükədən salamatlığa çıxarandır. Salam həyatdır. Salam başlanğıcdır. Həyatın, sevginin, var oluşun başlanğıcıdır Salam. *Salam Allah "ol" dedi, hər şey səlamətlə olmağa başladı və salam olmaqda davam edir.* Salam...

Hər an, hər nəfəsinizdə salamda, səlamatlıqda, sülhdə, əminlikdə olmaq istəməzmisiniz?! Elə isə.. ***"Ey iman gətirənlər, tamamilə salama gəlin, şeytanın yolu ilə getməyin. O sizin açıq düşməninizdir.*** (Bəqərə, 208) Bu ayə bizə nəyi anladır? Bəlkə, bu ayə bizə salamı yaşaya bilməyən Allaha tərəf gedən yolda yürüyə bilməz deyə işarə edir?! Seçim üçün iki yol olduğu təqdirdə demək, Allahın salam yolunda olmayan birisi salamdan uzaq şeytanın yolundadır?! Əs-Salam olan Allahın salam yolu və insanın düşməni olan salamdan uzaq şeytanın yolu. Şeytan isə Allahı anmaz, salama – sülhə gəlməz. Kimsəyə də salam söyləməz, salam olsun, deyə dua etməz. Çünki o yalnız vəsvəsə verə və ixtişaş törədə bilər. Salamsa sülhdür, sülhə aparan sülh yoludur.

Hər anınızı salam halında olmaq istəyirsinizsə bizləri yaradan, qulaq, göz, qəlb verən, yedizdirən, şah damarımızdan da yaxın olan, ixtiyarımıza sayıb qurtara bilməyəcəyimiz nemətlər verən Allahımıza təslim olaq. Ona təslim olmaq tamamilə salamda yaşamaq deməkdir. Ona təslim olmaq hökmlərinə səbr etməkdir, əmrlərinə itaət etməkdir. Onun əmrləri salama aparır. Onun əmrlərinə təslim olanların yolunun adı islamdır. Hər şeyin İxtiyar Sahibinə,Yaradanına təslim olub

islam yolunda yürüyənlərin adı müsəlmandır. Deməк, müsəlman salam daşıyıcısıdır. Əlindən, dilindən kimsəyə zərər toxunmayan, tam əksinə salamı yaşayan və salamla paylaşanlardır.

Tamamilə salama gəlin, yəni içinizdə kin-küdurət saxlamadan Allahı anın. Salama gəlin, islama gəlin – təslim olun. Salam verin, sizə verilən salamları da layiqiylə alın. ***"Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya eynilə sahibinə qaytarın! Şübhəsiz, Allah hər şeyi hesaba alandır"*** (Nisə, 86) Salam verə bilən və onu layiqiylə alanlar kimlərdir? *"Rəhmanın bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə gəzər, cahillər onlara söz atdıqları zaman salam deyərlər"* (Furqan, 63) " Salam verdim, rüşvət deyil deyə almadılar" deyir dahi Fizuli. Füzuli qarşısındakını Əs-Salama təslim olan Salam insanı bilib, ona salam verib, Allahı anmağa, adını zikr etməyə çağırıb, ona sələmətdə, sülhdə, əminlikdə olmağa dua edib. Qarşısındakı isə Salama maddiyyat kimi baxıb. Onu görə bilmədiyi, edilən duanın qiymətinndən xəbərsiz olduğu üçün anlamayıb, yeyə bilmədiyi üçün, pul –para olmadığı üçün almayıb. Salamın həyat verənin adı olduğunu unudub. Salamı unudubsa, Allahı unudub deməк. Çünki, yalnız salamı yaşayan kəs salam daşıyıcısıdır.

**"...Evlərinizə daxil olduğunuz zaman özünüzü Allah dərgahından bərəkət və xoşluq diləyən bir salamla salamlayın. Allah ayələri sizə belə izah edir ki, düşünüb daşınasınız" (Nur, 61**) Düşünək, Salamı yaşayaq, salamla paylaşaq, salama layiq olaq. Elə isə salama tələsək. *"Siz Allahı anın ki, O da sizi daha gözəl məkanında ansın"*

Biz sizi salama – sülhə, təslimiyyata çağırırıq. Sizə Salam olsun. Çünki, Cənnətdə Allah ən çox sevdiklərinə salam verəcək. Bizi Cənnətdə qarşılayan Allahın bizlərə ilk sözü Salam olacaq. "İman gətirib yaxşı işlər görənlər altında çaylar axan Cənnətlərə daxil ediləcəklər. Onlar Rəbbinin izni iə orada əbədi qalacaqlar. Onların orada bir- birinə gözaydınlıq verməsi "*Salam*" olacaqdır" (İbrahim, 23)

*Dünyamıza Salam olsun. Peyğəmbərlərə salam olsun. əs-Salama təslim olanlara salam olsun. Bütün müsəlmanlara Salam olsun. Salam olsun Sizə. Salam olsun Bizə. Salam olsun Millətimizə.*

Rəbbindən qorxanlar da dəstə - dəstə Cənnətə girəcəklər. Nəhayət, ora çatınca qapıları açılacaq və gözətçiləri "**əs-Səlamu aleykum!** Xoş gəldiniz! Əbədi qalacağınız Cənnətə daxil olun!"-deyəcəklər.Onlar isə: "Bizə verdiyi vədini yerinə yetirmiş və bizi bu yerə varis etmiş Allaha həmd olsun! Biz Cənnətin istədiyimiz yerində sakin oluruq. Yaxşı əməllər edənlərin mükafatı necə də gözəldir!" - deyəcəklər. *(Zumər (zümrələr) surəsi,73,74)*

Onlar etdikləri əməllər müqabilində nail olacaqlar. Onlar orada nə boş söz, nə də günaha bais olan bir şey eşidəcəklər, eşitdikləri söz ancaq **Salam** olacaqdır. (əl- Vaqiə surəsi,24,25,26)

Sizi zülmətdən nura çıxartmaq üçün mələkləri ilə birlikdə sizə mərhəmət bəxş edən O-dur.Allah möminlərə rəhm edəndir. Ona qovuşacaqları gün xeyir-duaları "**Salam**"dır. Onlar üçün çox qiymətli mükafat hazırlamışdır. *(Əhzab surəsi,43,44)*

Rəhmanın öz bəndələrinə vəd etdiyi və onların görmədiyi Ədn cənnətlərinə.Onun vədi mütləq yerinə yetəcəkdir. Onlar orada boş (lağlağı) söhbətlər deyil, ancaq "**Salam**" eşidərlər. Ruziləri də səhər-axşam oradadır. *(Məryəm surəsi,61,62)*

Və o kəslər ki, Rəbbinin razılığını qazanmaq üçün səbr edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir, pisliyin qarşısını yaxşılıq etməklə alırlar - məhz onları axirət yurdu - özlərinin, həmçinin əməlisaleh ataları, övrətləri və övladlarının daxil olacaqları Ədn cənnətləri gözləyir.Mələklər də hər bir qapıdan daxil olub-"səbr etdiyinizə görə sizə **Salam** olsun! Axirət yurdu nə gözəldir!"- deyəcəklər. *(Rad (göy gurultusu)surəsi,22-24)*

İman gətirib yaxşı iş görənləri Rəbbi iman gətirdiklərinə görə hidayətə qovuşdurar. Nəim cənnətlərində onların altından çaylar axar. Onların oradakı duası: " Pərvərdigara! Sən paksan, müqəddəssən!!", orada salamlaşması: "**Salam!**", duası: "**Həmd olsun aləmlərin Rəbbi Allaha!**" sözləridir. *(Yunus surəsi,9,10)*

***

Siz **təslim (salam,islam,müsəlman)** oldunuzmu?! Əgər ***təslim (salam,islam,müsəlman)*** olarlarsa, doğru yola yönəlmiş olarlar, yox, əgər üz döndərərlərsə, sənin vəzifən ancaq dəvət etməkdir. Allah şübhəsiz ki, bəndələrini görəndir.*( Ali – İmran surəsi,20)*

## RAMAZANLA YENİLƏŞƏK.

Dünyada hərəkət halında olan hər yaradılmışın zaman - zaman yenilənməyə, təzələnməyə və sanki həyata yenidən başlayırmış kimi dincəlməyə, sakitləşməyə ehtiyacı vardır. Çünki sürətlə axıb gedən zaman durğunlaşmağa, monotonlaşmaya səbəb olur. Zamanın sürətlə axmasının fərqində olmayan və bu zamandan fayda götürə bilməyən insan ziyan içindədir... **İnsan ziyan içindədir**... Bu səbəbdən də Bizləri yaradan, Sevən, bizi bizdən də gözəl tanıyan Rəbbimiz nemət olan zamanın fərqinə varmağa və silkinib təmizlənməyə yardım edə biləcək, bir sözlə İnsanın zamana məğlub olmasını deyil, qalib olmasını istəyən Yaradan xüsusi yollar və dönəmlər var etmişdir. İnsan zamana, deyil **zaman Insana xidmət üçündü**r... Zaman insana xidmət üçündür... Bizləri Yaradan və doğru yola Yönəldən Allah gündəlik həyatımızda təmizlənmək üçün beş vaxt namaz kimi bir nemət nəsib etmiş... Gündəlık həyatında durmadan təmizlənənlər — nə xoşbəxtdirlər... Cümə günü... Həftədə bir dəfə səninlə eyni səmtə baxanlarla, eyni məqsəd və amala can atanlarla, bizimlə eyni yolu paylaşanlarla bir yerdə, bir arada, cəm şəklində silkinmək, təmizlənmək, dirçəlmək... Cümə günü nə gözəl vəsilə... Bəs... Aylar içində sultan kimdir? Ramazan ayı - hər müsəlmanın böyük eşq və şövqlə, ümidlərlə gözlədiyi Ramazan ayı...

Ramazan ayı, sən gəldin... Sən gəldin... Ramazan ayımız... Yaradan, yoxdan var edən ALLAH sevdiyi qulları üçün RAMAZAN ayını xüsusi olaraq seçmiş, Ona 11 ayın sultanı statusunu vermişdir. Ramazan ayı illik təmizlənməyə, ruhun, cismin bir il içində tutduğu kirlərdən, paslardan təmizlənməsi üçün bir vəsilə... İl ərzində qazana bilmədiklərimizi qazanmaq üçün daha bir fürsət...

Xüsusi olaraq seçilən Ramazan ayının böyük hörmətə layiq olmasının səbəblərindən biri də yaradılmışlara xoşbəxtliyə yol göstərən, qaranlıqlara aydınlıq gətirən xilaskar, İnsan ruhunun və cisminin şəfası...- yol göstərən, xilaskar,- şəfa – Qurani – Kərimin məhz bu ayda endirilməsidir... Ramazan ayı... Sən nə böyük sultansan! Möminlərin məhz bu ayda bütün nəfsani paslardan arınaraq din və imanlarında təzələnmələri, ruh və cismlə bir vəhdətə gəlmələri, sanki yeni bir diriliş yaşamaları üçün bu aya xüsusi bir ibadət qoyulmuşdur...

Xüsusi bir ibadət... Ramazan ayı... Quran... Oruc...

Oruc, iman və ixlasda səmimiyyəti dirçəldən müstəsna bir ibadətdir. Çünki, oruc tamamən Allahla qul arasında bir ibadətdir...Sevən və sevilən iki sevgili arasında həqiqi sevgi göstərişidir. Qulunun savabını da Allah özü verəcək. Onu həqiqətən sevdiyindən dolayı aşiqinə də sevgi cavabını Vədud olan—yəni çox Sevən və Sevilən Allah özü verəcək.

Oruc Allah və axirət inamı məsələsində də səmimiyyətin göstəricisidir. Axirətə, qiyamətə iman və inam mövzusunda bir sıra tərəddüdləri olanlar dünyəvi hesablar naminə digər ibadətləri yeinə yetirə bilirlər. Amma oruc yalnız və yalnız Allahla qul arasında olduğundan bu ibadət sırf Allah üçün, savabını isə axirətdə Allahdan gözləyərək, umaraq yerinə yetirilir.

Oruc bir əzmlilik və iradə tərbiyəsidir. Oruc ibadətilə nemətlər içində olmasına baxmayaraq müəyyən bir zaman çərçivəsində onlardan istifadə etməməklə Allaha itaətində nə qədər qərarlı ola biləcəyini, iradəsinə nə dərəcədə hakim ola biləcəyi qabiliyyətini göstərmiş olur insan.

Ramazan orucu imanın çiçəyidir...

Orucun önəmli hikmətlərindən biri də aclıq və çətinlik içərisində olan Müsəlmanların sıxıntıları ilə yaşamaq, onların dərdlərini anlaya bilməkdir. Yenidən oyanmağa çağıran bu hikmətin özəyində ümmət anlayışı yerləşməkdədir. Vahid Muhamməd ümməti. Adəmin övladları, Yaradan və doğru yola Yönəldən Allahın bacı və qardaşlar deyə vəsf etdiyi müsəlmanlar tək bir ümmət edilmişdir. Allah qardaşlarımızın, bacılarımızın dərdləri ilə dərdlənməyimizi istəmişdir.

Oruc bir yeniləşmə, iman təzələnməsi, nəfs tərbiyəsi, iman qardaşlığı, vəhdət, ümmət anlayışlarını iliklərimizə qədər hissetmə cəhdidir. Oruc cəhddir!!!

İmanları təzələməyin vaxtı çatmışdır. Yaradan, doğru yola yönəldən Allah imanımızı ayaqda tuta bilmək, gücləndirmək üçün çeşidli qaynaqlar var etmişdir. İlk qaynaq, ən ümdə qaynaq, qaynaqlar qaynağı Kərim olan Qurandır. Ucalardan uca Allahımız Kərim olan Quranı elə yol göstərən mayak olan Quranın içində belə tanıtmışdır, anlatmışdır: Hidayət, Nur, Rəhmət, öyüt-nəsihət, zikr, qəlblərdə olan üçün bir şəfa, ən doğru yola götürən, düşünənlər üçün ibrət. Şəfa və Kərim olan Quranın üzərində düşünərək oxumaq və dinləmək insanın imanını artırır. Yüksək Şərəf sahibi olan Ramazan da imanlarımızı təzələməmiz üçün gözəl vəsilədir. Cənnət qapılarının açıldığı bu ayda ruh üçün böyük nemətlər mövcuddur.

Tələsin... Ramazan ayı xeyir bərəkət ayıdır. İlin bütün aylarının ən xeyirlisi olan Ramazan ayında olunan yaxşılıqların qarşılığı qat-qat artıqlaması ilə verilir. Tələsin... Bu ay hər il böyük bərəkət və xeyirlərlə gəlir... Tələsin... Ramazan ayı saleh əməllərimizi və xeyirlərimizi artıra bilmək üçün Yaradan tərəfindən nəsib edilmiş bir fürsətdir. Tələsin... Bu fürsəti layiqincə dəyərləndirərək, bu ayda saleh əməllərini, gözəllikləri artıranlar, xeyirlərini artıranlar mütləq və mütləq Ramazanın gətirdiyi xeyir və bərəkətlərdən də daha çox yararlanmış olacaqlar!!! Necə ki, nümunəvi İnsan olan Allah Rəsulunun müjdələdiyi kimi rəhmət, məğfirət və cəhənnəmdən xilas olmaq mükafatına nail olacaqlar. Tələsin... Allahın firqəsi olmağa, onun Rəsulunun yanında yer tutmağa, Allahın sevimli qulunun şəfaətinə nail olmağa tələsin. Bu ay Allahı sevənlərin, ona

can atanların ayıdır. Vədud Allahın sevgisinə can atmağa, Onun rəhməti və bərəkəti altında kölgələnməyə tələsin...

Uca şərəfə nail olmuş Ramazan ayında gecələr içində ən önəmli, ən xeyirli gecə var. Qədr gecəsi... Qədr gecəsini yaxalamağa tələsin, Qədr gecəsini yaşamağa can atın... Tələsin... Yaradan Allah sevdiyi, rəhmətini əsirgəmədiyi qulları üçün bu ayda rəhmətinin qapılarını açır. Tələsin... Ramazan ayına... Ramazan orucuna...

Allahın sevimli qulu nə gözəl müjdə verir. Bu ayı oruc tutaraq, ibadət edərək və xeyir üçün xərcləməklə yaşayanlar nə xoşbəxtdirlər... Tələsin... Xoşbəxtliyə tələsin...

Allahın sevimli qulu və elçisi bizləri nə gözəl öyrətmişdir: *Ramazanın ilk gecəsindən etibarən şeytan və cinlərin azğınları zəncirə vurulur. Cəhənnəmin qapıları bağlanır, artıq Ramazanın sonuna qədər Cəhənnəmin heç bir qapısı açılmaz. Cənnətin qapıları açılır. Və artıq Ramazanın sonuna qədər heç bir qapısı bağlanmaz... Bir çağırış səslənir: Ey xeyirdə önə keçən sən gəl! Ey pislikdə irəli gedən sən dur! Allahın o zaman Cəhənnəmdən azad edilən qulları vardır. Bu hər gecə belə olur.*

Tələsin... Xeyirdə, gözəllikdə yarışmağa tələsin.

Ramazan ayı comərdlik, xeyir üçün xərcləmək, paylamaq, ehsan ayıdır. Ehsan gözəllik deməkdir. Ramazan ayı Allahın əxlaqı ilə əxlanmaq zamanıdır. Allah Vəhhabdır - yəni bəxşiş verəndir, paylayandır, xəzinəsi genişdir. Nümunəvi Insan olan Allahın Həbibi Rasulumuz Muhamməd (s.a.s) xeyir yolunda insanların ən comərdi idi. Ən çox da vəhy mələyi Cəbrayıl (a.s)ın onu tez - tez ziyarət etdiyi Ramazan ayında paylayardı. Tələsin... Ey Muhamməmdi sevib onun arxasından gedənlər... Tələsin... Ramazan ayı fürsətini yaxalamağa tələsin, bütün bir ömrə dəyəcək Qədr gecəsini yaxalamağa cəhd edin... Rasuldən ibrət götürməyə tələsin... Qədr gecəsinin qədrini bilin. Hər zaman Qədr gecəsi axtarışında olun.

Ramazan ayı fürsətdir. İnsanın günahlardan arınaraq, təmizlənərək bayrama bağışlanmış, rahat bir şəkildə girə bilməsi üçün bir fürsətdir. Bayrama təmizlənərək, yeniləşərək gəlməyin yolu - Bizə şah damarımızdan da yaxın olan Allaha ixlasla, səmimi şəkildə ibadət etmək, sırf Rəbbimizin rizasını, razılığını düşünərək oruc tutmaq və Yol göstərən Allahın bizlər üçün sevib seçdiyi Rasulunun yolunu tutaraq çətinlikdə, darda, müsibətdə olan Muhamməd ümməti üçün bütün anlamlarda sədəqələr vermək... Necə yardımlaşacağıq? Rasulun öyrətdiyi kimi... əlimiz, dilimiz, qəlbimizlə. Möminin başqa bir möminin halından pərişan olması, ona yardımın yollarını düşünməsi, ən azından onu xatırlaması duaya keçə bilər... Bu gün dünya barıt dolu çəlləyi xatırladır. Biganəlik edərək qaçmağa, üz çevirməyə yerimiz və haqqımız yoxdur. Dünyanın alov - alov yandığı bir zaman və Rəhmət, məğfirət, xilas zamanı Ramazan ayı... Tələsin, yardımlaşmağa, dualaşmağa tələsin... Tələsin...Hər zaman Ramazan yaşamağa tələsin. Hər ayınızı Ramazan edə bilmək şansınızın olduğunu unutmayın.

Rasulallahın buyurduğu kimi bir xurmanın yarısı ilə də olsa atəşdən qorunun...

Ey azərbaycanlı müsəlman bacı və qardaşlarım, Ramazan ayınız mübarək olsun. Xeyirlərə vəsilə olsun.

*Ya Rabbim, Ramazan ayımızı layiqli şəkildə yaşamağımıza yardım et. Ya Rabbim, biz niyyət etdik Sənin rizan üçün Ramazan ayını oruc tutmağa. Allahım, Ramazanımızı, Ramazanlarımızı qaranlıqdan aydınğa çıxmağımıza bir vəsilə et...*

*Allahım, bizi təmizlə, bir ömrə bərabər Qədr gecəsini yaxalamağı bizə nəsib et! Allahım, Kərim və Şəfa olan Quranımızın nurundan, şəfasından bizi məhrum etmə! Sən duaları qəbul edən Mucib Allahsan, dualarımızı qəbul eylə, ibadətimizi qəbul eylə. Həmd olsun Sənə ya Rəbbimiz... Sevgili qulun Muhamməda və onun ailəsinə salam olsun. Salam olsun bütün müsəlmanlara, Salam olsun dünyamıza.*

*AMİN*

## On bir ayın sultanı.

Bütün ötən günlər ömür təqvimindən düşən yarpaqlara bənzəyirsə, Ramazan ayının mübarək günlərindən ötən hər gün, hər saniyə, hər an belə, daha dəyərli olduğu üçün itkisi də daha ağrılı olur. Ömürdən necə Ramazanlar getmiş... *Allahım, daha gözəl və daha bərəkətli Ramazan günləri yaşat bizlərə. Ramazanın gecələri kimi, gündüzlərinin də qədrini öyrət bizə. Allahım, hər günümüzü Ramazan günləri kimi bərəkətli et. İki günü eyni olan artıq itkidədir, deyə müəllimimiz bizi öyrədib. İtkidən Sənə sığınırıq, Allahım.*

Nədir oruc? Nədir Ramazan?... Oruc könül gövhəri olan qəlbimizi Ramazanın aclıq və susuzluq atəşində yandıraraq paslardan təmizlənməsidir...Pas atmış dəmiri odda yandırmadan təmizləmək mümkünmü?

Ərəb dilində Ramazan kəlməsi rəmd kökündən qaynaqlanmışdır. Günəşin yandıran istiliyi anlamını verir. Oruc ayına bu adın verilməsi də atəşin hər hansı bir şeyi yandırıb bitirdiyi kimi orucun da insanların günahlarını yandırıb yox etməsində gizlənmişdir...

Uca Yaradan orucun önəmini Bəqərə surəsindəki 183–cü kərim ayəsi ilə bildirməkdədir:

***"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, pisliklərdən çəkinəsiniz!"***

Bizi doğru yola yönəldən, xoşbəxtlik açarını bizə təqdim edən Rabbimiz bu ayəsi ilə orucun ana qayəsini açıq göstərir. Oruc... Pisliklərdən çəkinmək... Yəni, təqva... yəni, təmizlənərək ucalmaq... təqva - nəfs tərbiyəsilə qazanılan üstün bir keyfiyyət... Ən üstün əxlaqi dəyərləri özündə toplayan dəyər. Əxlaq xilqətdir... xilqət əxlaqdır... Xilqət Yaradanın səni yaratdığı fitrətdir. Yaradılış məqsədinə uyğun olan əxlaqidir. Fitrəti təmiz saxlamaq ruhun təmiz saxlanmasıdır. Ruh üflənəndir, pakdır, paklığı sevir, nurdur, sahibinə dönəcək... Pak olan pak olana qovuşa biləcək...Oruc yandırıb təmizləyən ayda paslardan, dünya çirkablarından təmizlənərək, ruha paklığını qaytarmaq cəhdidir. Oruc cəhddir... cəhd etmək- cihad etməkdir... Demək, Təqva cihadla əldə olunur... Cihad vicdanın arınmasıdır...Cihad mücadilədir... Mücadilə iç savaşıdır. Savaş pisliklərdən qaçmaq, eybəcərliklə döyüşmək, gözəlliyə can atmaqdır... Gözəlliyi yaşayan gözəlliyə çağıracaq, gözəlliyi əmr edəcək... Gözəllik fitrətdədir. Yaradan gözəldir, gözəlliyi sevir... Yaratdıqları da gözəldir... Yaratdıqlarından da gözəllik tələb edir, gözəlliyə can atmağı, gözəlliyi yaşamağı, gözəlliyə çağırmağı tələb edir. Gözəl fitrətə, gözəl xilqətə sahib olanın gözəl əxlaqı olmalı. Gözəl əxlaq üstün əxlaqdır... Üstün əxlaq təqvadır... Təqva səni sevən, sənə yardım edən, səni gözəlliyə çağıran Uca Yaradanın qadağan etdiyi hər şeydən çəkinməkdir... Təqva - sənə şah damarından da yaxın olan, gizlinin gizlisini bilən və səni başı- boş buraxmayan, hər əməlini, düşüncəni, niyyətini dəftərinə qeyd etdirən

Allahın əmr etdiyi hər şeyi sevgiylə yerinə yetirməkdir... Təqva - sevərək Yaradana qeyd-şərtsiz təslim olmaqdır... Təqva iki sevgilini görüşdürəcək yoldur... Təqva səmimiyyətdir... Təqva iman və inam dəbilqəsiylə zirehlənərək, qorunaraq hər düşüncədə, niyyətdə yalnız Uca sahibini, Mövlasını düşünərək imtahanlarla, tələlərlə, düşmənlərlə dolu dünya həyatı yolunda büdrəmədən, yaralanmadan yürüyə bilməkdir. Təqva səni Yaradanına qovuşduracaq...

" ***Bİz Allaha məxsusuq və Onun yanına qayıdacağıq"*** ( əl-Bəqərə, 156)

*Ya Rabbim, Sənə Sənin razı qalacağın şəkildə qayıda bilməyi nəsib et...*

*Amin...*

Oruc insana təqvanı qazandıran önəmli bir nəfs tərbiyəsidir. Təqva da insana təmiz qəlb, ayıq qəlb, səlim qəlb qazandırır... Təqvaya aparan yol nəfsin tərbiyəsindən keçir... Nəfsini tərbiyə edə bilən qəlbini də Allahın yardımı ilə nəfsin şərindən qoruya biləcək... Ayıq qəlb Yaradanın razılığını qazanmağa bir vəsilədir. Mömінin qəlbi Allahın evidir. Gözəllik olan yerdə pisliyə yer yoxdur. Pisliyin daxil olduğu yeri gözəllik tərk edər. Təqva qəlbin ayıq qalmağının, qəlbin təmiz qalmasının qarantıdır. Təqva qəlbin pozularaq günaha yönəlməsini əngəlləyən vasitədir. İmtahanlarla dolu gündəlik dünya həyatı, insanlarla qarşılıqlı münasibətlərdəki əlaqələr, qarşılaşdığımız çətinliklər, yaranan seçimlər, bəzən insanda paslanmağa, kirlənməyə, bir sözlə təqvanın qismən də olsa zədələnməsinə səbəb olur. Yaratdığını gözəl tanıyan Rəbb onu heç bir zaman rəhmətindən məhrum etmir. Bu səbəbdən də Insanın düşmənini zəncirə vuraraq qulunun təmizlənmək, Ona yaxınlaşa bilməsi üçün rəhmət ayı olan Ramazan ayı kimi bir yardımçı vermişdir. İldə bir dəfə ümmət olaraq cəm şəkildə tutulan oruc sayəsində bu zədələnmə təmir olunmuş olur. Zərərə məruz qalmış yerlər yenilənir. Həmd olsun bizləri sevən, lütfü ilə tərbiyə edən, mərhəmətindən əksik etməyən aləmlərin Rəbbi Allaha...

Beləliklə, Yaradanın rəhməti və sevgisi ilə qul təqvanın yenidən qəlbi zəbt edərək işığa, nura, qərq edə bilməsi üçün çalışır, cəhd edir, nəfsi ilə cihad edir... Qəlbin də, ruhun da qidası Nurdur, gözəllikdir.

Amma əfsuslar olsun ki, Allah qorusun elə qullar olur ki, Ramazan ayından onların nəsibi aclıq və susuzluqdan başqa bir şey olmur.

*Ya Rəbb sənə sığınırıq! On bir ayın sultanı olan Ramazan ayında gözəlləşə bilməməkdən sənə sığınırıq!*

*Sən Rəbbsən, lütfünlə bizi tərbiyələndir, nurunla nurlandır, gözəlliyinlə qəlbimizi gözəlliyə qərq et.*

Pak söz pak əməllə Allaha tərəf yüksəlir. Pak sözü qəbul edən İnsan, sözünün Allaha tərəf yüksəlməsi üçün pak əmələ ehtiyacın var... Nümunələr nümunəsi Rasulumuz qəlbi, cismi təmizləyərək ruhu rahatlandıran orucun fəziləti haqda nələr öyrətməmişdir...

Adəm oğlunun hər əməlinə on qatdan yeddi yüz qata qədər savab verilir. Ancaq Allah (c.c) belə buyurur: *“Oruc bunun xaricindədir. O, mənim üçündür və onun savabını da ancaq mən verirəm. Qulum mənim üçün şəhvəti, arzusunu və yeməyini tərk etməkdədir. Oruclu üçün iki rahatlama vardır. Bir rahatlama orucunu açdığı zaman, bir rahatlama da Rabbinə qovuşduğu sıradadır. Şübhəsiz oruclunun ağız qoxusu Allah qatında misk ətrindən daha xoşdur...*

Uca Allah buyurur: *Adəm oğlunun hər əməli özü üçündür. Oruc xaric O mənim üçündür və mükafatını da mən verirəm. Yeməyini, içməyini və şəhvət arzusunu <u>mənim üçün</u> tərk etməkdədir.*

Hər iftar vaxtında Allahın Cəhənnəmdən azad etdiyi insanlar vardır. Bu hər gecə belə davam etməkdədir.

Oruc bir qalxandır.

Oruc sizin döyüş zamanı istifadə etdiyiniz qalxan kimi bir qalxandır.

Allah buyurur: *Oruc qulun atəşdən qorunmasına yarayan bir qalxandır. O mənim üçündür, savabını da mən verirəm...*

Oruc və Quran Qiyamət günündə qul üçün şəfaət edərlər. Oruc deyər ki, Ey Rabbim! Mən onu yeməkdən və şəhvani arzusundan saxladım, məni onun üçün şəfaətçi et. Quran da deyər ki, Mən onun gecə yuxusuna mane oldum, məni onun üçün şəfaətçi et. Beləcə onlar şəfaət edərlər...

Ey Adəm övladı, tələs, paklanmağa tələs... sev... sevil, paylaş... Ramazan ayı Quran ayıdır. Ramazan Quranın yerə doğum ayıdır. Quranın şərəfi Ramazan ayını şərəfləndirir. **Quranı oxu**!... **düşün**! **yaşa**!!! Quran şərəfilə şərəflənərək hər gününü Ramazan et! Allaha aparan, möminin miracı olan namazlara tələs... Ramazan ayı təravih namazlarının ayıdır. Təravihlərə tələs... Gecə namazlarında Rəbbini zikr et. Hər gecəni gecə namazları ilə nurlandır. Dua et... Ramazan ayı dua ayıdır... Xilas olmağa cəhd et!

Yardıma ehtiyacı olanların yardımına tələs. Çünki, Allah yardım edəndir, yardım edənləri sevir. Hər kəsə mərhəmət göstər. Çünki, Allah mərhəmətlidir, mərhəmətliləri sevir... Allahın sevgisini qazanmağa tələs... Allahın sevgisini qazanmağa cəhd et!

Ətrafını nemətlərilə dolduran səxavətli Allahın qəzəbinə səbəb ola biləcək, orucun gözəlliyinə xələl gətirə biləcək hər bir pislikdən qaç, uzaqlaş... Tələs, Allaha tələs...

*Ya Rabbim, Ramazan ayımızı təqvamızın yeniləşməsinə, artmasına vəsilə et... Ya Rabbim, bizlərə hər iki dünyada gözəlliklər nəsib et.*

*Amin...*

## İnsan həyatında gecənin rolu.

Yaradan hər şeyi cüt yaratmışdır. Hikmət də elə bundadır. Tək olan, Vitr olan, tayı-bərabəri, bənzəri olmayan yalnız Yaradandır. Və hər yaratdığında gizli hikmətlər yaratmışdır yoxdan var edən Yaradan. Gecə və gündüz, ağ və qara, yer və səma, qadın və kişi, sıxıntı və rahatlıq, qış və yaz... Qış gəlmədən yaz gəlməz, sıxıntı olmadan rahatlığı bilmərik, səma olmadan yer var ola bilməz, gecə olmadan gündüz olmaz... Gecə qaranlıq, gündüz aydınlıq. Zamanın bir hissəsi aydınlıq, biri qaranlıq olaraq ikiyə ayrılması Allahın möcüzəsi deyilmi? Gecə dinlənmək, gündüz çalışmaq. Gecə ay işıqsız, gündüz günəş işıqlı...

"***Gecə və gündüzü iki ayə etdik. Gecənin ayəsini sildik, gündüzün ayəsini işıqlı etdik ki, həm Rəbbinizin lütfünü arayasınız, həm də illərin sayını və hesabı biləsiniz. Biz hər şeyi müfəssəl izah etdik.*** (İsra, 12)

Həqiqətən, Ay özü işıq verməz, sadəcə Günəşin işığını əks etdirir... Gecənin ayəsini sildik... Ay işıqsız yardılmışdır, yaxud da Günəşdən aldiği işıq görüntü olaraq yavaş - yavaş azalıb ay bitincə yox olması anlamına da gəlir. Gecənin ayəsini sildik ifadəsi bir də Ayın bir zamanlar Günəş kimi işıq verən ulduz olub zamanla soyuyaraq işıq və istiliyini itirdiyi ehtimalı da düşünülr. Necə ki, Abdullah ibn Abbas "Vaxtilə Ay da Günəş kimi işıq verirdi." dediyi rəvayət edilmişdir... Bir gün Günəş də büzülərək işıq və istiliyini itirəcəkdir ki, bu da planetlərdə həyatın sona çatması, Qiyamətin qopması deməkdir. Həqiqəti Allah bilir... Günəşin işığı olmazsa, ay da işıqdan məhrum olar... Ayın işığının gedib gəlməsi, görünüb görünməməsi yerin maqnit sahəsinə, dənizlərin qabarmasına, canlıların yaşam tərzinə, insanların sağlamlığına təsir etmirmi? Nədən müəllimimiz olan Allah Rasulu hər hilalın ortasında - 13, 14, 15 - ci günlərində qorunmaq üçün oruc tutmağı, yəni oruc qalxanı ilə silahlanmağı tövsiyə etmişdir? Gecə və gündüz, ay və günəş. Gecədən sonra mütləq gündüz gələcək. Qaranlığın arxasında mütləq bir işıq var... Günəşdən işıq alan ay gecəmizi aydınladacaq. Gecəsini diriltməyənin gündüzü də ölmüşdür...

Daxili zənginliyin əldə edilməsində əsas məkan olan qəlbdən sonra ikinci önəmli faktor zamandır. Əlbəttə gecələr də, gündüzlər də Allahındır. Gecəni qazanmaq gərəkdir. Çünki, göylər duvaqlarını gecə vaxtı sıyırıb atırlar. Gecə əməllərin Allah qatına çatdırıldığı zamandır.

Allah Qurani-Kərimdə müəyyən zaman hissələrinə and içir: *Vel-asr, val-leyl, ves-subh, vedduha... And olsun əsrə, gecəyə, sübhə, sabaha...*

Rabbimizin bu andları zamanın üstün dəyərinə bir işarə deyilmi? Zaman qiymətlidir, əzizdir, nə qədər çox olsa da dəyərindən bir şey itirərmi? Su kimi... Zaman həyatdır, zamanı israf

həyatı israf deyilmi? Həyatı israf intihar deyilmi?... Allah üçün deyil, seriallar üçün xərclənən zaman sizin ömür dəqiqələrinizdən getmirmi? Bitdikdə əldə qalan nə? Amma? Allahı xatırlamaq, onu düşünmək... Biz Həyat verəni xatırladıqca, O da Ərşdə Ona yaraşan bir məkanda sizi xatırlar. Bununla müqayisə olunacaq bir dərəcə, mərtəbə varmı? Ruhumuzun qidası Ruhu verən deyilmi? Cism yarandığı torpağa qayıdacaq, ruh öz Yaradanına... Cismi hər anlamda qidalandırmağımız yetməzmi? Kifayət deyilmi??? Dayan, Ey, Adəm övladı, düşün... Həyat verən haqda düşün... Onun zaman neməti üzərində düşün... Verdiyi ruzini nəyə xərcləyirsən, necə xərcləyirsən??? Düşün, bir gün gələcək də verilən əmanətlər haqq - hesab üçün geri alınacaq.

Ya Rabbim, yardım et. Hikmət ver bizə, xeyir ver bizə... Nəfsə qalib gələ bilmək üçün Səndən başqa yardımçım yoxdur. Ramazan ayının, hər günümüzün və hər gecəmizin hər saniyəsini layiqincə dəyərləndirməyə yardım et...

***“Açıq aydın kitaba and olsun ki, biz onu mübarək bir gecədə endirdik”*** (Əd-Duhan, 2,3)

Gecə Uca Yaradanın üzərinə and içdiyi bir zaman kəsiyi. Allah kəlamı Kərim, Şəfa Quranımız bir gecə vaxtı endi. Qədr elə bir gecənin adıdır ki, adı ilə o gecəni gecələrin sultanı etdi...

**Mirac**... İnsan nəslinin yüksələ biləcəyi ən uca mərtəbəyə bir gecə zamanında yüksəlmişdi kainatın nuru, Rasulumuz...

Gecə ümmətimizə **hicrət** kimi bir hədiyyə də gətirmişdir...

“***Onlar gecə vaxtları səcdə edərək Allahın ayələrini oxuyurlar ”*** (Ali-İmran, 113)

Yaradanın xüsusi vurğuladıqları... Kimdir onlar? Digərlərindən üstün olanlar... Allah sevərlər...

“ ***Gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə namazı qıl ki, Rəbbin səni bəyənilib təriflənən bir məqama göndərsin”*** (İsra, 79)

Sevgili Rəsuluna daxili zənginliyin yollarını belə öyrədir, açıqlayır Rəbb... Rəsulun yanına ucalmaq istəyirsənsə, sən də onun kimi ol, Allahın sevdiyi quluna olan olan əmrlərinə diqqət kəsil. Onun kimi olmaq, onun kimi yaşamaq, ondan nümunə götürmək Muhamməd ümməti olmaq deməkdir, Muhammədlə görüşmək deməkdir. Muhamməd kimi Qurana tabe ol, Quranı yaşa.

“***Günəş doğmamışdan və batmamışdan əvvəl Rəbbinə şükr edib təriflər de, gecənin bir vədəsində və günorta radələrində də Rəbbini öyüb təqdis et ki, razı qalasan”*** ( Taha, 130)

*Ey Muhammədi sevən Muhamməd ümməti, Sevdiyinizlə bir cərgədə olmaq istəməzmisinizmi? Onun əxlaqı ilə tərbiyələnməli deyilmiyikmi? Onun yanında ola bilmək üçün onun kimi yaşamalı deyilmiyikmi?*

Sənə Ramazan fürsəti verildi, silkinib, arınıb, təmizlənərək pak olan sevdiklərinə qovuşa bilmək üçün. Tələs, zaman azdır, gecə bitəcək... Dinlə... Quranı dinlə... Gör Həyat verən Dostun səndən nə gözləyir...

" ***Ey örtünüb bürünən... <u>Gecə</u> <u>az bir hissəsi</u> <u>istisna</u> olmaqla –qalxıb namaz qıl***! ***Yarısına qədər, yaxud bir qədər ondan az... Və ya bir qədər ondan çox!*** **Həm də aramla Quran oxu**! ***Biz sənə ağır bir kəlam vəhy edəcəyik***. ***Şübhəsiz ki, gecə qalxmaq daha əlverişli və söz demək daha münasibdir***. (Müzzəmil, 1-6)

Düşün, Ey Adəm övladı. Maraqlı, daha-daha düşünüləcək olan bilirsinizmi nədir? Ayənin nazil olma zamanı... bu surə nazil olduğunda hələ beş vaxt namaz fərz, yəni vacib edilməmişdi. Nübuvvətin ilk, çətin, məşəqqətli illəri. Və Rasula inanaraq təslim olan bir ovuc insan...

Hər sıxıntıdan sonra bir asanlıq gəlir, hər gecədən sonra bir gündüz gəlir. Sıxıntı nə edir, qüvvətləndirir, güc verir... Düşün, imtahan və sıxıntı... Çox sıxılan istədiyi yüksək qiymətə nail olur... Gecə- dinclik, rahatlıq zamanı, gündüz - iş zamanı... Gecə qüvvə toplamaq zamanı, gündüz qüvvə xərcləmək zamanı... Qüvvət qəlbin hüzurunda deyilmi? Qəlbin rahatlığı, hüzuru Allahı zikrlə, anmaqla əldə olunmurmu? Qəlbin dostu Nurdan gələn ruh deyilmi? Ruhun qidası Yaradan deyilmi?! Elə isə gecələr ruhunuzu, qəlbinizi qüvvətləndirin... gündüz yenidən imtahanlar gələcək. Allah sənə ***Oxu*** deyə əmr etdi... Elm Allahda, güc, qüvvət Allahda... Və o səni göylər öz duvağını açdığı bir zamanda əllərini Ona sarı yönəldib açmanı gözləyir, gecə Səmaya yaxınlaşır... "Yoxmu dua edən, duasını qəbul edim, yoxmu tövbə edib Mənə sarı yönələn, onu Özümə sarı çəkim, yoxmu əfv diləyən günahlarını pozum"...

Ey Adəm övladı, gözlər kor olmaz, qulaqlar kar olmaz sinələrdəki qəlblər kor və kar olur... Aç qəlbini... Aç... Nur yoluna, xoşbəxtlik zamanına tələs. Ramazan kimi günlər yaşamağa tələs!

Gözəl Rasulun gecələri nədən bizə nümunə olmasın??? Rasulunun daxili dünyasını zənginləşdirmək üçün nazili olan və həqiqətən də onun zənginliyinin dəlili olan bu ayələr nədən bizim daxili aləmimizi zənginləşdirməsin??? Bu ayələr İnsan üçün deyilmi??? Bu ayələr Rasulun və Quranın əxlaqı ilə əxlanmaq istəyən mömin üçün deyilmi?

Rəsulumuz bizi xəbərdar etməyibmi? Necə yaşayırsanız, elə ölürsünüz, necə ölürsünüz elə dirilirsiniz, necə dirilsəniz, elə həşr olunursunuz.

Ənam surəsində Allah yuxudan ölüm deyə söz edir... Yarı ölüm olan gecələrimiz...Deməli, gündüzümüz gözəldirsə, gecəmiz də gözəl olacaq, ay işığını günəşdən alır. Gecəmiz gözəlsə sabahımız, yəni yenidən diriliş də gözəl olacaq... Gecənin hesabını verə bilməyən gündüzün hesabını necə verəcək?!

Gündüzlər imanımızı zədələyə biləcək yaşantıların, qəlbimizin dərinliklərinə sirayət edə bilən inam səfalətinin daxili dünyamızda törətdiyi erroziyaları, gecənin rəhmətindən yararlanaraq təmizləmiriksə... Allah qorusun demək, qəlbimizin qiyaməti yaxın...

Həmd olsun, düşmənin hücumlarına qarşı güc toplamaq üçün bizə Gecə, şükr, zikr, Ramazan, oruc, namaz kimi nemətlər yetirən, bizi Qoruyan, Sevən, Yardım edən Rəbbimizə...

Allahın Rəsulu və qulu gecə namazına qalxdığı zaman bu duanı oxuyardı:

“*... Ya Rəbb! hər Həmd sənin üçündür. Sən göylərin, yerin və bunlarda olan hər şeyin davamlı idarə edənisən! Yenə hər həmd sənin üçündür. Sən göylərin, yerin və onlarda olan hər şeyin nurusan. Yenə həmd sənin üçündür. Sən Haqsan, sənin vədin də haqdır. Axirətdə səni görmək də haqdır. Sözün haqdır. Cənnət haqdır, Cəhənnəm də haqdır, atəş də haqdır, Peyğəmbərlər haqdır, Muhamməd haqdır, Qiyamət saatı da haqdır...*

*Allahım, ancaq sənə təslim oldum, sənə inandım, sənə güvəndim, sənə yönəldim, yalnız sənin üçün mücadilə etdim, sənin hökmünə baş vurdum. Ya Rəbbi, əvvəl işlədiyim, sonra işləyə biləcəyim, gizli və açıq günahlarımdan ötrü məni bağışla. Qulunu önə keçirən, arxada buraxan, ucaldan, alçaldan Sənsən! Səndən başqa tanrı yoxdur, Səndən başqası yoxdur. Təsərrüfat və qüdrət ancaq Allahladır”...*

**QƏLB.**

Kim ki, Allahı istəyir görmək
arasın qəlbi – tabnakində,
Arasın kəndi ruhi – pakində,
Hər kimim qəlbi ruhu düzgündür,
Daima hiss edər də, Haqqı görür.
Seylə sofanə ruhə malik olan yaşamaz ayrı hərgiz Allahdan.
Hüseyn Cavid. (Şeyx Sənan)

Qəlb... Nədir qəlb? Mikro kainat olan insanın paytaxtı, mərkəzi şəhəri.

Düşündük ki, qəlbimizdən xəbərdarıq. Əslində xəbərdar olmadığımız ən böyük sirlərdən biri də qəlbdir.

Bir şeyi bilməklə onu əldə etmək, yaxud onunla yaşamaq arasında sərhədsiz fərq var. Yaşanılmayan bir şeyi anlatmaq mümkünsüz. Biliyə sahib olmaq xəbərdar olmaq deyil, onunla yaşamaqdır. Ürəyə sahib olan hər kəs qəlbinədəmi sahib? ...

*Vücudda bir ət parçası vardır. O pozularsa bütün vücud pozular. O qəlbdir.*

Paklığı sevən Yaradanın yaratdığı qəlb də yaradılış etibarı ilə pakdır. Amma... Amma vücud ölkəsinin mərkəzi, ana şəhəri olması səbəbilə qəlbin iman, ruh kim dostları şeytan, nəfs kimi düşmənləri var. Qəlb üzərində savaş böyük... Qəlb kimin məkanı olacaq? İnsanın paytaxtına kim sahib olacaq? ...

Bu ucsuz-bucaqsız ölkənin xüsusiyyəti adında gizlənmişdir. Qəlb—yəni dəyişkən olan, haldan-hala girən, dönük, incə... Bir su kimi içinə girdiyi qabın formasını alır, gördüyünə axır... Ölkədə hər şeyi qəfil dəyişə biləcək olan inqilab da, qəlb də eyni kökdən deyilmi? . .

Qəlbin harada yerləşməsinin nə önəmi var? Əsas onun var olması, sağlam yaşaya bilməsi deyilmi? İnanın, əgər o yaşayırsa sizi varlığından mütləq xəbərdar edəcəkdir...

Qəlb... Qəlb kimə məxsus olmalıdır? Kimi qonaq etməlidir?

Yol göstərən nur Allah Ənbiya surəsinin 22-ci Kərim ayəsində belə buyurur:

”***Əgər yerdə və göydə Allahdan başqa tanrılar olsaydı, yer və göy, (onların nizamı) pozulub gedərdi”...***

Ey Adəm övladı, bil! Göylərin bir ilahı, bir sahibi var... Əgər iki olsaydı param - parça olub məhv olardı. Qəlbin Yaradanı da onun tək ilahı, tək məbududur. Qəlb məkansıza məkan ola bilmək keyfiyyətinə sahibdir. İnsana şah damarından da yaxın olan Allahı qonaq edə biləcək səviyyədədir...

***"And olsun ki, İnsanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini bilirik. Biz ona şah damarından da yaxınıq*** (Qaf, 16)

*Möminin qəlbi Allahın evidir…*

***"Bilin ki, Allah insanla onun qəlbi arasına girər və siz axırda onun hüzuruna cəm ediləcəksiniz!"*** (Ənfal, 24)

Qəlb onu Yaradana məxsus olmalıdır... Qəlb yalnız nur Allahı qonaq edərsə, almaz kimi, nur kimi parlayaraq tək sahibinə dönə bilər.

Rasulumuz bizə öyrətməyibmi:"*Allah sizin görkəminizə və mallarınıza deyil, qəlblərinizə baxar"*

Ya Rabbimiz, ağ libasdan kiri təmizlədiyin kimi, qəlbimizi də xətalardan təmizlə...

Həmd olsun Sənə ya Rabbimiz, təmizlənmək, arınmaq üçün bizlərə Ramazan ayını yaşatdığın üçün...

Yoxsa..."***Onların qəlblərini qazandıqları günahları qaraltmışdır"*** (Əl- Mutəffifin, 14)

Bu kiri təmizləmək, əlbəttə asan deyil. Ən çox istifadə olunan orqanlarımız əl, beyin, qəlb... Əlimizi bir neçə ay yumasaq halımızı təsəvvür edin... Əldən qaynaqlanan mikroblar bütün vücudumuzu bürüyəcək. Daha çox istifadə olunan orqan olan Qəlbin kirlilik dərəcəsini təsəvvür edin. Necə ki, Rasulumuz olan Allah Həbibi Muhamməd (s.a.s) bizi öyrədib: "*Mömin hər günah etdikdə onun qəlbinə qara bir ləkə düşür. Əgər o an bunu anlayıb peşmançılıq çəkib istiğfar edib tövbə edərsə, ləkə silinər və qəlb ilk halına dönər. Səhvini anlamadığı təqdirdə isə günahlarını davam etdirdikcə ləkələrin sayı artaraq qəlbi qaralıb kömürə çevriləcək*."

" ***Bundan sonra qəlbləriniz yenə sərtləşərək daş kimi, bəlkə, daha da qatı oldu. Həqiqətən, bəzi daşların çərisindən nəhrlər axar, bəzisi yarılıb içindən su fışqırır və bəzisi də Allahın qorxusundan yuvarlanıb düşər. Allah sizin etdiklərinizdən, əlbəttə, qafil deyildir!"*** (əl-Bəqərə,74)

İmtahanlar dünyasında yaşayan insanın qəlbi aparıcı qüvvə olması səbəbilə sınanmadan, yoxlanışdan kənarda deyil. Hər an, hər addımda fitnələrlə qarşı-qarşıyadır. Allahın təqva üçün sınadığı qəlblər hər an savaş içindədir. Amma qəflət deyilən bir düşmən də mövcuddur. Heç bir pəncərəsi, qapısı, dəliyi olmayan qaranlıq bir məkan təsəvvür edin. Qəlbin çırağı olan hidayət nuru bu qaranlıq məkana haradan işıq sala bilər?

"***Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır"*** (əl-Bəqərə, 7)

Onları böyük bir əzab gözləyir...

"***Bir deyin görüm, əgər Allah sizin qulaqlarınızı və gözlərinizi əlinizdən alsa, ürəklərinizə möhür vursa, onları sizə Allahdan qeyri hansı tanrı qaytara bilər?"*** (əl-Ənam, 46)

Qəlbin qatılaşmamasının, yəni xilas olmaq şansının bir yolu var... Daxili müharibə... Daxili müharibə əbədi savaşdır. Dünyadakı müharıbələr müəyyən bir zaman içərisində bitsə də, insanın daxili dünyasında yaşanan müharibələr bitməz. Hər düşmənin bir gün dost olma ehtimalı var, amma insanın qiyamətə qədər əbədi var olacaq düşməni heç bir an durmayacaq. Adəm oğlunun əbədi düşməni şeytan öz savaşına əvvəl ürəyində məğlub oldu, sonra Cənnətindən məhrum oldu. Məğlubiyyət səbəbini özündə deyil, əşrəf insanda gördü. Öz “mən”inə deyil, insana düşmən kəsildi. Təkəbbür, kin, nifrət, lovğalıq, sevgisizlik, bütün mənfiliklər hakim kəsildi qəlbinə. Unutdu ki, Allah kimsəyə əzab verməz, hər kəs öz əməlinin girovudur. İntiqam, nifrət hissilə alovlanan şeytan insana qarşı cəbhələr açdı... Beləliklə, savaş başladı: İblis xisləti və insan fitrəti.

***”Sənin məni zəlalətə düçar etməyinə əvəz olaraq mən də Sənin düz yolunun üstündə oturub insanlara mane olacağam! Sonra onların yanına qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükr edən görməyəcəksən!”*** (əl-Əraf, 16-17)

Qiyamətə qədər möhlət alan düşmən durmayacaq. Ey Adəm övladı, sənin dostun və yardımçın olan Uca Yaradan düşmənin tələsindən, üzərinə atdığı çirkablardan təmizlənə bilmən üçün Ramazan ayı kimi bur nemət vermiş... Fürsətini itirmə. Qəlbini təmizlə. Şeytana məxsus duyğuları çıxarıb at qəlbindən. Allahın əxlaqı ilə əxlanmaq zamanı gəldi... Qəlbinə sevgini, ədaləti hakim et... Qəlbində Yalnız Yaradanını yerləşdir. Sənin yalnız Yaradana ehtiyacın var... Sən yalnız Yaradana, sənə Həyat verənə möhtacsan... Fitrətinə dön – qələbə qazan.

Allahın varsa nəyin yox? .. Allahın yoxsa nəyin var ???

Düşün, çox düşün... Allah onun ayələri üzərində düşünənləri sevir. Rəbbinin verdiyi ağıl nemətindən bol-bol istifadə et, çünki, Rabbimiz ağıl nemətini yalnız sevdiyi qullarına bəxş edir. İmam Əli nə gözəl demiş: “*Ağıl qəlbdədir*”...

Şeytanın viruslarını qəlbinizdən çıxarın. Allahı buraxıb şeytanı özünüzə dost etməyin, İblisin xislətindən kiçik bir əlamət belə düşməninin sevinci deməkdir. Düşmənin sevinci sənin məğlubiyyətin deməkdir. Qələbə Allahın firqəsinindir. Allahın firqəsi Allahın üfürdüyü pak ruhu qəlblərində sultan edənlərdir. Yaradana məxsus qəlbdə düşmənə və onun xislətinə yer yoxdur. Düşməni andıracaq hər əlamətdən uzaq dur. Yoxsa Allah kimi bir düşmən qazanarsan...

***”Allah quluna yetməzmi ”*** (əz-Zumər, 39)

yetər, yetər, yetər...

Bu gün qəlbinizi bulaq kimi qaynayan, göz yaşlarınızla yuyaraq təmizləyin. Allah üçün ağlar gözlər Cənnətdə gülər. Qəlbinizi fikirlə, zikrlə, şükrlə, gözəlliklə, ehsanla, təqvayla, duayla, tövbəylə təmizləyin... Bu gün dua günüdür...

”***Əgər duanız olmasa, Rabbimin yanında nə qədir - qiymətiniz olar?”*** (Furqan, 77)

İçinizdəki dünyanı kəşf üçün hazırlaşın. Səlim qəlb axtarışında olun.. Səlim qəlb salam halında olan qəlbdir. Salam halında olmaq = islamda olmaq = Rəbbin qanunlarına təslim olmaq = əbədi səadət = qələbə. Ruhunuzla qəlbiniz arasında vəhdət yaradın. Qəlbinizin dostu iman, Allahın üflədiyi ruh... Qəlbinizə dilədiyi hüzuru verin... Qəlbinizə qələbə qazandırın. Qəlbin qələbəsi hüzur deməkdir.

"***O kəslər ki, Allaha iman gətirmiş və qəlbləri Allahı zikr etməklə aram tapmışdır... Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapa bilər"*** (Rad surəsi, 28)...

Ey Adəm övladı bu gün fikir, zikr, şükr günüdür... (hər saniyə ömürdən gedir, saniyələrini Allahı zikr etməklə doldur) Zikr ən gözəl qazancdır. Zikr, şükr sənin xilasın və silahındır.

***"Ey Adəm övladı, gözlər kor olmur, ancaq sinələrdəki qəlblər kor olur***." (Həcc, 46)

Qəlbini hikmətə aç. O zaman biləcəksən ki,

***"Kİmə hikmətdən bir pay verilmişsə ona çox xeyir verilmişdir***" (Bəqərə, 229)

"***Möminlər o kimsələrdir ki, Allah adı çəkiləndə ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar, onlar ancaq öz Rəbbinə təvəkkül edər***" (Ənfal, 2)

*BismillahirRahmənir Rahim.*

*Mərhəmətli Rəhmli Allahın adı ilə*

*Məhəmməd Peyğəmbərə (s. ə. s. ) və onun ailəsinə salam olsun.*

*Ey qəlbləri yönəldən Allahım, qəlbimi dində sabit et.*

*Mərhəmətli Allahım, qəlblərimizi mərhəmətlə zənginləşdir, doldur. Bu mərhəmət Sənə yaxınlaşmağa bir vəsilə olsun. Rəhman, Rəhim, Sevən, Bağışlayan, Yardım edən, Rauf Allahım qəlblərimizi, əməllərimizi, niyyətlərimizi Sənin bu keyfiyyətlərinlə zinətləndir ki, Sənin sevgini, rizanı, lütfünü qazana bilək. Qəlbimizin qaranlığından Sənə sığınırıq. Qəlbimizə Nur ver. Sən Nur üstündə Nursan.*

Kim ki, Allahı istəyir görmək
arasın qəlbi – tabnakində,
Arasın kəndi ruhi – pakində

*Aləmlərin Rəbbinə həmd olsun. Peyğəmbərlərə salam olsun.*

*Amin.*

**NAMAZ və QURAN**

Sağlam ruha sahib olmaq sağlam cismə sahib olmaq deməkdir. Ruhun sağlamlığında önəmli yer tutan namazdan Qurani – Kərimdə salat deyə söz edilir. Salat –dua, ehsan, bərəkət, təşbih və bütün bunlarla birlikdə müəyyən ibadət şəkli mənasını verir. Namaz ruhun sağlamlığını ayaq üstə tutan əsas bünövrələrdən biridir. Namaz ruhun ucalması, paklanması, təmizlənməsi, nurlanması, miraca yüksəlməsi, bir sözlə saysız gözəlliklərə sahib olmasıdırsa, mümkünmü, cisim bunlardan öz nəsibini almasın? Demək Rəbbini sevən öz cismini və ruhunu onun bəxş etdiyi gözəlliklərdən necə məhrum edə bilər? Əmanətlərdən hesaba çəkiləcək olan qulun ilk hesaba çəliləcəyi nemət namazdır. Allah qatından enən doğru yol göstərən Kitabımızda namaz kəlməsi 34 dəfə zəkatla bərabər, 65 yerdə zəkatdan ayrı olaraq qeyd olunmuşdur. Məgər bu namazın nə dərəcədə önəmli olduğuna bir işarə deyilmi? Möminlər surəsində Uca Yaradan sevdiyi qullarına xilasın yolunu göstərərək belə buyurur.

***"Həqiqətən, möminlər nicat tapmışlar. O kəslər ki, namazlarında müti olub boyun əyərlər. Namazlarında riayət edərlər"***

*Yaradanların ən gözəli Allahımız, bizlərə də yardım et! Bizləri də nicat tapan möminlərdən eylə. Ramazan ayımızda bizlərə qüvvət ver.*

Demək ki, namazsız mömin, namazsız xilas olunmuş bir islam toplumunu düşünmək qeyri-mümkün.

Rasulallah ümmətinə öyrətdi: Namaz mömininin miracıdır. Dəstəmazla arınaraq, nurlanaraq, ruhu namazla pisliklərdən örtərərək, qoruyaraq, qibləmizə yönələrək, Zaman sahibinin qiymətləndirdiyi, seçdiyi zaman dilimlərindən istifadə edərək, yalnız Allah üçün deyibən saleh niyyətlə yüklənərək, Allahu əkbər açarına yiyələnərək gəlin, Quran təbirincə salat, yəni dua adlanan namaz yolçuluğuna çıxaq, miraca çataq, Uca Xaliqlə görüşə tələsək...Miraca qalxaq, zamansız zamana, məkansız məkana tələsək.

Bu yolçuluqda *Qiyam* adlı bir təslimiyyət göstəricisi olan duruş vardır. Allahu əkbər deyərək və yaşayaraq dünyanı arxaya atan qul bütün həmdin, təriflərin, gözəlliklərin, sevgilərin yalnız və yalnız Ona, Uca Yaradana məxsus olduğunu ruhi halı və cismi ilə ifadə edir. Mən Sənin Səndən aciz qulunam. Bütün ibadətim, həyatım, ölümüm, yaşamım, yalnız Sənin üçündür. Sənin dostluğunu qəbul etdim. Səndən başqa dostum yoxdur. Dinim islamdan, Rasulun Muhammədd (s.a.s) dən razıyam...

İçini, könlünü ali eşqlə dolduran qulun bu sevgisi bir azdan *qiraət* halında yaşanan heyranlıqla əvəzlənərək əşrəf insanı Yaradanların ən gözəli qarşısında əyilməyə aparacaq. Heyranlıq ruku halında sevən qulun qəlbini eşqlə, sevgiylə bir daha dolduraraq səcdə zirvəsinə qaldıracaq...Yalnız tək Allahın, tək İxtiyar Sahibinin, yeri, göyləri Insan üçün yaradan, yer üzünü sevdiyi Insan üçün bəzəyən tək Allahın qarşısında, heç bir yaradılmışın deyil, yalnız

Yaradanın qarşısında əyilmək... Bunu hiss edənlər - nə xoşbəxtdirlər. Yaradan qarşısında *qiyam,* həm də baş qaldırmaq deməkdir. Baş qaldırmaq, üsyan etmək - bütün bütlərə, öz məninin vəsvəsələrinə, ucuz və keçici hisslərə, zövqlərə, ruhu Yaradandan uzaqlaşdıran bütün dünya həzzlərinə, qəlbi çirkləndirən şeytani və nəfsani istəklərə, insanı hər hansı yaradılmış qarşısında əzən, əyən, kiçildən həvəslərə, bir sözlə ali missiyadan uzaqlaşdıran hər şeyə üsyan etmək. Bütün bu zövqlərə, nəfsani istəklərə baş qaldırmadan, üsyan etmədən, ruhun düşmənlərinə qarşı savaş elan etmədən namazı miraca bərabər tutmaq məgər mümkünmü? Bu yolçuluqda yalnız bir baqaj var: Allah sevgisi, Qiraət səfərin yol göstərən mayakı olan Quranı simvolizə edir. Ondan gələn ruh, Ona doğru gedərkən, Onun kəlamını oxuyur, Onun kəlamı ilə silahlanır. Bu oxu İlahi anlamın bəşəri kəlmələrlə ifadəsdir. Sanki gizli bir şifrənin açılması kimi. Bu oxu qiraətdir. Çünki Yaradan Rəbbin oxu əmri ilə yüklənən əşrəf insan bu oxunu, anlamını, mahiyyətini ürəyinə, qəlbinə yedirməli, zehninə qazımalı, həyata keçirməlidir. Səhabənin namazı nədən fərqliydi? Nədən Əlinin huşusu dillərdən düşmür? Onlar ruhlarını qidalandırdıqları bu nur yolçuluğunda, dünya ilə bütün əlaqələrini o zaman çərçivəsində qırıb atmağı bacarırdılar. Dünya və onunla əlaqədar hər şey uzaqlara, görünməzə çəkilir və bu möhtəşəm halın bir nəticəsi olaraq qiraət sırasında arı uğultusu kimi bir səs çıxararlardı. Bu qiraətdir. Bu oxu əmrinə tabe olmaqdır. Yaşayaraq, dərk edərək oxumaq... Rasulallahın öyrətdiyi kimi... Hər təsbihat, təhmid, təhlil ərşə yüksələrək arı vızıltısı kimi səs çıxararaq öz sahibini zikr edir... təsbihat - subhanəllah, təhmid - Allahu əkbər, təhlil-Lə ilahə illəllah... Arı vızıltısı... İlahi əmrə, tabe olan, vəhylə çalışan bir varlığın sevərək, təslim olaraq gördüyü iş sırasında çıxardığı səs. Təsəvvür edin, bu səs sanki içtən yanan çox güclü matorun ürəyində olan möhtəşəm yanğını, sevgini və bunun insana verdiyi əzəmətli enerjidən xəbər verən bir səsə bənzəyir... Ruhu, cismi, qəlbi, beyni ilə Allahu əkbər deyərək, Allahın kəlamlarına vurğun birinin cismindən xəbərsiz halda Yaradanına qovuşduğu vüsal anını yaşama sevinci içində çıxan səslər...

*Sübhanəllah – Ey əşyaya, maddiyata təkamül qanunu öyrədən pak və nöqsansız Qadir Allah, bizə də kamillik bəxş et. Bizə kamil yol olaraq seçdiyin yolda kamala, müdrikliyə çatmağı nəsib et.*

*Ruku...* Pak və nöqsansız, bütün eyiblərdən uzaq, əzəmət sahibi Allahın qarşısında bir əyilmə, bir heyrət məqamı... Onun kəlamlarını Onun buyurduğu kimi anlaya bilən heyrət etməyə bilərmi? Onu tanımaq heyranlıqla başlayar... Əzəmət, qüvvət, gözəllik sahibi, Rəhməti ilə hər şeyi sevən, hər kəsi nemətlərilə ruziləndirən, sonsuz bəxşişlər verən Uca Allah. İnsanı həqiqətə götürən şey heyranlıq duyğusudur... Ruku bu heyranlığın simvoludur. Ruku itaətin zirvəsi, ruku təmiz vicdanın qeyd-şərtsiz təslimiyyətinin zirvəsi... Müsəlmanların namazdakı heyranlıq göstəricisi rukuları Hz. İsanın yolunun İslamdan keçdiyinin bir simvolu... Çünki,

ruku isəvilərin namazının, səcdə də musəvilərin namazının ana xətti. İslam, salam bütün peyğəmbərlərin gətirdikləri, islam bütün elçılərin çağırdıqları haqq yol... İslam, təslim, salam - bütün rasulların missiyası...Həbibullah, Xatəmul ənbiya... Peyğəmbərlər içində Allah həbibi... Hər kəsi salama, sevgiyə, barışa, birliyə, gözəlliyə, islama, miraca, Vahid Rəbbimizə heyranlıqla itaətə çağıran bəşər peyğəmbəri... *Ey iman gətirənlər Allahın ipindən möhkəm yapışın*, deyə hidayətə, doğru yola çağıran Həbibullah hər kəsi birlikdə səcdəyə çağırdı - bərabər və birlikdə, sevərək, öyrənərək, yaşayaraq, əməl edərək səcdəyə çağırdı.

Səcdə miracın son nöqtəsi. Səcdə eşqdir, sevgidir, qarışıqsız, tərtəmiz, cismlə deyil, ruhla sevilən pak eşqin simvolu.

Eşqdir mehrabı uca göylərin, eşqsiz ey dünya nədir dəyərin?
İdrakı dinləsək söyləyir o da,
Hər şey eşq üstündə durur dünyada.
Göylər yaransaydı eşqdən azad,
Düşün olardımı yer üzü abad.
Kəhrəbanın eşqə düşməsə canı,
Elə axtararmı quru samanı
Maqnit olmasaydı eşqin əsiri,
Çəkərmi özünə dəmir zənciri?
Dünyada hər şey bir cəzbə bağlıdır,
Filosoflar bunu eşq adlandırır”

*Səcdə* eşqin simvolu... Allahım, mən özüm-özümə yetməm, sənə ehtiyacım var deməyin bədənlə ifadəsi.*Ya Rəbbim, mən zəifəm, Sən güclü, mən istəyənəm, sən verən, mən mərhəmət istəyənəm, Sən mərhəmət edən, mən məxluqam, Sən Xaliqimsən, Mən Sənin qulunam, Sən mənim Rəbbim.* Səcdə sevginin, acizliyin ifadəsidir. Əzəmət və Qüdrət Sahibinin qarşısında səcdə etmədən bunları etiraf etmək mümkünmü? Əsla, əsla mümkün deyil. Çünki səcdə cismin kiçilməyinin, mənin sıfıra çevrilməyinin və ruhun böyüməsinin, ali qüvvəyə yaxınlaşmasının ilk nöqtəsidir. İlk nöqtə...Səcdə “*Həddimi bildim, sənə gəldim*“ etirafıdır. Ülvi və pak sevgini anladan bir hərəkəti görmək istəsəniz səcdə nemətinə baxın. Oxu əmrinə tabe olan insan, Səcdə nemətini haqqı ilə oxu.

*Oturuş* səfərin həzzini almaq, onu ürəkdən zehnə aparmaq üçün bir anlıq fasilə. Miracın mahiyyətinə vara bilmək, bu yaşadıqlarını həyatının əlaqədar istiqamətlərinə hikmətlə yerləştirmək üçün oturuş... *Səcdə*... Pak və Nöqsansız Rəbbimiz Sən hər şeydən Ucasan. Yalnız Sənin qulunam, bütün əzalarımla *yalnız Sənin* qarşında əyilirəm, sevgi və heyranlıq dolu qəlblə *yalnız Sənə* tərəf yönəlirəm.

*Ya Rabbim, qarşında səcdəyə gedən hər qulunu səcdə nemətinə layiq et. Qəbul et bizi ya, Rəbbim...*

Oturuş... Bu nemət üçün şükranlıq...

*Allahım, bütün ibadətlər və itaətlər yalnız sənin üçündür. Sən haqsan, Namaz haqdır, Qiyamət haqdır. Allahım, dinim islamdan, peyğəmbərim Muhamməd (s.a.s)dən razıyam. Allahım, Nəbimizə Salam olsun. Salam olsun Səni tanıtdığı üçün, Salam olsun Səni sevib, bizə də Səni sevməyi öyrətdiyi üçün. Allahım, öyrət bizə Həbibini canımızdan çox sevə bilməyi... Allahım, əgər sevdiyin qulunu özümüzdən artıq sevə bilməsək hidayət nuru qəlbimizi necə fəth edər?! Allahım, Həbibinin üzərindən Rəhmətini əsirgəmədiyin kimi bizim də üzərimizdən rəhmətini əsirgəmə... Bərəkət... Bərəkət yalnız Səndəndir. Qullarını bərəkətindən məhrum etməyən Allahım, həmd olsun Sənə...*

*Əssəlamu aleykum və rahmatullahi va barakatuh. Əssəlamu aleynə və alə ibadillahis salihin... Saleh qullarını Salamdan məhrum etmə. Salam olsun hər tərəfə, Salam olsun dünyamıza, Salam olsun möminlərə, Salam olsun kainata... Rəhmətinlə hər şeyi saran Rabbim, içimizi, çölümüzü Salamdan məhrum etmə.*

Namaz möminin miracıdır...

## Namaz və Quran 2

***“ Qurandan sənə vəhy olunanı oxu və namaz qıl. Həqiqətən, namaz çirkin və pis əməllərdən çəkindirər. Allahı zikr etmək şübhəsiz ki, daha böyükdür. Allah nə etdiklərinizi bilir!”*** (Ənkəbut, 45)

Hər bir müsəlman İmam Əlinin necə huşu ilə namaz qıldığından xəbərdardır. Huşu ilə özündən, dünyadan xəbərsiz halda namaz qılan bir mömini seyr etmək, dünyanı kainatdan seyr etməkdən daha həyəcanlı. Namazı yalnız qəlibinə, yəni cisminə deyil, qəlbinə də qıldıran bir möminin namazı, İnsanı bambaşqa bir dünyaya götürür və öz-özü ilə üzləşdirir. Bu baxımdan namaz bir var olma hadisəsidir. Namaz həm yoldur, həm yolçu, həm mənzil. Qıldığı namazla bütövləşən, özünü namaza tam verən bir mömin də həm yoldur, həm yolçu və həm də mənzil. Ona tamaşa edən, sadəcə onu deyil, onun namazında yolu və mənzili də görür.

Namaz dəstəmazdan başlayır. Dəstəmaz bir arınmadır, təmizlənmədir, fiziki təmizliyi simvolizə edir, namaz da bir arınmadır, ruhi təmizliyi simvolizə edir. Təmizlik imandandır, istər fiziki, istər mənəvi. Torpaqdan yaranan cism, nurdan yaranan ruhun dünya geyimidir. Dəstəmaz bir təmizlənmədir, paklanmadır. Namaz vaxtı göylərin qapıları açılır. Ətraf fiziki gözlərimizlə görmədiyimiz bir nura qərq olur. Mələklər ruhlarını qidalandıranların nur qidasını gətirir. Cismin qapılarının açılma zamanıdır. Dəstəmaz ruha aparan qapıların açarıdır. Özünüzü bir anlığa ən səfalı, ən təmiz bir məkanda təsəvvür edin. Yerləşdiyiniz otağın qapı və pənsərəsi bağlıdır. Gözəllik, gözəl ətirlər otağınıza daxil ola bilmir. Halınız necə olardı? Qaçıb qapı və pəncərələri açıb o gözəl ətirli havanı acgözlüklə həsrətdən yanan ciyərlərinizə çəkməzdinizmi? Dəstəmazsız cisimdə boğulan ruh, havasız məkanda boğulan ciyərlərə bənzəyir. Ətrafdakı hava sizin üçün yaradılmışdır. Ciyərlərinizi, bütün orqanlarınızı oksigendən məhrum etməyə haqqınız yoxdur. Namaz vaxtı göylərin qapıları sizin üçün açılır, ətrafa yayılan, hər kəsə yetəcək nurdan ruhunuzu məhrum etməyə haqqınız yoxdur. Cisminizin oksigenə ehtiyacı olduğundan daha artıq, ruhunuzun nura ehtiyacı var.

Dəstəmaz torpağın suyla görüşməsidir. İnsanın xammaddəsi olan palçığa işarət edər, digər bir tərəfdən cansız torpağa su ilə keçən cana işarət edir. Və bu birləşmədən bir toxum cücərir. Sonra sünbül yetişir. Həyat verən torpaq gün gəlir, elə bir hal alır ki, cənnət kimi bir baxçaya çevrilir, belə ki onun halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu sünbüllərin hər biri yüz ədəd dən verir.

*Örtünmək...* Bu da namazın bir funksiyasına işarədir, insanın qüsur və eyiblərinin örtülməsinə. Namaz birbaşa pisliklərdən təmizləyən, eyib örtəndir. Dedik ki, namaz bir nurdur... Qapı, pəncərəsi dəstəmazla açılan qaranlıq və havasız məkana işıq və gözəllik gətirərək bütün pislikləri oradan uzaqlaşdırır, daxil olduğu məkanı təmizləyir. Namaz möminlərin eyiblərini örtür, təmizləyir, yox edir. Huşu içərisində qılınan namaz düşüncənin eyiblərini, duyğunun qüsurlarını örtür, qəlbi və onun dərk etmə qabiliyyətini də açar, inkişaf etdirər. Ürəyin üzünü qızardan duyğular, ağlı utancdan yerin altına keçirən düşüncələr, şübhənin arsız toxumları yalnız namazla örtülür...

Namaz ruhun örtüyüdür, necə ki, səma yerin örtüyüdür... Səma yerin qoruyucu təbəqəsidir, eynilə namaz ruhun qoruyucusudur... Səma olmazsa, yerdə həyat mövcud olmaz, yer öz mavi rəngini itirər, günəş yeri yandırıb yaxar... Namaz olmazsa ruh qidasızlıqdan zamanla məhv olar, necə ki, ciyərlər havasızlıqdan məhv olur... Öz qoruyucusunu, təmizləyicisini itirən ruh, pas atar, dünyanın çirkablarından qaralıb kömürə çevrilər. Dəmirin pasını yandırmaqla təmizləyirlər... Almaz kimi parlayan, şəffaf ruh qaralarsa onu da oda verib təmizləyirlər, əgər tamamilə qaralıb kömürə çevrilməyibsə. Ruh Allahdan gəlmişdir, Allaha da qayıtmalıdır... 4 ünsürdən və bunlara can qatan ruhdan ibarət insan. Kimisi ünsürlərini

qorumaqda, kimisi ruhunu. Hər bir şey öz funksiyasını yerinə yetirdikdən sonra gəldiyi məkana qayıdacaq. Torpaq elementləri torpağa qovuşacaq, torpaq ana bir gün verdiklərini geri alacaq, sənin istifadəyə yararsız olan elementlərinlə torpaq ana başqa canlılarına can qatacaq. Torpaq ana ilə daim 4 ünsürünün hayında qalan insan isə ac və susuz qalmış, təmizlənməmiş, çirkab içində qaralan ruhunu Sahibinə necə qaytaracaq?! Almaz kimi şəffaf nurla - ruhla təmin olunan insan əmanətini necə olduğu kimi qaytara bilər?... Nurdan yaranan ruhun qidası da nurdur. Namaz da bir nurdur, nur qidasıdır. Namaz da nur kimi bir qoruyucudur. Namaz kimi qoruyucu təbəqəsini itirən ruh torpaqdan yaranan cismə qarışaraq maddiləşər, torpaqlaşarsa onu yalnız yandıran alovla təmizləmək mümkün... Ramazan da yandırandır. Cismin istəklərini yandıraraq ruhu təmizləməyə xidmət edir, beləliklə, namazını geyinməmiş ruhlar çılpaq ruhlardır... Çılpaqlıq həyanı, utanma hissini itirmək deməkdir. Həya imandandır. Həyası olmayan çılpaq olduğundan xəbərsizdir. Həyası olmayanın imanı da ondan qaçaq gəzməyə yönəlir. İmanı olmayan həqiqətdən xəbərsizdir. Həqiqəti tapmayan qaranlıqdadır. Qaranlıqda olan uçurumun kənarında olduğundan xəbərsizdir. Demək kordur, qara pərdələri çəkib, pəncərələri açıb gizləndiyi məkanına can atan ışığı, hidayət nurunu görmür.

Demək namaz yoldur, işıqdır, nurdur, örtükdür. Namaz uçurumdan qoruyan yoldur. Namazın getdiyi, yönəldiyi, həqiqət olan bir istiqaməti də var. Qiblə, Kəbə, Allah...

Qiblə məkan anlayışıdır. Coğrafi şüurdur. Kəbənin yerləşdiyi məkanı göstərən istiqamətdir. Kəbə Yerdə inşa olunmuş ilk ibadət evidir. Kəbə simvoldur. Kəbə üç ölçülü bir məkanda zamana səyahəti simvolizə edər. Ürəyin qibləsi, bir anlamda heç bir tərəf, bir anlamda hər tərəf. Heç bir tərəfdir, çünki özü bir qiblədir. İnsana şah damarından da yaxın olan, ürəyə ürəkdən də yaxın olan deməkdir. Allah insanın qəlbi ilə özünün arasındadır. Hər tərəfdir. *Şərq də, Qərb də Allahındır.* (əl-Bəqərə,142) Hara yönəlsəniz Allah oradadır... Hər tərəfdir, məkanın və zamanın xaricində edilən bir səyahətdə məkan soruşulmaz. Məkanın bitdiyi yerdə heç bir yer yol, heç bir yer səyahətçi, heç bir yer mənzildir. Hər yol O-na aparır. Namaz Ona aparan yol, onunla görüşdürən məkan. Namaz dünya məkanının xaricində Nur Allaha, güc qüvvət sahibi olan Yaradıcıya aparan yoldur...Namaz dünya məkanının xaricində Allahla qulun, rəhm edənlə rəhm olunanın, iki sevənin görüşdüyü uca məkan...Sən və O... Bu yolda xəritə yoxdur...Kiminin yolu çox uzun, kiminin yolu çox qısa...

Hər yolçuluq niyyətdən başlayır. Hər işdə bir məqsəd var. Niyyətlə hədəf, məqsəd təyin olunur. Gediləcək mənzili təyin və təsbit etmədən çıxılan yolçuluq avaralıqdır, məqsədsizlikdir... Niyyət niyə, nə üçün, necə və haraya suallarının cavabıdır. Bu suallara cavab verməyən bir namaz doğru namaz deyil. Niyyətini təyin etmədən, öz həqiqi məqsədini anlamadan qılınan namazın sahibi “Vay o namaz qılanlara ki, onlar öz namazlarından qafildirlər” deyən Məun surəsinin bu ayələrinin sahiblərinə çevrilirlər... Saleh niyyət ibadəti

adətdən, göstərişdən, riyakarlıqdan ayıran göstəricidir... Əgər dünyada müvəqqəti qonaq olan qul hər işində, hər addımında, hər ibadətində saleh niyyətini gerçəkləşdirə bilməyibsə, ibadət adətləşmiş, ya da adət ibadətləşmişdir... Niyyətin hara, mənzilin ora... Səfərdən qazanılan gəlir niyyətinin müqabilində olacaq... Demək, hər addımda atılacaq ilk və ən önəmli iş qəlbin dərinliklərinə enərək niyyət üzərində araşdırma aparmaqdan keçir. Məqsəd olan niyyət özü bir düşüncədir. Söz də, əməl də niyyətdən doğur. Niyyət yönəldici fiziki qüvvədir. Hərəkətdə olan hər bir şey müəyyən enerjiyə sahibdir. İnsan hər zaman hərəkətdədir: qəlbi, dili, beyni, ciyərləri, düşüncələri, bir sözlə maddi və mənəvi halı ilə vəhdət halında durmadan hərəkətdədir... Söz də, əməl də hərəkətdir... hərəkət varsa enerji də mövcuddur... Yəni ki, hərəkət enerji doğurur. Demək, söz, əməl bir enerjidirsə, niyyət bu enerjinin əsas hərəkətverici qüvvəsi, yəni nüvəsidir. Demək ki, niyyət bir nüvəcikdir. Niyyətin, yəni düşüncənin yaranma məqsədindən asılı olaraq müsbət, yaxud mənfi yüklənməsi də realdır... Müsbət enerji ilə yəni, işıqla, nurla yüklənmiş niyyət təbii ki, ətrafına müsbət eneji, yaxud nur səpəcək. Təbii ki, niyyət gözəldirsə əməl də gözəl olacaq. Nur, namaz yolunda nurdan olan saf ruhla yürüyə bilmək üçün mütləq və mütləq qəlbdə icra olunan nur niyyət gərəkir. Beləliklə, nur niyyətlər qəlbi də nurlandıracaq, paklayacaq və nura yaxınlaşdıracaq...Nur yolunda yolçuluq nə zaman??? Təbii ki, nurla zəngin bir zamanda. Namaz vaxtı göylərin qapıları açılır. Yaradan və bizə nur yolu öyrədən Rəbb bunu da müfəssəl izah etmişdir, Şəfa Kitabında Vel asr, Vəş şəfaq, Vel fəcr, Ved duha, Vel leyl. Zamanı Yaradan zamana and içir. And olsun əsrə, şəfəq zamanına, sübh zamanına, quşluq zamanına, gecəyə. Beləliklə, Nur Allah nurdan yaratdığıruhlara nurla zəngin zaman anlanlırnı da öyrətməkdə.

Namaz yolçuluğuna saleh niyyətlə silahlanaraq, *Allahu Əkbər* deyərək başlanır. Qəlbin ta dərinliklərindən bütün maddi və mənəvi halı ilə birlikdə, yəni cismi və ruhu, beyni və qəlbi, bir sözlə bütün hüceyrələri ilə birlikdə, vəhdət halında *Allahu Əkbər* deyə bilmək dünyaya meydan oxumaqdır. Bu gün tanrısız deyil, tam əksinə çox tanrılı bir dövrün bütün saxta tanrı və bütlərini bir hərəkətlə məhv edə bilməkdir – anlayaraq, dərk edərək *Allahu əkbər* deyə bilmək.Yalnız *Allahu Əkbər*. Yalnız Allah böyük, Yalnız Allah ali məqsəd. Niyyət - Yalnız Allah üçün... *Allahu Əkbər* namaza güc verən İlahi şüar. Həyatında Allahu Əkbər deməyən, yaşamayan, anlamayan birinin qazanacağı anlamsızlıqdan, mənasızlıqdan, çaşqınlıqdan, məğlubiyyətdən, peşmançılıqdan başqa bir şey ola bilərmi? Allahu Əkbər yaşayan, Allahu Əkbərlə silahlanan biri həyatını əbədiləşdirmənin açarını əldə edə bilmişdir... Allahu Əkbər namazın qapısıdır. Saleh niyyətlə silahlanan, Allahu Əkbər açarı ilə namazın qapısını açan birisi, dünyanı, problemləri, imtahanları, çətinlikləri, zamanı, məkanı, qəlbini çirkləndirən, beynini bulandıran hər şeyi əllərinin üzərinə qoyub arxasına ataraq yeni bir dünyaya, zamansız zamana, məkansız məkana doğru yola çıxır. *Mirac bu yolun adıdır*... Mirac heç bir bəşərin,

heç bir yaradılmışın qalxa bilmədiyi uca məqamdır... Yalnız Məqam sahibinin istədiklərindən başqa. Allah Sevgili Rasulunu çağırdı. Bəşərdən yalnız ona nəsib oldu mirac. Həbibullah Muhamməd (s.a.s) miracı bildi, tanıdı, anladı... Ümmətim, ümmətim deyərək arxasından gələn saleh niyyətlilər üçün də rüsxət, salam istədi... Saleh niyyətlilərə miraca yüksələ bilmək üçün salat, yəni dua, yəni namaz nəsib olundu. Rasulallah ümmətinə öyrətdi: Namaz mömininin miracıdır... Dəstəmazla arınaraq, nurlanaraq, ruhu namazla pisliklərdən örtərərək, qoruyaraq, qibləmizə yönələrək, Zaman sahibinin qiymətləndirdiyi, secdiyi zaman dilimlərindən istifadə edərək, yalnız Allah üçün deyibən saleh niyyətlə yüklənərək, Allahu əkbər açarına yiyələnərək gəlin Quran təbirincə salat, yəni dua adlanan namaz yolçuluğuna çıxaq, miraca çataq, Uca Xaliqlə görüşə tələsək. Miraca qalxaq, zamansız zamana, məkansız məkana tələsək. Çünki, insana əşrəf, yəni ən şərəfli, ən üstün biri deyildi. Tələsək... Zaman Sahibi zamana and içir. Zamanın qədrini bilmək gərəkir. Ötən hər saniyə ömür ağacından tökülən yarpaqlardır. Qış uzaqda deyil. Tələs. Zaman nemətinin haqq-hesabı uzaqda deyil, çox yaxındadır. Ey ümmət, gəlin, oyanaq!

## NAMAZ və ZƏKAT.

*Namaz və Zəkat* iki əkiz qardaş. Əkiz çünki, Quranda cüt səslənirlər, bərabərdirlər, vəhdət halındadırlar. Ruh və cism kimi...

“***Qurandan sizə müyəssər olanı oxuyun, namaz qılın və zəkat verin və Allaha gözəl bir borc verin. Özünüz üçün verdiyiniz xeyirlərin, Allah qatında daha xeyirli və daha böyük mükafatı olduğunu görəcəksiniz. Allahdan bağışlanmanızı diləyin. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir”*** (Muzzəmil, Örtüb bürünən, 20)

Namaz və Zəkatın adı Kərim olan Quranımızda 34 dəfə birlikdə səslənir.

Namaz və zəkat...Namaz ruhu təmizləyir, zəkat cismin istifadə etdiyi malı təmizləyir. Namazla ruhunu qidalandırmaq həzzini ala bilən, zəkat verməklə malın artmasını yaşayacaq...

Zəkatın lüğəti mənası böyümə, artma anlamına gəlir... Əkin böyüdü deyə məna verən zəkat yalnız bitkilərə deyil, mala da aid edilir. Zəkat həm də əkiz qardaşı namaz kimi təmizlənmə mənasını da verir. Artma anlamı daşıyan zəkat həm malın artmasına işarə edir, həm də insanın savabının. Zəkatın bu mənasını açıqlayan bir çox ayə və hədislər də mövcuddur. Hədislər həm də zəkatın insanın nəfsini hərislik, simiclik, acgözlülük kimi kirlərdən təmizləyəcəyinə,

günahlardan paklayıb təslimiyyatını artıracağını da ifadə etmişdir. Namaza yol dəstəmazdan başlayır, zəkata isə halal qazancdan. Dəstəmazsız namaz olmayacağı kimi, halaldan olmayana zəkat da yoxdur. Çünki dəstəmaz da bir əmr, halallıq da bir əmr. Dəstəmaz təmizlik, halallıq- təmizlik... Ruhi və cismi. Yaradan hər şeyi cüt yaratmışdır. Ağ və qara, qadın və kişi, yer və səma. Hər bir cütlük öz davamını, təkamülünü bir-biri ilə vəhdətdən qazanır. Ağ və qara - rənglər doğulur, qadın və kişi -insan nəsli davam edir, yer və səma-dünya həyatı var olur... Ruh və cism kamilliyə aparan yolda vəhdət halında çalışmalıdırlar. Ruhi arınma və cismi arınma halında ruhun qidası nur, nurun sahibi Yaradan Allah, torpaqdan yaranan cismin qidası maddiyyat, torpaqdan yaranan mal və mülk. Mal və mülkün sahibi Allah. Kamiliyə aparan yol səni Yaradan Sahibinin əmrinə tabe olmaq və sonunda həqiqi sevgiyə və xoşbəxtliyə nail olmaq lütfünə çatdıracaq. Ey Adəm övladı, sən sevgidən yarandın və həqiqi xoşbəxtlik sənin nəsibindir. Elə isə səni sevən və xoşbəxtliyin yollarını göstərən Rəbbinə təslim ol və *"Ümmətim, ümmətim"* deyərək səni gözləyən Rasulallahla görüşə tələs. Necəmi? arınaraq, təmizlənərək, sevərək, Onun əxlaqı ilə əxlanaraq, kamilləşərək.

*"O gün hər kəs etdiyi yaxşı və pis əməlləri qarşısında hazır görəcək və günahları ilə özü arasında çox uzaq məsafə olmasını arzulayacaqdaır. Allah Sizi Öz əzabımdan çəkindirir,çünki Allah bəndələrə qarşı mərhəmətlidir! De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, rəhmlidir!"Söylə: "Allaha və Peyğəmbərinə itaət edin! əgər üz döndərərsinizsə, şübhəsiz ki, Allah da kafirləri sevməz!" (Ali-İmran,30-32)*

Tələs... Zaman tələsir. Sabahdan öncə bu gün var. Bu gün də bu an, bu saniyədən başlaya bilər. Düşün: Namaz, Zəkat, Ramazan, Oruc. Ramazan bir fürsətdir. Təmizlənmək üçün... Oruc da təmizləyəndir. Təmizlən... namazla, zəkatla, orucla, Ramazandan istifadə edərək. Təmizlən və Yaradan Allahın üfürdüyü təmiz, almaz kimi saf Ruhunun qəlbinin üzərində fəthinə yardım et...

Namaz qoruyursa, zəkat da qoruyucudur, namaz qalxandır, düşməndən qoruyan bir qalxana bənzər qalxandır. Oruc da bir qalxandır. Demək zəkat da qalxan kimi qoruyur... *Yarım xurma ilə də olsa atəşdən qorunun*. Yarım xurma atəşdən necə qoruyur? Çox sadə... Yaradanın və Allah aşiqi olan Rasulun paylaşın əmrinə tabe olmaqla. İman, namaz və Allah yolunda xərcləmək - atəşdən qorunmağa bir vəsilə...

Namaz pisliklərdən təmizləyir, zəkat da malı təmizləyir. Təmiz ruh və təmiz cisim. Allah da təmizlənənləri sevir...

Namaz niyyətdən başlayır. Zəkat da niyyətdən başlayır. Oruc da. ***Yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik, Bizi doğru yola yönəlt***...Yalnız Allah üçün, kimsə üçün deyil... Pak niyyətdən uzaq olan namaz sahibinin bədən hərəkətlərindən başqa bir nəsibi

yox, kiminin orucdan qazanacağı aclıq və susuzludan başqa bir şey deyil, kiminin malı müsibətlərinə vəsilə...

*Allahım, Sənə sığınırıq... Hər ibadətimizdə saleh niyyət sahibi olmamaqdan Sənə sığınırıq. Hər niyyətimizdə doğru istiqamət götürüb Sənə tərəf yönəlməyə yardım et.* ***Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik. Bizi doğru yola yönəlt****. Allahu Əkbər deyibən bütün dünya həzzlərindən uzaqlaşaraq, təmizlənərək Sənə ucalmağa yardım et.*

Namaz və zəkatın əkiz olması nə böyük hikmət! Düşün: Hər kəsə bərabər surətdə Namaz və Zəkat əmr olunur. Deməк, namaza gücün yetdiyin qədər zəkata da gücün yetəcək. Özünü kasıb belə adlandırsan. Çünki, sənin biliyin var, qabiliyyətin var, mütləq Allahın öyrətdiyi nəyəsə sahibsən, ən azından təbəssüm... Olanından, sənə verilən nemətlərdən sədəqə ver, zəkat ver.

Namazın hissələri var. Ruku və səcdə kimi. Zəkatın da hissələri var. Sədəqə və fitrə kimi. Bir təbəssümdən sədəqə ver. Sevgidən payla. Namaz əmrinə tabe olan qul, qəlbindəki Allah sevgisi ilə paylaş. Sevgin təmizlənəcək, artacaq. Artaraq Vədud Allahın Sevgi dənizində doymadan üzəcəksən.

İslam vəhdət dinidir. Hər şeyi vəhdətdə görür. İslam səni yalnız gözəl axirətə çağırmır. Bir müsəlman kimi bu dünyanı da gözəlləşdirmək sənin borcun. Bu dünyada Cənnət yaradanlar, Cənnətə çatacaqlar. Dünyan və axirətin. İslam səni bunları bir arada görməyə çağırır. Müəllimimiz Allah Rasulunun ifadəsiylə Zəkat islamın körpüsüdür. Körpü... Axirət və dünyanı, fani və əbədini, maddə ilə mənəvini, kasıbla dövlətlini, Allahla qulu birləşdirən körpü. Zəkat zəngin birinin malını kirdən təmizlədiyi kimi, kasıbın da qəlbini kindən təmizləyir. Beləcə, cəmiyyətin iki qolu bu körpü vasitəsilə sülhə qovuşur. Zənginin qəlbi mərhəmətlə dolaraq, Mərhəmətli Allahın sevgisinə nail olur, kasıbın da qəlbi zənginə hörmət və məhəbbətlə dolaraq, şükranlığı artar ki, şükr edənləri Sevən Allahın sevgisinə nail olar. Bir cəmiyyətin hüzura çatmasının və səadəti üçün şərt olan ictimai sülhün başqa bir yolu mümkünmü? İnsanların qəlbini hüzura aparan namaz və cəmiyyəti hüzura aparan zəkat. Müsəlmanları hüzura, birliyə aparan Ramazan. Ramazan -Allaha aparan vəhdət yolu.

Nədən təravihlər Ramazanda, zəkatlar Ramazanda, oruc Ramazanda. Ramazanımız sən nə böyük Sultansan!

Uca Allahımız, səxavətli Rabbimiz, yaratdıqlarını Sevən və daima onların gözəlliyə yönəlməsini istəyən, bu məqsədlə də müxtəlif yollar var edən Ucalardan uca Mövlamız onun razılığını qazanmaq üçün edilən ibadətləri Özünə bir borc kimi qəbul edir və geniş xəzinəsinin qapısını açaraq qulunu qat-qat artıqlamasilə mükafatlandırar.

Ya Rabbim, Sən, Sən Ucalardan ucasan, İbadət olunmağa da, qarşısında heyranlıqla səcdəyə gediləcək həqiqi Varlıq da yenə Sənsən. Allahım, yardım et bizə. Yardım et Ramazan

ayımızda, orucla, namaza, zəkatla, sədəqələrlə təmizlənməyə, qorunmağa, nəhayət pak və almaz kimi bir ruhla Sənin qarşına çıxmağa. Bizi əfv et, Səni layiqincə tərif edib tanıya bilmədiyimizdən dolayı. Rasulun Səni gözəl tanıdı və sevdi, eşitdi və təslim oldu. Bizlərə də Səni belə sevdirdi. Və belə öyrətdi: *"Allah üçün sədəqə verdiyiniz mal, sizin öz malınızdır, yerdə qalan mal sizin deyil, varisindir. Belə ki, verilən sədəqə malı azaltmaz, bərəkətləndirir"*

*Namaz və zəkat*. Namazın zirvəsi *səcdə*. Səcdə heyranlıqla dolu Rukudan doğulan sevgi göstərişi. Səcdə ali eşqin göstəricisidir. Zəkatın zirvəsi də sevgidir. Allah qorxusundan deyil, Allah sevgisindən paylaşmaq. Qəlbi sevgi ilə qaynayan biri çox gözəl anlayır ki, verdiyi şey onun özünün etdiyi bir yaxşılıq deyil, üzərində kasıbın haqqıdır. Allah zənginlərin malı üzərində kasıblara haqq ayırmışdır. Bu haqqı verirkən, nə zəngin qürurlanmalı, nə də kasıb əzilməlidir. Çünki mal-mülkün həqiqi sahibi Allahdır. Allah bəzi insanları öz malı üzərində vəkil qoymuşdur. Malın görünən sahibi, həqiqi sahibinin əmrini unutmazsa, Sevdiyi Rabbinin əmrini sevə-sevə yerinə yetirər və huşu ilə qıldığı namazdan aldığı zövq kimi bir zövq alar, vəzifəsini yerinə yetirdiyi üçün qəlbi hüzurla dolar. Allahı sevən qulun cibində əqrəb yoxdur, qorxmadan əlini cibinə salaraq Allahın verdiyi hər şey ilə paylaşır və xəzinəsi geniş olan, daim bəxşişlər verən Vəhhab Allahın sevgisinə ucalar.

"***Həqiqətən, Rabbim bəndələrindən istədiyinin ruzisini bol edər, azaldar. Nə xərcləsəniz, Allah onun əvəzini verər. O, ruzi verənlərin ən yaxşısıdır."*** (Səba, 39)

***"De: Ey mülkün Sahibi olan Allah! Sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən! Gecəni gündüzə, gündüzü gecəyə bükürsən. Ölüdən diri, diridən ölü çıxararsan.İstədiyin şəxsə saysız – hesabsız ruzi verərsən"*** (Ali – İmran,26,27)

Inanmaq, namaz qılmaq, Allah yolunda xərcləmək... İslam binasının üzərində durduğu üç bünövrə. Ey Adəm övladı, bu dünyadan köçüb getdikdən sonra malın insana faydası yoxdur. Unutma verdiyin sənindir. Malının faydasını dadmaq istəyənlər onu Allah yolunda sevərək, sevinərək xərcləyirlər. Tələs... Hər gününü bir Ramazan et. Zəkat verərək, təmizlənərək, pak halda bayrama hazırlaş. Fitrə və Ramazan ayı. Bayramda sevinmək üçün ətarafındakı ehtiyac içində olanlara baxmalı, onları sevindirməlisən. Hər gününü bir Ramazan, hər gecəni bir Qədr etməyə çalış ki, qarşıdakı hər günü də bayram yaşayaraq sevinəsən. Allahın sevdiyi qullarını sevindir ki, Allah da səni hər iki dünyada sevindirsin. Tələs, bacı və qardaşlarının dərdləri ilə dərdlənməyə tələs... Dinlə, gör, Allahın sevimli qulu bizə nə miras qoymuşdur... *"Fitr sədəqəsi, oruclunun yanılaraq söylədiyi yanlış, çirkin sözlərdən təmizləyir, kasıblara bir ruzi olur.Kim onu bayram namazından əvvəl vermiş olursa, özü üçün məqbul bir sədəqədir, kim onu bayram namazından sonra verirsə, o da onun üçün normal sədəqədir "*

Ey Adəm oğlu, tələs Ramazan ayında və hər zaman imkansızlara süfrə açmaqla onların şükranlıqlarını artırasan ki, mal – mülk sahibi Səndən razı olsun.

Müəllimimiz olan Allah Rasulundan daha gözəl kim bilir həqiqəti? Muhamməd sevərlər, onun hər kəlməsini inci kimi qoruyurlar. Zatən Müsəlman üçün həqiqi inci *söz*dür. Allah Rəsulu bizi belə öyrətmişdir:

*Mallarınızı zəkatla qoruyun, xəstələrinizi sədəqə ilə müalicə edin. Bəlaya dua ilə qarşı durun.*

*Malının zəkatını verdinmi, üzərindəki borcu ödədin deməkdir.*

*Sədəqə malın miqdarını azaltmaz, artırar.*

*Malınızın zəkatını verməyiniz, İslamınızı tamamlar.*

*İslamınızın kamalı zəkatın ödənməsilədir.*

*Zəkatı ödəyən, müsafirə qulluq edən, müsibətdə olanlara verən simiclikdən xilas olar.*

*Allah zəkatını ödəməyən birinin namazını qəbul etməz, ta ki, ikisini birlikdə edincəyə qədər. Belə ki, Yaradan Allah namazla zəkatı birləşdirmişdir, siz aralarını açmayın.*

*Allah imanı və namazı ancaq zəkatla qəbul edər.*

*Kimin zəkat verəcək malı yoxsa belə deyərək dua etsin: "Allahım, qulun və elçin Muhamməde, mömin kişilərə və mömin qadınlara, müsəlman kişilərə və müsəlman qadınlara salat, rəhmətnəsib et." (Allahummə salli ala Muhamədin abdikə və Rasulikə və alalmuminine vel muminat vel muslimine vel muslimat)... Bu söz onun üçün zəkat yerinə keçər.*

*Əgər zəkatını versən, üzərindəki borcu ödəmiş olarsan. Kim haram malı toplasa, sonra da tamamilə sədəqə vermiş belə olsa, o maldan özünə bir savab çatmaz. Üstəlik vəbalı da üzərində qalmış olar.*

Allahım, haramdan Sənə sığınırıq.

Ey bacım və qardaşım, unutma Zəkat əmri Məkkə surələrində yer alır. Bu o deməkdir ki, namaz kimi nübüvvətin ilk məşəqqətli illərində, Peyğəmbərə və bir ovuc təslim olmuş müsəlmanlara artıq əmr olunmuşdu Zəkat. Qəlbi iman və inam sevgisilə dolu olan hər insan üçün namaz və zəkat insanlıq vəzifəsidir. Bu gün mənim üçün hələ tezdir, deyib zamanını öldürərək intihar etmə, bacarmıram deyib səviyyəni, qiymətini azaltma. Övladlarını diri diri basdıran bədəvi insanlar *eşitdilər və təslim oldular*. Sənə həyat verənə təslim ol!

***"Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq. Eşitdik və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla, Sənin dərgahına qayıdacağıq!"*** (əl-Bəqərə,285)

Təslim ol və kamilliyə tələs.

## SEVGİ

Sevginin nə olduğundan xəbərdarıqmı? Sevgi bir cazibə qüvvəsidir. Sevgi ürəyin bir meyvəsi. İnsan sevgini ruhu ilə yaşayır, duyur. Sevgi insanın xərclədikcə artan qüvvəsi. Sevgi varlıq sualının cavabı. Necəmi? Olmayan bir şeyə sevgi duyulmaz. Sevmək üçün obyekt gərəkdir. Sevgidən danışırıqsa demək sevən və sevilən mövcuddur. Sevgini bilən və yaşayan, qəlbində sevgi toxumu daşıyan biri mütləq onu paylaşacaq birini axtarar. Ətarafımızda gördüyümüz və görmədiyimiz, duyduğumuz və duya bilmədiyimiz hər şeyin bir Yaradanı, tək bir Sahibi mövcuddur. Sevgini Yaradan Allah yaratdığı hər varlığın nüvəsinə sevgi yerləşdirmişdir. Torpaq və bitki. Torpaq bitkini sevməsəydi, üzərində gəzdiymiz yer bitkilərlə dəlik-deşik ola bilərdimi? Üzərində bitki yetişməyən torpağı təsəvvür edək. Ölü, kimsəyə faydasız... Torpağın sevməyə və sevilməyə ehtiyacı vardır. İnsan cismani olaraq torpaqdan yaranmışdır. Torpağın faydalı olmağa da ehtiyacı vardır. Daha gözəl nemətlər yetişdirə bilən torpaq daha sevimli olur. Və torpaqdan yaranan insan. Ruhi və cismani sevgi arasındakı sevgiyə fərq qoya bilməyəndə problemlər başlayır. Qeyd etdik ki, Yaradan və hər şeyi yönləndirən Rabbimiz hər bir yaratdığının əsas hərəkətverici qüvvəsi olan nüvə yerləşdirmişdir. Yaradan və Yönəldən Allahın əmrinə tabe olan hər bir nüvəcik gücünü sevgidən alır. Məgər maqnit dəmir zəncirə olan sevgisindən onu özünə cəzb etmirmi? Məgər Səmanı sevməyi Yerə Yaradan Öyrətməyibmi? Məgər Yaradanın sevgi əmrinə tabe olan səma Yeri sevməsəydi onu bu cür ixlasla sevərək qoruya, yaşada bilərdimi? Baxmayaraq ki, sevdiyi, qoruduğu Yerin doğduqları durmadan ona zərər verirlər, hələ bir qəlbində ozon deşiyi deyilən bir deşik də açıblar. Səma sevgisi səbəbilə dözür, Yaradanının əmri gəlincəyə qədər faydalı olmağa can atacaq. Çünki, o, sevən Allahdan sevgi əmri almışdır. Alimlərin cazibə qüvvəsi adlandırdıqları sevgidən qaynaqlanan cazibə deyilmi? Hər şeyin olduğu kimi sevginin də qaynağı Allah (c.c) dır. Sevgi bulağının qaynağı Ondan qaynaqlanır.

Yer üzündə var olmuş bütün sevgi məktəbləri olan din Ona məxsusdur. İnsanlığın tanıyıb bildiyi, nümunələr olaraq gördüyü Sevgi müəllimləri olan Peyğəmbərlər Allahın Sevgi məktəbinin məzunlarıdır. Sevginin ölümsüz kitabı olan insanlığa doğru sevginin yolunu göstərən Kitabımızı da O yazmışdır. Çünki, əbədi, əzəli olan Yaradanın bir də Vədud ismi var. Yəni çox sevən... Çox sevən Vədud Allahımız eyni zamanda, həm də çox sevilәndir. Çox sevən və çox sevilən Vədud Allahımız... O, özünü bizlərə belə tanıdır... Onu tanıdan ən gözəl, ən möhtəşəm qaynağımız Qurani Kərimdə və Kainat kitabında. Yalnız sənin, mənim deyil Rasulumuzun, Nizamilərin, Tusilərin, Nəsimilərin, Füzulilərin daha hansı korifeylərin qaynağıdır Quran. Onlar Qurandan qidalanaraq ucaldılar, Sevməyi Qurandan öyrəndilər. Həqiqi eşqi Qurani Kərimin vasitəsilə öyrəndilər, yaşadılar, yaşatdılar...

***“ O çox bağışlayan və çox sevəndir. ”*** (əl-Buruc, 14)

Yaradanın sevgisindən bəhrələnən ətrafına da sevgi toxumları səpəcək və hər iki dünyasını Cənnətə çevirəcək...Belə ki, Yaradanın sevməsinin digər adı Cənnətdir...Sevginin açılaraq, şaxələnərək əşyaya dönməsidir Cənnət... Axı bizim Uca Yaradanımız yalnız Sevən, yalnız Sevdirən deyil, həm də Sevindirəndir... İnsanın ruhunun tələbi nədir? Əşrəf İnsanın həqiqi məkanı haradır? Möminin Vətəni haradır?...Əlbəttə, Cənnət... Mümkünmü çox sevən, çox sevilən çox sevindirməsin? Allah özünü yaratdıqlarına Vədud olaraq tanıtdı. Bu, Uca Mövlamızın, çox sevəcəyi, Onu çox sevən birilərinin olmasından xəbər verir. Bu səbəbdən də sevgi varlıq sualının cavabıdır. Quran sevgisindən qidalanan Nizamilər Sevgini tanıdılar və "Eşqdir mehrabı uca göylərin, Eşqsiz ey dünya nədir dəyərin" düşüncəsi ilə yaşadılar, var oldular.

Ey İnsan, bəs sənin eşqsiz bir dəyərin varmı? Ey üflənən Ruh, təmizlənmək və arınmaq üçün səni sevən Yaradan fürsətlər də var etmişdir. Ətrafında cərəyan edən hər bir şey yalnız sənin xeyrinə yönləndirilimişdir. Fürsətlərindən istifadə edərək təmizlən, arın, özünü dərk et. Ey üflənən ruh, sevgili Varlığın həqiqi məkanı olan Qəlbi fəth etməyə tələs. O zaman Qəlb anlyacaq ki, "Allahın var nəyə möhtacsan? Allahı olmayanın heç nəyi yox" Faydası olmayan, sevgisizlikdən daşa dönən bir heç...Hər bir yaradılmışın Sevgiyə ehtiyacı var. Nə xoşbəxt Qəlbin qidası olan həqiqi sevgi obyektində yanılmayanlara. Həqiqi sevgiyə layiq Allahımızın Rahmən, Rahim adları var, amma uca Mövlanın bağışlanmağa ehtiyacı yoxdur. Ğafurdur, bağışlayandır, amma kimsəyə ehtiyacı yoxdur. Hökm edər, amma hökm olunmaz, ruzi verən Razzaqdır, amma kimsə tərəfindən ruziləndirilməz. Allah ucalardan ucadir, hər bir şeydən münəzzəhdir. Lakin Yaradan, Var edən Xaliqin özü üçün seçdiyi Vədud ismi bir qədər fərqlidir. Allah (c.c) sevgini qulları ilə paylaşmaqdadır. O, onları, onlar da Onu sevməkdədir. Digər nemətlərinə qarşılıq *ibadət* istədiyi, halda sevgi nemətinə isə qarşılıq gözlənilir. Sevginin rəqibi olan başqa bir anlayış yox. Yaradan onu varlığın ortaq dəyəri etmişdir. Hər bir yaradılmış sevgidən doğmuş, sevib sevilməyə möhtacdır. Ucalardan uca Mövlamız bəxşiş verir-almır, yaşadır-yaşadılmağı istəmir, qoruyur-qorunmağa ehtiyacı yoxdur. Amma, sevgi...Rabbimiz onu bütün varlığa aid edərək, sevmiş və sevilməyi istəmişdir...Həmd olsun aləmlərin Rabbinə. Zatən həqiqi sevgiyə Ondan layiq biri varmı???

*Allahım, qəlbimizi aç, təmizlə, zənginləşdir, sevginlə doldur.*

Yaradılmışın, məxluqatın var olma səbəbi olan sevgi toxumunun, əkilə biləcəyi ən münbit torpaq ürəkdir. Vədud Allahın lütf etdiyi bu möhtəşəm toxum daşlardan, kəsəklərdən, çirkabdan təmizlənib, əmək və zəhmət sərf etməklə, göz yaşlarıyla sulanmış, arınmış təmiz və səlamətdə olan səlim bir qəlbə əkilərsə, ürək xərclədikcə bitib tükənməz bir xəzinəyə çevriləcək, bu toxum birə on deyil, birə yüzminlərlə bar verən ürək torpağının tükənməz xəzinəsinə

çevriləcək... İnsan ürəyinin bu meyvəsindən əbədi yaşayacaq və yaşadacaq toxumlar əldə etmək üçün 3 şey vacibdir. Cins toxum olan sevgi, baxımlı tarla olan qəlb, fədakar bir bağban.

Sevgi kainatın yaradılış hikməti, insanın ölməz dövləti, möminin dünyadakı Cənnəti, bütün varlıqların tək və ortaq sərvəti. Yaradan Allah Ona üsyan edən, Ona qarşı çıxan, Ona təslim olmayan qullarını sevməməklə qorxudur. Allaha itaətin göstəricisidir sevgi, itaətsizliyin göstəricisi isə sevgisizlikdir. Qorxu və sevgi... Təbii qorxu olmalı, amma səbəbi əzab, qəzəb, atəş, cəhənnəm olmaq yerinə sevgi olmalıdır. Qorxunun saydıqlarımız səbəbləri Yaradan Rəbbimizin sevməməsinin bir nəticəsi deyilmi? Allaha qarşı hiss edilən qorxunun təməli cəzaya məruz qalmaq deyil, Sevən, Rahmən və Rahim, Bağışlayan, Bəxşişlər verən Allahla arasında var olan sevgini itirmə qorxusudur. Allahdan qorxunun səbəbi sevgi olan qorxudur. Quldan, təslim olmuş insandan istənilən bu deyilmi? *Səbəbi sevgi olan qorxu təqva deyilmi?*

Yönləndirən və yaratdıqlarını doğru yola çağıran, haqqı göstərən Rabbimiz Kitabını sevmək və sevməmək üzərində qurmuşdur...

Qurani Kərimdən incilər...

***Allah xainləri sevməz***; ***Allah tövbə edənləri sevər***;

***Allah müttəqiləri sevər***; ***Allah həddi aşanlaı sevməz***.

Sevgi orbiti ətrafında hərəkət edən ayələrin sayını çoxaltmaq mümkün. Ey qəlbini Allah sevgisi ilə doldurmaq istəyən Adəm övladı, Allahı sevirsinizsə Ona, Mövlamıza itaət edin. İtaət edin ki, sevginiz sözdə qalmazın, əmələ keçsin. Sevginin qarşılığını ödəyin. Sevdiyiniz Allah üçün, Onun sevgili Rəsuluna itaət edin ki, Qəlbiniz əlində olan Allah Qəlbinizi sevginin fəth etməsinə yardım etsin.

“Rahmən və Rahim Allahın adı ilə başlayır və Aləmlərin Rəbbinə həmd olsun deyərək” beləcə sevgidən tərbiyəyə addım atırıq... Öncə Ona İlah deyir, sonra Rəbb deyirik. Əvvəl Allahı sevib, sonra Onun Sevgisindən bəhrələnmək üçün Onun tərbiyəsi ilə tərbiyələnir, Allahın əxlaqı ilə əxlaqlanırıq, Allahın rəngini qəbul edərək, ***“Allahın dinindən daha gözəl olan kimdir, Biz ancaq Ona ibadət edənlərik”*** deyib, yaşayıb, Sevgi selində üzərək əbədi xoşbəxtliyə yaxınlaşmış oluruq.

*Ya Rabbim, nəsib et. Sənin firqəndən olmağı nəsib et...Oruclunun duasını qəbul edən Rabbimiz dualarımızı qəbul et, Bizləri sev... Allahım, sənin adın əlif ilə başlar, hə ilə bitər... Dildə başlayıb, ciyərdə bitər. Allahım, hər nəfəsdə Sənə ehtiyacımız var...*

Ey Allahı sevən Və Onun Sevgi selində üzmək istəyən Adəm övladı, Sevgini sübut etmək zamanıdır. Unutma, hər saniyə ömür ağacından gedir. Tələs... Rəbbinin Ramazan fürsətindən faydalan... Sevginin bədəli olan itaəti ən gözəl şəkildə yerinə yetirmək üçün səy göstər, cəhd et. Hər cəhdinizlə Allaha sevginizi göstərmiş olacaqsınız ki, Yaradan da sizi sevəcək. Yalnız bu qədərmi? Yerin, göylərin ixtiyar sahibi də Sevgisini sənə isbatlayacaq...

Siləcək günahlarını,  bağışlayacaq səni. Sənin Allaha sevginin isbatı itaətdirsə, Vədud Allahın sənə olan sevgisinin isbatı məğfirət, yəni bağışlanma olacaq... Beləcə, O, səni sevdikcə, sənin Qəlbin sevgi ilə dolaraq itaətin artacaq,  itaətin artdıqca, Gözəl Allahın bağışı və rəhməti artacaq... Zaman – zaman Allahın dostu səviyyəsinə qalxa bilərsən, Mələklərin sevgisinə nail olarsan. Nə müdhiş formul... Bu formuladan xəbəri olmayanları,  üzünə göylərin qapılarının açılmasından xəbəri olmayanları tut və səslən...” Əgər Allahı sevirsinizsə...

***“De: “Ürəklərinizdəkini gizli də saxlasanız, aşkara da çıxartsanız,  Allah onu bilir. Çünki O göylərdə və yerdə nə varsa bilir. Allah hər şeyə qadirdir! O gün hər kəs etdiyi yaxşı və pis əməlləri qarşısında hazır görəcək və günahları ilə özü arasında çox uzaq məsafə olmasını arzulayacaqdır.  Allah sizi Öz əzabından çəkindirir,  çünki Allah bəndələrə mərhəmətlidir!” De:” Əgər Allahı sevirsinizsə,  mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın,  Allah bağışlayandır,  rəhmlidir ” (Ali-İmran,  29-31)***

Dəfələrcə hər kəsdən xəbər al. ”Allahın var nəyə möhtacsan? Allahın yoxsa nəyin var? Tələs!!! Tələs! Ey Allahı sevən Qul, Göylərin qapılarının açılma zamanıdır, əllərini aç,   güclü olandan istə,  xəzinəsi sevgi,  mərhəmət, nur, elm olandan istə. Unutma, O, təkəbbürlüləri sevmir. Bütün pislikləri Qəlbindən çıxar,  sevgiylə doldur,  Sevgini yaradana yönəl.  Unutma, Rəbbin sənə belə söz verir:

“***Həqiqətən, iman gətirib yaxşı işlər görənlər üçün Rahmən bir sevgi yaradacaq***.” (Məryəm surəsi,  96)  və əmin ol...

***“İnananlar isə ən çox Allahı sevərlər.”*** (Bəqərə,  165)

Allahım, Ey aləmlərin Rabbi! Ey Sevgiyi Sevgiylə Yaradan!  Ey Sevən,  Sevdirən və sevindirən!  Ey Rəhmətin sonsuz qaynağı! Ey mərhəmətlilərin ən mərhəmətlisi! Ey qəlblərin, könüllərin mütləq hakimi! Allahım! Ey Vədud olan! Həm Sevən,  həm də Sevilməyi diləyənsən. Ey varlığı sevgi olan, ey sevginin sonsuz qaynağı! Biz var etdiyini sevirik, Sən sevincə var edirsən! O sonsuz xəzinəndən bizim üçün də bir sevgi var et! O, sonsuz sevgi selinin içinə bizi də qat:. Sev bizi... Sən sevirsən, sevdirirsən... Sevdir bizi! Sevdiyini Cənnətinlə sevindirirsən, sevindir bizi! Sevdiyini razılığınla sevindirirsən, sevindir bizi... Sən sevdiklərini bir yerə toplayırsan, bizləri sevdiklərinlə görüşdür... Ya Rəbbimiz, hər iki dünyada ətrafımızı sevdiklərinlə zənginləşdir...  Ey Nur Allahım! Qəlbimizi nur olan sevgiylə doldur. Qəlbimizin Sənin nuruna ehtiyacı var. Nur ayələrini oxuya bilmək üçün bizə nur ver.

**OXU!**

Sevən Allahın sevdiyinə ilk əmri. İKRA... Oxu... Sevən birinin tələbi sevgisindən doğmurmu? O ki, qala, O sevən Həm Yaradan, həm gizlinin gizlisini bilən, həm hər şeydən xəbərdar olan, həm sevdiklərini zülmətdən nura çıxartmaq üçün mələkləri ilə birlikdə mərhəmət bəxş edən, ucalardan uca, alilərdən Ali, Gözəl Allahdırsa... Demək, Onun sevdiklərindən istədiyi yalnız onları ucaltmaq, əşrəf adına layiq etmək üçündür. Ey Adəm övladı, sənə əşrəf dərəcəsini verən Xaliqinin, Rəbbinin ilk əmrinə diqqət et...!!!

***Bismillahir -rəhmanir-rəhim!***

1. ***Yoxdan yaradan Rəbbinin adı ilə oxu!***
2. ***O, insanı laxtalanmış qandan yaratdı.***
3. ***Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir!***
4. ***O Rəbbin ki, qələmlə yazmağı öyrətdi.***
5. ***İnsana bilmədiklərini öyrətdi.***
6. ***Xeyr, insan azğınlıq edər,***
7. ***Özünün dövlətli olduğunu gördüyü üçün!***
8. ***Axı, sənin axır dönüşün Rəbbinədir!***
9. ***Gördünmü o kimsəni ki, mane olur***
10. ***Bir bəndəyə namaz qıldığı vaxt?***
11. ***Bir de görək, əgər o doğru yoldadırsa,***
12. ***Yaxud qorxmağı əmr edirsə,***
13. ***Bir de görək, (əgər sənin namaz qılmağına mane olan kimsə Qur'anı) yalan sayır və (imandan) üz döndərirsə,***
14. ***Məgər bilmir ki, Allah görür?!***
15. ***Yox, yox! Əgər son qoymasa, and olsun ki, Biz onu kəkilindən yapışıb (Cəhənnəmə) sürükləyəcəyik -***
16. ***Özü də yalançı, günahkar kəkilindən!***
17. ***Qoy o özünün bütün tərəfdarlarını (köməyə) çağırsın!***
18. ***Biz də zəbaniləri (Cəhənnəmdəki əzab mələklərini) çağıracağıq!***
19. ***Yox, yox! Sən ona uyma! Sən ancaq səcdə et və (Ona) yaxınlaş!***

Rəbbinin adı ilə Oxu.

Nəyi oxu? Nədən Rəbbinin adı ilə? Nədir Onun adı?

Onun adı Rahman və Rəhim. Rəhman və Rəhimin adı ilə başlayıram oxumağa. **Bismillahir Rahmanir Rahim.** Özünə rəhmli olmağı yazan Rəbb yaratdı. O, Yaradandır. Yaratdıqlarını yoxdan yaratdı. "Ol" dedi, oldu. İstədiyi bir şeyin yaranması üçün Onun "ol" deməsi, hökm verməsi kifayətdir, yetərlidir. Rəhman və Rəhim yaratdı. Allah-təala hədisi qüdsidə buyurur: "Mən gizlin xəzinə idim, tanınmaq istədim, məxluqatı yaratdım. "Yaratdıqlarını oxuması, öyrənməsi üçün oxuyan birini yaratdı. İnsanı yaratdı, ona biçim verdi, surət verdi. Musavvir Rəbb laxtalanmış qandan İnsan yaratdı. Nütfədən, laxtalanmış qandan yaranmış birinə oxumaq üçün təfəkkür verdi. Bəli, bizim **Rəbbimiz ən böyük kərəm sahibidir (3).** Yoxdan yaranan insan, Rəbbin sənə qələmi də öyrətdi. Laxtalanmış qandan yaranan insan, Rəbbin sənə bilmədiklərini öyrətdi. Bəli, öyrətdi, xəlif etdi.

"***Sənin Rəbbin mələklərə: "Mən yer üzərində bir xəlifə yaradacağam" – dedikdə, "Biz Sənə şükr etdiyimiz, şəninə təriflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?" – söylədilər. "Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu. Adəmə bütün şeylərin adlarını öyrətdi. Sonra onları mələklərə göstərərək "doğrusunuzsa, bunların adlarını Mənə bildirin" – dedi. Onlar, Sən paksan, müqədəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. Bilən Sən, hikmət sahibi Sənsən – dedilər. Ey Adəm, bunların adlarını onlara bildir – dedi. Onlara bunların adlarını xəbər verdikdə: "Mən sizə, göylərin və yerin gözə görünməyən sirlərini və sizin gizlində və aşkarda nə etdiyinizi bilirəm, söyləmədimmi? "*** – buyurdu... ( Bəqərə, 31-33)

Gecə-gündüz usanmadan, yorulmaq bilmədən Rəbbinə ibadət edən mələklərə belə öyrətmədiklərini Sənə öyrətdi. Öyrətdi və oxu dedi. Oxumaq sənin yükün, vəzifən, boynundakı haqqın. Oxu, Rəbbinin adı ilə oxu. Nəyimi oxuyaq? Rəbbinin nemətlərini sayıb qurtara bilməzsiniz! Demək, qəbrə qədər oxumaq yazılmış bizə, belə ki, nə qədər oxusaq da, oxuyub qurtara bilməyəcəyik. Elə isə nəyi gözləyirik?! Haqq-hesab çox yaxındır. Ölüm mələyi hər an qapını döyə bilər, ey yoxdan, laxtalanmış qandan yaranan insan. Ətrafına bax, gözlərini aç, ağlını, qəlbinin gözünü aç! Yoxdan yaradılmış hər varlıq bir Kitabdır. Neçə-neçə açılmamış Kitablar səni gözləyir, ey laxtalanmış qandan yaranmış Xəlif. Kitablar yalnız Rəbbinin adı ilə oxunmağa başlanmalı. Rəhman və Rəhim Rəbbinin. Bəlkə, sənə mərhəmət göstərib, lütf edib elm yolunu aydınlada. Oxu, yalnız insana oxumaq və qələm öyrədildi, heyvana deyil. **Xeyr, insan azğınlıq edər (6).** Yox, yox azğın olan sənə İnsan olduğun səbəbilə düşmən kəsilən İblisdir. Ey Adəm övladı, sən azğınlıq edə bilməzsən. Nədən? Nədən Xəlifəlikdən rəzilliyə düşmək?! **Özünün dövlətli olduğunu gördüyü üçün (7).** Yox, yox özünü Səndən İblis ağıllı, üstün hesab etdi və nəticədə Rəbbinin mərhəmətindən Rəhman və Rəhim adından məhrum

edildi. Son dönüşü əzab olacaq. Ey İnsan, ey oxumaq üçün yaradılmış Xəlif, **axı, sənin axır dönüşün Rəbbinədir (8).**

Sənin axır dönüşün Rəbbinədir. Oxu. Axır dönüşdə oxuduqlarından imtahan ediləcəksən. İmtahana hazırlaşmaq üçün oxu! Oxu! Yoxdan yaradan Rəbbinin adı ilə oxu. Fatihə kimi möhtəşəm açara yiyələn və de: **1. Rəhman və Rəhim Allahın adı ilə. Həmd olsun Allaha, aləmlərin Rəbbinə. Mərhəmətli, rəhmli olana. Haqq-hesab günümüzün Sahibinə. Biz yalnız Sənə ibadət edirik, yalnız Səndən kömək diləyirik. Bizi doğru yola yönəlt. Nemət verdiyin kəslərin yoluna, qəzəbə düçar olmuşların və azmışların yox!**

De və xatırlat, sorğu - sualın labüd olacağı ilə laxtalanmış qandan yarananları qorxut. Səni haqdan azdıranlara uyma. Qəti uyma. Düşün, çox düşün kimdir səni haqdan uzaqlaşdıranlar. Onlara uyma. Sən yalnız və yalnız səni laxtalanmış qandan, bir heçdən yaradan, sayıb qurtara bilməyəcəyin nemətlərlə ruziləndirən Rəbbinə **səcdə et və Ona yaxınlaş (19)! Axı sənin axır dönüşün Rəbbinədir (8).**

Hər işini Rəhman və Rəhim Allahın adı ilə başla. Oxuya isə Səni tərbiyə edən Rəbbinin adı ilə başla... Unutma... İkra -nı unutma...

Rəbbin adı ilə başlayan Oxunun sonu Ona yaxınlaşmaqla sonuclanır.

**1. Yoxdan Yaradan Rəbbinin adı ilə oxu! ... 19. və Ona yaxınlaş.**

## Düşmən

Bir şəxs digərini sevə bilmir, bəyənmir. Nədən? Şeytan da Adəmi sevmədi, bəyənmədi. Ona hörmət etmədi, daha da irəli gedib ona nifrət edərək düşmən kəsildi. Unutdu ki, Adəm də onu yaradan Qadir, Xaliq Allah tərəfindən yaradılıb.

Allah buyurdu: ***"Ey İblis! Sənə mənim öz əlimlə yaratdığıma səcdə etməyə nə mane oldu?Təkəbbür göstərdin, yoxsa özünü yuxarı tutdun?"*** (Sad, 75) İblis isə içindəkini açıq söylədi: ***"Mən ondan daha yaxşıyam"*** (Sad, 76).

Xislətində unutqanlıq gəzdirən yenə də unutdu ki, hər şeyi Xaliq bilər, bizlər yalnız yaradılmışlarıq. Yaratdığı məxluqların, varlıqların arasında kimin daha yaxşı və ya üstün olduğunu yalnız və yalnız Yaradan bilər. Düşüncəni, duymağı, sahib olduğumuz hər bir şeyi o bizə nemət, ruzi olaraq vermiş. İndi düşünək. Bizlər, biz insanlar Rəbbimizin yaratdığı mükəmməl varlıqlar olaraq özümüzə, qarşılıqlı surətdə bir-birimizə bizə - Adəm övladlarına nifrətindən, qısqanclığından, düşüncəsizliyindən, qeyri-sevgi hissindən düşmən kəsilən İblisin göstərdiyi münasibəti göstərmirikmi? Nə zaman?! Təkəbbürlük etdiyimiz, qürur girdabına yuvarlandığımız zaman onun kimi təkəbbürlüyümüz üzündən bir-birimizə düşmən kəsilmirikmi, qeyri-məhəbbət münasibəti göstərmirikmi? Nədən? Mən daha üstünəm, daha üstün münasibətə, məhəbbətə layiqəm demirikmi? Amma... unuduruq... Düşmənimiz kimi unuduruq. Unuduruq, düşünmürük ki, səni, məni hər birimizi O, Yaradıcı yaradıb. Yaradanı sevən, Onun yaratdıqlarını necə sevməyə bilər? Ona səcdə edən, digər səcdə edənləri necə sevməyə bilər? İnsan mükəmməl varlıqdır. Rəbbimizin şah əsəridir. Şah əsəri necə sevməmək olar?!

***"Ey iman gətirənlər! Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, onlar o birilərindən daha yaxşı olsunlar. Qadınlar da bir-birinə (rişxənd eləməsin). Bəlkə, onlar o birilərindən daha yaxşıdır. Bir-birinizə tənə etməyin (ayıb tutmayın) və bir-birinizi pis ləqəblə çağırmayın"*** (Əl Hucurat, 11)

İki qarşı gələn insana haqq - hesab günündə sorulmayacaqmı "Mənim yaratdığıma nədən hörmət etmədin?" Açıq deyə biləcəyikmi ki, mən daha üstünəm? Yaxud da içimizdəki qeyri - səmimi hissləri necə etiraf edə biləcəyik? İnsan insanı necə sevməyə bilər? İnsan necə bölüşməyə, paylaşmaya bilər? Bu əlindəkilər, sahib olduqların sənin deyil, axı.

***"İnsanın elə bir dövrü olub keçmişdir ki, o, xatırlanmağa layiq bir şey olmamışdır. Həqiqətən, Biz insanı qarışıq bir nütfədən yaratdıq. Biz onu imtahana çəkəcəyik, Biz onu eşidən və görən yaratdıq. Biz ona haqq yolu göstərdik. İstər minnətdar olsun, istər nankor "*** *(*İnsan 1-3)

Haqq yolunu, nur yolunu, sevgi yolunu seçmək sənin iradənə verilmişdir. Rəbbinlə ünsiyyətə can ataraq, düşmənin hiylələrinə qarşı qorunaraq silahlan. Aç qəlbini, təmizlən, yeniləş... Yaradanın sevgi dalğaları üzərinə köklən.

Sən sevməyi bacarırsan. Sevgini də qəlbinə Sevən Allah yerləşdirib. Sevgidən nə ixtiyarla paylaşmırsan? Amma, sevgi tələb edirik. İnsan insanı necə sevməyə bilər? Ən dəhşətlisi insan insanı necə öldürə bilər? Yaradanın şah əsərini, yer üzündəki xəlifini. Unutmayaq. Unutmayaq ki, bütün qüvvələr ümumi düşmənə tərəf yönəlməli. Bizi Yaradana ibadətdən, itaətdən, şükürdən, düşüncədən, düşünmək qabiliyyətindən, təfəkkürdən məhrum edənə qarşı. O düşməni hər bir yerdə axtarın, görün, onun düşmənçiliyindən Hifz edən, Qoruyan Rəbbinizə sığının... Aç qəlbini, aç qəlbinin gözünü, aç... İnsanlığın düşməni öndən, arxadan, soldan, sağdan sənə nəzər yetirir, zəif anını yaxalayamaq üçün tələlər hazırlayır...

İdrakımızın varlığına, səviyyəsinə görə bizi bəyənmədi. Təkəbbürlü olan Odur. Allah bizləri təkəbbürdən qorusun. Adəm övladı, unutma, səni təkəbbürə, mənfiliklərə, qaranlığa, cəhalətə çəkən O-dur. Düşünən, axtaran Rəbbini tapar.

***"...Korla görən və ya zülmətlə nur eyni ola bilərmi?!"*** (ər-Rad, 16)

Əlbəttə, yox. Bizim nura ehtiyacımız var. O nurdur ki, beynimizin hər qatını işıqlandıracaq, nurlandıracaq ki, gözlərimiz, qəlbimizin, beynimizin gözü də nurlanıb görəcək, duyacaq, dərk edəcək, biləcək. İçimizi sevgiylə, məhəbbətlə doldurmalıyıq. Xilas bundadır, nur bundadır. Qeyri-sevgi, qaranlıq düşüncələr, mənfiliklər düşmənə aparacaq. O, nifrətindən bizi kiçik görmək istəyir. Qorunaq. Qəlblərimizi kömürləşdirəcək toxumlardan qorunaq. Təkəbbür. Allah bizi – Adəm övladlarını düşmənimiz İblisin yaşadıqlarından qorusun. Təkəbbür – Şeytanın silahıdır. Nifrət, mənfiliklər onun silahıdır. Özümüzü qoruyaq. Düşünərək, dərk edərək qoruyaq. Düşmən unutqandır, naşükürdür,düşünməyi və anlamağı bacarmır, qədir bilən deyil, həqiqi sevgidən məhrumdur.

Nicat elmdədir. Elm Allahındır. Elm nurdur.

***"Sizi zülmətdən nura çıxartmaq üçün mələkləri ilə birlikdə sizə mərhəmət bəxş edən Odur. Allah möminlərə rəhm edəndir "*** (Əhzab, 43)

Mərhəmət nurdur. Sevgi nurdur. Sevənlər işıq saçır, ətrafını gözəlləşdirir. Allah gözəldir, gözəlliyi sevir.

*Sevgiyə,gözəlliyə can atanlardan elə bizi,Rəbbim. Düşmənimizin fitnəsindən, silahlarından Sənə sığınırıq, Rəbbim. Yaradan və Qoruyan yalnız və yalnız Sənsən. Səndən başqa ilah yoxdur.*

***“Həqiqətən, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlərin üzərində Şeytanın heç bir hökmü yoxdur. Şeytanın hökmü yalnız ona itaət edib Allaha şərik qoşanların üzərindədir “*** (Ən Nəhl, 99-100)

*Aləmlərin Rəbbinə həmd olsun.*

*AMİN*

## İslam dinində “ BİZ “ VƏ “FAYDA” hikməti anlayışı.

Özünü ruhi – mənəvi həyata yönəltmək istəyən bəzi kimsələr var ki, dünyadan əl və ətəyini tamamən çəkmiş halda yaşayırlar. Bunlar əlbəttə ki, mələkləri xatırladırlar. Lakin getdikləri bu yolun faydası yalnız özlərinədir ki, insan cəmiyyəti bundan heç bir fayda götürə bilmir. Bütün bu kimsələr insanın ruh və bədəndən ibarət mütəşəkkil bir quruluşu olduğunu unutmuşlar. Bu vəziyyət nəticəsində belə insanların Yaradan qarşısında heç bir dəyəri qalmır. Belə ki, hər bir şeyi səbəblər və nəticələr zənciri halında yaradan və hər bir səbəb – nəticə örtüyünün arxasında hikmət qoyan Rəbbimiz ən böyük var olma səbəblərindən, qüvvəsindən ən başlıca olaraq fayda hikmətini yaratmışdır, var etmişdir. Hər hansı bir varlığın dəyəri onun faydalı ola bilmək ölçüsü ilə müəyyən olunur. Adi bir otu düşünün... Allahın istəyi və izni ilə göydən yağış yağar, torpaq dirçələr, bitkilərlə dəlik - deşik olar, günəşdən aldıqları işıq və torpaqdan içdikləri su ilə yamyaşıl olar, sonra saralar və çör çöp olar. Amma çör-çöpə çevrilmiş yam –yaşıl otlar yenə də fayda hikmətinə sadiq qalmaqdadırlar. İstifadəmizə verilmiş hər bir varlıq fayda hikmətindən xali deyildir. Təbii, bunlarda düşünənlər və ibrət alanlar üçün örnəklər, ibrətlər mövcuddur. Fayda hikməti... Və İnsan... Vəzifə artdıqca, məsuliyyət də artmaqdadır...

Allahdan güc alaraq kamala çatmaq və eyni zamanda bölüşmək. Paylaşmaq dini İslam maddi yardımlaşma ilə bitmir. Səsini eşitdirə biləcək hər kəsə öz daxili tarazlığını qorumaqla mənəvi zənginləşmə yolunda müraciət etməlidir. Hər kəsə müraciət yalnız fayda hikmətini bilməklə yetməyəcək. İlk öncə daxili təmizlənmə, daxili mücadilə, nəfsani cihad, nəfsin təzkiyəsi prosesi baş verməlidir.

Öncə dağıtmaq, parçalamaq, məhv etmək: “Lə” deyəcəksən. *Lə ilahə illəllah* “lə” - dən başlayır. Yox deyib, qəlbində bir inqilab edəcəksən. Yox deyəcəksən: daxili küfrə, cəhalətə, qaranlığa, nəfsin dürtmələrinə, şeytanın vəsvəsələrinə. Yox deməklə bitməyib, İbrahim kimi şeytana daş belə atmalısan. “Yox” demək azdır. Kifayət olsaydı, təvəkkül simvolu, Allah üçün qurban verməyi bacaran atamız İbrahim Şeytanın vəsvəsələrinə “yox” deyib keçərdi, amma nümunəmiz belə etmədi... “Yox”la, inkarla kifayətlənməyib, qaranlıqlara çəkən, aydınlıq yolumuzun və İnsanın yeganə düşməni İblisə daş atdı. Qəlbini, ətrafını bütlərdən təmizlədi. Və İbrahim ailəsi olaraq “Allah üçün tərk etməyi” öyrətdi. Allah üçün qurban verməyi, Alah üçün yaşamağı, bir sözlə Allahı tanımağın və Ona yaxınlaşmağın yollarını öyrənməkdə bir örnək və ibrət oldu. Qəlbini təmizlədi, bütlərdən boşaltdı. Sonra bu boşluq gözəlliklərlə, nurla dolmalı və paylaşılmalı. Öncə yox deyəcəksən, çünki işıq və qaranlıq, gözəllik və eybəcərlik eyni bir məkana sığmaz. İbrət qəhrəmanı, örnək elçilər belə etdi, belə öyrətdilər.

Nemətlər paylaşıldıqca artır. Elm verildikcə alınır; öyrətdikcə öyrənmək mümkün. Daxili mən ölmədikcə, müvəffəqiyyətdən söhbət gedə bilməz. "**Mən**"in ölümü isə yalnız elmlə mümkündür. Elm artdıqca səcdə gözəlləşir, tamlaşır.

Fayda hikmətini görən kəs faydalı olmağa can atacaq. Kimsəyə zərər vermədən faydalı olmaq isə yalnız elmlə mümkün. Elmi olmayan kimsələrin, məhv etdiyi, zədələdiyi düzəltdiklərindən daha çox olacaq. Bir sözlə insan Rəbbinin "Oxu" əmrinə tabe olaraq, onu bir qətrə sudan yaradan Rəhmana təslim olaraq, Mövlaya layiq qul olmağa cəhd edərək, daima O – na hicrətə hazır olaraq, Vədudun sevgisinə ümid edərək hər kəsi sevməli və nəfsinin təmizlənməsi üçün Xaliqinə yalvararaq "Ya Rəbbim, yaxamızdan tut etdiyimiz hər işi Sənin rizan üçün etdir" deyə dua edərək, "Ümmətim, ümmətim" deyən Rəsullallahın arxasından yüyürməlidir. O, Rəsulallahın ki, təbliğ üçün getdiyi Taifdə daşa basılsa da, fiziki deyil, mənən kor, kar, zavallı, aciz qullara qarşı qəlbində bir inciklik yaşamadan dua etmişdi. Dua etmişdi, "bəlkə onların nəslindən bir nəfər belə olsa iman gətirər", deyə. İnsanlığı işığa çağıraraq insanlığın ən faydalı insanı nə qədər əziyyətlər çəkdi. Haqq naminə...

Ey bu günün iman gətirən insanı, özünə qapanıb nə qədər Quran oxusan da, nə qədər hafiz olsan da fayda hikməti yaşamasan " heyvandan da zəlil biri " olma təhlükəsi var. Çünki, heyvanlar ən azından fayda hikmətini yaşayırlar. Öz vəzifəsini anlamayan istər cahil, istər müsəlman olsun o heyvandan da aşağı səviyyədə durmaqdadır.

Ey bu günün iman gətirən insanı! Əməlləində fayda hikmətini yaşamağı bacarmırsansa ən azından dərin, böyük həcmli dualar et. Millət üçün, müsəlman dünyası üçün, insanlıq üçün. Rəbbinə yalvar, yaxar ki, səni "fayda" hikmətlərindən məhrum etməsin.

Ey bu günün iman gətirən insanı! "Oxu" və hər anlamda cihada da hazır ol! Nəzərlərini heç bir yana qaçırmadan, yalnız özünə yönəlt. Rəbbinin adını uca tut, Rəsulunu sev və ona itaət et ki, Yaradanın sevgisinə layiq olasan.

Yoxsa Qəhhar Allah bizi məhv edər, yerimizə daha layiqlilərini gətirər.

Oxumağa Rəbbinin adı ilə başlayan "Oxu", O- na yaxınlaşmaqla bitər. Allah üçün "Oxu" və O - nun nemətlərindən danış.

Ey bu günün iman gətirən insanı! Unutma, Rəbbin buyurur: **Hamınız birlikdə İslama gəlin!** Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq –aşkar düşməninizdir! (əl-Bəqərə,208)

Bu gün xilas "Lə ilahə illəllah, Muhamməדən rasullahı"ı öyrənmək və yaşamaqla mümkündür. Lə deyib Xilas olmağın yolunu bizə Allahın rəsulu öyrədir.

***Ya Rəbbim, bizləri yalançı şahid olmaqdan qoru***.

Müsəlman dünyası, müsəlman qəlbi Allahdan başqa mövcud ilahlardan təmizlənməli, Allaha yaxınlaşmağa maneçilik törədən "bəqərələri" kəsməli və bütün bunları nümunəsi olan

Muhamməddən (s.a.s) öyrənməlidir. Muhammədi tanımadan, onun kimi faydalı olmağa can atmadan onunla görüşə necə ümid edə bilərsən???

*Rəbbim, bizi haqdan ayırma..*

*Göstərişdən, riyadan uzaqlaşdır. Sevdiyin qulunu bizə də sevdir. Fayda simvolları olan Peyğəmbərlərinin əxlaqı ilə bizləri də əxlaqlandır.*

*AMİN*

## DUA

Qullarını sevən Yaradan ən gözəl Rəbbdir. Allah yaratdıqlarını başıboş buraxmır, onlar daim nəzarətdədirlər, Rəbbin tərbiyəsi altındadırlar. Allahın əxlaqı ilə əxlaqlanmaq istəyən qullar, Rəbbə təslim olub hər an Onun elmindən bəhrələnməyə, tərbiyəsi ilə tərbiyələnməyə can atırlar. Hər şeyi eşidən Yaradan qullarını sevməsi səbəbilə Ona yaxınlaşmağın, həqiqi səadətə çatmağın ən qısa, rahat, hüzur dolu yollarını göstərir. İlk öncə Uca Yaradana yaxınlaşmaq, Onu tanımaq istəyən qul Mövlasının imtahanlarından layiqincə çıxmaq üçün Onun ipindən möhkəm yapışmağa can ataraq Kitablarına sarılır. Yaradanı, Mövlası ilə ünsiyyət yaratmağa can atan qul Haqq yola işıq salan Qurana sarılır. Söz sahibi sevdiyi qullarına elçiləri vasitəsilə Ona yaxınlaşmağı belə öyrədir:

“***Bəndələrim Məni Səndən soruşduqda söylə ki, Mən yaxınam. Dua edib Məni Çağıranın duasını qəbul edərəm. Gərək onlar da Mənim çağırışımı qəbul edib, Mənə iman gətirsinlər... Bununla da ola bilsin ki, doğru yola yetişsinlər”*** (Bəqərə, 186)

Yaradan və Sevən sevdiyini dünya çirkabı, şeytan və nəfs kimi düşmənlərlə buraxarmı?! Əlbəttə, yox. Təbii, Yaradan, Hər şeyin İxtiyar Sahibi, güc, qüvvət Sahibi, Ucalardan uca Allah Əşrəf görmək istədiyi qullarını silahlandırmadan dünya keşməkeşlərinə göndərərmi? Ən güclü silahı, düşmənləri, keşməkeşləri bir anda məhv edə bilən silahdan istifadə qaydalarını bildirmədən dünyada yaşadarmı? Əsla... Yaradan Rəbb Sevimli qullarına analoqu olmayan bir silah verdi və istifadə qaydalarını belə öyrətdi.

***“Rəbbiniz buyurdu, Mənə dua edin, Mən də Dualarınızı qəbul edim ”*** ( Mumin, 60)

Dua edin... Dualarınızı qəbul edim. Dua silahı... Kimsəyə zərər vermədən sahibinə yalnız qalibiyyət qazandıran bir silah. Nurdan bir silah, Göylərin sütunu statusunu daşıyan bir silah. Ən möhtəşəm bir silah. Bu silaha yiyələnməyən bir qulun, bir insanın dəyəri yoxdur. Böyük mənada İnsanca var olmaq, dua silahına yiyələnmək deməkdir. Bax, bu səbəbdən də Yol göstərən və yönləndirən Rəbb buyurur: “Əgər duanız olmasaydı, Rəbbinizin nə işinə yarardınız” Ey insan, düşün, bəlkə sən dua etmək üçün yaradıldın, bəlkə bu silaha yiyələnməklə, Uca Yaradana yaxınlaşa biləcək, Onun əzəməti qarşısında heyrətdən, sevincdən, qəlbini fəth edən xoşbəxtlik duyğusundan səcdəyə qapanacaqsan. Rəbbin sənə namaz öyrətdi, namaz bir dua deyilmi? Təbii, Səcdə “həddimi bildim, sənə gəldim” deməkdir. Həddini bilən özü-özünə yetərsizliyini dərk edəcək, Ona yalnız Yaradan Allahın yetdiyini anlayacaq. Beləliklə, həddini bilən Rəbbini bilər. Həddini bilən qulluğunu bilər. Qulluğunun nədən ibarət olduğunu bilən, duanı dərk edər. Dua qulluğun ən gözəl ifadəsidir. Yaradan hər zaman eşidir, hər şeyi görür, O nə yuxu bilər, nə mürgü, o hər an iş başındadır. Beləcə Yaradanını tanıyan anlayar ki, duanın məkanı və zamanı yoxdur. Çünki, duaları qəbul edən və öz şəninə layiq tərzdə cavab verən Allah onu hər

an eşidir, görür, dualara müvafiq cavablar verir. Beləcə dua silahına yiyələnən qul, hər hal və şərtlərdə dua edir, yalvarır, yaxarır. Yaradan belə öyrədir:

***"Rəbbinizə yalvara –yalvara, həm də gizlicə dua edin. Şübhəsiz, O, həddi aşanları sevməz! Ona həm qorxu, həm də ümidlə dua edin. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə çox yaxındır. "***(Əraf, 55-56)

Nurdan yaranmış ruhun qidasıdır nurdan olan dua. Qəlbin ehtiyacı olan, tək Yaradanı ilə ünsiyyətidir *dua*. Dua dillər üstü bir dildir. Duanın dili qəlbin dilidir. Dua Qəlblə Yaradanı ilə ünsiyyətə keçdiyi an nəinki, dil, bütün hüceyrələr ona qoşulur. Bədənin hər hüceyrəsi Yaradanı ilə ünsiyyətə möhtac olduğundan bu anı sevinc və xoşbətliklə yaşayır. Kimdir müsəlman? Salamı yaşayan, Sahibinə, Yaradanına təslim olmuş hər bir yaradılmış. Bədən üzvlərimizi uca Xaliq xəlq etməmişmi? Hər hüceyrəYaradanına sevərək təslim olaraq Onun əmrlərini yerinə yetirmirmi? Ey İnsan, hüceyrlərinin haqqına girmə, cismində sevgi xatirinə sənə xidmət edən bədən üzvlərinin haqqına girmə! Onların Yaradana ehtiyacı var, onları Yaradan ilə ünsiyyətdən ayırma. Bütün hüceyrələrinlə Ona—Səni Sevənə, Yardım edənə, yeganə Dostuna müraciət et. Dua zamanı insanın bütün varlığı istəmək halında olur. Unutma, bütün əzaların, hüceyrələrin Yaradanın ali qanunlarına tabe olaraq yaşayır və yaşamaq arzusundadırlar. Əgər Yaradanın buyurduğu yolda, buyurduğu halda yürüməsən, əks yolun ağırlığı, qaranlığı altında sənə xidmət edən hər hüceyrən əziləcək və son anda əziyyət çəkən sən olacaqsan. Çünki, Allaha təslim olan mədə Yaradanın adı və razılığı ilə gələn qidaları qəbul edir. Düşün... Özünü tanı. Özünü tanıyan, həddini biləcək, həddini bilən Yaradanına yaxınlaşacaq, Yaradanına yaxınlaşdıqca yalnız bədən üzvləri, hüceyrələri deyil, bütün kainat Yaradanı tanıyan Əşrəf İnsanın xidmətində duracaq. Tələs... Əşrəf adına layiq ola bilmək üçün Var edən, Yaradan Allah Sənə Ramazan kimi bir çox fürsətlər vermiş... Oruc kimi duaların qəbul edildiyi bir hal vermiş... Tələs, dua silahını bir anlığa da olsa yerə qoyma. Unutma, bütün hüceyrələrlə həmahəng, harmoniya halında edilən duanın özü bir icabətdir, artıq məqbuldur. Bütün hüceyrələrin, qəlbin, ağlın, hər nəfəsin istəmək halında olaraq edilən duanın qəbul olub –olmadığı sual edilməz. Bu möhtəşəm vəhdət elə qəbul olunmuş duanın özüdür. Belə hal ilə dua edən qəlbə sahib olmaq, bütün duaların gətirə biləcəyi hər şeydən daha üstününə sahib olmaqdır. İnsan dua ilə istəmədən öncə, duanı istəməlidir. Duanı istəmək Allahla ünsiyyət edə bilən, Allahla danışan bir qəlb istəməkdir. Ey Adəm övladı içinə necə bir enejinin yerləşməsindən xəbərdarsanmı?! Dua silahının qət edə biləcəyi məsafəni şüurumuzda yerləşdirə bilərikmi?! Mələklərin min ildə, bəlkə də min il işıq surətinə bərabər bir zamanda qət edəcəyi məsafəni sənin qəlbindən ayrılan dua bir anda qət edir. Bir anda, bir göz qırpımında öz Sahibinə çatır. Daxilimizdə yerləşən gücdən xəbərimiz varmı?! Hansı varlıq, Yaradanına bu qədər yaxınlaşa bilmə səadətinə sahib?!

***"Allah insanla Onun qəlbi arasına girər."*** (Ənfal, 24)

*Qəlbimiz.* Ta qəlbin dərinliklərindən edilən bir dua insanın daxili enerjisini istədiyi istiqamətə göndərə bilməsi deməkdir. Yaradan tərəfindən bəxş edilmiş müəyyən enerjilərə sahib insan bütün varlığı ilə bir şeyi istər və o istiqamətə yönələrsə demək duanın yarısı tutmuşdur. Digər yarısı da Yaradanın dəstəyinə qalmışdır. Öncə Uca Yaradana Onun istədiyi, razı qaldığı şəkildə ibadət etmək, sonra yardim gözləmək. Əzəmətli Fatihə ilə Rəbbimizin öyrətdiyi kimi Ona müraciət edəcəyik: *"Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik."* Demək, öncə Onun buyurduğu dini Onun razı qalacağı şəkildə yaşamalı, sonra da yalnız O deyib yardım gözləməliyik. O isə elə bir varlıqdır ki, bir şeyin olmasını istədiyi zaman "OL" deməsi kifayətdir. Dua ağlın bitib sevginin, eşqin başladığı bir haldır. Səlim qəlbi ilə dua edən insan ağıl sərhədindən, sevgi sərhədinə keçər. Keçdiyi an silahına tam yiyələnərək, lazımi hal ilə dua edə bilər. Bu an dua qəlbin Allahla söhbəti olur. Şah damarından yaxın olan mərkəz, şah damarından yaxın olanla ünsiyyətə keçər. Söz bitər, sözsüz anlaşma başlayar. Cəsət bitər, ruh başlayar. Bu tələb məqamıdır, istək məqamıdır. Dua ən möhtəşəm qüvvəsi, enerjisi, mükəmməl Nur halı ilə Əhəd, yəni tək olan Allahın dərgahına çatar. Eynən Hz. İbrahimin, İmranın qadını Hz. Hannənin, Hz. Zəkəriyyənin duası kimi. Hz Zəkəriyya xidmətində durduğu Hz. Məryəmə baxıb içindəki övlad həsrəti titrədi, bütün hüceyrələri ilə istəmək halını yaşadı və "Rabbim! " -dedi, - "Dərgahından mənə təmiz bir nəsil ver! Şübhəsiz sən duaları eşidənsən! Sevgi halında, hüceyrələri ilə vəhdət halında duaya sarıldı. Anında qəbul edildi və özünə bildirildi. Amma, bu dəfə Hz. Zəkəriyyə Rəbbinə belə sualla yönəldi: "Rəbbim, mənim bir oğlum necə ola bilər? Axı, mən ixtiyar yaşındayam, zövcəmsə qoca qarı? "

*Allahım! Sən nə böyüksən. Allahım, əfv et bizi. Səni Sənə layiq tərzdə tərif edə bilmirik. Sən, Sən Nə qədər ucasan.*

Zəkəriyya övlad istərkən eyni halda idi. Amma, o an ağıl sərhədindən, eşq sərhədinə keçmiş, istəmək halına daxil olmuşdu. Bütün hüceyrələri, bütün qəlbi ilə. Məgər yaşından xəbərsizdimi? Amma duası qəbul edilincə "Axı bu necə olur?" –deyə sual verən də özü idi, bu halı ilə övlad istəyən də. Bu fərqli iki münasibət eyni insandan gəlirdi. Lakin eyni yerdən deyil, eyni hal ilə deyil. Hz. Zəkəriyyə duanı eşq sərhədində istədi, sualı ağıl sərhədində verdi. Dua budur. Belə olmalı deyilmi?

Müəllimimiz, Nur yolunda bələdçimiz Allahın Rasulu Muhamməd (s.a.s) bizlərə "*dua ibadətlərin beynidir"* deyə öyrətdi. Subhanəllah, dua ibadətlərin beynidir, özəyidir, özüdür, iliyidir. Əslində ibadətlər duanın müxtəlif halları deyilmi? Zəkat ibadəti sərvətlə olan dua, oruc ibadəti bədənlə dua, cihad ibadəti canla dua, yaxşılığı əmr, pisliklərdən çəkindirmə dillərimizlə, halımızla dua, elm ibadəti zehnimizlə duadır. Bəs ibadət nədir? Duaya güc verən daxili qüvvə deyilmi? İbadət Allaha aparan yol, dua Allahla ünsiyyət. Dinin tək Sahibindən Onun dinini diləyir, İbadətdə və yardımda Ona şərik qoşmamaq barədə əhd bağlayır, sonra Həqiqi nemətə

yönələrək, Həqiqi nemətlər içində yaşayaraq nemət Sahibinə şükürlər edərək Həqiqi SALAMı yaşaya bilirik.

*Həmd olsun Aləmlərin Rəbbinə. Həmd olsun bizləri sevən, hər halımızla nura qərq etmək istyən Uca Allahımıza.*

"***Bəndələrim Məni Səndən soruşduqda söylə ki, Mən yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm. Gərək onlar da Mənim çağırışımı qəbul edib, Mənə iman gətirsinlər. Bunungla da ola bilsin ki, doğru yola yetişsinlər***" ( Bəqərə, 186)

Ey qul, sənə şah damarından da yaxın olanı bilmən üçün, özünə gəl, özünü tanı, içinə yönəl, həddini bil. Özünü bilən Yaradanını bilər. Yaradanını bilən namaz duasına yönələr, namaz duasını yaşayan heyranlıqdan rukuya gedər, rukunun heyranlığını yaşayan sevgi səcdəsinə qapanar. Sonra, sonra əlləri ilə dua edər. Çünki hər işimizi əllərimizlə işləyirik. Əllərimiz, Allahın yaratdığı qoşa, fiziki bir duadır. Onlarla etdiyimiz hər şey fiziki duamızın bir parçasıdır. Dua anında Ona tərəf qaldırdığımız əllərimizlə "Ya, Rabb! Bu əllərlə etdim! "- demiş oluruq.

*Ya Rəbbim, ey yardımçım, əlimdən gələni etdim, gəlməyəndən Sənə sığınıram. Ya Rəbb əllərim mənə yetmir, yetmədi! Tut əllərimi, buraxma məni! Sənə ehtiyacım var. Sənsiz bir heçəm! Sən mənə yetərsən! İbrahimin* ***" Sən mənə yetərsən"*** *söylədiyi kimi mənə də söylət bu haqqı, mənə də yaşat bu haqqı! "Allahım, bizlərə də İbrahim əxlaqı nəsib eylə.*

**Varlıq bir kitabdır.** 1

***"Bir şeyi yaratmaq istədiyi zaman Allahın buyuruğu ona ancaq OL deməkdir. O, da dərhal ola."*** (Yasin 82)

Yaradan, var edən Allah yaratmaq üçün sözü də yaratdı. Bütün kainata dedi: İstər - istəməz vücuda gəlin. Onlar da istəyərək gəldik, dedilər. Sevgi, rəhmət xəzinəsi geniş olan bir Rəbbin buyruğuna istəmədən gəlmək necə mümkün? Ey Adəm övladı, Kainat, günəşlər, ulduzlar, yer, səmalar, üzərində olanlar sevərək və sevinərək Uca Allahın əmrinə tələsdilər. Tələsdilər və aralarında sevən xatirinə bir sevgi bərqərar edərək gözəl bir şəkildə ***eşitdik və itaət etdik*** deyərək, Mövlanın əmrinə tabe oldular. Tabe oldular, yəni təslim oldular, yəni salam halında var olaraq müsəlman oldular. Və hər biri Rəbbi tərif etməyə başladı, durmadan, usanmadan. Aç gözlərini, ey Adəm övladı, qaldır başını, səmaya bax, nəzərlərini hər tərəfə çevir, gör kainat sənə Kimdən danışır. Gör əzəmətli Kainat necə sevir, necə təslim olaraq necə bir müsəlman həyatı yaşayır. Bəli, bütün kainat bir **islamı**, **salamı** yaşamaqdadır. Dinlə, nüvəsində **sevgi** yerləşən Günəşimizin ürək döyüntülərini bütün Kainat eşidir. Bütün kainatda bir musiqi səslənir. Çünki, bütün Kainat ***lə ilahə illəllah*** deyir, bütün Kainat yoxdur deyir, yoxdur Allahdan başqa tabe və təslim olacaq bir qüvvə. Bütün Kainat yaşayır. Allahın əmrlərinə tabe olmağı yaşayır. Tabe olmasaydılar, bir *müsəlman birliyi* yarada biməzlərdi. Toqquşmadan, çarpışmadan milyon illər salam halında necə var olardılar?

*Həmd Yalnız Sənə layiqdir, Əzəmət və Güc, Qüvvət sahibi Allahımız*.

Yaradanın bir "ol" əmrinə tabe, təslim olan Kainat. Təslim olmaq üçün bircə sözün yetdiyi kainat, əzəmətli qalaktikalar. "Ol" əmrini alan Kainat, Varlıq aləmi bu gün də "olmağa" davam etməktədir. Hər saniyə Varlıq aləmində milyonlarla yeni- yeni hüceyrələr, canlılar "ol" əmrinin davam etməsinə bir şahid olaraq, doğulmaqda və var olmaqdadırlar.Var omağın özü əmrə təslim olmaqdır. Rəbbini tanıyan və sevən başqa necə təslim ola bilər? Varlıq aləminin var olması özü Rəbb Allahın varlığına bir şəhadətdir. Bir sözlə, varlıq aləmi varlığı ilə Yaradan Allaha şahiddir. Varlıq aləmində var olan hər zərrə belə Allahı tanıtmaqda və O-na tərəf çağırmaqdadır. Varlıq aləmi Allahın kəlamıdır.Varlıq aləmi Allahın "OL" kəlamıdır.

Nədən, ey Adəm övladı, nədən sənə də bircə söz yetmir? Nədən, sənin haqq yola gələ bilməyin üçün, bu qədər sözlər? Söz. Bəlkə, bizlər sözdən xəbərsizik, Sözdəki qüvvədən xəbərimiz yoxdur. Bəlkə, Peygəmbərlər, Peyğəmbərlər sultanı Muhammməd, Nizami, Fizuli Sözü bildikləri, tanıdıqları üçün hər iki dünyada durmadan yaşamaqdadırlar. Bax, Nizami nə deyir:

*Anlayıb, düşünək hər şeyi gərək,*
*Hər sirri açmaqla hünər göstərək.*
*Biliyə rəqib ol, dünyanı qazan*,

*Yeniliklər törədən bu qoca kainatda*
*Sözdən incə, kəsərli heç nə yoxdur həyatda.*
*Düşüncənin munisi, gözəl sirdaşı sözdür,*
*Unutma ki, insanın əzəl sirdaşı Sözdür...* .

Ey Adəm övladı, Allah səni yaratdı və OXU deyə əmr etdi. Oxu. Yaradan, əzəli Hökmdar, hər şeyi Bilən və hər şeydən Xəbərdar Allah Sənə oxumağı öyrətdi. Sən duada onunla dialoqa girirsən. Sənə şah damarından yaxın olan, qəlbinlə sənin aranda duran Yaradanına ALLAhım deyə səslənir, yalvarırsan. Allah uzaqdadır deyənlərə Allah Rəsulu, Müəllimimiz Namazı oxumağı bizə öyrətdi və "Namaz möminin miracıdır" deyə bildirdi. Bu namazı oxumaq deyilmi? Mirac qulun Allaha, yaradılmışın Yaradana mənəvi yaxınlaşmasını ifadə etmirmi? Allah quluna yaxındır. Məsələ qulun Allaha yaxın olub- olmağında deyilmi?! Gün ərzində təkrarlanan namaz qula hər gün Yaradanına nə dərəcədə yaxın olub- olmadığını aşkar edir.

Deməkinsana söz yetmir. İnsanları davamlı haqqa, gözəlliyə, səadətə çağıran seçilmiş insanlar, nümunələr gərəkli Və vəhy... Vəhy bizlərə necə oxumağımızı, nələri oxuyacağımızı öyrədir. Burada İnsanın beynində, qəlbində Özünü, həyatını necə inşa etməsi üçün Quran yardıma gəlir. Quran-Yaradanın kəlamı. Yaradan hər şeyi yaratmışdır. Sözü də o inşa etmişdir. Sözü anlayan canlı İnsanı da o yaratmışdır. Oxu əmrini verən Rəbb oxumaq üçün nələr yaratmamışdır. Oxu - Yaradana aparan yol deməkdir. Oxu əmrinə tabe olan insan Yaradanı tanıyacaq, sevəcək, Ona yaxınlaşacaq, Yaradanın adı ilə başlayan Oxu Yaradana səcdə ilə tamamlanır.

İnsan ALLAHı tanımaq üçün mütləq Yaradanın var etdiyi dörd ayəni oxumalıdır. Nədir ayə? Yaradanın var etdiyi hər şey, hər hadisə, hər söz. Hər varlıq öz dilində söz deyir. Hər ayənin öz dili, öz anladacaqları mövcud.

*Kainat ayəsi*. Kainat oxunmaq üçün yaradılmış. İnsan tərəfindən oxunmağı gözləməkdədir. Ey Adəm övladı, açıq Kitab olan Kainat səni gözləyir. Tələs... Ötən hər saniyə ömür ağacından tökülən yarpaqlardır. Ömrünün qışı uzaqda deyil, yaxındır. Oxu ki, yenidən dirilişə - yəni yaza hazır olasan. Həşr günündə oxuduqlarından imtahan ediləcəksən.

Heç bir kitab özü - özünü yaza bilməz. Hər kitabın bir yazarı var. Kainat Kitabındakı hər şey vəhyin surələri, ayələri kimi bir məna daşıyır və bir məqsədə sahibdir.

***"Həqiqətən,göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da, Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər: "Ey Rəbbimiz, sən bunları boş yerə yaratmamısan!Sən paksan, müqəddəssən! Bizi Cəhənnəm Odunun əzabından qoru! " - deyərlər "*** (Əli-İmran, 190-191)

Hər bir rəsm əsəri öz Rəssamından xəbər verir. Bizim Müsavvir Rəssamımızın, yoxdan var edən Allahımızın yaratdığı hər bir şey canlıdır, ruha sahibdir. Bu Onun Əzəmətinə, Qüdrətinə

bir işarə deyilmi? Hər bir şey ən sadədən doğur. Ən sadədən doğularaq yaradılmışlar ən mürəkkəbə keçir. Yaradanın əli ilə yaradılan hər bir varlıq can qazanır, canlılıq əldə edir.

Hər şeyi ən gözəl halda, ən sadə şəkildə yaradan Rəbbimiz hər bir işdə qüdrətini göstərməkdədir. Su neməti 2 hidrogen və 1oksigendən təşkil olunmaqdadır. Yandırıb yaxan atomlar və həyat verən canlı su. Buyur, ey İnsan, nə sadə deyilmi? Buyur, sən də öz məharətini göstər. Kimi istəyirsən, hələ bir yardıma da çağır. Qurani-Kərim kimi möhtəşəm Kitab **əlif, ləm, mim -** dən başlayır. Nə sadə deyilmi? Buyur, sən də bacar: əlif, ləm, mim. Ən azından Bəqərə. Bəqərə kimi möhtəşəm bir surə yarada bilərsənmi. Əlbəttə, yox. Bütün insanlar və cinlər yığışsa da Yaradanın kəlamına, ayəsinə uyğun bir söz desin. Elə bir söz ki, dünya durduqca duracaq. Təbii ki, bacarmayacaqlar...

*Ya Rəbbim, biz Sənin aciz qullarınıq. Rəhm, et bizə...*

Canlı Kainat Allahın sifətlərini əks etdirən bir aynadır. Yağış Allahın rəhmətindən xəbər verir, bahar - rifahı, ucalığı, gözəlliyi, külək-qüvvəti, ildırım-qüdrəti, işıq-lətafəti təcəlli etmirmi?

*Həmd olsun Sənə, Ya Rəbbim, həmd olsun, hər tərəfimizi nemətlərinlə zinətləndirdiyin üçün.*

Rəbbimizin Kainat ayələrini doğru - düzgün oxumaq ilahi qanunları öyrədir.

***"Yeddi göyü qat - qat yaradan O - dur. Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb bax, heç orada bir yarıq görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır!"*** (Mülk, 3-4)

Bəli, ey bacım, qardaşım, Yaradanımızın yaratdıqlarında heç bir qüsur tapa bilməzsən. Hətta bunu axtarsan belə. Səma sənə bir nümunə, başını qaldır bax, nəzərlərin yorğun halda özünə qayıdacaq. Bəs sənin özünün nəyin var? Əməllərindən başqa nəyə sahibsən? Əlinəmi, qəlbəmi, ağılamı? Sahib olduğun hər bir şey Yaradan tərəfindən sənə bəxş edilmişdir. Sənin sahib olduğun yalnız əməllərindir, bu səbəbdən də qüsurları, səmada axtardığın çatları öz əməllərində axtar. Unutma çəkdiyin müsibətlər öz əməllərinin nəticəsidir, Allah bəndələrinə zülm edən deyil. Unutma, məhz sənin, mənim, bizim əməllərimiz ucbatından suda və quruda fəsad yaranır.

Beləliklə, Kainat ayələrini oxuyan birisi, Kainatı Yaradan və İdarə edən, Yönləndirən Allahın İdarə etmə tərzindən, yəni Rububiyyətindən dərs almış olur. O Rəbbdir. Rəbb tərbiyə edəndir, mürəbbiyədir. Tərbiyə edən Rəbb ayələri ilə qulunu, yaratdıqlarını hər an doğru yola, doğru dinə çağırmaqdadır. Yaradan Rəbbin tərbiyəsilə tərbiyələnmək istəyənlər Yaradanın təyin etdiyi qanunları, qadağaları kəşfə çıxarlar. Beləliklə, Kainat ayələrini Onun adı ilə oxuyanlar Onun Əzəməti qarşısında heyranlıqla əyilərək, **lə ilahə illəllah** deyib səcdəyə qapanacaq. Özünü tanıyan Rəbbini tanıyar. Çünki, İnsan da Yaradanın bir ayəsidir. Oxunmağı gözləyən Kitabdır İnsan, eynən Kainat kimi. Makro və mikro kainat. Adəm övladı yalnız mikro kainat deyil, həm də

fitri vəhyi içində yerləşdirən şüurlu bir kitabdır. Yol göstərən Quranda da İnsan Kitabı haqda belə buyurulur.

***“Yerdə tam yəqinliklə inananlar üçün əlamətlər vardır. Sizin özünüzdə də əlamətlər vardır. Məgər görmürsünüz?*** ”(Əz-Zariyat, 20-21)

İnsanın fitrətindəki *sevgi* və *şəfqət* **rəhmət** ayəsi deyilmi? İnsandakı qəzəb, hirs qəzəb ayəsi deyilmi? Ey İnsan, Sən Allahın şah əsərisən. Bundan xəbərin varmı? Yaradan sənə əşrəf dedi. Ey Adəm övladı, əşrəf sözünün, vəzifəsinin mahiyyətini analaya bilirikmi? Ey insan, Sən ilahi sənəti hər halılə özündə təcəssüm etdirən bir varlıqsan. İnsanın məsuliyyəti artıqca, vəzifəsi böyüdükcə qorxu hissi də artır. Məgər *əşrəf* adından böyük, əzəmətli bir ad, vəzifə, məsuliyyət varmı?

Əşrəf İnsan, ucalığa yol Onun adılə oxudan başlayır. Hər şey sənin fitrətinə yerləşdirilmişdir. Sənin xəmirin salam, islam, təslimiyyət ilə yoğrulmuşdur. İbadət sənin fitrətindədir. Fitrətinə tərs hərəkət edənlər, trayektoriyasından çıxmış atoma bənzəyirlər, yaxud öz orbitindən çıxmış planet. Öz orbitindən çıxmış planet məhvə məhkum olduğu kimi, fitrətinə tərs yaşayan İnsan da məhvə yol almışdır. Onun məhvi-Cəhənnəm.

*Allahım, Sənə sığınırıq, məhv olmaqdan, Sənin qarşına üzü qara çıxmaqdan Sənə sığınırıq. Tut əlimizdən, yönləndir bizi. Ya Rəbb, bizləri lütfünlə tərbiyələndir.*

Fitrətinə kodlaşdırılmış ayələri, qanunları yanlış istifadə edənlər Quran ayələrini fal kimi istifadə edən falçılara, aldanmışlara, məhvə düçar olanlara bənzəyirlər. Doğru yola, səadətə səsləyən ayələri özlərinə alət edənlər bəşər içində ən nankor olanları deyilmi?

*Allahım, bizə əşyanın həqiqətin, mahiyyətinii göstər! Bizlərə həqiqətə, haqqa itaət, batilə üsyan ləyaqəti lütf et! Həyatımızı məhəbbətsiz, axirətimizi Cənnətsiz buraxma, Allahım! Allahım, itaəti sevdir, üsyana nifrət etdir! Rəbbim, bizə imanı sevdir, küfrə nifrət etdir.*

*Amin*

Oxumaq üçün yaradılan və Oxu əmrinə tabe olan insan Rəbbini tanımaq üçün, öz missiyasını anlamaq üçün Kainat ayəsini oxumağa başladıqdan sonra, nəzərlərini özünə dikərək, suallar verməyə başlayacaq. Mən kiməm, yaradılış məqsədim, qayəm nədir? Nədən göy üzü bu qədər bəzədilmişdir? Kainatda işıq verən və alan yaxud işıqlarını itirən ulduzlar vardır. Mən də bu Kainatın bir hissəsiyəm. Demək, oxşar tərəflərimiz çoxdur. Bu qədər möhtəşəm qalaktikalar, ulduzlar toqquşmadan nizama tabe olaraq sülh, salam halında mövcudiyyətlərini sürdürməktədirlər. Nə zamandan bəri?! Böyük partlayışdan bəri. Hər şey bir nöqtədən başladı. Əmr verildi. Hər kəs yerini aldı. Makro kosmos ilahi qanunlara tabe olmaqla sülh halında yaşayır. İnsana xidmət üçün. Ey Adəm övladı, Allah səni yaratdı və Adəmə yaratdıqlarının adlarını öyrətdi. Genetik atamız olan Adəmin qarşısında Mələklər Allahın əmrilə səcdə etdilər. Ona xidmətə başladılar Allah xatirinə. Allah sevgisi naminə Allahın sevdiyi Adəmə xidmətdədirlər. Allah İnsana *əşrəf* dedi. Torpaqdan yaranmış, qan laxtasından yaranmış İnsana ən şərəfli məqama aparan yolları göstərdi. Atamızdan bu yana genetik olaraq bizi salamla kodlaşdırdı, hər şeyi fitrətimizə yerləşdirdi. Allaha təslim olan Onun yaratdıqları ilə *salam* ünsiyyətini qoruyacaqdır. Makro dünya ilə mikro dünya arasında salam. Mikro dünyalar arasında salam.

"***İnsanın elə bir dövrü olub keçmişdir ki, o, xatırlanmağa layiq bir şey olmamışdır. Həqiqətən, Biz İnsanı qarışıq bir nütfədən yaratdıq. Biz onu eşidən, görən yaratdıq. Biz ona haqq yolu göstərdik. İstər minnətdar olsun, istər nankor*** "(İnsan, 1-3)

Öncə Kainat incələndi, daha sonra nəzərlər İnsanın özünə dikilir. İnasan və Kainat. Kainatdakı İnsanı tanımaq insandakı kainatı tanımaqla mümkündür. Allah İnsanı yalnız Ona xidmət üçün yaratdı, İnsan yalnız Allahın qulu ola bilər. İbadət üçün yaradılan *abd* ibadət obyektində yanılmadığı zaman xoşbəxtliyə - Nura çata bilər. İbadətin nə olduğunu anlayan İnsan, əslində abd olmağın şərəfini, şirinliyini, gərəkliliyini dərk edər. Elə o zaman da hər namazında, hər qiraətində - "*biz yalnız Sənə ibadət edir və yalnız Səndən yardım diləyirik* "- əhdinə vəfa edə bilər. Missiyası üzərində düşünən nəhayətdə *abd* olmağın bir nemət olduğunun mütləq fərqinə varacaq.

Rəbbini axtaran İbrahimin də kəşfi Kainatdakı axtarışlardan başlamadımı? Rəbbinin kim olduğunu axtaran İbrahim (ə) günəşi, ayı bildikdən sonra anladı ki, Rəbb bütün Kainatı var edəndir. Rəbb bütün kainatı onun ixtiyarına vermiş. İnsan sahib olduğu şeylərin qulu ola bilməz. İnsan yalnız Hər şeyi idarə edən, Yönləndirən Allahın quludur. Allahı tanımaq üçün Rəbbindən hikmət dilədi İbrahim. Rəbbi ona hikmət verdi. İnsanın hikmətə ehtiyacı olduğunu anlamışdı İbrahim. Anlamışdı ki, kimə hikmət verilmişsə ona çoxlu xeyir verilmişdir. Anladı ki, İnsanın yaradılış qayələrindən ən böyüyü Allahın tərbiyəsi ilə tərbiyələnərək, əxlaqı ilə əxlaqlanaraq,

Allaha gözəl qul olmaqdan ibarətdir. Anladı ki, qul qulluq üçün yaradılmışdır. (Qulluq nökərçilik, deyil. Anladı ki, ibadət üçün yaradılan İnsan yalnız ibadət etdiyi zaman şərəfə nail olur. Vəzifəsini anlamayan, vəzifəsinə sahib çıxmayan Şərəfli İnsan şərəfli adını itirərək onun antonimi olan şərəfsiz adına yiyələnmiş olur. Atalıq vəzifəsini icra etməyən ata necə adlandırılır? Yaxud analıq vəzifəsindən imtina edən ana? Döyüş meydanından qaçan əsgər, xəstəyə şəfa verməli olan savadsız həkim? və s. Demək, hər kəs şərəfli vəzifəsindən imtina edərsə, əks qütbdə yerləşən şərəfsiz adına yiyələnmiş olur. Elə isə şərəfli İnsan vəzifəsinə layiq görülən İnsan vəzifəsindən imtina edərsə, onu necə adlandırmalıyıq?! Şərəfli İnsan vəzifəsinə layiq görülən İnsan vəzifəsi, missiyası haqda heç düşünmürsə, yaxud düşünmək belə istəmirsə, onun adı nədir? Məqsədi, amalı, son mənzili nədir? Vəzifəsindən sui-istifadə edənlərin aqibəti necə olmalıdır?! Təbii düşünən, axtarışlarda olan İnsan mütləq Həqiqətə catacaq və *abd* olaraq *ibadət* nemətinin dadına varacaq)

Axtarışlarda olan İbrahim anladı ki, Rəbbi yardım edəndir, yardım edənlərə yaxındır. İnsanların yardımına qaçdı. İnsanların mənəvi yardımdan çox hansı dəstəyə ehtiyacı ola bilər ki? Bu səbəblə də, *əmr bil məruf, nehy münkəri yaşamağa* can atdı. İnsanları yaxşılığa çağırıb, pisliklərdən uzaqlaşdırmağa həsr etdi Allahın verdiyi ömrü. Çünki, anladı ki, xilas yalnız faydalı olmaqdadır. Anladı ki, Yaradan hər bir yaratdığında fayda hikməti yaratmışdır. Yaradılmışın dəyəri, qiyməti onun faydalılıq dərəcəsi ilə ölçülür. Bu səbəbdən də Allahın imtahanından çıxdığı zaman Allah: "Səni insanlara imam təyin edəcəyəm"- dediyi an - " Bəs nəslimdən necə ? " sualı ilə Rəbbinə yönəldi. Özünü deyil, arxası ilə gələn insanları düşündü. Özünü deyil, Rəbbin sevdiklərini sevdiyi üçün hər mömin hər namazında Ona salam göndərir. İnsanları nura çağıran, bu yolda cəfalar çəkən Allah sevgilisi Muhamməd Allah Dostu İbrahimin duası deyilmi?!

***"Yadına sal ki, İbrahimi öz Rəbbi bir neçə sözlə imtahana çəkdiyi zaman o, tamamilə yerinə yetirdi. " Səni insanlara imam təyin edəcəyəm-dedi. Nəslimdən necə - deyə soruşdu. - Zalımlar mənim əhdimə nail olmazlar "*** (Bəqərə, 124)

***"Ey Rəbbimiz, onların içərisindən özlərinə elə bir Peyğəmbər göndər ki, Sənin ayələrini onlara oxusun Kitabı və Hikməti onlara öyrətsin, onları təmizləsin! Həqiqətən, Sən yenilməz qüvvət Sahibi, Hikmət sahibisən "***(Bəqərə, 129)

Kainatda kəşflər edən, özünü dərk edən İbrahim Rəbbinin bircə *təslim ol* əmrinə *"Aləmlərin Rəbbinə təslim oldum"* demişdi*"* (Bəqərə, 131) Aləmlərin Rəbbinə təslim olmaq. Rəbbini tanıyan Ona necə təslim olmaya bilər?! Ey Adəm övladı, Ey İbrahim nəsli, nədən Allah dostlarının arxasından yüyürmürsən?! Axı bu gün oxumaq üçün, təfəkkür etmək üçün, dərk etmək üçün imkanların daha geniş. Rəbbinin hüzuruna çıxdığın zaman " Mən hələ hazır deyildim, namaz qılmağa, səni sevməyə, tanımağa vaxtım yox idi, sənin verdiklərini daha çox sevir, daha çox arzulayırdım" deyə biləcəksənmi? Nə olar, düşün! İbrahim səni düşündü. Sən

də özünü düşün. İnsanlığın fəxri Muhamməd *“ Ümmətim, ümmətim ”* - deyərək sənin üçün göz yaşları axıtmadımı?! Ona daş atdıqları zaman, ona əziyyət verdikləri zaman “*Allahım onları bağışla, onlar bilmirlər*” deyə Sənin üçün ağlayan Muhamməddin cərgəsinə nədən qoşulmursan?! Kainata bircə söz yetdi. *Ol* - dedi Rəbb. Əmrə hazır oldular. Tələs, ey Adəm övladı, özünü tanımağa tələs, missiyanı öyrən, Oxu qoca Kainatı, Oxu şah əsərini, - *Lə* - deyib, at bütün ilahlarını, bütlərini, xilasa tələs. Səhabə *Lə ilahə illəllah* deyib, xilas olmadımı?! Öyrən özünü, tanı yolunu, tələs Rəbbinə. Tələs. Paklan, təmizlən, dön Rəbbinə. Övladlarını diri-diri basdıran bədəvilər - *Lə ilahə illəllah* - deyərək ucaldılar, bir qarışqanı tapdalamaqdan belə qorxdular. Çünki, qəlblərini ruhları fəth etdi. Yaradana ehtiyac duyan ruh qəlbi hidayət nuru ilə doldurdu. Düşün. *Mən kiməm? Nə üçün varam? Haradan gəlib, haraya gedirəm?* suallarına cavab axtarmaq məcburiyyətindəsən. İbrahim axtardı, Rəbbini tapdı. Muhamməd axtardı, oxumaq əmrini alıb oxumağı öyrəndi və öyrətməyə tələsdi.

***“Oxu. Yoxdan Yaradan Rəbbinin adı ilə oxu! O, insanı laxtalanmış qandan yaratdı. Oxu, Sənin Rəbbin Ən böyük Kərəm sahibidir. O, Rəbbin ki, Qələmlə yazmağı öyrətdi***. (Ələq, 1-5)

Allah ona qarşı bir addım atanlara, iki addım atar, ona qarşı can atanlara, O da can atar. Ona qarşı yüyürənlərə, O da yüyürər. Sonra O qədər ona yaxınlaşar ki, eşidən qulağına, görən gözünə, duyan qəlbinə çevrilər. Allahın firqəsi olmağa tələsin. Nicata çatanlar məhz Allahın firqəsidirlər. “ *İyyakə nəbudu va iyyakə nəstəin” Biz yalnız Sənə yardım edirik və Səndən yardım diləyirik.* Bir ibadət –iki yardım, iki ibadət-dörd yardım, 4=8, 8=12...

İnsanın axtardığı İslam, İslamın axtardığı isə İnsandır. Bu iki sevgilinin görüşməsilə İman ortaya çıxar. İnsanın İslamı yaşamasılə əməl, bilməsilə elm, görməsilə ehsan, tanımasilə irfan, duyaraq yaşamasilə **təqva** ortaya çıxar.

***“Məgər insan elə güman edir ki, o başlı –başına buraxılacaq? Məgər o tökülən bir qətrə məni deyildimi? Sonra laxtalanmış qan oldu və Allah onu yaradıb surət verdi. Sonra da ondan biri kişi, biri qadın olmaqla iki cift yaratdı. Elə isə O Allah ölüləri diriltməyə qadir deyilmi?”*** (Əl-Qiyamə, 36-40)

Bəli, insan seçər, lakin təyin edə bilməz. Təbii ki, insanı yaradan, yaratdığı insan üçün də, bir həyat proqramı var etmişdir.Və insanlar necə olur ki, bütün varlıq aləmini, onların işləri belə daxil, mərhəmətlə proqramlayan Allahdan başqa bir proqram düzəldirlər. Hakim və Habir olan Allahın qayda-qanun verdiyi bu möhtəşəm Kainatın bir parçası olduğu halda, öz nəfslərinə uyğun və canlarının istədiyi qanunlar icad edirlər, seçirlər

***“ Biz göyləri, yeri və onların arasında olanları oyun-oyuncaq yaratmadıq. Biz onları yalnız haqq olaraq yaratdıq, lakin onların əksəriyyəti bilməz ”*** (Əd-Duhan, 38-39)

Rəbbim heç bir yaratdığını ruzisiz buraxmamışdır. Nə qədər sürünənlər vardır ki, öz ruzilərinin arxasınca getmək iqtidarında deyillər, onları Yedizdirən, Qoruyan Uca Yaradıcıdır. Alma qurdu öz ruzisinin içində oturub ruzilənmirmi? Yaxud ana bətnindəki canlı üçün ruzi özü gəlmirmi? (Ey insan, yoxsa sən düşünürsən ki, səni yoxdan var edən, sənə şərəfli varlıq statusu qazandıran Allahın bu imtahan dünyasında səni yardımsız qoyacaq? ) Ey insanlar hara tələsirsiniz? Ruziniz Allahdan deyilmi? Allah üçün yaşayanı Allah özü yedizdirər. Allah ədalətlidir, adildir. Onun diləməsi də ədalətindən, adilliyindən, sevgisindən qaynaqlanar, yaxud da Onun diləməsində və təsərüfunda ədalətinin, rəhminin, vahhablığının təcəllisi öz əksini tapmaqdadır. Deməк, dilədiyini alçaltması da, yüksəltməsi də, alması da, verməsi də xeyrindən qaynaqlanmaqdadır. Uhud müharibəsi əslində müsəlmanların məğlubiyyəti deyil, qələbəsi idi. Allahın təsərrüfatında hər şey xeyirdən qaynaqlanır.

***“De: “Ey mülkün sahibi Allah! Sən mülkü dilədiyinə verir, dilədiyindən geri alırsan. Dilədiyini yüksəldər, dilədiyini alçaldarsan. Xeyir Sənin əlindədir. Həqiqətən Sən hər şeyə qadirsən. Gecəni gündüzə, gündüzü gecəyə qatarsan. Ölüdən diri, diridən ölü çıxararsan. İstədiyin şəxsə saysız –hesabsız ruzi verərsən”***(Ali-İmran, 26-27)

Allah tək başına hökm və təsərrüf Sahibi, mülkün Sahibi, dilədiyinə mülkü verən, mülkü dilədiyindən alan, dilədiyini güclü edən, dilədiyini zəif edəndir. Mülk Onun bir “OL” kəlamıdır. İnsan da bu mülkün bir hissəsidir. İnsanların işləri üzərindəki hökrmanlıq bütün Kainat üzərindəki hökmranlığın sadəcə bir parçasıdır. Hər şeyi yaradan, var edən Allahın mülkündə ən dəyərli olanı nədir? Təbii şərəfli İNSAN. Belə olmasaydı ən şərəfli və təmiz varlıqlar olan mələklərə Adəmə səcdə edin deyilərdimi? İnsan Allahın yer üzərindəki xəlifəsidir. Bəs İnsanı İNSAN edən nədir? Təbii insanlıq dərəcəsi. Nankor bir varlıq necə şərəfli İNSAN ola bilər?!

***“Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım! Mən onlardan ruzi istəmirəm! Şübhəsiz ki, ruzi verən də, Qüvvət sahibi də, Yenilməz olan da Allahdır. ”*** (Zariyat (Sovurub dağıdan küləklər), 56-58)

Rəbbin, Yaradıcının qarşısında, Onun bütün gözəllikləri müqabilində verəcəyi bir qarşılığı mövcuddur İnsanın. Rəbb insandan ubudiyyət istəyir, yəni *ibadət*. Bu gün İnsanla İslam arasında əngəllər qoyulmuşdur. Ət və dırnaq bir-birindən ayrılmış, toxum torpaqsız, torpaq susuz qalmışdır. Toxumsuz qalan torpaq daşlaşacaq, quruyacaq, faydalılıq funksiyasını itirəcək və ölü torpağa çevriləcək. Ey torpaqdan yaranan insan, sənin İslam, Salam, Təslim toxumuna ehtiyacın var. Hidayət nuru sənin suyundur, ey Adəm övladı. Sən sudan yaranmısan. Yalnız oruc vaxtı, yalnız susuzluq anında dərk edirsən suyun qiymətini. Su Allahın bir lütfü, bir neməti. *Canlı su canlı torpağı hərəkətə gətirir*. Dünyanın ücdə ikisi sudur. Sən və təbiət. Sənin 50-70%-in sudur, Qanın 83%-i, yaranan embrionun 90%-i sudur. Əzələlərin 75%-i, böyrəklərin 82%-i, beynin 74%-i, sümüyün belə 22%-i sudur. Su davamlı olaraq orqanizmdən buxarlanıb atmosferə

qarışır. Düşün, ey mikro kosmos. Düşün. Vəhdət halında yaşadığın makro dünya kimi hüzür, Salam halında yaşamaq istəyirsənsə, makro dünya kimi bircə sözlə təslim ol. Təslim ol Yaradanına. Sənin kimi adi insanlar olan Peyğəmbərlər - *eşitdik və itaət etdik* - dedilər. İbrahim *eşitdi və itaət etdi*, Muhamməd *eşitdi və itaət etdi*, ulduzlara çatan səhabələr *eşitdilər və itaət etdilər*. Aç əllərini yönəl, Rəbbinə. Makro dünya kimi eşit və itaət et. *Lə ilahə illallah* deyin, xilas olun.

*Allahım, Varsan, bütün kainat varlığının aynası. Təksən, Birsən, Vahidsən bütün varlıqlar birliyinin Şahidi. Sənə inanmışıq, hər nə ki, tək o Yaradandır, hər nə ki, cüt o yaradılandır. Hər şey Sənə möhtac, Sən heç bir şeyə möhtac deyilsən. Əhədsən, Vahidsən, Samədsən.*

*Allahım, ey varlıqların tək Sahibi, bizlərə* ***lə ilahə iləllah*** *deyərək xilas olmağı nəsib et! Ey bizə OXU deyə Əmr edən Rəbbimiz, VARLIQ Kitabını öyrət bizə, oxumağı bacarmaq nemətindən bizə də pay ver.*

*Əhədsən, Vahidsən, Samədsən.*

*SƏN BİZƏ YETƏRSƏN* !

***"Cahillər dedilər: "Nə olaydı ki, Allah bizimlə də danışaydı, bizə də bir ayə gələydi! " Onlardan əvvəl gələnlər də buna bənzər sözlər demişdilər. Onların qəlbləri bir-birinə bənzəyir.Biz tam yəqinliklə iman gətirənlərə ayələrimizi açıqcasına göstərdik "*** ( Bəqərə, 118)

Allah Zahirdir, Batindir, hər şeyi Yaradan və Yönləndirən də O - dur. O həm Əvvəl, həm də Axırdır. Həyatı da Aləmlərin Rəbbi Allah yaratmışdır. Həyatımızda cərəyan edən hadisələr də O - nun əmrinə tabedir. Necə ki, sonsuz kainat Onun qüdrəti ilə idarə edilir. Və hər şey əşrəf İnsan üçün, onun oxuyaraq kamilləşməsi, müdrikləşməsi və nəhayət Rəbbinə yönələ bilməsi üçündür. Ey Adəm övladı, sənə *oxu* əmrini verən Yaradan Allah Onu tanıya bilmən üçün hər neməti sənin ixtiyarına vermişdir. İbrahim peyğəmbər kimi Kainatı və onu yaradan bir Ali Qüvvənin olduğunu kəşf etdinmi? İndi isə nəzərlərini özünə yönəlt. Çünki, özünü tanıyan Rəbbini tanıyar. Çünki, həddini bilən Uca Yaradana aparan yola yönələr. Xoşbəxtliyin bu yolda olduğunu dərk etdiyi üçün. *Əşrəf İnsan* vəzifəsinin məsuliyyəini dərk edən İnsan etdiyi kəşfin hələ başlanğıc olduğunu dərk edərək daha - daha irəli can atacaq. Oxumaq üçün. Özünü, öz missiyasını dərk edən qul ətrafında cərəyan edən hadisələrin də oxumaq üçün nazil olmuş ayələr olduğunu dərk edəcək. Bütün Kainatda baş verənlərin hadisə ayələri olduğunu dərk edərək göndərilən mesajları sevərək oxuyacaq. Və Anlayacaq ki, hər zaman olduğu kimi *Onun adı ilə başlayan Oxu Ona səcdə ilə bitir*. Zatən Hər zahirin arxasında bir batin yerlşdirən və batinlərdə oxumaq, düşünmək üçün zəngin hikmətlər gizlədən belə Alim Rəbbin qarşısında heyranlıqla səcdə etməmək mümkümü? Anlayacaq ki, hər sıxıntı qulu gücləndirmək üçün bir nemətdir. Bu gözəllikləri dərk edən Allah aşiqi hər halında Aləmlərin Rəbbinə həmd olsun deyəcək, gizlinlərdə gizlənən hikmətləri oxuya bilməyənlərin problemlər içində çaş - baş qaldığı, vurnuxduğu anlarda isə *" Rəbbim Allah mənə yetər"* deyəcək və həqiqətən də Allahın hər şeyə, hər kəsə yetdiyi sevincini, xoşbəxtliyini yaşaya biləcək. Hər halında *lə*, yəni yoxdur deyəcək. "*Allahdan başqası yoxdur"* deyəcək və beləcə *Lə ilahə illəllah* - ı yaşayacaq. Necə ki, Müəllimimizin öyrətməsi ilə səhabələr *lə ilahə illəllah* deyib xilas oldular. Hər Allah aşiqi *lə ilahə illəllah* deyib xilasın yolunu tapacaq. Xilas ol. Allahın ayələrini oxu. Allahın mesajlarına gözünü, qulaqlarını, qəlbini aç. Aç qəlbini. Allah həyatımızdadır. Allahdan ayrı bir həyat yoxdur. Dinlə, düşün.

***" Göylərdə və yerdə kim varsa Ona möhtacdır. O hər gün bir işdədir."*** (Rəhman, 29)

Bu ayə Yaradanın, Onun İlahi iradəsinin bəzən vəhy içərisində kəlam olaraq təcəlli etməsinə, yaxud da hadisələr içində mesaj olaraq təcəlli etməsinə bir işarə deyilmi? Hadisələr içindəki mesajlar hadisə ayələri deyilmi? Beləcə Allahın Əl -Kəlam sifəti hadisələr içində özünü göstərmiş olur. Allaha yaxınlaşmaq istəyən insanlara yol göstərən Quran ibrət götürənlərə mesajlar təqdim edən hadisələrdən danışmaqdadır. İbrətlər və mesajlarla zəngin olan bu həyat

hadisələri həm Quran ayəsidir, həm də hadisə ayəsi. Həm də bu Quran qissələri Allahın sifətlərinin hər ayədə, hər hadisədə təcəlli etməsinə bir nümunədir. Adəmin bağışlanmsı Ğafur adından, Şeytanın qovalanması Qəhhar adından, Nuhun xilası Nasir adından, İbrahimin qorunması Hafiz adından,  Musanın vəhy almazı Kəlam adından xəbər vermirmi?

Ey Adəm övladı, sənin zərər bildiyin hər bir şey,  hikmətini dərk etmədiyin hər hadisə sənin xeyrinə yönəlmiş bir xeyrin başlanğıcıdır. Düşün... Allah Rəhmandır,  Rəhimdir, Vəhhabdır. Yeri - göyü sevgidən Yaradan və qullarına bəxş edən belə bir Allah qullarına əzab verərmi?

***"Əgər siz şükr etsəniz və iman gətirsəniz, Allah sizə nə üçün əzab versin ki,  Allar şükrə qiymət verəndir,  hər şeyi biləndir. "*** (ən-Nisə, 147)

Məgər siz övladınızın, sevdiyinizin bir səhvini,  yanlışını gördüyünüz zaman ona qəzəblənmirsinizmi, tərbiyə məqsədi ilə cəza vermirsinizmi? Bu cəza sevginizin bir sübutu deyilmi? Bəs oxumaq, təhsil almaq üçün cəzalandıran müəllimlər, tərbiyəçilər, valideynlər. Onları sevgi, yaxud sevdiklərinin daha üstün olması istəyi yönləndirmirmi?

Ey Adəm övladı, Sevgini Yaradan Allahın isə sevgi xəzinəsi daha genişdir. Yaratdığı hər neməti oxumaq üçün qullarının ixtiyarına verən Sevən, həm də tərbiyə edən Rəbb İnsanı daha üstün kamilliyə çağırmaq üçün hadisə ayələrində gizlənən mesajlarla qullarına yönəlir. Düşünün, hər addımda sizə mesajlar var. Xəstəlikdə də,  itkidə də belə. Müəllimimiz öyrətməyibmi, "*sədəqə ilə xəstələrinizi müalicə edin"* və daha nələr ...

Allah hər şeyə Şahiddir. Öz şahidliyi özünə yetər. Kimsənin şahidliyinə ehtiyacı yoxdur. Bizim ehtiyacınmız var Onun şahidliyinə.

***"Allah şahidlik etdi ki, Özündən başqa heç bir tanrı yoxdur. Mələklər və haqq-ədalətdən ayrılmayan elm sahibləri də O mütləq qüvvət, hikmət sahibindən başqa heç bir tanrı olmadığına şahidlik etdilər"*** (Ai-İmran, 18)

Mələklər və elm sahibləri. Bu üstün dərəcəyə qalxmaq istəməzmisən? Elə isə şahidlik, şəhadət, şahid, şəhid anlayışları haqda düşün. İbrahim kimi düşünərək Rəbbinin varlığına şahid ol. Ona şahid olanlar şəhid olurlar. Şəhidlər əbədi diridirlər. Şahid Allah sənə də şahidliyi, şəhadəti  öyrətdi. Nədən *lə ilahə illəllah* dedikdən, yəni Allahın varlığına şahid olduğunu təsdiq etdikdən sonra, Muhammədin onun qulu və rəsulu olduğuna şəhadət verirsən? Nədən insanların əşrəfi özünə öncə qul-abd deyir, sonra Rasul? Qul olmaq doğrudanmı hər şeydən bu qədər öndədir?  Nədən ucalardan uca Cəlal yiyəsi Allah səndən Rəsula şəhadət və itaət tələb edir? Nədən Rəsuluna sevgi tələb edir?  Nədən Özünə yaxınlaşan yolda Rasulunun yolu ilə yürüməyi tələb edir? Gəlin birlikdə düşünək, nəyə şəhadət veririk, yəni nəyə şahid olduğumuzu bildiririk? Mən şahidəm ki,  *"yoxdur heç bir ilah Allahdan başqa,  mən şahidəm ki,  Muhamməd Onun qulu və elçisidi."* Şahidəm, əminəm, bütün varlığımla,  hüceyrələrimlə şahidəm. Yaradanın qarşısında

şahidlik andı. Allaha Onun varlığına əmin olduğumuza şahidlik edirk. Yəni ətrafımızda hər yarpağın, hər hüceyrənin, hər ulduzun, əzəmətli Kainatın itaət və təsdiq etdiyi, varlığına şahid olduğu Uca Yaradanın varlığına şahid olduğumuzu biz də dilimizlə qeyd edirik. Əməl və qəlb ilə şəhadət isə - yəni, Hər şeyin tək Sahibinin, tək İdarə Edəninin, möhtac olduğumuz Tək Varlığın Allah olduğunu əməllərimizlə yaşayır, qəlbimizlə duyuruqmu? Əməllərlə doğru şəhadət verməyin yollarını necə öyrənir insan? Allahın göndərdiyi insanlardan olan elçilərin həyatı, yəni onların həyat hadisələri, yəni Rasulların yaşadığı hadisə ayələrini oxuyaraq yaşamaqla. Hər Rasul "*mən də sizin kimi adi bir insanam*" deyərək həyatı, əməli, qəlbi, dili ilə vəhdət halında Yaradana çağırdı. Hər Rəsul öncə qul - abd olduğuna sevindi, Özlərini Yaradana ibadət – qulluq üçün yaradılmış qullar olaraq tanıtdı, sonra Hər kəsi bu qulluq xoşbəxtliyinə çağırdı. Deməк, *seçılmiş* olmağın yolu qulluqdan – ibadətdən keçir.

Son elçi. Son Peyğəmbər. Allahın kəlamını, Haqq Sözünü, Doğru Yolunu – Dinini - insanlara çatdıran Muhamməd. Allah hər şəhadət verəni, yəni hər şahidi Həbibinin həyatını öyrənməyə çağırır. Muhammədin yolu ilə getmək, onu tanımaq deməkdir. Muhammədi sevmək, Ona itaət, Ona itaət də onu sevməkdir. Hər bir Adəm övladının həyat yolunda yaşaya biləcəyi hər hadisəni sevgili quluna yaşatdı Allah.

Düşünək... İnsanın ağır, çətin deyə biləcəyi hansı halı yaşamadı Rasul. Həyatdakı hadisə ayələrini oxumaq istəyən, asanlıqla, hüzurla yaşamaq istəyən hər şahid Allahın sevib seçdiyi Rasulunun həyatından öyrənəcək. Demək, *lə ilahə illəllah*ı yaşamaq istəyən hər şahid bütün halilə bir Quran olan Rasulun həyatını öyrənəcək. Demək, *lə ilahə illəllah*ı yaşamaq Muhamməd Rasulallahı yaşamaqdan, onun kimi olmaqdan keçir. Allahı tanıdın, sevdinmi? İndi isə Onun səni sevməsini diləyir, Ona yaxınlaşmaq istəyirsənsə, Muhammədi tanı, öyrən, sev. Müəllimimizin həyatını öyrənmək sənə hadisə ayələrindəki mesajları oxumağı öyrədəcək. Hər düzgün oxunulan mesaj Allaha bir addım yaxınlşmaq deməkdir. Rəbb mesajlarını oxumaq üçün göndərir. Elə isə gəlin əvvələ qayıdaq, Bəqərə surəsinin 118-ci ayəsi ilə başladıq:

***Cahillər dedilər: "Nə olaydı ki, Allah bizimlə də danışaydı, bizə də bir ayə gələydi !"Onlardan əvvəl gələnlər də buna bənzər sözlər demişdilər. Onların qəlbləri bir-birinə bənzəyir. Biz tam yəqinliklə iman gətirənlərə ayələrimizi açıqcasına göstərdik "***

Nədən cahillər Allahın onlarla danışması üçün bir ayə göndərilməsini istədilər? Kimdir cahillər? Oxumağı bacarmayan, düşünməyi bacarmayan, təfəkkür etməyi bacarmayan. Nəyi oxumağı bacarmayan? Təbii ki, Yaradan Allahın O*xu* əmrini. Çünki, *Oxu* əmrinə tabe olan hər şahid ətrafındakı hər yarpağın, hər ağacın, dənizin, suyun, torpağın, Kainatın və hər bir yaradılmışın bir ayə olduğunu dərk edəcək və hər bir ayənin Uca Allahdan danışdığının şahidi olaraq, O Ucalardan Uca Xaliqin qarşısında səcdəyə qapanacaq. Qəlbi, beyni, hüceyrələri, ruhu və cismi imanla dolduğu üçün Allahın ayələrini *görmə* və *oxuma* xoşbəxtliyinə nail olacaq.

Kimdir cahil? Özünü tanımayan, misssiyasından xəbərsiz, fitrətindən ayrı düşmüş, yəni öz trayektoriyasından çıxmış bir mikro planet.

*Allahım, Sənə sığınırıq, Səni dərk etməməkdən, ayələrinə kor və kar olmaqdan sənə sığınırıq. Allahım, cahillikdən Sənə sığınırıq. Aç qəlbimizi, hidayət nuru ilə doldur qəlbimizi. Oxumağı öyrət bizə.*

Cahil insan. Nurdan məhrum olmuş insan. Ey Adəm övladı, sənin atan Adəmə mələklərin belə bilmədikləri öyrədildi. Düşün, dön öz fitrətinə, dön öz xilqətinə. Xilqətini Xaliq xəlq etdi. Nə möhtəşəm vəhdət. Oxu kainat ayələrini, İnsan ayələrini, hadisə ayələrini. Quran oxu deməkdir. Quran qiraətdir. Oxuyanlar üçün oxu kitabı. Oxumağa başlayanlar üçün Oxu kitabı. Oxuyaraq Ona səcdə etmək istəyənlər üçün yol göstərən ayələr. Oxuyaraq gözəl qul olmağın yollarını öyrədən Kitab. Qurana sarıl. Və hər zaman Kəlam sahibinə yalvar: "*Ya Rabbim, Quranı mənə aç, məni də Qurana. Ya Rabbim, elmimi artır. Ya Rabbim, hər halımla Quranı oxumağı nəsib eylə. Allahım, Quranı mənə sevdir, məni də Qurana* "

Tələs...

Kainatı kəşf edən, özünü dərk etməyə can atan Adəm övladı Yaradana yönəlmiş olacaq. Uca Xaliq yaratdıqlarını dünya adlanan imtahanlar aləmində başıboş buraxmamışdır. Daim qullarını haqqa çağıran mesajlar göndərmişdir. İnsanların özlərindən olan elçilər Allahın kəlamları, möcüzələri ilə Adəm övladlarını nura dəvət etmişlər. Nura, doğru yola, doğru dinə dəvət edən dəvətçilər əllərində həqiqi yola işıq salan Kitabları mayak olaraq tutmuşlar. Vəhylər bu kitabların əsaslarını təşkil etmişlər. Vəhy Allahı tanıdan ən səhih qaynaqdır. Vəhylərdən bütövləşən Quran da Allahı tanıdan ən səhih qaynaqdır. Qaynaqlar qaynağıdır. Qaynaqlar qaynağı Quranın qaynağı vəhydir. Vəhy Allah kəlamıdır. Vəhy Allahın sözləridir. Kainat Bircə *Ol* sözü ilə canlandı, təslim oldu. İnsanoğluna isə 77934 söz göndərilmiş. İnsandan başqa bütün varlıqlara bircə söz yetdi.

Quran bir mündəricatdır. Quran ayələri kainat ayələrini, İnsan ayələrini, Hadisə ayələrini düzgün oxumağı öyrədən yol göstərəndir. Quran Əşrəf İnsana Öz dəyərini öyrədəndir. Qulluq, itaət, təslimiyyət İnsanın fitrətindədir. Quran İnsana öz fitrətinə uyğun yaşamağı, öz trayektoriyasında hərəkət etməyi öyrədən Kitablar Kitabı, qaynaqlar qaynağıdır.

"***Əlif, ləm, mim. Bu heç bir şəkk-şübhə olmayan, müttəqilərə doğru yol göstərən Kitabdır. O, kəslərə ki, qeybə inanır, namaz qılır və onlara verdiyimiz ruzidən sərf edirlər. O kəslərə ki, sənə göndərilənə və səndən əvvəl göndərilənlərə iman gətirir və axirətə şəksiz inanırlar. Məhz onlar öz Rəbbi tərəfindən doğru yoldadırlar. Nicat tapanlar da onlardır"*** ( Bəqərə, 1-5)

Quran - müttəqilərə doğru yol göstərən Kitab. Kimdir müttəqilər? Heç bir şəkk – şübhə etmədən Rəbbinə inanan və iman edən insanlar. Heç bir şəkk-şübhə etmədən *eşitdik və itaət etdik* deyənlər. Zatən Quran ona şəkk-şübhə etmədən yaxınlaşanlara öz sirlərini açmaqdadır. Qəlbində əyrilik olanlar Qurandan nəsiblərini ala bilməzlər. Quranda şəkk-şübhəyə yer yoxdur.

*Allahım, qəlbimizdə zərrə qədər də olsa şübhə varsa, Sənə, Sənin axirətinə, Qiyamət saatına, yenidən dirilişə, ölümün bir yox olma deyil, yenidən dirilmə olduğuna, Cənnətinə, Cəhənnəminə zərrə qədər də olsa şübhə varsa, çıxar, at qəlbimizdən. Yoxsa, nə olar halımız. Quran bizə Səni tanıtmaz, öz sirlərini açmaz. Allahım, kor, kar qalarıq. Allahım, Sən haqqsan, haqq-hesab günü haqdır. Hüzuruna toplaşacağımız haqdır. Allahım, biz Sənə inandıq, iman gətirdik, yardım et bizə, bizi müttəqilərdən et*.

***"Əlif, lam, ra. Bu Quran elə bir Kitabdır ki, onu sənə insanları onların öz Rəbbinin izni ilə zülmətdən nura, yenilməz qüvvət Sahibi, tərifə layiq olan Allahın yoluna çıxartmaq üçün nazil etmişik"*** (İbrahim,1)

*Allahım, nə qədər acizəm, nə qədər acizəm Kəlamından danışmağa, nə qədər acizəm.*

Quran, səndə nə böyük əzəmət, qüvvət var. Bütün aləmlərin təslim olduğu bircə deyil də, tam 77000 dən çox Allah sözləri.

***“De: “Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qurana bənzər bir şey gətirmək üçün bir - birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər ”***(əl-İsra, 88)

Ey, İnsan Yaradan hər şeyi sadədən yaratdı, atomlar, elektron, nüvə, həcmcə cox kicik olanlardan həcmcə möhtəşəm olanları yaratdı. Cünki, O, yoxdan var edəndir. O, bir Rəssamdır, gördüyümüz bütün gözəllikləri, rəngləri bizə bəxş etdi. Çox sadə hərflərdən söz, ayə, surə, Kitab yaratdı. Bir işıq edərək, yolları aydınlatdı. Buyur, özünü qüvvətli, bilikli zənn edən, Adəm övladı, məharətini göstər. Amma, unutma, hər şeyə Qadir Yaradan yaratdıqlarını canlı yaratmışdır, Onun yaratdıqları hərəkətdədir, yaratdıqlarına ruh bəxş edir. Bəs sən nə edə bilərsən?

Əlif, ləm, mim. Hər şeyi canlı yaradanın Kəlamı da canlıdır. Canlı olmasaydı, böyük partlayışla varlıq hərəkətə keçə bilərdimi?

Quran da canlıdır. Həm də qısqancdır. Yalnız onu sevənlərə, öz sirlərini açıb göstərir.Quran canlıdır və canlı insanları sevir. Ruhları, qəlbləri canlı insanları. Gözə sahib olub kor olanlar, qulağa sahib olub kar olanlar, bir sözlə ağıla sahib olub Allahı tanımayanlar kor, kar, ölü olduqlarından canlı Quranın canlı həyatını görə bilməzlər. Quran canlı, diri ruha sahib insanların həyat yollarına, yaşam tərzlərinə mayak olmaq üçün nazil oldu. Quran hərəkətdə olan insanları və vicdanları praktiki və canlı şəkildə yönləndirmək üçün nazil oldu. Quranla yaşamayan, Quranla mühakimə olunmayan, Quranla düşünməyən, bir sözlə Quranı həyat reallığından uzaq tutan və bir sıra qəlibə salınmış ibadət cümlələri Quran hesab edərək oxuyan və dinləyən insanın qəlbi ilə Quran arasında qalın bir pərdə olacaq. Quranın mükəmməliyi, möcüzəsi də buradadır. Nazil olduğu gündən bu günə qədər və Qiyamətə qədər ayələri həyatlarına, düşüncələrinə, məqsədlərinə tətbiq edənlərə daim nazil olmaqda davam edəcək. Quran yaşayır, yönləndirir, düşündürür, yaşadır, bu günkü həyatımızın nizamlanmasında gücünü qorumaqdadır. Kainat Allahın gözlərimizlə gördüyümüz, Quran isə oxuduğumuz Kitabıdır. Hər biri də yoxdan var edən Yaradıcılarını tanıdan və öyrədən dəlilidir. Yarandığı gündən öz funksiyasını yerinə yetirməkdə olan Ay, Günəş kimi Quran da öz funksiyasını yerinə yetirməkdədir. Zaman onlara mane ola bilmədiyi kimi Allahı tanıdan Quranımıza da öz funksiyasını yerinə yetirməkdə mane ola bilmir. İnsan da həmin insandır: mahiyyəti və fitrəti etibarı ilə heç bir dəyişikliyə məruz qalmayan həmin insan. Beləliklə, Allahın İnsana xitabı, müraciəti olan Quran da dəyişməz xitab və müraciətdir. Çünki, İnsanın özü dəyişməmiş, başqa bir varlıq halına düşməmişdir. Quran insanın mahiyyətinə, fitrətinə, daxilinə müraciət edir.

***“De:“İstər inanın, istərsə də inanmayın. Şübhə yoxdur ki, ondan əvvəl elm verilmiş kimsələr yanında Quran oxunduğu zaman üzü - üstə səcdəyə qapanar.*** (əl-İsra, 107)

***"Həqiqi hökmdar olan Allah ucadır! Həm də sənə tamam – kamal vəhy olunmadan əvvəl Quranı oxumağa tələsmə və " Ey Rəbbim, elmimi artır! "de "*** (TA-ha, 114)

*Allahım, elmimizi artır. Sənə yaxınlaşdırmayan elmdən Sənə sığınırıq. Allahım, elmimizi artır ki, biz də Sənin ayələrin oxunan kimi qarşında səcdəyə qapanaq. Qəlbimizi elə təmizlə ki, hidayət nurundan başqa nur Qəlbimizə yer tapa bilməsin.* Quran hidayət qaynağıdır.

***"Quran oxumaq istədiyin zaman məlun şeytandan Allaha sığın!"*** (ən-Nəhl, 98)

*Pisliklər qaynağı olan şeytanın şərindən Sənə sığınırıq, Allahım. Və Sənin Rəhman, Rəhim adınla Quran oxumaq istəyirik. Rəbbim, elmimizi artır. Elm nurdur. Nur mömininin silahıdır. Allahım bizi silahlandır. Daxili düşmənlərə qalib gəlməyə yardım et! Güc, Qüvvət Sahibi Sənsən. Sən bizə şah damarımızdan da yaxınsan.*

Allahım, bu həqiqəti bizə Quran öyrətdi. Dua edərək silahlanmağı Quran öyrətdi. Heç bir yaradılmışın qarşısında səcdə etməməyi Quran öyrətdi. Yalnız Hər şeyin İxtiyar sahibi, Doğmamış, Doğulmamış, tayı bərabəri olmayan, heç bir bənzəri olmayan Sevən, Rəhmli olan Sənin kimi Uca varlığın qarşısında səcdə etməyi də Quran öyrətdi. Heç bir halda sənə şəriklər qoşmamağı da Quran öyrətdi. Quran bizə Sənin bizə şah damarımızdan da yaxın olduğunu öyrədir. Quran Sənin İnsanla Onun qəlbinin arasında durduğunu da öyrədir. Quran bizə Səni tanıdan ən gözəl vasitədir.

*Allahım,Sən bu qədər yaxın olduğun halda nədən İnsanlar Sənə yaxınlaşmaq üçün vəsilə axtarmaqdadırlar?! Sən ki, Mənə hər şeydən yaxınsan.*

***"Məgər sən bilmirsən ki, göylərin və yerin səltənəti ancaq Allaha məxsusdur və sizin Allahdan başqa bir dostunuz və yardımçınız yoxdur ?!*** (əl-Bəqərə, 108)

Ey Adəm övladı, göylərin və yerin səltənətinin, insanların, onların beyinlərinin, həyatın, hər bir yaradılmışın Sahibi sənə, məhz sənə kiçik bir Adəm övladına öz dostluğunu təklif edir.

*Allahım, nə böyük şərəf, nə böyük lütf.*

Allah quluna dostluq təklf edir. Ey bacım, qardaşım, Allahın varsa nəyə möhtacsan? Amma, Allahın yoxsa nəyin var???

Allahın dostu İbrahimi od yandırmadı. Onun üçün sərin və səlamət oldu. Od onu Yaradanın əmrinə tabedir. Fiziki qanunları da Yaradan O deyilmi? Demək, yandıran alov belə Onun dostlarına səlamətlik bəxş edir. Allahım, bütün qanunları yaradan Sən, Hər şeyi idarə edən Sən. Və Sən İnsanoğluna dostluq təklif edirsən. Həqiqətən də insan nə qədər özünə zülm edir? Allah kimi dostu qoyub Allahdan bağışlanmaq diləyən digər yaradılmışları dost və yardımçı görür. Təbii, Quranı oxuyan və Allahın dostluğunu qəbul edə bilməyən böyük zülm içərisindədir. Ey Adəm övladı, tələs, Dostunu özündən razı salmağa tələs. Ötən hər gün demirəm, hər saniyə ömür ağacından tökülən yarpaqlardır. Qış çox yaxındır. Yaz yenə gələcək. Dostunla görüşə tələs.

***“Allahı Onun Rəsulunu özünə dost bilən kimsə bilsin, yalnız Allah Firqəsinə qoşulanlardır qələbəyə çatanlar”*** (Məidə, 56)

***“De ki: “Göyləri və yeri yaradan Allahdan başqasınımı dost tutum mən özümə? O, yemir, yedizdirir”*** (Ənam, 14)

***“Siz nə yerdə, nə göydə Allahı aciz buraxa bilməzsiniz. Allahdan başqa nə bir dostunuz olar, nə bir mədədkarınız.”*** (Ənkəbut, 22)

***“Bil ki, xalis din ancaq Allaha Məxsusdur. Allahı qoyub özlərinə dost tutanlar: “Biz onlara yalnız bizi Allaha yaxınlaşdırmaq üçün ibadət edirik!” Şübhəsiz, ki, Allah ixtilafda olduqları məsələlər barəsində onların arasında hökm edəcəkdir. Allah yalançı, nankor olan kimsəni doğru yola müvəffəq etməz!”*** (Zumər, 3)

Ey Adəm övladı, bacım, qardaşım, bil dostunun şəriki yoxdur. O, təkdir. O, Vitrdir. Məgər Allah sənə yardımçı və dost olduğunu bildirdikdən sonra Sənin həyatda yalnız olduğunu düşünmən, kimsənin səni anlamadığını israr etmən yalan deyilmi? Allah kimi yardımçıdan üz çevirmək nankorluq deyilmi?

Bəs öldükdən sonra yenidən diriləcəyinə inanmayanların halı necə olacaq? Ey ölümdən sonrakı həyatı inkar edən, Adəm övladı, Quran sənə ölümündən sonra diriləcəyini, haqq-hesab gününün yaxın olacağını xəbər verir. Qurana iman gətirən, Quranın xəbərlərinə necə inanmaya bilər? Namazın Haqq olduğunu bilən, səcdəyə necə getməyə bilər? Qurana iman gətirmədinmi? Evində ən əziz yerdə saxlamaq, əzizlənmək üçün deyil, Quran oxunmaq və yaşanmaq üçün nazil olmuşdur. Quran yardımçıdır, Quran şəfadır. Amma, Ona iman gətirənlərə, Onu oxuyaraq əmrlərinə riayət edənlərə bir hidayətdir, Quran. Allahın Haqq olduğunu bilən, Onun əmrlərinə necə təslim olmaya bilər? “ Hələ hazır deyiləm, yaxud vaxtım yoxdur”, deyərək Allahdan uzaq düşənlər, - həiqətən, vaxtınız yoxdur. Çünki, kimsə bu dünya həyatı üçün, onun neçə il sürəcəyi baxımından qarant almamışdır. Bəs Sənin Allaha vaxtın yoxdursa, amma Onun nemətlərilə məşğul olmağa Allahın verdiyi zamanı israf etməyinin adı nə? Quran Səni oxumağa çağırır. Həyatı, özünü, zamanı, hər bir yaradılmışı. Quran yaşanılmaq, hüzura çatmaq üçün Konstitusiya kitabıdır. Quran fal Kitabı deyil, Allah kəlamı olaraq Hidayət nurudur. Qəlbini Qurana aç, Quranı sev, Quranın aşiqi ol. Onda Quran Sənə öz sirlərini açaraq bütün elmlərdən pay verəcək. Quran hikmətlə dolu Kitabdır. Quran sənə hikmətdən pay verər, kimə hikmət verilibsə ona çoxlu xeyir verilmişdir. Quran quru teoriyalardan ibarət faktlar Kitabı deyil. Quran Allaha aparan yolun nurudur. Qəlbini Qurana aç, Quran Səni dostuna çatdıracaq, aradakı maneələri dağıtmağa yardım edəcək.

***“O Allah ki, sizin üçün yer üzünü döşədi, göyü isə tavan yaratdı, göydən yağmur endirdi və onun vasitəsilə sizin üçün müxtəlif meyvələrdən ruzilər yetişdirdi.İndi siz də Allaha bilə-bilə şəriklər qoşmayın. Əgər bəndəmizə nazil etdiyimizə şəkkiniz varsa, siz də ona bənzər***

***bir surə gətirin və əgər doğru deyirsinizsə, onda Allahdan savayı şahidlərinizi çağırın! Madam ki, belə bir işi bacarmırsınız, heç bacara da bilməzsiniz, o halda kafirlər üçün hazırlanmış, yanacağı insanlardan və kibrit daşlarından ibarət olan oddan həzər edin "***(Bəqərə, 22)

*Allahım, İmanı olanın imkanı bitməz, Nə olur bizləri imandan və Qurandan ayırma! Ya Rəbbim, Quran nurdur. Qurandan məhrum olana işıq çatmaz. Bizləri Kitabına uyanlardan qərar ver, Kitabından uzaqlaşanlardan, uzaqlaşdıranlardan və Kitabının adına yalan yaxanlardan etmə. Quranı bizdən razı et, Bizi də Qurandan razı et! Hesab günündə Bizləri Quranın şahidliyi xoşbəxtliyinə nəsib et! Hesab günündə bizi Qurandan utananlardan etmə! Quranı bizə aç, bizi də Qurana. Susuz, toxumsuz torpaqlara vəhyi, dəvəti bizim də əllərimizlə aç, payla. Bu gün hər kəsin Sənin nuruna ehtiyacı var. Allahım, Quranı bizə sevdirdiyin kimi sevdiklərimizə də sevdirməyi bizə nəsib et. Bizləri Qurana və Özünə layiq et!*

**AÇAR.**

“ ***Biz sənə təkrarlanan yeddi ayəni və əzəmətli Quranı verdik*** ” (əl-Hicr, 87)

O hansı yeddi ayədir ki, Yaradan, tərbiyə edən Rəbb onu Əzəmətli Qurana, Şəfa Qurana, Nur, Hidayət qaynağı olan Qurana bərabər tutmuş, öncə Onun adını sonra Quranın adını çəkmiş. Yeddi ayə, Yeddi yol göstərən, Yaradan ona Fatihə demişdir. O, Fatihə Ümmul Kitabdır, Kitabların Anasıdır. Demək, Quranın şəfa, hidayət, nur ayələri Ümmul Kitab olan Fatihənin övladlarıdır. Hər övlad Anasından xəbər verir. Fatihə Açan anlamını da verir. Açandırsa demək açardır. Fatihə açardır. Hansı qapını açaraq yol göstərir Fatihə. Bağlı qapıları açmaq üçün açarı və qapıları tapmaq lazımdır. Yaradan açarı bizə verdi. Yaradan verdisə demək Bəşər övladından xoşbəxtliyə, işığa çağıran bir qapını açmağı istəyir. Hər şeyə Qadir Allah Yaratdığı əşrəf insana burada da seçim verib. Öz yolunu seçmək sənin əlindədir.

Nağıllar həyatdan götürülmüşdür. Həyat olmazsa, nağıllar da yaranmazdı. Hər nağılda bir hikmət gizlənir. Nağıllar nənələrimizin, kim bilir bəlkə də Həvva Anamızın Atalarmıza verdiyi tərbiyə zamanı ta körpəlikdən haqqı anlatmağa cəhdinin bir meyvəsidir. Nənələr övladlarına işıqlı gələcək diləyirlər. Və beləliklə, insanın qarşısında hər həyat halında seçim olduğundan xəbər verirlər. Ağ dünyaya aparan yol və qaranlığa aparan yol. Amma, ağ dünyaya gedən yolda, əjdahalar, tələlər vardır, sənə gözəl görünən, istəklərini, nəfsini təmin edən hiylələr səni gözləməkdədir. Ağ yola aparan yol tikanlardan keçir. (Bəlkə də hər tikan bir qızılgüldən xəbər verir). Aman tikanlara ilişmə, əhəmiyyət vermə, döz, səbr et, güclü ol, bütün çətinliklərin əvəzində səni ağlasığmaz böyük mükafatlar gözləyir. İşıqlı dünya, nurlu aləm özü bir mükafatdır. Amma, bu yolda büdrəməməyin üçün sənə böyük və güclü silah veriləcək. Hər çətinlik anında silahından istifadə etməyi unutma. O silaha əlini atan kimi bütün mənfiliklər səndən qorxaraq geri çəkiləcəklər və Sənin hər zaman sənə yardım edən Dostunun olduğunu görəcəklər. Əgər sən də silahı əlindən yerə qoymasan Dostunun hər zaman yanında olduğunu bütün halınla duyacaqsan, Dostun Sənə bir də Ən böyük Açar verir. Bax, unutma, çünki, Dostun unutqanları sevmir. Unutma, əlindəki Açar həm bütün müşkül qapıları açır, həm də dostunu çağırmaq üçün ən böyük əlaqədir. Açarını itirmə... Yatanda belə Onunla yat, oyananda belə onunla oyan. Dostuna güvən, səbr, şükr, zikr silahlarını bir anlığa da olsa özündən ayırma, yoxsa düşmənlər o anda ətrafını sarar, silahların olmadan da asanlıqla onların tələsinə düşərsən. Və Dostundan uzaqlaşaraq, qaranlıqlara qərq olarsan. Amma, yenə unutma, nə səhv, günah etmiş belə olsan Dostunu çağıran kimi O, sənə yardıma hazır olacaq. Kifayətdir ki, sən hər zaman ona səslən. Əks halda, məğlub olarsan. Bax, övladım, dünyanın şirinliyinə uyub işıqlı dünyaya səyahətdən vaz keçmə. Yoxsa, düşmənlərə məğlub olub əbədi əziyyət, məhrumiyyət, qaranlıq içində çabalayarsan. Bil, hər parıldayan, qızıl deyil. Hər zahiri gözəllik batini gözəllikdən xəbər vermir.

İşıqlı yola gedə bilmək üçün qarşına çıxan dünya isə sıfır, içi boş sıfır halında olsa da üzəri süslənmişdir. Bu dünyanın tələsidir. Gördüyün hər bir şey işıqlı dünyanın bir maketidir. Həqiqiləri isə yolu imtahanlardan keçən işıqlı dünyadadır. Bir bax, kiçicik insanlar dünyaya gəldikləri zaman ovuclarını açmırlar, sanki, hər şey mənimdir, hər şeyi tutmağa cəhd edirlər. Amma, köç zamanı əlləri açıq gedirlər, sanki " bir şey apara bilmədim "ə bir işarədir bu. Bu dünyanın bər-bəzəyinə uyma, onlar imtahan vəsaitləri olduğu səbəbilə bu dünyda qalırlar. İmtahan otağından qiymətdən və bilikdən başqa bir şey apara bilmirlər. Hər imtahan sonunda isə "kaş ki, daha çox çalışaydım deyə fəqan qoparırlar"

Nağıllar Həvva Anamızdan bizə gəlib. O gözəllikləri görmüşdü. Oranı itirməyə bərabər olan bir şeyi də bilmirdi. Bu səbəbdən də bütün vasitələrlə, tərbiyə yolları ilə Dostun razı qalacağı şəkildə ta bətnlərdə olan zamandan övlad tərbiyəsinə can atır, beşıkdən qəbrə qədər öyrənməyi istəyirdi övladlarından. Bilirdi ki, valideynlərin qəbrinə nur göndərməyən övladlar xeyirsiz övladlardır. Övladlarının övladalarının da xeyirli olması üçün beşikdən başlayaraq nağıllarla, hər bir yollarla Dostu, Rəhman, Rəhim Allahı tanıtmağa can atırdı: "Övladım, bir açar vardır ki, işıqlı dünyaya gedə bilmək üçün onun bütün dilimlərini oxuyub öyrənməli, dərk etməlisən, bu adi açar deyil. Bu açar Ona tərəf cəhd atana açır öz sirlərini. Onun bircəcik dilimi yerinə düşməsə qapılar açılmayacaq. Əlində, qəlbində, hər halında Fatihə açarı səninlədirsə sən cox güclüsən demək. Fatihəni öyrən, o sənin üçün bir nemətdir. Quran isə işıqlı dünyaya aparan yolda azmamağın üçün bir xəritədir. Açarı dərk etməsən Xəritəni də oxuya bilməzsən. Xəritə isə sənə bütün tələləri, nəfs, şeytan kimi düşmənləri tanıdır, İşıqlı yolu və Onun Sahibini öyrədir. Yalnız əyləncədən ibarət olan, sonu bir boşluq olan dünya adlı yolda xəritəsiz yürüyə bilməzsən. Xəritəni yolun başında öyrənmək lazımdır. Düşmənlər Sənin Xəritəndən və Açarından ayrı düşməyini hər saniyə gözləyirlər. Sənə yol göstərən Xəritən Ondan nə qədər yararlandığın üçün işıqlı dünyada səni sevəcək və yenə də daha –daha üstün gözəlliyə çata bilməyin üçün vasitə olacaq. Övladım, əgər tikanlardan ibarət olan dünya həyatının imtahanlarından yorulsan, silahlarını yerə qoysan demə ki, bu insanın gücü çatacaq iş deyil, mən adi insanam, mənə çox çətindir. O halda tez bu yolda yürüyən qəhrəmanları sal yadına. Onlardan öyrən, nümunə götür. İşıqlı dünyaya gedə bilən Qəhrəmanlar Dostunun dostlarıdır. Dosta olan sevgi onlara hər çətinlikdə qüvvət olmuş. Sevgidən qidalanaraq qaranlıq dünyada da sevgi toxumları atmışlar. Onlardan hər zaman nümunə götür, Xəritən örnək və ibrət məqamlarını da sənə göstərməktədir. Nümunələrdən ən şərəflisinin adı Muhamməd olacaq. Muhamməd nümunədir. Dostunun sevgili və sevimli quludur. Muhamməd qəhrəmandır. O, sevgi paylayandır, dağıdandır. Demək, əgər sən də güclü olmaq istəyirsənsə sevgi qaynağından qidalanaraq hər kəsə sevgi dağıtmalısan. Payladığın sevgi toxumıları cücərərək. Sənə yardım edəcək. Dualar, nur şəklində. Çünki Nur dünyanın silahları da nurdandır. Hər tərəfə nur dağıt, nur payla. *Fədakarlıq*. Bu da bir silahdır.

Fədakar ol, yardımda. Hər darda olan birinə yardım etsən bunlar özləri bir zaman sənin yardımçına, qalxanına çevriləcəklər. Bil yardım üçün yoluna çıxanlar da bir imtahandır. Sənin nə qədər yardımsevər, Dost üçün fədakar olduğun aydınlanacaq. Bunlar sənin Quran adlı Xəritəndə göstərilmişdir. Hər yardımın yüzlərlə böyüyərək sənə bir silaha, qoruyucuya çevriləcək... Həvva övladlarına ibrətlərdən, nəsihətlərdən ibarət olan inci nağılları belə öyrədirdi:

***BiR** vardır, **Bir** yoxdur, Allahdan başqa heç bir şey yoxdur. Heç kimsə yoxdur.*

Həvva Övladlrına salam öyrədirdi. Ataları Adəmin nəsihətlərinə, Anaları Həvvanın öyüdlərinə diqqət verən, valideynləri üçün bir nur mənbəyinə çevrilən övladlar *Açar*ı əllərində möhkəm tutaraq, *açar*ı itirənlərə yardımdadırlar hər zaman.

əl - **Fatihə**

**Bismillahir - Rahmənir Rahim. Mərhəmətli, Rəhimli Allahın adı ilə! Həmd olsun Allaha – aləmlərin Rəbbinə. Mərhəmətli, Rəhmli olana. Din gününün Sahibinə. Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən Yardım diləyirik. Bizi doğru yola yönəlt. Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və azmışların yox.**

*Allahım, Sən bizim Dostumuzsan. Aç bizə Fatihəni. Titrət qəlblərimizi Sənin adın çəkiləndə. Sıfra bərabər olan dünya adlı yolda tut əlimizdən. Öyrət, oxut, yaşat bizə Fatihənin hər dilimini. Sən etdirməsən edə bilmərik. Qəhrəmanımızın, Nurumuzun arxasınca getməyə yardım et... Ya Rəbbim, Qəhrəmanımızı bizə tanıt. Bizə də qəhrəmanlıq öyrət.*

Ey Adəm övladı, ey xeyirlərdə yarışanlar, ey qəhrəmanlığa can atanlar, Dostumuz, Xəritəmiz olan Quranda bizə işıqlı və qaranlıq dünyanı belə tanıdır. Gəlin birlikdə, Allahın ipinə sarılaq. Tək əldən səs çıxmaz. Aramızda təmbəllərə də yer yoxdur. Geriyə baxanlara da yer yoxdur. Dinlə, Quranı dinlə. Dinlə, Dostunu dinlə.

“***Biz bu axirət yurdunu yer üzündə təkəbbürlük etməyənlərə qismət edirik. Aqibət ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərindir. Hər kəs yaxşı əməllə gəlsə, ona bundan daha yaxşısı verilər. Hər kəs pis əməllə gəlsə, pis əməllər edənlərə ancaq əməllərinin cəzası verilər!. . Quranı sənə vacib buyuran qayıdacağın yerə səni yenə də qaytaracaqdır. De: “Rəbbim hidayətlə gələni də, haqq yoldan açıq-aşkar azanı da yaxşı tanıyır!” Sən Quranın sənin özünə nazil olacağına ümid etmirdin.Ancaq o, Rəbbindən bir mərhəmət olaraq sənə göndərildi. Buna görə də heç vaxt kafirlərə arxa olma! Allahın ayələri sənə nazil edildikdən sonra ehtiyatlı ol ki, səni çəkindirə bilməsinlər. Rəbbinə dəvət et və əsla müşriklərdən olma. Və Allahla yanaşı başqa heç bir tanrıya ibadət etmə. Allahdan başqa heç bir tanrı yoxdur. Allahdan başqa hər şey məhvə məhkumdur. Hökm Onundur. Siz məhz Onun Hüzuruna qaytarılacaqsınız! ...”***( Qəsəs, 83-88)

Ey bacım, qardaşım, Onun Hüzuruna aparan yola işıq salan Quran Fatihə kimi açarla başlayır... Dualar günü, dualar zamanı, duaların qəbul olduğu hər zaman anında gəlin birlikdə əllərimizi açaq, Rəbbimizə yönələk və dua edərək yalvaraq...

*Rəhman və Rəhim Allahım, Sənin adınla başlayırıq. Hər işimizə Sənin adınla başlayırıq. Allahım, Sənin adınla razı olmadığın bir işi etmərik. Ona görə də Sənin Adınla, yalnız Sənin razı qaldığın işləri başlayırıq. Allahım, Sən Mucibsən, duaları qəbul edənsən. Öndərimiz olan sevgili qulun Muhammədə, Onun Ailəsinə, sevdiklərinə, dostlarına salam olsun. Bütün peyğəmbərlərə salam olsun. Səni sevən hər bir yaradılmışa salam olsun. Əs –Səlama təslim olan hər kəsə salam olsun. Allahım, həmd olsun Sənə. İnsanı varlığına şahid tutan Allaha həmd olsun. Həmd olsun Sənə ki, Uca Varlığına şahid olmağı bizə nəsib etdin. İnsan Allah deyər də titrəməzmi?! Allahım, Adın çəkiləndə titrəməyi öyrət bizə. Allahım, Fatihəni öyrət bizə. Oxu deyə əmr etdin, ya Rəbb. Əmrinə təslim olmağı öyrət. Hidayət nurunu doldur qəlbimizə. Fatihəni yaşat bizə. Titrət bizi Fatihə kimi açarımızla. Öyrət bizə Fatihəni. Allahım, bu mübarək gündə, Bütün adlarınla yalvarırıq oxut, öyrət, yaşat bizi Fatihə ilə. Nur bəxş edən Allahım, həmd olsun Sənə. Sonsuz təriflər Sənə məxsusdur. Sevdiyin qulunla bizi görüşdür. Ona salam olsun. Salam olsun Peyğəmbərlərə, Salam olsun üzərimizə, Salam olsun Səni sevənlərə, Salam olsun müsəlmanlara, Salam olsun Allahı tanıdan və O-nun varlığına şahid olan alimlərə. Salam olsun Azərbaycanımıza. Salam olsun dünyamıza, Salam olsun kainatımıza.*

*Amin, Amin, Amin.*

**AÇAR.** 2

***Bismillahir-Rahmənir Rahim. Mərhəmətli, Rəhmli Allahın adı ilə! Həmd olsun Allaha –aləmlərin Rəbbinə. Mərhəmətli, Rəhmli olana. Din gününün sahibinə. Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən Yardım diləyirik. Bizi doğru yola yönəlt. Nemət verdiyin kəslərin yoluna ! Qəzəbə düçar olmuşların və azmışların yox.***

Ağırlığı Quran qədər və hər müsəlmanın hər namazda, hər qiraətdə, hər **qiyam**da daim oxuduğu açar - Fatihə.

*Allahım, aç beynimizi, qəlbimizi. Təmizlə bizi ki, Fatihəni öyrənə bilək. Öyrət bizə Fatihəni. Nədir bu açar? Sən dilədiyinə elmindən pay verirsən. Bizə də elm nurundan pay ayır.*

Yeri qoruyan 7 qatdan ibarət səma. Həyatın başlanğıcı üçün lazım olan qoruyucu təbəqəmiz 7 qatdan ibarətdir. İnsanı dünyada qoruyan Quran 7 ayə ilə başlayır. 7 rəng, 7 not. Xilaskar səma, xilaskar Fatihə açarı. Qoruyucu səma, qoruyucu Fatihə. Yerə mavi dünya statusunu verən səma, İnsana müsəlman adını verən Fatihə. Yerdə həyatın mövcudluğunu təmin edən səma, İnsana əbədi həyat qazandıran Fatihə. Fatihə Şəfa Quranın Tacıdır. Deməк, Fatihə də şəfalar şəfasıdır. Ruhun və cismin. Görünən və görünməyən qoruyucudur Fatihə...

Rəbbimizin adları Onu tanımağa bir vasitədir. Fatihənin də adları vardır. Əl-həmd; Ümmul –Kitab-Kitabın anası; Ümmül – Quran - Quranın Anası, Əl-Vafiyə - Mükəmməl; Əl-Kafıyə - Kifayət olan; Əl-Kənz - Xəzinə; Sebul – Mesani - Yeddi ayə, davamlı təkrarlanan yeddi ayə; Əs-Salah - Namaz surəsi. Müəllimimiz olan Allah rəsulu Muhammədd belə öyrətmişdir: Fatihəni oxumayan birinin namazı olmaz. Beləliklə, Mömin hər namaz duasında Fatihə kimi əzəmətli yeddi ayə olan açarla Yaradanının qarşısına çıxır. Fatihəsiz təslimiyyəti anlatmaq mümkün deyil. Çünki, Fatihə qula tanıdığı birinin qarşısında səcdə etdiyini anladır.

Fatihə - şükürdür. Şükür verilən nemətlər qarşısında o nemətləri verəni tərif etməkdir. Fatihə -duadır. Fatihə- şəfadır. Fatihə dua etməyi öyrədəndir. Fatihə duanın formulasıdır. Fatihə dua əxlaqını öyrədən formuladır.

Bir anlığa məktəbə getdiyiniz ilk günü salın yadınıza. Tanış olmayan məkan, tanış olmayan öyrədən, tərbiyə edən. İndi isə gəlin dünyamızla bir analogiya aparaq. Düşünək, Allahın hər hadisənin arxasında ibrət qoyduğunu bilərək, birinci sinfimizdən ibrətlər götürək, daha doğrusu dünya məktəbi ilə bir analogiya aparaq. Sinfə daxil olan Öyrədən əvvəl özünü tanıdır. Ona müəlimə, siz deyə müraciət edəcəyimizi bildirir, yəni ona müraciət qaydalarını öyrədir. Sonra özünü tanıdır. Sonra bizlərə həyatda nə lazım olacağını anladır, bu səbəbdən də bizə özümüzü sinifdə necə aparacağımızı öyrədir, daim bizi inkişafa aparan nəsihətlər verir. Onunla düzgün ünsiyyət qura bilməyənləri, tələblərinə cavab verə bilməyənləri isə nələr gözləyəcəyi ilə qorxudur. Hər kəs müəllimin sevgisinə nail olmağa cəhd edir. Öyrədənin gözəl

əxlaqından, öyrətdiklərindən ibrət götürənlər gözəl insanlara çevrilirlər. Bünövrəsi gözəl qoyulan, müəllimine bənzəmək istəyən şagirdlərin gözəl gələcəyi artıq göz qabağında olur.

Biz də bu həyata, səbəbi imtahan, nəticəsi layiqli qiymət olan dünya adlı məkana qədəm qoyandan Alim Rəbbimiz bizlərə dərslər keçir. Rəbb öncə öyrədir, sonra imtahan edir. Adil Allah öyrətmədiyindən imtahan etməz. Bu səbəbdən də dərslərdə, *oxu* zamanı ayıq olmaq, ağıl, təfəkkür işlətmək tələb olunur. Dərslərdə, *oxumağımızda* müvəffəq ola bilməyimiz üçün bizə kitablar da paylamışdır. Kitab verdi ki, dərsə hazır deyiləm, bilmədim deyərək imtahandan kəsilməyək. İbtidai sinif müəllimi kimi, ibtidai insanlara belə dərs keçilir; Mənim adım Rəhman və Rəhimdir. Sinfinizi səhv salmayın. Və hər zaman belə deyin. Başlayıram ismilə Allahın, Rəhman və Rəhim olanın. Rəbb öyrədir, Allah (c.c) ismi adların ən xeyrlisidir. *Bismillahir-Rahmənir-Rahim*.

*Allahım, bilirəm bu sözlərdəki mənaları dərk etsəm onlar haqda saatlarla da danışsam yenə bitməz.* Sənin sevgi məktəbinin əlaçı məzunu olan İmam Əli bizə belə öyrətmişdir: "Bircə bismillahdakı "bə" sözünə 70 dəvə kitab yükləsəm yenə bitməz"

*Allahım, Biz aciz qulların sadəcə cəhd edirik. Cəhd edirik sevgi məktəbinin sevgi toxumlarını səpələməyə.*

Onun adı ilə başlamaq. Hər yerdə Onun adından istifadə etmək. Hər yerdə Ona yaxın olduğunuzla fəxr etmək. O Allahdır. Hər şeyi yaradandır, hər yaradılmışın sahibidir, idarə edəndir, yönləndirəndir, əmrində hər zaman hazır olan mələklər ordusu xidmətdədir. İstədiyiniz, dilədiyiniz, görmədiyiniz, bildiyiniz, bilmədiyiniz, eşitdiyiniz, eşidə bilmədiyiniz Onundur. Allaha məxsusdur bütün varlıq aləmi, bütün külli aləm, bütün mülk. Onun olan hər şeyə Allahın adı yaxınlaşır, Allahın adı ilə istəyirsiniz. Ona tabe olan qapılar, Allahın adı ilə gələnə açılmazmı? Atomlar Allahın əmrinə tabe, Günəş Allahın əmrinə tabe, dünya və üzərindəkilər Onun əmrinə tabe, təslim. Yalnız insanların bəzilərindən başqa, amma, onlar da dərk etmirlər ki, özləri də mülk sahibinin bir mülküdürlər. Hətta kölgələri belə onları Yaradan Allaha təslimiyyətdadır. Necəmi? Kifayətdir ki, görsün, oxusun, düşünsün. Düşünək, nədir kölgə. Kölgə necə yaranır? İşıq olmazsa kölgə əks olunmaz. Kölgə işığın arxasilə sürünür. İşığın həcmindən asılı olaraq həcmi dəyişir. Uzanır, yaxud qısalır. Deməli, işığın var olmasilə kölgə əmələ gəlir. İşığın kölgəsi olar. Nədir işıq? Nur... Nur işıqdır. Ruhlar nurdan yaranmışlar. Sonra yerdə yaşamaq üçün işıqdan yaranan ruhlar cism adlanan dünya geyiminə bürünmüşlər. Beləliklə, cism nurun kölgəsinə çevrilir. Nur dünyada var oduqca kölgəsi də arxasınca sürünür. Zəif ruhların zəif də kölgələri olur. Hər şey cüt yaranmışdır: ağ - qara, nur - zülmət, ruh - cism, işıq - kölgə...

"***Göylərdə və yerdə kim varsa, kölgələri də səhər-axşam, istər-istəməz Allaha səcdə edər!*** " ( ər-Rad, 15)

Ey Yaradan və həyat verənin qarşında təslim olmayan insan, sən istəsən də, istəməsən də sənin cismin, hüceyrələrin, dərin, bədən üzvlərin həyat verən Allahın əmrinə tabedir. Elə isə öz cisminə zərər vermə. Allahın əmrinə təslim olan hər şey, hər hüceyrə, hər atom Onun razı olduğu şəkildə yaşayır. Hər hüceyrən Allahın mülkündə bir mülkdür. Mədən Həyat verən Allaha təslim olaraq Onun buyurduğu şəkildə fəaliyyətdədir. Yaradanın haram buyurduğu hər hansı şeyə əks reaksiya verir, elə isə xəstəliklərin mənbəyini özündə axtar. Bəs qulaqların? Yaradan və fəaliyyət yolunu göstərən Allahın əmrinə təslim deyilmi qulaqlarınız? Yaradanının qəzəbinə gələn səsləri, sözləri, qiybətləri eşitdirdiyiniz üçün təslim olan qulaqlar sizdən Yaradana şikayət etməyəcəkmi? Bilin, xeyiri, gözəlliyi eşitmək qulaqlarınızın haqqı və duasıdır. Gözəlliyi görüb Onu Yaradana şükr etmək üçün verilən gözlər. Nədən, müəllimimiz onları zinadan qorumağı dönə-dönə tapşırırdı. Eybəcərliklərə tamaşa etmək gözün Nurunu almırmı? Sizə xidmət üçün verilmiş Müsəlman bədən üzvlərinizin haqqına girərək, nankorluq etməyin. Yaradana təslim olan, onun qoyduğu qanunlara uyğun şəkildə itaət edən üzvlərinizi Yaradanın əmrinə tabe olmaqla sevindirin. Unutmayaq, xidmətimizə verilmiş hər bir nemət Allaha yaxınlaşmaq üçün bir vasitədir. Hər bir halda hər bir işinizi Rəhman və Rəhim Allahın adı ilə başlayaraq bütün yaradılmışları sevindirin. Təbii ki, sənin Allahdan uzaq düşməyini istəyən düşməndən başqa hər kəs sevinəcək. Düşmən sənin silahlarından xəbərsiz olmanı istəyir. Elə isə bil, sənin silahın dua... Dua-nurdur, Fatihə də duadır. Fatihə-nurdur. Bir gün müəllimimiz Allah həbibi Muhamməd (sas) Vəhy mələyi Cəbrayıl (ə.s) birlikdə oturduqları zaman yuxarıdan bir qıcırtı eşidir. Vəhy mələyi Cəbrayıl (ə.s) başını yuxarıya tərəf qaldırdı və belə dedi: *"Bu, bu gün göydə açılan qapıdır. Bu qapı bu günə qədər heç açılmamışdı. O qapıdan bir mələk endi. Bu mələk yer üzünə enən bir taləkdir. Bu günə qədər heç enməmişdi. Mələk salam verdi və belə dedi: Səndən öncə heç bir peyğəmbərə verilməyən və sadəcə sənə verilən bu iki nur səbəbilə sənə müjdələr olsun. Bunlar Fatihə Kitabı və Bəqərə surəsinin sonudur. Bunlardan oxuduğun hər hərfin qarşılığı sənə veriləcəkdir".*

Allahım, əfv et bizi. Nə böyük şərəf, nə böyük lütf. Həmd olsun Sənə. Bizi verdiyin nemətlərə layiq et, bizi Özünə, Kəlamlarına, Əşrəf adına layiq et. Allahım, Sənə- Sənin kimi Gözəl Rəbbə layiq olmaq istəyirik. Dualarımızı qəbul eylə...

Bizə oxumaqda yardımçı olan Sevgili müəllimimiz Allah Rəsulu Bizə belə öyrətmişdir: "Allah - təala buyurdu ki, *Mən mənimlə qulum arasında namazı (yəni duanı, yəni-Fatihəni) iki yerə böldüm. Qulum nə dilərsə ona verilir. Qul, Aləmlərin Rəbbinə həmd olsun deyincə, Allah təala Qulum məni tərif etdi deyər. Qul, Rəhman və Rəhim dediyi zaman Allah təala" Qulum məni tərif etdi" deyər. Qul, Din gününün sahibi dediyi zaman Qulum məni ucaltdı, deyər.*

*Qulum işləri mənə təslim etdi, o məni tanıyır. Qul:* ***"Biz yalnız Sənə ibadət edir, yalnız Səndən yardım diləyirik"*** *dediyi zaman bu mənimlə qulum arasında bir məsələdir. Ona dilədiyi*

*veriləcək. Qul ”Bizi doğru yola yönəlt, Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və azmışların yox.” Deyincə, Allah “bu quluma aid bir məsələdir. Qulumun istədiyi ona verildi” - deyər*.

**AÇAR 3**

***Bismillahir-Rahmənir Rahim. Mərhəmətli, Rəhimli Allahın adı ilə! Həmd olsun Allaha –aləmlərin Rəbbinə. Mərhəmətli, Rəhmli olana. Din gününün sahibinə. Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən Yardım diləyirik. Bizi doğru yola yönəlt. Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və azmışların yox***.

Başlayırıq adı ilə Allahın. O Allahın ki, yer və göylər, onların arasında olanlar, yaranan, bildiyimiz və bilmədiyimiz hər şeyin sahibi. Ey Adəm Övladı, Yaradan Allah Sənə əşrəf adını verdi. Əşrəf adına uyğun olaraq da Hər yerdə Uca Sahibin, Mövlanın adı ilə yürüməyi öyrətdi. Sanki, güclü bir hökmdarın əmrilə hərəkət edən adi əsgərə verilən vəsiqə kimi. Adi bir əsgərin qarşısında güclü hökmdarın əmrindən çıxış etdiyi üçün hər kəs tir-tir əsir, əsgərin qulluğunda hazır durur, canla-başla onun əmrinə tabe olurlar. Allaha təslim olan hər qul Allahın ordusunun əsgərləri, dünya və üzərində hər bir şey isə Uca Hökmdara qorxusundan və sevgisindən itaət və təslim olan varlıqlardır. Bismilləh bir açardır. Onun aça bilməyəcəyi qapılar yoxdur. Allah Uca Mövlamızın ismidir. Onun adı dildə başlayıb ciyərlərdə bitir. Hər nəfəs Allahı zikr edir. Dünyaya yeni insan gətirən ana hər dərin nəfəsində Allah deyib yardım diləyir. Hər nəfəsdə “H” hərfi vardır ki, Allah sözünün kökүdür. Hər nəfəs alıb verməsi ilə nurdan yaranan ruh və torpaqdan yaranan cism Allaha nə qədər möhtac olduğunu təsdiqləmiş olur. O, Allah Rəhman və Rəhimdir. Hər şeyi öz mərhəmətinin içinə almışdır. Hər yaratdığına qarşı Rəhmandır. Onun heç bir yaratdığında qüsur görmək mümkün deyil, bir artıqlıq və ya bir əksıklik barədə söz belə ola bilməz. Elə isə təsəvvür edək. 7 ayədən ibarət bir tac, yaxud açar olan Fatihənin 2 ayəsində Yaradan təkrar olaraq özünü Rəhman və Rəhim olaraq tanıdır. Məgər bu Rəhman və Rəhim adlarının dəyərindən xəbər vermirmi?

*Allahım, müvəqqəti imtahan olan dünya adlı həyatımızda bizə Rahmən olduğun kimi Axirət adlı əbədi evimizdə də bizdən Rəhim adını əksik etmə...* .

***Əlhəmdulilləhi Rabbil Aləmin. Aləmlərin Rəbbinə həmd olsun.***

Həmd tərifdir, şükürdür, ucalığı təsdiq etməkdir. Həmd yalnız Allaha məxsusdur. Ondan başqa həmdə layiq kimsə yox. Həmd Yalnız Yaradanadır.

*Bizləri yuxularımızdan oyandıran və sonunda Öz hüzurunda toplayacaq olan Allaha həmd olsun...*

Rabbul - aləmin -Aləmlərin Rəbbi... Rəbb- tərbiyə edən, öyrədən, yönləndirən, idarə edən. Yerdən ərşə, göydən yerə olan hər bir şeyin sahibi və tərbiyə edib yol göstərəni. Aləm... Allah(c.c)-dan başqa bütün varlıqlar, yaradılmışlar. O sonsuzdur, genişdir, əzəmətlidir, qüdrətlidir, əkbərdir. Onun var etdiyi aləmlər də sonsuzdur. Belə ki, Onun var etdiyi nemətləri sayıb qurtara bilmərik. Mən və günəş, qarışqa və atom, günəş və qalaktika, hər atom, hər

nüvə, hər hüceyrə. Ən-ən mikroskopik və ən-ən makroskopik varlıqlara iş mexanizmini, həyat proqramını kim öyrətmiş, onlara sevgi dalğalarında fəaliyyət göstərməyi kim tərbiyələndirmiş. Təbii ki, Rəbb Allah. Bəli, insan belə bir Yaradanı tərif etməyə aciz, onun hikmətləri qarşısında heyran. Baxın, okeanların, dənizlərin suyu donarkən o ağır buz təbəqələri suyun dibinə batmır, əksinə üst qatda qalır. Əks halda bu sularda yaşayan canlıların halı nə olardı? Üzərlərinə çökən buz təbəqələrinin ağırlıqlarından məhv olarlardı. Amma, Rəbb Allahın var etdiyi qanunlara təslim olan ağır buz layları suyun üzərində qalaraq sularda yaşayan heyvanların xilas mənbəyinə çevrilir. Rəhman və Rəbb Allahın əmrinə tabe olmasaydı ağır – ağır buludlar bizlərin, yerdəki canlıların halı nə olardı? Rəhman Rəbbin əmrinə təslim olan ağır buludlar öz yüklərini rəhmət şəklində boşaldırlar üzərimizə... asta-asta ölmüşlərə həyat verərək. Aləmlərin Rəbbinə həmd olsun...

"***Həmd göylərin, yerin və bütün aləmlərin Rəbbi olan Allaha məxsusdur. Göylərdə və yerdə Əzəmət yalnız O-nundur. O, Əzizdir, hikmət sahibidir*** "(Casiyə, 36-37)

*Allahım, bizləri öz qəzəbindən qoru. Əməllərimiz ucbatından suda və quruda fəsad çıxartmaqdan Sənin Rəhmətinə sığınırıq. Allahım, Bizlər Sənin Rəhmətin sayəsində var olmaqda, yaşamaqdayıq. Sənin Rəhmətin və Elmin hər şeyi öz içinə almışdır. Allahım, sən Ğafur və Rahim olmasaydın, günahlarımız bizi məhv edər, əməllərimiz bizi yox edərdi. Allahım, Rəbbim, Sən nə böyüksən...*

***Məliki yevmiddin. Din gününün sahibi.***

Allah Məlikdir, Malikdir, Qadirdir, Sahibdir. O, yaratdığı hər şeyin sahibidir. Zamanı yaratmış, onun sahibi və yönləndirənidir. Hər anın, hər saniyənin sahibidir. Allah bütün günlərin Sahibidir. Qiyamət saatının da Sahibi Məlik Allahdır. Din günü də Ona məxsusdur. Din də Məlik Allahın mülküdür. Din yoldur. Allahın dini - Allahın yoludur. Allahın yolu Allaha tərəf aparan yoldur. Yollar müxtəlifdir. Allaha aparan yol, yəni din - dünya adlı imtahan dünyasında sınanaraq, yoxlanaraq, imtahan edilərək başlamaqla əməllərinin qarşılığını almaq, imtahan qiymətlərini bilmək üçün yığışılan Haqq-hesab məkanı və zamanında bitərək Axirət adlı axır məqamda son tapır. Allah (c.c) axirət məkanının və zamanının da Tək sahibidir. Axirət yolunun əvvəlində haqq-hesab zamanı durur. Düşünək, bu gün dünyadakı, həyatdakı problemlərin səbəbi insanların haqq - hesab zamanına inanmamasından qaynaqlanmırmı? O dünyadan kim gəlib, axirət həyatı bir uydurmadır, öldükdən sonra həyat yoxdur deyənlərin halı necə olacaq? Bir dayanın! Siz Quranı inkar edirsiniz! Durun! Quran axirətdən, haqq-hesab, qiyamət saatından, yenidən dirilişdən xəbər verir. Düşünün, öpərək gözünüzün üstünə qoyduğunuz Quranımı inkar edirsiniz? Durun, düşünün, çünki Allahın ayələri düşünənlər üçündür... Düşünək... Hər zərrəyə öz yerini öyrədən, bildirən Rəbb, heç nəyi boş-boşuna var etməyən Yoxdan Yaradan Allah cəmisi 7 ayədən ibarət olan bu açarda Haqq- hesab gününə

diqqət verməyi istəyir qulundan. Gündə neçə dəfə Fatihə oxuyursunuz, gündə neçə dəfə qiyam edərək Allahın hüzurunda Fatihə ilə əllərimizi Ona açırıq? Deməк, Gün ərzində bu qədər Onun Haqq-hesab gününü durmadan xatırlamağımızı istəyir Yaradan Rəbb. Bəlkə, əməllərimiz haqq tərəzisinə qoyulmadan özümüzü haqq-hesab etməyimizi öyrədir bizə. Ölüm deyə vəsf etdiyi hər yuxudan öncə etdiklərimiz barəsində özümüzə hesab veririkmi? Yaxud verə bilirikmi? Bəlkə, tövbə zamanıdır. Düşünək... Hər zərrənin də qeyd olunduğu əməl dəftərimiz tərəziyə qoyulmadan öncə hansı tərəfin ağır gələcəyi üzərində daim düşünək, özümüzü haqq-hesab edək. Bəlkə, Allahın tərbiyəsi ilə tərbiyələnən müəllimimiz bu səbəbdən hər yuxudan öncə Fatihə oxumağı öyrətmişdi. Bəs, bizlər Allahın Oxu əmrinə tabe olaraq Fatihəni tam layiqiylə oxuya bilirikmi, Açarımızdan istifadə qaydalarına düzgün yiyələnə bilirikmi? Fatihə nə zaman yadımıza düşür?

*Allahım, əməl dəftərimizlə Haqq –hesab günü qarşında durduğumuz zaman bizi utandırma. Fatihəni oxut, yaşat bizlərə. Dirilərə mayak olan Kitabımızın Anasını tanıt bizə.*

Fatihə sevgili Muhammədə nazil olan ilk tam surədir. ”Oxu, Gecə yarı qalxıb namaz qıl və Quran oxu, qalx, qorxut, Rəbbini uca tut, təmizlən, pisliklərdən uzaqlaş” əmrlərindən sonra nazil olan ilk tam surədir. Dedik ki, Fatifə bir nurdur, şəfadır, duadır. Dua əxlaqını öyrədən formuladır. Allah (c.c) Yaratdığı Kitabını oxumaq istəyənlərə, bu məsuliyyətli, eyni zamanda xoşbəxtlik nəsib edən işi bacarmaq üçün qulunu Dua silahı ilə silahlandırır. Həqiqətən də səmimi olaraq, inanaraq və iman edərək Qurandan - Qiraət Kitabından yararlanmaq istəyirsənsə Aləmlərin Rəbbinə belə yönəlməlisən. Hər zaman hər halında duanı bu cür etməlisən. İbtidai sinif müəllimi öz körpələrinə ilk gün dərs keçərkən öyrətdiyi kimi Alim Rəbb də qullarını belə öyrədir. Fatihə duanın əxlaqıdır. Öncə Nəfəs verənin adı ilə başlamalı, sonra onu tanıdığını bütün ruhun və cisminlə təsdiq etməli, sənin varlığının Rəhmana borclu və möhtac olduğunu dərk edərək, öz məqsədini aydın bilməli və sənə lazım olan yeganə bir şey var ki, ondan diləməlisən. Demək, öncə Rəbbini tanımalısan, dinin nə olduğunun mahiyyətinə varmalısan. Dinin mahiyyətinə vardıqdan sonra dinin Sahibindən, Məlikindən Onun dinini istəyə bilmək üçün danışmaq haqqı qazanırsan. Lakin, danışmaq haqqından da önçə Dinin Məlikinə əhd verməlisən. “ *Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik”* deyə daim əhdində sadiq qalmalısan. Gün ərzində davamlı ayıq olmalısan, belə ki, hər qiyamda Dinin Sahibinə söz verərək xoşbəxtliyə aparan *Dini* diləyirsən Ondan.

Sən kimin qarşısında durduğunu dərk etdin, bəs sənin özünün məqsədin nədir, ey Adəm övladı? Özünü tanıyırsanmı? Nə üçün var olduğunu dərk edə bildinmi? ...

***İyyakə nəbudu və iyyakə nəstəin.***

***Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik.***

Budur qayə, budur məqsəd, budur xilas. Budur, Həvvanın nağıllarda anlatmaq istədiyi. Budur, Adəmin nəsihətləri. Bütün Peyğəmbərlərin missiyası. Budur Xoşbəxtliyə aparan yolun sirri. Budur İbrahimin duası, budur Muhammədin göz yaşları, ürək ağrısı, davası. Budur, açarın əsas dilimi. Bircə hərf yerindən oynasa dağların məhv olacağı, yeri dağıda biləcək qüvvə. Anlamayan insanı əzaba aparacaq səhv. Açarlar açarı... *Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik.* Kəlam sahibinin, qələm sahibinin hər hərfinə diqqət yetirək, bəlkə hidayət nuru qəlbimizə yol tapar, bəlkə müttəqilərdən olarıq...

Yaradan qullarına hidayət, nur olaraq qatından 4 səmavi Kitab endirdi. Zülmətdən çıxa bilməyən qullarına bütün Kitabları birləşdirərək tək bir Kitab olan Qurana yerləşdirərək, əzəmətli Nur şəklində yenidən xilas üçün qullarına sevdiyi qulu ilə göndərdi. Bu Kitaba bir ön söz, açar olaraq bir surə də verdi ki, bütün Kitablar, var olan, yazılan bütün Külliyatlar Onun içinə yerləşdirildi. Hər şey 7 ayədə cəm oldu. 7Ayə bir ayədə cəm olundu. *İyyakə nəbudu və iyyakə nəstəin.* Bütün sirlər bir yerə cəm oldu... LƏ İLAHƏ İLLƏLAH...

***Biz yalnız Sənə ibadət edir və yalnız Səndən yardım diləyirik...***

Xoşbəxtliyə aparan yol öncə **biz** anlayışından keçir. *Mən* sıfıra enməli, *mən biz* olmadıqca, *mən* anlayışı *biz* əməlinə keçmədikcə fəlah gəlməyəcək. Şeytan *mən* dedi. Sıfıra bərabər olan *mən* yalnız qarşısında 1, yəni vahid olduqda dəyərə minir. *Mən* əriməli, qlobal *biz* var olmalı. Bu gün müsəlman dünyasını əzən, cəhalətə sürükləyən bizlərin, hər müsəlmanın qəlbindən çıxarmadığı *mən* anlayışı deyilmi? Dedik ki, həddini bilən Rəbbini bilər. Həddini bilən Rəbbin qarşısında mən deyə bilərmi? Ey bacım, qardaşım, "*mən*" i çıxart qəlbindən, gəl "*biz*" olaq. Rəbbimizin bir də Cəmi adı var. Onun Rəhmət əli camaatın üzərindədir, yəni cəm olanların. Bax, kainat Kitabına. Bütün qalaktikalar *biz* olduqları üçün də salamda deyillərmi? Salamda olmaq üçün "*mən*" indəki təkəbbürü, nəfsani istəkləri at, "*biz*" ol. Güc birlikdədir. Mələklər ordusu az da olsalar cəm olanlara yardımdadır. Bax, arılara, quşlar onu zəif və bəsit biri zənn edirlər. Amma, bir bax: Allahın gözəl qulu, Onun Oxu əmrinə cismi və ruhu ilə təslim olan imam Əli nəzərlərimizi hara yönəldir: "Əgər quşlar bal arısında olan bərəkətləri bilsəydilər bal arısını zəif saymazdılar..." Bal arıları cəm şəklində yaşayırlar. *Mən*im anlayışı onlara yaddır. Onlar yalnız Yaradanın fayda hikmətini yaşamağa can atırlar. Onların silah kimi istifadə etdikləri tikanları belə sənə faydalıdır. "*Mən*"də fayda olmur, fayda "*biz*" dədir. Bir-birlərini sevən, anlayan, dualaşan "*biz*" təfəkküründədir fayda hikməti. Ey müsəlmanlar, biz olmağa geçirik. Heç olmazsa gəlin Fatihədə bir olaq, Allah xatirinə, Yaradan xatirinə...

*Əllərimizi açaq, nə istədiyimizi dərk edərək, Rəbbimiz Allaha yalvaraq...*

**Biz *yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik.***

*Amin*

**AÇAR** 4

***Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik.***

İslam mədəniyyətinin tələb etdiyi, daha doğrusu tərbiyə verən Rəbbin öyrətdiyi qaydada hər nəfəsi Onun adı ilə başladığımız kimi Oxunu da Onun adı başlayaraq Fatihəni öyrənməyə cəhd edirik. Çünki, kim Allaha tərəf yönələrsə əzəmətli Allah da Qüdrəti, Qüvvəti, Rəhməti, Sevgisi və bütün var etdiyi Gözəllikləri ilə o quluna yönəlir. Kitabını oxumaq üçün Ona tərəf yönələnlərə Fatihə açarını təqdim edir, öyrədir. Kitablarını oxuya bilmək üçün qullarına dua formulasını öyrədir. Kitaba bir giriş olan Fatihə, oxumaq istəyən tələbənin qəlbində Aləmlərin Rəbbindən hidayət diləmə, hidayət istəmənin yolunu öyrətməq məqsədi də daşıyır. Hidayət tələb edən oxuyan tələbə dərk edir ki, hidayəti yalnız Nur Sahibi verə bilər. Fatihə açarına yiyələn tələbə öyrənir ki, əlindəki açar düşünmək, təfəkkür etmək, araşdırmaq və Aləmlərinin Rəbbinin elmlərin, hər şeyin tək və vahid qaynağı olduğunu göstərir. Demək, Quranı idrak etmək, oxumaq, yaşaya bilmək üçün Hidayət Sahibindən Hidayət nurunu, yolunu anlayaraq istəməkdən başlamalıdır. Fatihə və Quran arasındakı əlaqə dua və ona cavab əlaqəsidir. Fatihə, qula Rəbb Allah tərəfindən öyrədilmiş bir dua, Quran isə Mövlanın quluna verdiyi cavabdır. Allah quluna səadətə çatmaq üçün gərəkli olan yeganə bir şeyin-doğru yolun olduğunu öyrədir. Və qul doğru yolu göstərməsi üçün Ona yalvarır. Mövlanın bəyəndiyi şəkildə. Dualara cavab verən Mucib Allah da bütün Kitabları özündə toplayan Quranı qulun önünə qoyar. "Buyur, məndən dilədiyin nur, yol, hidayət. Mən bu yolun üzərindəyəm. Buyur, Mənə yaxınlaşdıran yola işıq salan qüvvə... Quran sənə şəfa, yardımçı, bütün düşmənləri məhv edən güc. Ey adəm övladları, gəlin Kitabımıza sahib çıxaq. Dəsmallara büküb əl çatmaz yerə qoyulan Quranlarımızın haqqına girməyək. Oxunmaq üçün həsrətlə bizləri gözləyən Quranlarımızın tozunu çırpıb Onu oxuyaq. O sənindir, o bizimdir. Hər kəsə ayrı -ayrılıqda göndərilmiş bir mesaj, eyni zamanda bütün bəşəriyyətə göndərilmiş Kitab. Bilirsinizmi, ən qərib olan kimdir? Evlərdə olan, bükülüb qalan və oxunmayan Quranlar. Quran Allah Kəlamıdır. Kəlam dinlənilmək üçündür, Quran Allah sözüdür, yerinə yetirilmək üçündür. Qalxın ayağa, tələsin. Ramazan Quran ayıdır. Qəriblikdə qalan Quranlarımıza Sahib çıxaq. Yoxsa, Allah qorusun Allahın varlığına inandığınız, lakin Onun Kəlamlarına inanmadığınız və Onun sözlərini qəribliyə saldığınız üçün Yaradan da sizi özündən qəribliyə salar...

*Allahım, bizləri bu dəhşətdən qoru... Sənin Nurundan qərib olmaq, zülmətdə yanmaq deməkdir. Rəbbim, sənə sığınırıq... Öyrət bizə Fatihəni, yaşat bizə Fatihəni...*

Biz **yalnız Sənə** ibadət edirik və yalnız Səndən yardım diləyirik.

Ey Rəbbimiz! Biz **Yalnız və yalnız** Sənə ibadət edirik və **yalnız** Səndən yardım diləyirik. Çünki, Səndən başqa hər şey Sənə möhtacdır...

*Ey Rəbbimiz, Səni zikr etmək, Sənə şükr etmək və Sənə gözəl ibadət etmək üçün bizə yardım et! Yerin və göylərin xəzinəsi Sənin əlində, ruzi verən Sən, yedizdirən, içirdən Sən, şah damarımızdan da bizə yaxın olan Sən, nəfsimizin bizə nə vəsvəsə etdiyini bilən də Sən, İnsanın qəlbi ilə özünün arasında duran da Sən. Bağışlayan Sən, yönləndirən Sən. Heç Səndən başqa Rəbbmi istərik? Sən bizə yetərsən, Sənin sevgin bizə yetər. Biz yalnız Sənə ibadət edirik. Səndən başqa hər şeyə* ***la*** *deyirik. Yoxdur Səndən başqa heç nə. Yalnız Sən varsan. Lə ilahə illəllah. Qarşısında* ***ibadət*** *etməyə layiq varlıq* ***yalnız*** *Sənsən... ...*

**İbadət:** tapınmaq və bağlılıq, boyun əymə və itaət etmə, hökmünə tabe olmaq və qulluq etmək. Biz yalnız və yalnız sənə ibadət etməkdəyik, yalnız Sənin qullarınıq, Səndən başqa kimsənin kölləsi deyilik, yalnız Sənin təyin etdiyin qanunlara baş əyirik, cisimlərimiz və salam halında yaşayan kainat kimi. Qəlbimizdə yalnız sənə yer vermək istəyirik, çünki yalnız Sən qəlbimizin yeganə məbudusan. Yalnız Səninlə bu cür əlaqədəyik. İbadətimiz, təslimiyyətimiz, heyranlığımız, sevgimiz, səcdəmiz yalnız Sənədir. Bütün bu saydıqlarımızla Səndən başqa kimsəni məbud qəbul etmirik...

Biz **yalnız Sənə** ibadət edirik və yalnız Səndən yardım diləyirik.

Birinin razılığını qazanmadan ondan nə isə istəmək necə mümkün. Yaradana ibadət etmədən, Onun sevgi dalğasına qoşulmadan hər zaman köməyə ehtiyacımız olduğu halda hansı üzlə ona əl açıb yardım diləyə bilərik. Ey Adəm övladı, pak söz pak əməllə Allaha tərəf yüksəlir. Yaradanın nur yoluna qoşulmadan hansı aydınlıqdan danışmaq mümkün. Susuzluqdan yandığın halda qapını açıb bu yola daxil olmadan susuzluğunu necə yatırda bilərsən. Demək, Öncə Aləmlərin Rəbbinə sarı gəlməlisən ki, O, da Sənə tərəf addım atsın. Sənin bir addımına 10 addım qarşılıq vardır. Tələs, Allaha tərəf yönəl. Öncə Ona tərəf yönəl, səni səadətə çağıran istəklərinə təslim ol, ibadət et məbuduna, sonra əllərini aç.Öncə hərəkət lazımdır, hərəkətin müqabilində də cavab alacaqsan. Bir diqqət yetir... Məbuduna Sən deyirsən. Nə böyük səmimiyyət, nə möhtəşəm yaxınlıq. Sənə şah damarından da yaxın olan, gizlinin gizlisindən xəbərdar olan Allah səndən səmimiyyət gözləyir. Bu səmimiyyət Yalnız dilinlə Sən deməklə bitmir. Bütün ruhunla, cisminlə Allaha qarşı səmimi olub Sən deyəcəksən...

*Sən mənim tək ilahımsan. Sən mənim sevdiyim tək varlıqsan. Yalnız Sənin sevgi dalğalarında üzmək istəyirəm, yalnız Sənin razılığını diləyirəm. Sən, Sən, Sən Mənə yetərsən. Səndən başqa heç nəyə ehtiyacım yox. Sənsən dostlar dostu. Sən, sən, sən mənim Allahımsan, bizim Allahımızsan, mən yalnız Sənin qulunam, biz yalnız Sənin qullarınıq. Aç gözəllik qapılarını üzümüzə. Gözəlliklərin sahibi, yaradanı Sənsən, ey gözəl Allahımız.*

***Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik****. Çünki, Səndən başqa hər şey yardıma möhtac. Tək Sənsən bütün ehtiyaclardan uzaq, Ey sevgi yaradan Allahımız,*

*Bizi də öz sevgininin, rəhmətinin içinə al.* ***Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik.***

*Yardım istəmək*... Göstərin mənə elə bir məxluq ki, Allaha möhtac deyil. Allahın rəhmətindən bəhrələnmir. Bu mümkün deyil. Bəs elə isə Allahdan başqa kimə yönələ bilərəm. Yalnız tək Sahibə.

***"Məgər sən bilmirsən ki, göylərin və yerin səltənəti ancaq Allaha məxsusudur və sizin Allahdan başqa bir dostunuz və yardımçınız yoxdur?!"*** (Əl-Bəqərə,108)

Düşün, Ey Adəm övladı, yetər durmadan Rəbbinə şəriklər qoşmaq. Yetər... **Lə** de. Xilas ol... **Lə ilahə illəllah** de xilas ol... Rəsullar kimi, ulduz səhabələr kimi. Xəlifələr kimi... Əhli beyt "**Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik"**..."**Lə ilahə illəllah"** deyib xilas oldu. Sən də Beyt əhlinə, Yəni Cənnət əhlinə qoşulmağa tələs. Çıxart qəlbindən bütün şərikləri, bütləri. Nəfsinə hakim ol. Qəlbinə yalnız Həyat verəni yerləşdir. Xilas bundadır. Yalnız dilinlə Sən Demə. Yalnız dilinlə "*Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik"* demə... Bunu bütün halınla yaşa. Hər hüceyrəndən bu cərəyanı keçir... Ağlınla, qəlbinlə, əməllərinlə, sözlərinlə, şüurunla, bir sözlə ruhun və cisminlə vəhdət halında "**Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik"** söylə. Bir anlığa dur. "*Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik* " ifadəsinə bir də nəzər yetir. Sən nə dedin, nə etdin... Nə böyük məsuliyyətin altına girdin. Rəbbinlə əhd bağladın, Ona söz verdin... Düşünək. "**Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik**." Ey əşrəf İnsan, gün ərzində, bütün ömrün boyu Yaradanla nə qədər əhd bağlayırsan? Sözünün üstündə dur... Bir gör əhdinin müqabilində Yaradan Rəbb səndən nə tələb edir, ey Allahın tələbəsi...

"***O kəslər ki, Allahla əhd bağladıqdan sonra onu pozur, Allahın birləşdirilməsini buyurduğu şeyləri parçalayır və yer üzündə fitnə - fəsad törədirlər. Məhz beləlai ziyana uğrayanlardır. "***( əl-Bəqərə, 27)

Hər Fatihə ilə Allaha biz deyə söz veririk, yəni mən ibadətimdə tək deyiləm, *mən* halında deyiləm, dinimi Sənin buyurduğun bacı və qardaşlarımla birlikdə yaşayıram. Onların dərdlərilə dərdlənirəm, kədərlərinə üzülür, sevinclərinə sevinirəm. Çünki, biz Vəhdət halında bir ailəyik, çünki *biz Muhamməd ümmətiyik*. Biz İbrahim nəslindən gələn hənif dininə tabe olan Muhamməd ümmətiyik. Mən deyil, **biz** Muhammədin varisləriyik. Aramızda sevgi və salam yaşayan Muhamməd ümməti... Allahla əhd bağlayırıq...

*Allahım, yalançı olmaqdan Sənə sığınırıq. Sənin Cənnətində yalançılara yer yoxdur. Allahım, Səndən yardım diləyirik...*

***"Rəbbindən sənə nazil edilənin haqq olduğunu bilən kimsə korla eyni ola bilərmi? Yalnız ağıl sahibləri öyüd-nəsihət qəbul edərlər! O kəslər ki, Allaha verdikləri vədi yerinə***

***yetirir və əhdi pozmurlar. O kəslər ki, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri birləşdirir, Rəbbindən və pis haqq-hesabdan qorxurlar. Və o kəslər ki, Rəbbinin razılığını qazanmaq üçün səbr edir namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir, pisliyin qarşısını yaxşılıq etməklə alırlar-məhz onları axirət yurdu- Özlərinin, həmçinin əməlisaleh ataları, övrətləri və övladlarının daxil olacaqları Ədn cənnətləri gözləyir. Mələklər də hər bir qapıdan daxil olub-" Səbr etdiyinizə görə sizə salam olsun!Axirət yurdu nə gözəldir!"-deyəcəklər... Allahla əhd bağladıqdan sonra onu pozanlar, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri qıranlar, yer üzündə fitnə-fəsad törədənlər isə lənətə düçar olacaqlar. Onları pis yurd gözləyir. Allah istədiyi bəndənin ruzisini bol da edər, azaldar da. Dünya həyatı ilə sevindilər. Halbuki dünya həyatı axirətin yanında çox cüzi bir şeydir. Kafir olanlar: "Məgər Rəbbindən ona bir möcüzə endirilməli deyildimi?" -deyirlər. De: "Allah istədiyini sapdırır. Tövbə edən kəsi isə Öz hidayətinə qovuşdurur. O kəslər ki, Allaha iman gətirmiş və qəlbləri Allahı zikr etməklə aram tapmışdır. Bilin ki, qəlblər Yalnız Allahı zikr etməklə aram tapar!!!"***... (ər-Rad, 19-28)

Düşün, Ey Adəm övladı, çünki Allahın ayələri düşünənlər üçündür. Rəbb Allah səndən tələb edir:

***"Ey iman gətirənlər! Hamınız bir yerdə salama gəlin! Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq-aşkar düşməninizdir."*** (əl-Bəqərə, 208)

*Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik.*

Gün ərzində yalnız və yalnız Allaha ibadət edəcəyimizə və yalnız və yalnız Ondan yardım istəyəcəyimizə nə qədər söz veririk? Düşünək... İbadətdə və yardımda tək Allahı məqsəd seçdyimizə dair nə qədər əhd bağlayır və hər namaz arası əhdimizə nə qədər sadiq qalırıq?

*Allahım, bizi haqdan ayırma!*

Əvvəl tanıyırsan, sevirsən, heyran olursan, səcdə edirsən, əhd bağlayırsan, sonra dua zamanı gəlir, kömək diləyirik acizliyimizdən Allahın qarşısında... Atomların nizamlanmış hərəkətinin nəzəriyyəsi özü- özlüyündə bir əl-Fatihədir. Kainat bu simfoniyanın altında həyat sürür. Ey Kainatın Əşrəf insanı, sənə Salam olsun. Salamı yaşayan ətrafına salam paylayacaq, salamdan pay alan toxumlar cücərərək, ətrafa yeni-yeni salam toxumları səpələyəcək, beləcə salamdan qidalananlar nizamlı hərəkət edərək kainat kimi əzəmətli birlik yaradaraq təslimiyyətin, salamın möhtəşəmliyini yaşayacaqlar. Yetər ki, daxili və xarici vəhdət halında ***"Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik"*** formulasını yaşasınlar.

**Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik.**

***Bizi doğru yola yönəlt...***

Amin

**AÇAR 5**

**İyyakə nəbudu va iyyakə nəstəin. İhdinə sıratəl mustaqim.**

***Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik.***

***Bizi doğru yola yönəlt...***

Daxili və xarici vəhdət halında *"Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik"* formulasını yaşayan varlıqlar, yaradılmışlar əs-Salama təslim olaraq Doğru yol axtarışındadırlar. Hər dualarında, namazlarında yol göstərən Sahiblərindən doğru yolu diləyirlər. Dua əxlaqını öyrədən Fatihə formulası ilə Yaradan qullarına ehtiyac duyduqları yeganə şeyi göstərir. Bütün varlıqların, kainatın, insanların, təslim olanların yalnız və yalnız doğru yola ehtiyacları var. Yaradan yaratdığının ehtiyacını bilməzmi? Yaradan, yoxdan var edən Uca Mövla Xoşbəxtliyə aparan yeganə yol olaraq *sıratəl mustaqimi* göstərmişdir. "Ey, Mənə yaxınlaşmağa can atan qulum, sənin yalnız doğru yola ehtiyacın var. Mən bu yolun üzərindəyəm" deyə tələbələrinə belə öyrədir Rəbb.

"***Elə bir canlı yoxdur ki, onun ixtiyarı Allahın əlində olmasın. Həqiqətən, mənim Rəbbim düz yoldadır"*** (Hud, 56)

Düz yol vahid yoldur. Nur yoludur sıratəl mustaqim. Düz yol düz xətdir. İki nöqtə arasındakı məsafə ən qısa məsafədir. Kim doğru yolda olarsa Allaha(c.c) daha tez yaxınlaşar. Bütün rəsullar, peyğəmbərlər bu vahid, yeganə, rahat, qısa və doğru yolu göstərmək üçün missiyalanmışlar. Dəvətləri də bu yola olmuşdur. Çünki, Yaradan Allahın dini, yəni ona aparan yol birdir və qaynağı da təkdir. Ucalıq, əzəmət və tərif də O (c.c)-na aiddir. Yerdə və göylərdə olanlar, bütün yaradılmışlar Ona möhtacdır. Onun yolunu tutan, əmrlərinə təslim olan, Oxu əmrinə can atan, qəlbində yalnız Onu məbud edən, əməlləri, düşüncələri, zikri və fikri ilə yalnız Ona yönələn, Onun düz yoluna can atan xilas olacaq. Bu Nur yolundan üz çevirənlər isə zülmətlərə qərq olub məhv olacaqlar. Doğru yol, qısa yol, düz yol... Allah (c.c) və sevgili Rəsuluna itaət edən hər kəs məqsədinə mütləq çatır...

***" Allaha və Rəsuluna itaət edənlər Allahın nemətlər verdiyi nəbilər, siddiqlər, şəhidlər və salehlərlə bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşdırlar! Bu mükafat Allah tərəfindəndir... Hər şeyi bilən Allah sizə kifayət edər!!!"***... ( Nisə, 69-70)

*Yetərsən, Ya Rəbbimiz, Sən bizə Yetərsən...*

***İhdinə sıratəl mustaqim... Bizi doğru yola yönəlt...***

Doğru yol Nur yoludur. Təsəvvür edək. Elə bir yol ki, orada zülmət, qaranlıq nöqtə belə yoxdur. Bu yolda hər şey aydınlıq içərisindədir. Hamı hər şeyi aydın görür, dərk edir, oxuya bilir. Bu yol heyranlıq yoludur. Bu yolda eybəcərliyə, qaranlıq qüvvələrə, zülmətə

aparan hislərə yer yoxdur. Sevgi də nurdur, dua da nurdur, ibadət də nurdur... Nur yolunda yürüyənlər sevgi dalğalarına qərq olurlar. Peyğəmbərlərin, siddiqlərin sevgiləri bu nurdan qidalanmırdımı? Özü bir nura çevrilən Muhamməd nədən onu incidənlərə hər zaman *"Allahım, onları bağışla, onlar bilmirlər."* deyə dua edərdi. Onu incidənlərə sevgi, dua silahı ilə cavab verər və qəlbləri belə fəth edirdi. Qəlblərin də nura ehtiyacı var. Qəlblər yalnız nurla fəth olunur. Nur yolunda yürüyən, nura çevrilən Rasuldan nümunə götürək. Nur yoluna tələsək. Yaradanın öyrətdiyi kimi Ondan Nur yolunu diləyək...

"***Allah göylərin və yerin nurudur. Onun nuru, içində çıraq olan bir taxçaya bənzər; taxçadakı o çıraq nə şərqdə, nə də qərbdə olan mübarək bir zeytun ağacından yandırılır. Onun yağı özünə od toxunmasa da, sanki işıq saçır. O, nur üstündə nurdur. Allah dilədiyini öz nuruna qovuşdurur. Allah insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir.*** **"** ( ən-Nur, 35)

**İhdinə sıratəl mustaqim. Bizi doğru yola yönəlt**. O, elə bir nur, aydınlıq yoludur ki, beynin bütün qatlarına işıqlar düşür. Nur axınına düşən beyinin funksiyaları artdıqca sahibinin də qabiliyyəti artmağa başlayır. O, İnsan görənlərdən olur. **Peyğəmbərlər, Siddiqlər, Nizamilər, Füzulilər, Cavidlər, Tusilər, Qəzalilər, Xaqanilər, Fərabilər, Sinalar, Kutubilər, Mustafalar daha nə zəkalar ziyalarını nur yolundan götürməyiblərmi?

*İhdinə sıratəl mustaqim. Bizi doğru yola yönəlt. İmtahanlarla, yüksəliş və enişlərlə zəngin olan, sıfra bənzəyən yer kürəsindəki müvəqqəti dünya adlı həyatımızın hər səhifəsində bizi haqqa, doğruluğa aparacaq yolu göstər. Bizi səhvlərdən, yanlışlıqlardan, qaranlıqlardan, zülmətdən, ən böyük bəla olan cahillkdən qoru. İmtahan sonunda bizi müvəffəq eylə. Oxumaq üçün verdiklərini haqqı ilə oxumağı öyrət. Oxuyub, öyrəndiklərimizi haqqı ilə yaşamağı nəsib et.*

***İhdinə sıratəl mustaqim. Bizi doğru yola yönəlt***.

Bu qulun Quran oxumağa başlamadan əvvəl Rəbbi Allahdan dilədiyidir. Bütün problemlərin, məşəqqətlərin qaynağının cahillik, cəhalət, nadanlıq, imansızlıq olduğunu bilən qul Qoruyan Allahdan onu bütün şərlərdən qorumasını diləyir və doğru yola yönəltməsi üçün hər an Yaradanına dua edir. Həyat labirintlərindən, düşmən şeytanın tələlərindən, vəsvəsələrindən, doymayan nəfsdən Allaha sığınır, onu doğru yola yönəltməsini diləyir. Təslim olan qul dərk edir ki, onun doğru yolu Allahın Nemət verdiyi, razı qaldığı qullarının yoludur.

***İhdinə sıratəl mustaqim. Bizi doğru yola yönəlt***.

*Sıratəlləzinə ənamtə aleyhim ğeyril mağdubi aleyhim va lad dallin.*

*Nemət verdiyin kimsələrin yoluna! Qəzəbə gəlmişlərin və azmışların yox!*

Nemət nədir? Yaradanın İnsanın xidmətinə verdiyi hər bir şey nemətdir. İnsanı Yaradana yaxınlaşdıran, onu xoşbəxtliyə aparan hər bir şey nemətdir. Ən böyük nemət İman,

Quran, Fatihə, dua, şükr, zikr, namaz... Həqiqi nemətlər. Allahın razılığına aparan nemətlər. Doğru yol- özü bir nemət. Nemət verilən kimsələr yer üzünün, dünyanın müvəqqəti nemətlərindən istifadə etdikləri halda yolundan azanlar və nankorluqları səbəbilə Allahın qəzəbinə uğrayanlar deyil. Həqiqi Nemətlər özlərinə zülm edənlərin nemət deyə dəyərləndirdikləri deyil. Müxtəlif məkan və zamandakı Fironların, Nemrudların, Qarunların belə faydalandıqları və doğru yoldan azan, halal edilməyən işlərlə məşğul olanların məqbul hesab etdikləri, bu dünyanın keciçi faydaları deyil həqiqi nemətlər. Həqiqi nemət doğru yolda yaşamaq və Allahın razılığını, sevgisini qazanmağın mükafatı olaraq qazanılanlardır. Həqiqi nemətlər Rəbbimizin yanındadır...

"***İman gətirən və yaxşı işlər görən kimsələrə müjdə ver: onlar üçün altından çaylar axan cənnətlər vardır. O cənnətlərin meyvələrindən bir ruzi yedikləri zaman: "Bu bizim əvvəlcə yediyimiz ruzidir", - deyəcəklər. Əslində isə bu onlara bənzər olaraq verilmişdir. Onlardan ötrü orada pak zövcələr də var. Onlar orada əbədi qalacaqlar"*** (əl-Bəqərə, 25).

Əbədi nemətlər məkanı - Cənnətlər...

Adəm övladının həqiqi Vətəni – Cənnət. Hər möminin həqiqi məkanı – Cənnət. Dünyadan əl götürüb Allahı məqsəd bilən hər qulun həqiqi qiyməti – Cənnət.

*Ya Rabbim, amma Sən və Sənin razılığın bizə yetər.*

"***İnsana gəldikdə, nə zaman Rəbbin onu imtahana çəkib ehtiram etsə, ona bir nemət versə, o: "Rəbbim mənə ehtiram göstərdi!" - deyər. Amma nə zaman onu imtahana çəkib ruzisini əskiltsə: Rəbbim məni alçaltdı -söyləyər. Xeyr! Doğrusu, siz özünüz yetimə hörmət etmirsiniz. Bir-birinizi yoxsulu yedirtməyə rəğbətləndirmirsiniz. Mirası varmadan yeyirsiniz. Mal-dövləti isə lap çox sevirsiniz. Xeyr! Yer dağılıb parça-parça olacağı; Rəbbinin əmri gəlib mələklər səf-səf duracağı; Və Cəhənnəmin gətiriləcəyi gün-məhz o gün insan xatırlayacaqdır. Lakin bu xatırlamağın ona nə faydası?! O: "Kaş ki, mən əvvəlcədən həyatım üçün yaxşı əməllər edəydim!"-deyəcəkdir. O gün edəcəyi əzabı heç kəs edə bilməz! Heç kəs Onun kimi zəncirləyə bilməz. Ey xatircəm olan kəs! Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən! Bəndələrimin zümrəsinə daxil ol! Cənnətimə daxil ol!"*** (əl-Fəcr, 15-30)

***İhdinə sıratəl mustaqim. Bizi doğru yola yönəlt... Sıratəlləzinə ənamtə aleyhim va ğeyril məğdubi aleyhim va lad dallin. Nemət verdiyin kimsələrin yoluna! Qəzəbə gəlmişlərin və azmışların yox!***

Ey Adəm övladı, Cənnətdən də böyük nemət və mükafat vardır doğru yolda yürüyənlərə... Yaradan, Həyat verən *Allahın razılığı...* Onun razılığı Onu sevən qullarına yetər. Sevən üçün sevdiyinin razılığından, qarşılıqlı sevgisindən qiymətli bir şey varmı?

*Allahım, Sən bizə yetərsən.*

*İhdinə sıratəl mustaqim. Bizi doğru yola yönəlt. Sıratəlləzinə ənamtə aleyhim va ğeyril mağdubi aleyhim va lad dallin. Nemət verdiyin kimsələrin yoluna! Qəzəbə gəlmişlərin və azmışların yox!*

Möminlər hər an dua içindədirlər, davamlı olaraq Rəbblərini xatırlayır, Fatihə neməti ilə həm şükranlıqlarını, həm Rəbblərini tanıdıqlarını izhar edir, həm ona həmd edir, Yaradanla əhd bağlayaraq, həm də dua edərək, Özünə tərəf aparan düz yolda yürütmələrini diləyirlər. Təkrar-təkrar, davamlı olaraq. Təkrarların səbəbləri davamlı ola bilməkdə də gizlidir bəlkə... Təkrar və davamlı olaraq Fatihə neməti ilə bərəkətlənirlər... Sanki hər dəstəmaz aldıqlarında bədən üzvlərini yuduqları kimi. Allah davamlı olan ibadəti, itaəti sevir. Davamlı olaraq istifadə etdiyimiz əlləri davamlı olaraq yumuruqmu? Vücudumuzun təmizlənməsi və təmiz qala bilməsi üçün ömrümüzdə neçə dəfə yuyunuruq? Davamlı olaraq. Bəs əməllərimizlə, nəfslərimizlə, mənfi düşüncələrlə daim çirklənən bəşəriyyəti, dünyamızı, kainatımızı bir – iki dua ilə təmizləmək yetərlimi? Bu səbəbdən də hər bir müsəlman, hər bir insan davamlı olaraq Allahın gözü qarşısında olduğunun fərqinə varmalı, bir an da olsa Rəbbindən və "Lə ilahə illəllah" dan ayrı düşməməlidir. Çünki, nəfsin, seytanın vəsvəsələri, dürtmələri son nəfəsə qədər belə bitməz. Düşmən hər an pusqudadır. Demək, davamlı dua halını yaşamaq xilasın qarantıdır. Dua olan Namazın önəminə bir baxın ki, hər halımızda Allah onu qılmağı vacib edir, istər əmin-amanlıq, istər döyüş zamanı.

***"Namazınızı qıldıqdan sonra ayaq üstə olanda da, uzananda da Allahı zikr edin, arxayınlığa çıxdıqda isə, namazı qılın. Çünki, namaz möminlərə bəlli vaxtlarda vacib edilmişdir"*** ( ən-Nisə, 103)

Qoruyucu səma kimi 7 ayədən ibarət olan Fatihə neməti ilə qulla Rəbbi arasında mümkün olan ən önəmli əlaqə anladılmış olur. Onun varlığını qəbul etmək, Hər addımı nəfəs verənin adı ilə Onun naminə başlamaq. Onu tanımaq, Onu tərif etmək, Onun hüzurunda verdikləri üçün haqq-hesaba hazırlaşmaq, yəni Onun hüzuruna hazırlaşmaq və Cəm olaraq Yalnız Ona ibadət etməyə, yardım üçün yalnız Ona yönəlməyə söz vermək, sonra da bizləri sevdiyi, razı qalacağı kimi tərbiyələndirməsi üçün doğru yolu ondan diləmək. Bax, budur, həyatın açarı! Budur, xoşbəxtliyin açarı. Budur, hidayət yolunun açarı. Bu Fatihədir... ... ...

Ey millətim artıq yetər! Fatihənin yeri yas məclisləri deyil! Fatihə yalnız yaslarda yada düşmək üçün göndərilmədi. Fatihə Sənə öyrədildi ki, sənə verilən əlləri Yaradana uzadaraq Sənə vacib olan yeganə neməti diləyəsən.

"***Ey Rəbbimiz! Bizi doğru yola yönəltdikdən sonra qəlblərimizə şəkk-şübhə salma! Bizə Öz tərəfindən bir mərhəmət bəxş et, çünki Sən, həqiqətən, bəxş edənsən!"*** (Əli-İmran, 8)

Ey bacım, qardaşım, Aç əllərini. Dua əxlaqı ilə Yaradandan doğru yolu dilə. Hər işində, hər sözündə, hər əməlində, hər halında *doğru yol* dilə.

***Bismillahir - Rahmənir Rahim. Mərhəmətli, Rəhimli Allahın adı ilə! Həmd olsun Allaha –aləmlərin Rəbbinə. Mərhəmətli, Rəhmli olana. Din gününün sahibinə. Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən Yardım diləyirik. Bizi doğru yola yönəlt. Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və azmışların yox...*** .

*Amin Amin Amin*

## ZİKR

***Bismillahir Rahmənir Rahim. Əlhəmdulilləhi Rabbil aləmin.Ərrahmənir Rahim. Məliki yevmiddin. İyyakə Nəbudu va İyyakə nəstəin. İhdinə sıratəl mustaqin. Sıratəlləzinə ənamtə aleyhim ğeyril mağdubi aleyhim va la-d-dallin.***

*Amin.*

*Allahım, Səni Sənə layiq tərzdə zikr etməyi, şükr etməyi və hüsnünə yaraşır şəkildə sənə ibadət etməyi nəsib et bizə. Allahım, hikmət və bilik sahibi Sənsən. İstədiyinə öz elmindən istədiyin qədər veririsən. Bizə də zikrdə gizlənən hikmətləri aç. Bizə zikri öyrət.*

*Amin.*

Zikr yaradılmış qul tərəfindən hər halı ilə Yaradanını xatırlamasıdır. Vədud Allah həm qullarını çox sevəndir, həm də çox sevilənndir. Zikr də sevgi kimi qarşılıqlıdır. Necə ki, Hidayət Kitabımızda Allah Sübhanü Təala bizə belə öyrədir:

"***Belə olduqda siz Məni xatırlayın ki, Mən də sizi yada salım! Mənə şükr edin, Məni danmayın! "*** (Bəqərə, 152)

Allahım, Səni zikr etməməkdən Sənə sığınırıq. Bizlərə sənə şükr edə bilmək xoşbəxtliyi nəsib et. Bunun üçün də *bizi öz lütfünlə tərbiyələndir*.

Əslində mömin Allahı zikr etmədən yaşaya bilərmi? Əs -Salama təslim olan Salamı zikr etmədən mövcud ola bilərmi? Zikr Möminin təslimiyyətinin göstəricisi deyilmi? Allahı zikr dərəcəsi təslimiyyət dərəcəsi deyilmi? Düşüncələri ifadə etmək üçün Yaradan İnsana dil və söz nemətləri nəsib etmişdir. Daxili dünyası, qəlbi ilə Sevgili Yaradanına təslim olan mömin qul dili ilə də təslimiyyətini göstərməkdədir. Çünki, Allah müsəlman həyatının mərkəzində yer almış. Müsəlman birinin hər halı Rəbbinin razılığını və sevgisini qazanmağa yönəlmişdir. Mömin qul qəlbində Allahı, Yaradanını sakin edən biri olmaqla bərabər, həyatının istənilən anında Allahla bərabərdir. Müsəlman İnsan dərk edir ki, Rəbbin var etdiyi həyatda nəyə isə nail olmaq, yaxud həyat imtahanlarından məğlub deyil, qalib kimi çıxmaq yalnız və yalnız Allahla bir olmaqla mümkün. Təbii, müsəlman çox gözəl anlayır ki, Allah yoxmuş kimi danışmaq ən böyük günah olmaqla bərabər, şirkə, yəni Allaha şərik qoşmağa aparan ən qısa yoldur. Allaha şərik qoşmağın da Həyat verən tərəfindən ən bağışlanmaz günah olduğundan xəbərdardır. Yalnız qorxusundan deyil, sevgisindən, güvənindən, inamından asılı olaraq hər zaman Allahlı düşünər, Allahlı danışar. Allahı sevən qul ağrıları artdıqca yalnız Allah deyib durar. Allah yolunda düşmənin üzərinə atılarkən Allah, Allah deyib hayqırar. Ölüm anında "Ya Allah" deyib yalvarar. Həyəcanlandığında Allahu Əkbər deyərək, Allahı zikr edər, Hər zaman Allahın hər şeydən daha böyük, daha qüdrətli olduğunu bilərək rahatlıq, hüzur tapar. Hər nəfəsin belə Allahı zikr etdiyini bilən mömin bir işə başlayarkən "bismillah" deyər. Bismillahla yalnız Yaradanın razı

qalacağı işləri edən mömin zatən Allahı sevirsə Onun narazılığına səbəb olacaq heç bir işə girişməz. Bir işə qərar verdiyində "biiznillah" deyər. Təbii, Allahın izni və istəyi olmadan hər hansı işə başlamağın mümkün olmadığınının fərqindədir mömin qul. Heyran olduğunda mütləq "*Maşallah*" deyər Allah qulu. Çünki, cox gözəl bilir ki, Allah qulunu heyran edə bilən hər şeyi var edən Yaradan, yoxdan var edən Allahdır. "*La havlə va la qüvvətə illa billah*" deyər mömin heyran olduğunda da, kədərləndiyində də. Çünki güc və qüvvət yalnız Allaha məxsusdur. Onu üzən, sevindirən hər hadisəni, yaxud hadisələr ardıcıllığını təvafüqə uyğun düzüb qoşan Allahdır. Allah qulu təsadüfə inanmaz. Təsadüfü inkar edir, Allahın varlığına iman gətirən qul. Təsadüf yoxdur və ola da bilməz deyə hayqırır Rəbbini tanıyan və hadisələr Kitabını oxuyaraq görməyi bacaran qul. Qullarını sevən Allah hər hadisədə, yaxud hadisələr zəncirində qulu gözəlliyə, təmizliyə çağıran səbəblər yaratmışdır. Allah yol göstərəndir. Qaranlıq yaxud işıqlı dünyanı seçmək isə İnsanın öz öhdəsinə buraxılmışdır.

*Allahım, Sən bizi bir an da olsa öz öhdəmizə buraxma. Sənin qəzəbindən Sənin məhəbbətinə sığınırıq. Bizi daim öz lütfünlə tərbiyələndir.*

Əsəbiləşən, yaxud da sevinən mömin mütləq "*sübhanəllah*" deyər. Çünki, onun sevimli Rəbbi pak və nöqsansızdır. Pak və nöqsansız Rəbbin yaratdıqları da pak və nöqsansızdır. Əgər problemlərin mövcuddursa, o zaman onları özündə ara. Allah sevir və Rəhmandır, eyni zamanda da qullarının daim yardımındadır. Tövbə et və onun qorunmasına sığın. Bunları dərk edən və bu təslimiyyatla yaşayan mömün qul hər səhvində, Allahdan hər dəfə üzr diləməklə "*Əstəğfirullah*" deyəcək. "*Əstəğfirullah*", "*Allahumməğfirli*", "*Rəbbiğfirli*" kəlmələri ilə daim dilini islaq tutaraq qəlbini örtə biləcək qara ləkələrdən xilas olmağa can atacaq Allah üçün, Allah naminə. Allah üçün yaşayan qul and içərkən belə "*Vallah-billah*" deyəcək. Zatən Allahdan gözəl şahidmi var? Allahdan gözəl dost, Allahdan gözəl yardımçı yenə də Allahımız özüdür. Allahı sevən qula Sevən Allah da sevgisi ilə qarşılıq verəcək. Qul Allahı xatırladıqca və dili ilə həm özü, həm də hər kəsə Allahı xatırlatdıqca Allah da onu xatırlayacaq və hər kəsə xatırladacaq. Qul Allahı özü kimilər yanında xatırladırsa Allah da qulunu Allahın şəninə yaraşan göy əhli arasında xatırladacaq. Qul özünə münasib şəkildə səmimi qəlbdən Rəbbini sevdikcə Rəbbi də onu sevəcək və hər kəsə sevdirəcək. Nə xoşbəxt Allahın sevgi dalğalarında üzən qula. Allahı sevmək ona təslim olmaqdır. Qəlbi, dili, beyni, ağlı, şüuru ilə Allaha təslim olmaq bir sevgi göstərişidir. Allahın əxlaqıyla əxlaqlanmaq Allahı sevmək deməkdir. Sevginin qaynağı və yaradıcısı da Allahdır. Allahı ona yaraşır bir sevgiylə sevən, bu sevginin üzərində titrəyər. Bu müşfiqlər Allahın sevgisini itirmək qorxusundan tit-tir titrəyirlər.

"***İnsanların içərisində Allahdan qeyrilərini Allaha şərik qoşub, onları Allahı sevən kimi sevənlər də vardır. Halbuki iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir***" ( əl-Bəqərə, 165)

Sevgini itirmə qorxusu ilə titrəyənlər, Allahın dostlarına çevrilirər.

"***Allah iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər. Kafirlərin dostu isə Tağutdur. Onları nurdan ayırıb zülmətə salarlar. Onlar cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar!"*** (əl-Bəqərə, 257)

Həqiqi dost aydınlığa çağırandır. Möminlər Allahın dostluğuna nail olmuşlar. Allah dostundan nə tələb olunur? Allahın əmr və qadağalarına təslim olmaqla bərabər Allahın davasını özlərinə dava edəcəklər. Allahın istəyi onların istəyinə çevriləcək. Allahla dost olanlar onun vəhylərini ucaldanlardır.

"***Ey iman gətirənlər, Allahın dininə yardım etsəniz yardım əlini uzadar Allah, möhkəmlədər addımlarınızı"*** (Muhamməd, 72)

Allahın dininə yardım edən Allah dostu həqiqi kəlamı ucaldacaq, insanların başına tac edəcəkdir. Allahın Kəlamlarına təslim olaraq yaşayan İnsan Kainat simfonoyasına qatılaraq "lə" deyə yaşayacaq, hər kəsə "*lə ilahə illəllahı*" çatdıracq və Kainat kimi *Salam* halında yaşamağı bacaracaq. Göylərdə, Allahın yaratdıqlarında çat, nöqsan, qüsur yoxdur. Bu səbəbdən də *salam* atmosferində yaşayan və ətrafa *salam* musiqisi yayan Kainatda qırıq və çat səsləri çıxardan yalnız insandır. Allah kəlamları, Allah vəhyi də İnsana Kainat simfoniyasına qoşulmaq və əzəmətli Allaha yaraşan şəkildə əzəmətlə yaşamaq üçün bir yardımçıdır. Bu kosmik ilahinin bir adı da təsbihdir. Kainat Aləmlərin Rəbbinə təsbih etməkdədir. Ey Adəmoğlu, xilas bundadır. Təslim ol Rəbbinə, bütün aləmlərlə birlikdə Rəbbini təsbih və zikr et. Sübhanəllah de. Pak və nöqsansız yaradılmışlar Pak və nöqsansız olaraq yalnız Yaradıcılarını tanımaqdadırlar və bu heyranlığın qarşısında "*Sübhanəllah*" deyirlər.

*Subhanəllah- hər şeyə hərəkətlilik və təkamül nəsib edən pak, nöqsansız, qadir Allahım, bizlərə də Sənə tərəf aparan yolda kamillik, müdriklik, inkişaf nəsib et. Sən bəxşiş verənlərin ən gözəlisən.*

"***Yeddi göy, yer və onlarda olanlar Allahı təqdis edir. Elə bir şey yoxdur ki, Allaha tərif deyib Ona şükr etməsin, lakin siz onların təqdisini anlamazsınız. Allah həqiqətən, həlimdir, bağışlayandır!"*** ( əl-İsra, 44)

"***Göylərdə və yerdə nə varsa, Allahı təqdis edib şəninə təriflər deyər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir!"*** ( əl-Həşr, 1)

"***Göylərdə və yerdə nə varsa, Allahı təqdis edib şəninə təriflər deyər. Hökm onundur, həmd-səna da Ona məxsusdur"***( ət-Təğabun, 1)

*Sübhanəllah* deyə Uca Yaradanı zikr edən, xatırlayan Insan məxluqat, varlıqlar içərisindəki şərəfli yerini, seçilmişliyini anlayaraq bütün bunlar üçün Yalnız Allah qarşısında borclu olduğu şüurunda olaraq Allaha minnət və şükranlığını bildirir. Bir də əməllə *Sübhanəllah* yaşamaq var ki, bu da şüurlu şəkildə Allahın qoyduğu inkişaf, kamillik yolunu dərk edərək,

anlayaraq öz həyatına tətbiq etmək, gözəlliyə, paklığa, mənəvi təmizliyə, saflığa aparan yolda səy göstərmək, cəhd etmək deməkdir. Demək, əməllərlə paklığa can atmaq da əməli şəkildə *sübhanəllah* deyə zikr etməkdir. Mömin qəlbi ilə də *sübhanəllah* deyə zikr etməkdədir. Bir halda durmayan, dəyişkənliyə meylli olan Qəlbi Pak və Nöqsansız Rəbbinə təslim edərək, qəlbini ona həvalə edir, Qəlbinə yalnız Allahın hökm etməsi üçün Allaha dualar edir. Dilini Allahın razılığına səbəb olmayacaq hər sözdən qoruyaraq, Allahı bir an da olsa ağlından çıxarmır. Təsbih –təhmid- təkbir. *Sübhanəllah-əlhəmdulilləh - Allahu Əkbər* üçlüyünün təsbih ilə başlamasının hikməti bəlkə də təsbihin bütün varlıq aləmini öz içinə almasındadır. Varlıq aləmi vəhdət halında "*Sübhanəllah*" deməkdədir. Təsbih zəncirindən qopan öz trayektoriyasından qopmuşdur. Demək, varlıqdan yoxluğa yol almışdır. Ey İnsan, var olmağın yolu təsbihdən keçir. Rəbbini tanımayan, Onun Pak və nöqsansız olduğunu haradan biləcək? Rəbbini tanımağa yol həm də, zikrdən başlayır.

***"Göylərin və yerin hökmü Allaha məxsusdur. Allah hər şeyə qadirdir! Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. O, kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər: "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən paksan, müqəddəssən! Bizi Cəhənnəm əzabından qoru!"*** (Ali-İmran, 189-193. )

Göylərin, yerin, bir sözlə bütün varlıq aləminin yaradılışında, var oluşunda hikmət görən ağıl sahibi İnsan Rəbbini zikr edərək, onu təsbih edəcək, daha sonra həmd mərtəbəsinə yol alacaq. Həmd şüurlu varlıqların təsbihidir.

*Əlhəmdulillah…* Quranımızın tacı, duaların sultanı Fatihə də aləmlərin Rəbbinə Həmd olsun deyə başlayır. Davamlı Fatihə oxuyan hər mömin Hər Fatihə ilə Rəbbinə həmd oxumaqdadır. Həmdi tərcümə etmək mümkünmü? Həmd yalnız Allaha aid, Ona məxsus bir tərif, bir təşəkkürdür. Allah İnsana bir nemət verdiyində şükr edər, ancaq o neməti aldığında həmd edər. Neməti Allah bit lütf və ehsan olaraq quluna verdi. Kimsə gözünü, qəlbini, ağlını, anasını, öz cismini belə nəyinsə əvəzini ödəyərək qazanmamışdır. Ömür boyu etdiklərini etsə belə heç bir ağlını belə ala bilməzdi. Ey Adəm övladı, Sənə verilənlər bir haqq deyil, bir lütfdür. Yaradan da dilədiyinin nemətini artırar, dilədiyininkini də azaldar. Bu Haqq və lütf sahibinin biləcəyi bir işdir. Amma onu unutma ki, lütf sahibi Allah ən böyük sevəndir. Verdikləri də, aldıqları da sevməsi səbəbilədir. Neməti alan, verənin Özüdür. İstəsə yenidən alar və daha üstününü verər. Bu səbəbdən də həmdə layiq yenə Özüdür. İstəsə daha böyüyünü alardı, acılarımız daha çox olardı. Daha böyüyünü almadığı üçün Həmd yalnız Onadır. İnsan yalnız varlıqla sınanılmır, yoxluqla da sınaqdan keçirilir. Verən də, alan da O olduğu üçün həmdimiz yalnız Onadır. Bilən də, Xəbərdar olan da Odur. Məni məndən də gözəl tanıyan Odur. Verdiyi

və aldığı da mənim üçündür. Onun verməyə də, almağa da ehtiyacı yoxdur. Hər şey İnsanın kamilləşməsi üçündür.

***“Hökm əlində olan Allah nə qədər ucadır. O hər şeyə qadirdir! Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq üçün ölümü və həyatı yradan Odur. O yenilməz qüvvət sahibidir, bağışlayandır ”*** ( əl-Mülk, 1-2)

Sınaq, imtahan dünyasında qullarını sınayan, imtahan edən Yaradan qullarına yardım edən nemətlərdən də məhrum etməmişdir. Ey insanlar, Ramazan Allahın bir hədiyyəsidir, bir yardımıdır. Qədr gecəsi Allahın bir lütfüdür. Özünüzü bu lütfdən məhrum etməyin. Şərəfli Quran, şərəfli gecə, şərəfli insan vəhdətindən özünüzü, sevdiklərinizi məhrum etməyin. Tələsin... Tələsin, zikrlə, təsbihlə, Quranla təmizlənərək, arınaraq, yeni günə qədəm qoyun. Tələsin, təmizlənməyə tələsin, sədəqələrlə, fitrələrlə, zəkatla təmizlənin. Dilinizi təsbihlərlə, qəlbinizi zikrlərlə arındıraraq Qədr gecəsində mələklərin salamına tələsin. Namazla təmizlənin, qorunun. Özünüzü haqq -hesab edin. Ramazan haqq –hesabı edin. Həqiqətən, böyük haqq-hesab da yaxındadır. Nemətləriniz üçün Həyat verənə şükrlər edin və durmadan *Aləmlərin Rəbbinə həmd olsun* deyin və yaşayın.

Aləmlərin Rəbbinə həmd olsun. Həmd olsun, dillərimizə, qulaqalarımıza, əllərimizə onu zikr etmək neməti verdiyi üçün. Həmd olsun Allaha Onu sevdiyimiz üçün.

*Allahım, qəlbimizi Öz zikrindən məhrum etmə!*

Şərəfli gecədə bizlərə şərəf olan Quranımız dua Fatihə ilə başlayıb, dualarla bitir. Elə isə biz də hər zaman dua Fatihə ilə başlayıb dualarla bitirək ki, şərəfli Quranımızdan şərəflə bəhrələnək.

*De: O, Allah birdir. Allah möhtac deyildir. O nə doğmuş, nə də doğulmuşdur! Onun heç bir tayı-bərabəri də yoxdur!*

*De: Pənah aparıram sübhün Rəbbinə! Yaratdıqlarının şərindən; Zülmətə bürünməkdə olan gecənin şərindən; Düyünlərə üfürən qadınların şərindən. Və bir də paxıllığı tutan anda paxılın şərindən.*

*De: Pənah aparıram insanların Rəbbinə; İnsanların ixtiyar Sahibinə; İnsanların Tanrısına. Vəsvəsə verən, qaçıb gizlənən Şeytanın şərindən; o şeytan ki, insanların ürəklərinə vəsvəsə salır. Cinlərdən də olur, insanlardan da.*

**ZİKR** 2

***Bismillahir Rahmənir Rahim. Əlhəmdulilləhi Rabbil aləmin. Ərrahmənir Rahim. Məliki yevmiddin. İyyakə Nəbudu va İyyakə nəstəin. İhdinə sıratəl mustaqim. Sıratəlləlǝzinə ənamtə aleyhim ğeyril mağdubi aleyhim va la-d-dallin.***

***Amin.***

*Allahım, Səni Sənə layiq şəkildə zikr etməyi, şükr etməyi və şəninə yaraşır şəkildə ibadət etməyi nəsib et! Sən bizim Rəbbimizsən. Əxlaqınla əxlaqlanmağı, tərbiyənlə tərbiyələnməyi nəsib et, uca Allahım. Allahım, Sən gözəl danışanları sevirsən. Bizə də Sənin razı qalacağın şəkildə gözəl danışmağı öyrət. Allahım, göylərdə və yerdə nə varsa Şəninə təriflər deyib Səni təqdis edirlər. Səni zikr edən Kainat birliyində, ilahisində bizə də Sənə layiqincə təslim olan Kainat kimi zikr, təsbih nəsib et. Əməllərimizdə, dilimizdə, qəlbimizdə qüsurdan Sənə sığınırıq. Pak və nöqsansız olan Yalnız və yalnız Sənsən. Sübhanəllah deyə salam yaşayan Kainatımız kimi bizə də Sübhanəllah deyərək, Salamı yaşamağı nəsib et. Allahım, Sənə həmd olsun ki, bizi İnsan yaratdın, insanlar içində bizə Özünü tanıdaraq, müsəlmanlardan etdin. Allahım, Sənə layiqli qul olmaq xoşbəxtliyini də nəsib et bizlərə. Allahım, bizə Həmd etməyi öyrət ki, Sənin razı qalacağın şəkildə Sənə həmd edək. Rəbbim, Sənin razılığın bizə yetər. Sən bizə yetərsən. Aləmlərin Rəbbinə həmd olsun.*

Əlhəmdulilləh demək dilin həmdidir. Qəlbimizin həmdi imandır. Allahın əmrlərinə, qanunlarına tabe olan orqanlarımızın həmdi itaətdir. Təfəkkür etmək isə İnsan ağlının həmdidir. Həyat verən Allahın verdiyi həyatımızın həmdi isə onu Allah yolunda yaşamaqdır. Əmanət verilən nemətlər də bizdən Allaha həmd edilərək yaşanmağı tələb edəcək. Gözümüz bizə ya nemət, ya da bəla olacaq. Belə ki, verilən hər nemət bizi Yaradan Sahibimizə yaxınlaşdırırsa nemətə cevrilir. Əks halda isə, yəni verilən nemət Allah üçün, Onun əmrlərinə uyğun şəkildə istifadə olunmursa bizim bəlamıza çevrilir. Gözümüzü zinadan qoruyur və eyni zamanda, onunla haqqı, Yaradanının gözəlliklərini görürüksə bu gözümüzün həmdidir. Göz nemətini zinaya deyil, həmd üçün istifadə edən qulun gözləri Cənnətlə sevinəcək və sahibini də sevindirəcək. Qulaqlar bir nemətdir. Əgər onu qeybətdən, eybəcərlikdən qoruyur və onunla yalnız haqqı eşidir, duyuruqsa bu da qulaqlarımızın Həmdidir. Haqqı duymaqla qidalanan qulaqlar da Sahibini Cənnət Səsləri və Mələklərin *salam* kəlmələri ilə sevindirməzmi? Bəs Yaradanın verdiyi əllər? Ona necə? Cavab verə biləcəyikmi? Əllərimizi haramdan, rüşvətdən qorumaq, onları yalnız Haqq üçün qaldırmaq, Əl - Haqqa açılmaq, haqq naminə paylamaq əlin həmdi deyilmi? Sağ əlin verdiyindən sol əlin xəbəri olurmu? Düşünək, Orqanlarımıza dilədiyi həmdi yaşatdıra bilirikmi? Bəs ən çox istifadə etdiyimiz ayaqlarımız? Onun haqqına nə qədər giririk? Ayağın həmdi haqq üçün, Allah üçün yürümək, Allahın razı qalacağı yerlərə getməkdir. Haqq davası döyən insanlar bir düşünün öz bədən üzvlərimizin, əmanətlərimizin haqqını ödəyə bilirikmi?!

Unutmayaq, hər bir verilmiş nemət Allaha yaxınlaşmq üçün bir vasitədir. Sən və cismin Kainatın bir hissəsidir. Kainat kimi sənin də təsbih və təhmid, yəni *əlhəmdulilləh* demək daxili tələbatındır. Həmd sənin ehtiyacındır. Həmd Yaradanın verdiyi nemətlərə bir qarşılıq, yaxud əvəz də deyil, heç ola da bilməz. Ey Adəm övladı, sənin Rəbbinə həmd edə bilmən özü bir nemət, Yaradan tərəfindən sənə bir ehsan deyilmi?! Əgər Onun lütfü olmasaydı Onun verdiyi ağılla Onun nemətləri üzərində təfəkkür edə bilərdinmi?! Sübhanəllah verən də Allah, nemət də Onun, savabı verən də O, etdirən də O. Allaha olan borcumuzu heç bir surətdə qaytara bilmərik. Məgər aldığımız hər nəfəs yeni bir borc deyilmi, yaşadığımız hər saniyə, daha bir borc deyilmi? Heç bilirikmi bir saniyənin var ola bilməsi üçün nə qədər fiziki proseslər cərəyan etməkdədir? Yer, günəş, səma və daha nələr - nələr bir saniyənin yaranması üçün fəaliyyətdədir? Elə bircə nəfəsimizin, bir anlıq nəfəsin özünün var ola bilməsi üçün bir fabrika olan cismimiz nə böyük fəaliyətdədir. Hüceyrələr, qan dövranı, ürək, beyin, ciyərlər.Bir nəfəsi var edə bilərsinizmi? Əsla! Hər saniyə, hər nəfəs Rəhman və Xaliq Allaha heyranlıq halındadır. Və bu heyranlıq halı əlhəmdulilləh deməkdir.

***"Göyləri və yeri yoxdan xəlq edən, zülmətləri və nuru yaradan Allaha həmd olsun***" (əl-Ənam, 1)

Hidayət həmdə layiq ən böyük nemət deyilmi? Yaradanın sənin üçün Peyğəmbər göndərməsi həmd ediləcək nemət deyilmi? Hidayət yoluna işıq salan Quran həmdə layiq nemət deyilmi? Saleh bir övlada sahib olmaq Yaradana, Var edənə həmd etməyə səbəb deyilmi? O övlad ki, hər namazında Allahın buyurduğu kimi *Rəbbənağfirli* duasını oxuyursa, yəni hər duasında *"Allahım, valideynlərimi bağışla"* deyə İxtiyar Sahibinə əl açırsa - bu Allaha həmd etməyə səbəb deyilmi?! Əgər ailənizdə Allahın verdiyi başı səcdəyə qoyan, yəni qəlbində Allah sevgisi olan biri varsa bu sizə Allaha həmd etməyi vacib etmirmi? O, övlad ki, hər iki dünyanızda sizin üçün bir nur mənbəyidirsə, durun, tələsin, Rəbbinizə həmd edin. Həqiqi mömin hər halında Allaha həmd edəndir. İstər bəla, çətinlik, istərsə də sevinc anında Allah qulu *"Əlhəmdulilləh alə kulli hal"* deyərək Rəbbinə şükranlığını bu cür bildirəcək. *"Bütün hallarda Allaha Həmd olsun"* deyən mömin səmimi qəlbdən mömінin hər zaman xeyir içində olduğu şüurundadır. Allahın sevimli qulu, Şərəfli insan mərtəbəsinə ucalmış, müəllimimiz Muhamməd (s.a.s) yeni bir paltar, ayaqqabı geyərkən, sevgili Rəbbinə həmd edərdi. Su içəndə və yemək yeyəndə belə nemət sahibinə həmd edərdi. Müəllimimiz bizlərə də asqıran möminin *Əlhəmdulilləh* deməsini, bunu eşidən möminin *yerhamukallah*, yəni Allah sənə rəhm etsin, asqıranın isə cavabında *yehdikumullah*, Allah sənə hidayət etsin deməsini Müsəlmanın müsəlman qarşısında haqqı kimi tövsiyə etmişdir. Əlhəmdulilləh, asqırma zamanı ürək bir anlığa durur. Qəlb yenidən çalışmağa başlayır. Hər asqırma zamanı Allaha həmd etmək qəlbi durduqdan sonra yenidən çalışdıran, bir sözlə həyatı və ölümü var edən Allahı xatırlamaqdır. Həmd bir şükrdür.

Hər halda Sahibə, Yaradana həmd edə bilmək insanın daxili dünyasını tarazlıqda saxlaya bilmək üçün bir güc mənbəyinə sahib olmaqdır. Həmd bir səbr göstəricisidir. Yalnz səbr və namazla pisliklərdən, zinadan qorunaraq cismimizə həmdi yaşatdıra bilərik. Yalnız böyük Allah həmdə layiqdir. Allah böyükdür. Allahu əkbər.

" ***Ey örtüyünə bürünüb sarınan! Qalx qorxut! Öz Rəbbini təkbir et*** " (Müddəsir)

**Allahu əkbər. Allah ən böyükdür**. Bütün zikrlər kimi Allahı təkbir etmək də dil, əməl və qəlb ilə icra olunur. Allahın ən böyük olduğunu qəbul etmək Yaradanın əmr və qaydalarına riayət etməyi tələb edir. Allah ən böyükdürsə, Onun əmri də ən böyük əmrdir. Dili ilə *Allahu Əkbər* deyən və Yaradan Allahın əmrlərinə itaət etməyən özü-özünün yalançı olduğuna şahidlik etmiş olur. *Təkbir* bir təşəkkürdür. Bir anlığa düşünək. Allahın əzəməti, yaratdığı gözəlliklər, hadisələr zəncirindəki səbəb və nəticələr ardıcıllığının qarşısında heyranlıqdan donduğumuz və bütün cərəyan edənlərin yalnız İnsan naminə edildiyini dərk etdiyimiz zamanlarda dilimizə Allahu Əkbər, Allahu Əkbər kəlamından başqa bir söz gəlirmi? Dağların əzəməti Allahu Əkbər demirmi? Dünyaya yeni gələn insan hər qidalandığında Allahu əkbər demirmi? Göydə qanad çalan quşlar Allahu əkbər demirmi? Sərt qayaları yarıb çıxan ağaclar Allahu Əkbər demirmi? Allah yolunda canını fəda verən qul Allahu Əkbər demirmi? Qəlbi Allah sevgisi ilə çağlayan Allahu Əkbər demirmi? Allah üçün axıdılan göz yaşları Allahu Əkbər demirmi? Allahu Əkbər təkəbbürü məhv edən bir silah deyilmi? Qəlbində mən - mən olan dilində Allahu Əkbər deyə bilərmi? Təkəbbür təşəkkürü boğursa, təkbir də təşəkkürdən doğulur. İçi təşəkkürlə, şükranlıqla dolu qul yalnız Allahu Əkbər deyəcək. Nemətin fərqində olmayan, nemətin nemət olduğundan xəbəri olmayan Nemətin sahibi haqda da düşünməyəcək. Özünü dərk edən, öz mahiyyətindən xəbərdar olan, bir sözlə həddini bilən qul nemət Sahibini də tanıyacaq. Rəbbini tanıyanın qəlbi hər zaman, hər halında şükranlıqla dolub daşacaq. Düşünək, Müəlimimiz bayram namazlarında nədən çoxlu sayda təkbir deməyi tövsiyə etmiş ümmətinə? Bu deyilən təkbirlər nemətin qədrini bilməklə sevinc və şükranlıq hissinin göstəricisi deyilmi? Allahın buyurduğu bayramlar Allahın hədiyyələri deyilmi? Hədiyyələr insanda sevinc, razılıq doğurmurmu? Hədiyyə verənə təşəkkür etmirikmi? Buyurun, Ramazan və Qurban da Allahın İnsana hədiyyələri. Hədiyyələri aldınız, Allahın yardımı, dəstəyi ilə təmizləndiniz, indi də Allahı ululamaqla, ucalığını qəlbiniz və diliniz təsdiq və zikr etməklə təşəkkürünüzü bildirin. Uca, Əkbər Allahın bizim təşəkkürümüzə heç ehtiyacı yox. O, bütün ehtiyaclardan uzaqdır. Təşəkkür etmək, təkbir deməyə bizim ehtiyacımız var. Şükr nemətləri artırır. Düşünün... birinə yaxşılıqlar edir, hər zaman yardımına tələsir, ehtiyacı olduğundan hədiyyələr verirsiniz. O, isə bütün bunları sizin borcunuz kimi qəbul edərək sizə bir təşəkkür belə etmir. Yaxşılıqları anlamayan birinə nankor demirikmi?

*Allahım, Sənin qarşında nankor olmaqdan Sənə sığınırıq. Bizə Sənə layiqincə Şükr etməyi nəsib et. Zatən Sənin verdiklərinin və lütfünün qarşısında heç bir zaman şükrümüzü bitirə bilmərik. Allahu Əkbər.*

Ey Adəm övladı, şükr eylə şükrə layiq olana. Ey Adəm övladı, hər gecənin bir gündüzü olduğunu bilirsən hər qışın bir baharı olduğunu bilirsən. Hər çətinlikdən sonra bir rahatlığın gələcəyini də unutma!!!

***" Sizə göydən və yerdən kim ruzi verir? Qulaqlara və gözlərə sahib olan kimdir? Ölüdən diri, diridən ölü çıxardan kimdir? Hər işi düzüb qoşan kimdir? "-Allahdır deyəcəklər"*** (Yunus, 31)

*Ey bacım, qardaşım, elə isə unutmayaq Rəbbimizin nemətlərini sayıb qurtara bilmərik.*

***"Kim şükr etsə özü üçün şükr edər, kim nankor olsa, Allah onun şükrünə möhtac deyildir, şükrə layiqdir. "*** (Loğman, 12)

*Aləmlərin Rəbbinə həmd olsun.*

***"Əgər siz şükr etsəniz və iman gətirsəniz Allah sizə nə üçün əzab versin ki, Allah şükrə qiymət verəndir, hər şeyi biləndir!"*** (Nisə, 147)

"***Həqiqətən, Biz insanı qarışıq bir nütfədən yaratdıq. Biz onu imtahana çəkəcəyik. Biz onu eşidən, görən yaratdıq. Biz ona haqq yolu göstərdik. İstər minnətdar olsun, istər nankor"*** (İnsan, 2-3)

*Ey adəm övladı, düşün, bir gör sənin şükrünə, minnətdarlığına ehtiyacı olmayan Yaradan sənə necə haqq yolu göstərir. Bir gör şükrünün əvəzində sənə nə deyir Yaradan.*

***" Əgər şükr etsəniz, sizə olan nemətimi artıracağam"*** (İbrahim, 7)

***"Yalnız Ona ibadət et və şükr edənlərdən ol!"***

(Zumər, 66)

*Allahım, yalnız Sənə ibadət etməyi nəsib et bizə.*

Allaha ibadət etmək əməllə şükrün ifadəsidir. Allahu Əkbər mömininin həm sevinci, həm təsəllisidir. Cənazə namazlarında təkbir gətirən mömin çox gözəl anlayır ki, güldürən də, ağladan da O-dur.

***" Heç bir günahkar başqasının günahına yüklənməz! İnsana ancaq öz zəhməti qalar. Şübhəsiz ki, onun zəhməti görünəcəkdir! Sonra da ona tam əvəzi veriləcəkdir! Həqiqətən, axır dönüş sənin Rəbbinədir! Güldürən də, ağladan da Odur! Öldürən də, dirildən də Odur!"*** (ən-Nəcm, 38-44)

Həqiqi mömin üçün təkbir, həm də səbrin açarıdır. Heç bir çətinlik, imtahan həqiqi mömininin Allahla əlaqəsini zəiflədə bilməz, əksinə hər çətinlik onu Rəbbinə daha da yaxınlaşdırır. Və sıxıntı anında Rəbbini daha yaxından duyan və hər sıxıntı ilə güclənməsini dərk edən mömin *"Həmd olsun sıxıntı verən Allaha"* deyərək, Allahla əlaqəsini daha da möhkəmləndirməyi

bacaraq. Mömin çox gözəl anlayır ki, hər hadisə Onun xeyrinədir. Barama qurdu sıxılmasa, nə özü gözəl kəpənək ola bilər, nə də toxuduğu saplar mükəmməl ola bilər. Məgər insan dünyaya gəldiyi zamandan etibarən sıxılmırmı? Bu sıxıntıya onun nə qədər ehtiyacı var. İmtahanlar öncəsi sıxılmasaq müvəffəqiyyət əldə edə bilərikmi? Həmd olsun sıxıntı verərək, bizi kamilliyə doğru aparan Rəbbimizə. Allahu Əkbər.

*Allahım, bizi öz lütfünlə tərbiyələndir.*

Ramazan, oruc. Orucla imtahan olunmuruqmu? Aclıqla sıxılmırıqmı? Amma sonu Təkbirlərlə dolub daşan bayram. Bayrama layiq olmaq lazımdır. Tələsin. Bu gün zikrlərinizi artıraraq Rəbbinizə doğru tələsin.

*Allahım, bizə layiqli bayramlar nəsib et! Bizi bayrama hazırla!*

*Allahu əkbər. Allahu əkbər. Allahu əkbər.*

Şərəfli gecədə bizlərə şərəf olan Quranımız dua Fatihə ilə başlayıb, dualarla bitir. Elə isə biz də hər zaman dua Fatihə ilə başlayıb dualarla bitirək ki, şərəfli Quranımızdan şərəflə bəhrələnək.

*De: O Allah birdir. Allah möhtac deyildir. O nə doğmuş, nə doğulmuşdur! Onun heç bir tayı-bərabəri də yoxdur!*

*De: Pənah aparıram sübhün Rəbbinə! Yaratdıqlarının şərindən; Zülmətə bürünməkdə olan gecənin şərindən; Düyünlərə üfürən qadınların şərindən. Və bir də paxıllığı tutan anda paxılın şərindən.*

*De: Pənah aparıram insanların Rəbbinə; İnsanların ixtiyar Sahibinə; İnsanların Tanrısına. Vəsvəsə verən, qaçıb gizlənən Şeytanın şərindən; o şeytan ki, insanların ürəklərinə vəsvəsə salır. Cinlərdən də olur, insanlardan da.*

**ZİKR** 3

***Bismillahir Rahmənir Rahim. Əlhəmdulilləhi Rabbil aləmin. Ərrahmənir Rahim. Məliki yevmiddin. İyyakə Nəbudu va İyyakə nəstəin. İhdinə sıratəl mustaqin. Sıratəlləzinə ənamtə aleyhim ğeyril mağdubi aleyhim va la-d-dallin.***

*Amin.*

*Allahım, Səni Sənə layiq şəkildə zikr etməyi nəsib et, bizə. Allahım, hər nəfəsimizin Səni zikr etdiyini bildiyimiz halda, əgər biz Səni zikr etməsək, bizim nə qiymətimiz olar? Allahım, Səndən Sənə layiq olmağı diləyirik. İnsan, müsəlman, qul adlarına layiq et bizi.*

*Amin.*

***"Belə olduqda siz Məni xatırlayın ki, Mən də Sizi yada salım! Mənə şükr edin, Məni danmayın!"*** (əl-Bəqərə, 152)

*Allahım, Səni danmaqdan Sənə sığınırıq. Allahım, inkar və üsyanla nemətlərinə qarşı nankorluq etməkdən Sənə sığınırıq. Allahım, dilimizlə, cismimizlə, qəlbimizlə daim Səni zikr etmək xoşbəxtliyi nəsib et bizə. Çünki, qəlblər yalnız Sənin zikrinlə rahatlıq tapar.*

Zikr bir sevgi göstəricisidir. Qəlbi sevgi ilə çağlayan biri sevgilisini bir an da olsa unuda bilərmi?

Məgər zikr də bir şükr deyilmi? Yolun başlanğıcı zikr, sonu şükr. Sonsuzluğa səyahətdə zikr və şükr əkiz qardaşlardır.

"***Ey iman gətirənlər, Allahı çox zikr edin!***" (Əhzab, 41)

Rəbbimizin bizim zikrimizə belə ehtiyacı yoxdur. Biz qulların həm fiziki, həm mənəvi olaraq Allahın zikrinə ehtiyacı var. Hədisi - qüdsidə Allah Subhanü-Təala buyurur: 1) Məni Mənə itaətlə zikr edin, mən də sizi Rəhmətimlə zikr edim; 2) Məni dua ilə zikr edin, mən də sizi duanızı qəbul və ehsanla zikr edim. Yəni, ***"Mənə dua edin ki, Mən də duanızı qəbul edim***" ( Ğafir, 60). 3) Məni tərif və itaətlə zikr edin, mən də sizi tərif və nemətlə zikr edim; 4) Məni dünyada zikr edin, mən də sizi axirətdə zikr edim. 5) Məni gizli yerlərdə zikr edin, Mən də sizi səhralarda zikr edim; 6) Məni xoş gününüzdə, rahat zamanınızda zikr edin, Mən də sizi bəla və müsibət zamanlarınızda zikr edim. 7) Məni ibadətlə zikr edin, Mən də sizi yardımla zikr edim. 8) Məni Mənim yolumda cihadla zikr edin, Mən də sizi Hidayətimlə zikr edim. 9) Məni doğruluq və səmimiyyətlə zikr edin, Mən də sizi xilas və Sizə təyin etdiyim şeyləri artırmaqla zikr edim. 10)Məni əvvəlcədən ilahlığımı qəbulla zikr edin, Mən də sizi sonunda rəhmət və qulluğa qəbul ilə zikr edim.

Qulluğun başı zikr, sonu isə şükürdür.

***"Onların dualarının sonu aləmlərin Rəbbi olan Allaha həmd olsun"*** (Yunus, 10)

Ən gözəl zikr *“Lə ilahə illəllah”.*Bu xilas yolu deyilmi? Bu kəlmə ilə qul hər şeyi yaradan qarşısında acizliyini təsdiq etmirmi? *Lə* deyərək Allahdan başqa ilah qəbul etməyən İnsan yardım üçün də məhz Vahid güc mənbəyinə yönəlir. Xilasın yolu Kainat kimi vəhdət halında *“lə ilahə illəllah”* deməkdən keçir. *“lə ilahə illəllah”*ı yaşayan qul Yaradan qarşısında kiçik olduğunu hiss etdikcə, Uca Allah qarşısında kiçilir və “*İyyakə nəbudu va iyyakə nəstəin”*, yəni *“Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım istəyirik”* deməklə, yaşamaqla Uca Allaha yaxınlaşmağa başlayır. Dünyanı məqsəd deyil də yalnız Allahı məqsəd bilən İnsan dünyadan uzaqlaşıb, Allaha yaxınlaşdıqca Özü bir nüvəyə çevrilir ki, dünya və üzərində olanlar onun arxasınca qaçır. Və Allahı mərkəz bilən qulu bütün yaradılmışlar özlərinə mərkəz bilib Ona xidmətə yönəlirlər. Ey Adəm övladı, beləliklə sən Allahı zikr etdikcə Allah da səni zikr edəcək. Allahın Səni zikri isə Səni şərəflilər cərgəsinə aparacaq. Ey Muhamməd ümməti, dilinizi Allahın zikri ilə daim islaq tutun.

**Zikr...** Quran bir zikrdir. Zikr xatırlamaqdır, bilməkdir, ibrət götürməkdir. Zikr xilasdır. Şəxsi problemlərinizi, çətinliyinizi nə qədər zikr etsəniz də həllini tapa bilməyəcəksiniz. İşlərinizi Sizi sevən, yardım edən Dostunuz Allaha həvalə edin. Düşünməyin, dünya problemlərini. Zikr edin, Rəbbinizi zikr edin. Onu təsbihlərlə, təhmidlərlə, təkbirlərlə zikr edin. Diliniz və qəlbinizlə zikr edin. Və belə deyin:

*Ey Ucalardan uca Allahım, mən sənin qarşında aciz qulunam. Etdirməsən bacarmaram. İbadəti var edib, məni də Özünə abd etdiyin üçün sonsuz şükrlərimi qəbul et. Bütün çətinliklərimi yalnız Sənə həvalə edirəm, çünki mən yalnız Sənə ibadət edir və yalnız Səndən yardım diləyirəm. İbadətə layiq olan Yalnız Sənsən. Yardım edə biləcək də yalnız Sənsən. İşlərimi yoluna qoy, asanlaşdır.Dünya problemlərimi, dünya düşüncələrimi də məndən uzaqlaşdır. Mən yalnız Səni zikr etmək istəyirəm. Mən Sənə layiqli qul olmaq istəyirəm. Dünyanın deyil, Sənin qulun olmağa yardım et! Sənsən həqiqi güc Sahibi. Yaratdığın bitkilərə də, toxumlara da daş kimi tumlarını dəlməyə Sən yardım edirsən. Sənin yardımınla bir gül daşı belə dələrək elə orada çiçək açar. O, çiçəkər güclərini Səndən almırlarmı? Ən gözəl ətirləri də yaradan Sənsən. Qara torpaqdan baş qaldıran güllərə, çiçəklərə ən gözəl ətirləri də bəxş edən Sən. Allahım, o çiçəklər mənim içdiyim suyu incə kökləri ilə necə içirlər. Allahım, Sənin haqq – hesabın da nə qədər incədir. İncə məqamlarda gizlətdiyin hikmətləri də yalnız incə düşünənlər görüb dərk edə bilirlər. Ən gözəl zikr Sənin Quranındır. İncə düşünənlər üçün nə qədər incə hikmətlər gizlənib hər ayəndə. Günəş Sənin bir ayən deyilmi? Dünyadakı hər bitkini, hər insanı qidalandırdıqca belə bitib tükənməyən enerjiyə sahibdir. O qüvvəni də, enerjini də Günəşə verən Sənsən, ya Rəbbim. Günəşdə nə qədər hikmətlər qoymusan görüb, düşünmək istəyən və günəş kimi tabe olan qulların üçün, yaxud Günəş kimi faydalı olmaq istəyən hər salam daşıyıcısı üçün. Allahım, Günəş enerjisini, istiliyini paylamasa davamlı olaraq sahib olduqlarından paylaya bilərdimi?*

*Günəşin gücü Sənə təslimiyyətində gizli deyilmi? Salamı yaşayan və daşıyan hər müsəlman günəş kimi təslimiyyətlə paylamalı deyilmi sahib olduqlarından? Nə çox, nə də az. Müsəlman salama sahib, Hidayətə sahib, Qurana sahib, Ümmət adına sahib. Ey Adəm övladı, sahib olduqlarından imtahan səhnəsində qalanlara miras qoyub getməlisən. Ey Müsəlman, Qurana haqqı ilə sahib ol ki, layiqli miras qoyasan. Ey Müsəlman, günəş kimi minnətsiz faydalı olmağı öyrən. Sən Rəbbinə tam təslim olduğun zaman haqqın yolunu tapacaqsan. Unutma, qızmar günəş də insanlara ziyanlıdır. Dirilik mənbəyi su da, dərəcəsini aşdıqda məhvə səbəb olur. Sahib olduğumuz hər şeyin üzərimizdə bir haqqı var. Allahım, biliyi də Sən bəxş etdin. Verməsəydin ala bilməzdik. Müəllimimiz nə gözəl öyrətmiş: "Bilgi sahiblərinə boş şey anlatma ki, sənə hirslənməsinlər. Axmaqlara hikməti anlatma ki, səni yalanlamasınlar. Uyğun olana elmi gizlətmə ki,günaha girməyəsən. Layiq olmayana elmi öyrətmə ki, sənə nalayiq davranılmasın. Çünki, elminin sənin üzəində bir haqqı var, sırf malının sənin üzərində haqqı olduğu kimi". Allahım, yalnız Sənin yardımına möhtacıq. Sən bizə şərəfli varlıqlar dedin. Ya Rəbbim, qiyamət günündə Sənin qarşında utanmaqdan Sənə sığınırıq. Bizə də hikmət ver. Ya Rəbbimiz, biz Səni zikr etmək istədik. Dünyadan uzaqlaşaraq, dünyanı düşünməyə bir vasitə bilərək bu halımızla bu gecə Səni zikr etməyə cəhd göstərdik. Bu zikrimizi bir ibadət qəbul et! Səni zikr edə bilmək nə böyük nemət, ya Rəbbim! Bizi sıxan, əzən hər problemdən Sənin zikrinlə uzaq olmaq nə böyük nemət, ya Rəbbim! Allahım, ətrafımızı Səni gözəl şəkildə zikr edən insanlarla zənginləşdir. Səni zikr edən, Sənə haqqıyla təslim olan insanlarla bir arada yaşamaq nə gözəl, ya Rəbbim. Allahım, bizləri biz et. Biz et ki, Fatihə ilə Səninlə hər əhd bağlayaraq biz dedikdə yalançı olmayaq. Səni doğruluqla zikr edək ki, Sən bizi xilasla zikr edəsən! Allahım, Sənin yaratdığın qəlbimin tək sakini sən ol! Çünki, qəlbim yalnız Səninlə hüzur tapır, Mənim gözəl Allahım. Sən gözəlsən, bizlərə də gözəlliklər nəsib et! Allahım, içimizdə qopan fırtınalar, vulkanlar, yalnız Sənin adınla, Sənin ayələrinlə sakitlik tapır. Ağlımız bulandığında Səninlə durulur. Allahım, bütöv bir həyat boyu Səni, yalnız Səni anmağı nəsib et! Sənin zikrindən doymaq mümkünmü? Dəryalar mürəkkəb olsa, ağaclar qələm Sənin zikrin bitib tükənməz. Allahım, cismim Səndən qafil nəfəs belə alıb verməz, Sən hər şeydən Xəbərdarsan. Qəlbimizi də təmizlə. Özündən başqa kimsəni sakin etmə qəlbimizə. Sağlam ruh olan yerdə, sağlam da bədən olar. Bizə sağlamlıq, təmizlik, gözəllik, fərah nəsib et!*

***"Bismilahir Rəhmanir Rahim. Məgər Biz Sənin köksünü açıb genişlətmədikmi?! Ağır yükünü səndən götürmədikmi?! Yük sənin belini bükürdü. Sənin ad-şanını ucaltmadıqmı? Şübhəsiz ki, hər çətinlikdən sonra bir asanlıq gələr! Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr! Elə ki, azad oldun, qalx. Və ancaq Rəbbinə yalvar!"*** (əl-İnşirah)

*Allahu Əkbər. Allahu Əkbər. Allahu Əkbər. Allahım, həmd olsun Sənə, Sən nə qədər ucasan, Həmd olsun ki, Sənə təkbir gətirməyi öyrətmisən bizə, ya Rəbbim.*

*Ya Rəbbim, Sənə ümidim sonsuzdur. Səndən ümidini yalnız Sənin nə dərəcədə Rəhmli olduğundan xəbərləri olmayanlar kəsər. Çaylar, sular, dənizlər Sənin Rəhmətin sayəsində var deyilmi? Allahım, Bizi bir an da olsa öz ixtiyarımıza buraxma!*

Düşmən qəzəbindən, paxıllığından çatlayır. Qulların təmizlənərək, Şeytandan uzaqlaşaraq, Cənnətə, Allaha yaxınlaşdığı səbəbilə. Paklananlara, təmizlənənlərə yeni hücumlarla gələcək. Amma, biz heç nədən qorxmuruq, çünki, bizim Allah kimi bir dostumuz var. Allah bizə yetər.

***" Həqiqətən, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlərin üzərində Şeytanın heç bir hökmü yoxdur! Şeytanın hökmü yalnız ona itaət edib Allaha şərik qoşanlar üzərindədir "*** (ən-Nəhl, 99)

*Ya Rəbbim, Sənə şərik qoşmaqdan Sənə sığınırıq. Bu bəladan bizi qoru. Dilimizlə, əlimizlə, əməlimizlə, qəlbimizlə, düşüncələrimizlə Sənə şərik qoşmaqdan Sənə sığınırıq.*

***"Səhər - axşam Rəbbinin rizasını diləyərək Ona ibadət edənlərlə birlikdə özünü səbrli apar. Fani dünyanın bər-bəzəyini arzu edib nəzərlərini onlardan çevirmə. Bizi xatırlamaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və hər işində ifrata varan kimsəyə itaət etmə!"*** (əl-Kəhf, 28)

*Allahım, Səndən rica edirik, ətrafımızı Sənə ibadət edənlərlə zənginləşdir. Allahım, aydınlığa doğru tutduğumuz yolu aydınlat. Bizlərə hər iki dünyada aydınlıq nəsib et.*

"***Sizi zülmətdən nura çıxartmaq üçün mələkləri ilə birlikdə sizə mərhəmət bəxş edən Odur. Allah möminlərə rəhm edəndir"*** (Əhzab, 43)

*Allahım, Quranımızı hər an qəlbimizin baharı et! Bizi Quran əxlaqı ilə əxlaqlandır. Şərəfli Ramazan, şərəfli Quran. Rəbbim, bu şərəfli günlərdən bizi də şərəflə bayrama çıxart.*

Şərəfli gecədə bizlərə şərəf olan Quranımız dua Fatihə ilə başlayıb, dualarla bitir. Elə isə biz də hər zaman dua Fatihə ilə başlayıb dualarla bitirək ki, şərəfli Quranımızdan şərəflə bəhrələnək.

***De: O Allah birdir. Allah möhtac deyildir. O nə doğmuş, nə doğulmuşdur! Onun heç bir tayı-bərabəri də yoxdur!***

***De:Pənah aparıram sübhün Rəbbinə! Yaratdıqlarının şərindən; Zülmətə bürünməkdə olan gecənin şərindən; Düyünlərə üfürən qadınların şərindən. Və bir də paxıllığı tutan anda paxılın şərindən.***

***De: Pənah aparıram insanların Rəbbinə; İnsanların ixtiyar Sahibinə; İnsanların Tanrısına. Vəsvəsə verən, qaçıb gizlənən Şeytanın şərindən; o şeytan ki, insanların ürəklərinə vəsvəsə salır. Cinlərdən də olur, insanlardan da.***

*Amin, Amin, Amin*

***Bismillahir Rahmənir Rahim. Əlhəmdililləhi Rabbil aləmin.***

***Ərrahmənir Rahim. Məliki yevmiddin. İyyakə Nəbudu va İyyakə nəstəin İhdinə sıratəl mustaqin. Sıratəlləəzinə ənamtə aleyhim ğeyril mağdubi aleyhim va la-d-dallin.***

***Amin.***

*Allahım, Sən bizə hər hansı bir işi başlamadan Sənin adınla başlamağı öyrətdin. Allahım, nəfəsimiz belə Səni zikr etdiyi halda necə cahillik edib Səndən başqa kimdənsə yardın diləyirik. Allahım, Sən hər şeyin tək Sahibisən. Yardımda, qorxuda, sevgidə Sənin şərikin yoxdur. Biz günahkar və aciz qullarına yardım et. Bizə hikmət ver. Çünki Verən də Sən, alan da Sən. Hikmət sahibi də Sən. Sən istədiyinin Ruzisini artırırsan, istədiyinin ruzisini azaldırsan. Dilədiyinə də öz elmindən dilədiyin qədər pay verirsən. Sevgisi və rəhməti ilə hər şeyi öz içinə alan, hər şeydən xəbərdar olan və sevilməyə də yeganə varlıq olan Rəbbimiz Həmd olsun Sənə. Həmd Sənə məxsusdur. Həmd olsun Sənə Bizə Ramazan kimi nemət nəsib etdin, Həmd olsun Sənə Səni sevməyi və tanımağı nəsib etdin. Allahım, Aç, aç bizim də üzümüzə nur qapılarını, nur bilikdədir. Bizə də öz elmindən pay ver. Sən Vəhhabsan, Bəxşiş verənsən. Bizə də elmindən, hikmətindən pay ver. Həmd olsun, Sənə bizə dua kimi bir neməti öyrətdin, bütün silahların dua kimi bir siahla məhv edilə biləcəyini öyrətdin. Dua nemətinin bütün sirli qapıları aça biləcəyini öyrətdin. Həmd və sonsuz təriflər Sənə, yalnız Sənə aiddir. Bizi haqqa yönəlt və qəzəbindən qoru. Ramazan ayı dua ayıdır. Həmd olsun Sənə bizə dua etdirdiyin üçün. Bu günlərdəki və gecələrdəki sirləri aç bizə. Bu əzəmətlə bizləri də yaşat. Ramazanımızın bərəkəti ilə bizləri də bərəkətləndir. Dualarımızı qəbul eylə. Sevdiklərimizin qəlbini hidayət nuru ilə doldur. Müsəlmanlara salamı yaşat. Müsəlmanlara biz anlayışını öyrət. Müsəlmanlara Sevgili Muhammədinin yeganə ümməti olduqları zövqünü, ləzzətini, fərəhini yaşat. Allahım, dualarımızı qəbul eylə. Sənə yaxınlaşmaq üçün etdiyimiz cəhdləri artır, bərəkətləndir və qəbul eylə. Sən Mucibsən. Duaları qəbul edənsən. Allahım, Salamın və Rəhmətin dalğalarında daim üzən Muhammədin arxasınca getməyi və onun öyrətdiklərini yaşamağı nəsib et bizə. Bizə hidayət ver. Biz deyənlərin sayını artır, ey duaları qəbul edən Ucalardan uca Allahımız. Allahım, bizə Qədr surəsini öyrət. Bu surədəki hikmətləri aç bizə. Elmimizi artır və bərəkətləndir. Allahım, Qədr surəsini, Qədr gecəsini aç bizə, yaşat bizi min aya, bir ömrə dəyən gecəylə. Həmd olsun Sənə. Öyrənməyə Sənin adınla başlayırıq. Çünki Sənin adının qarşısında açılmayan qapılar yoxdur.*

***Leylətül Qədr. Qədr gecəsi.***

***Bismillahir Rahmənir Rahim. Həqiqətən, Biz onu Qədr gecəsi nazil etdik. Sən nə bilirsən ki, Qədr gecəsi nədir? Qədr gecəsi min aydan daha xeyirlidir! O gecə mələklər və Ruh***

***Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər. O gecə dan yeri sökülənə kimi salamatlıqdır.***

Yalnız Sən əbədi və əzəli var olduğun üçün hər bir iş Sənin adın və izninlə başlanır. Hər şeyi yaradan, hər bir işdən yoxdan var edən olduğun üçün xəbərdar olan, Uca Allahımız. Sənin andının əzəmətini, qüdrətini dərk edə bilərikmi?! Bizə yardım et, Sənin andının altında nə böyük qüvvənin yatdığını dərk edək. Sənin andını dərk etməyə bizə şüur ver, bəlkə rəhm olunanlardan olarıq. Uca Yaradan, Sahib and içir. Kimin üçün? Yaratdığı qulu üçün. Uca Yaradan kimdir? Qullarını nədən yaratdı. Yaradılma, var olma, sevilmə şərəfinə layiq olan qulun vəzifəsi nədir? Nədir o böyük və önəmli vəzifə ki, onu icra etmək üçün hər bir şey, hər bir zərrəcik yaradıldı? Nədir o vəzifə ki, Onu icra etmək üçün hər bir şey qulun yardımına səfərbər olmuşdur. Nədir o vəzifə ki, onu icra etmək üçün Yaradan Xaliq belə hər an Rahmən və Rahim olaraq, quluna dostluq belə bildirərək Ona yardımdadır. Nədir o vəzifə, yaxud ad ki, Əşrəf adını qazandırmaqla bütün mələklər, nurlar, güclər tamaşasına, yardımına qaçmaqdadırlar. Ey İnsan öz qiymətindən, yaxud vəzifəndən xəbərdarsanmı? Əlində olan nemətlərin dəyərindən xəbərdarsanmı? Elə isə dayan, düşün, təfəkkür et. Ağıl nemətinin nədən məhz İnsana verildiyi haqda düşün. Bu da sənin vəzifəni icra etmək üçün yoxdan var edən tərəfindən verilmiş bir silah, yaxud nemət.

Ey Adəm övladları, gəlin birlikdə, yalnız bir, vahid olaraq Yaradanımıza üz tutaraq, onun bəxş etdiyi əllərimizi, qəlbimizi Yalnız və yalnız Ona tutaraq və Ona dua edərək vəzifəmizin icrasında bizə yardım etməsini yalvaraq. Əşrəf adına layiq olmaq üçün cəhd edək, fədakar olaq. Təfəkkür edək... Bizə dostluğunu və sevgisini hər halımızda bildirən Rəbbimiz nəyə israrla and içir. Dost, Sevən birisi bizə təqdim etdiyi bir şeyə israrla and içirsə, demək bizim anlaya bilməyəcəyimiz, fərqinə vara bilməyəcəyimiz nemətlər, bərəkətlər gizlidir bu təqdim etdiyində. Rəbbimiz and içir. Sanki, birdən kimsə mahiyyətinə vara bilməz vermək istədiyinin və məhv olar nemətdən xəbərsiz qalaraq. Yaradan da yaratdığının məhv olmasına razı ola bilərmi? Sevən biri sevdiyinin yanmasını qəbul edərmi? Durun, Yaradan sizi sevgiyə, qələbəyə çağırır. Təqdim etdiyinin nəticəsi qələbə deyilsə dostuna, sevdiyinə bu qədər israrla and içərmi?

Həqiqətən, inanın, həqiqətən, o Qədr gecəsində enmişdir. Təbii, ey gözləri yalnız gün işığında görə bilən, gecələr qəlbi və cismi yatan və bu səbəbdən gündüzlər də yuxuda olan insan, sən nə bilirsən Qədr gecəsi nədir? Bax, ey Adəm övladı, Sənə Quran kimi bir nur nəsib edən Allah Sənə Fatihə öyrətdi. Sən də Rəbbindən Doğru yol dilədin. Sən istədin deyə, verən Allah da doğru yol və hidayət olaraq buyur: Bu da Doğru yol deyərək əlinə, qəlbinə Quran verdi. Ey Adəm övladı, Bil Allah kəlamı olan, haqqa işıq salan, nurlar nuru adı Qədr olan bir gecə zamanında Sənin qoruyucu Səmana göndərildi. Və sonra da 23 il ərzində bir nur, mayak olaraq, Muhammədimizin qəlbinə endirilidi... Aram-aram... Ətrafına toplaşan ulduzları olan səhabələri

də zaman-zaman Quranı oxudular, öyrəndilər, yaşadılar. Bir nura çevrildilər. Dünyamızda sönmədən, şölələrini zəiflətmədən, haqq yolumuza işıq salan nurlara çevrildilər. Nurdan qidalanan Rəsulumuz və Onu sevənlər bu gün də nurları ilə vəzifəmizi daşıya bilməkdə qaranlıq dünyalarımıza, qaranlıq düşüncə, fikir və əməllərimizə işıq salaraq vəzifəmizi icra etməkdə yardımdadırlar. Nur Muhammədimiz bizə Qədr gecəsinin nə olduğunu belə öyrədir:

*Sizə Ramazan gəldi. O, mübarək bir aydır. Allah, o ayda oruc tutmağı sizə fərz qılmışdır. O ayda göylərin qapıları açılır, cəhənnəmin qapıları bağlanır və o ayda şeytanların azğınları zəncirə vurulur. Onda elə bir gecə vardır ki, min aydan daha xeyirlidir. Kim o gecənin xeyrindən məhrum qalarsa, şübhəsiz ki, o məhrum edilmişdir.*

*Ey Adəm övladı, Allah bizləri xeyirlərə, bərəkətə çağırır. Durun, o, gecə qapılarınızı xeyirlərə açın. Hər tərəfi bağlı olan qaranlıq bir məkana ziya haradan daxil ola bilsin? Ziyanı siz istəməlisiniz, işığa tərəf yönəlməyə cəhd etməlisiniz ki, işıq da qəlbinizə daxil olmağa bir deşik, bir yol tapsın. Ey bacı və qardaşlarım, Allahın Sizi çağırdığı Qədr gecəsində qəlbinizi nurla doldurmağa tələsin.*

**“Siz Qədr gecəsini, Ramazanın son on günündə arayın. Onu geriyə qalan doqquzuncu gündə, yeddinci gündə və beşinci gündə arayın. ”**

**“Kim Qədr gecəsini fəzilətinə inanaraq və savabını Allahdan gözləyərək ibadət və itaətlə keçirirsə, keçmiş günahları bağışlanar. ”**

*Allahım, bu nə böyük hikmət. Biz günahkar və yalnız Səndən yardım diləyən qullarına nəsib et Qədr gecəsini. Biz nə bilirik ki,nədir Qədr gecəsi? Allahım, Sən buyurdun ki, min aydan daha xeyirlidir Qədr gecəsi. Min ay və bir gecə. Tərəzinin bir gözündə bütün insan ömrünə dəyən və ondan da qiymətli bir gecə durmaqdadır. Düşünək, bir ömür və bir gecə.Bir gecədə qazana biləcəyimiz bütün ömrümüz boyu qazana biləcəyimizdən daha artıq. Yalnız gün işığında görə bilən və yalnız gördüyü zaman təfəkkür edən insan Qədr gecəsinin əzəmətini duya bilərmi? Ya Rəbb, bu gecəni bu qədər qiymətli və dəyərli edən nə? Quranmı ona şərəf vermiş yoxsa gecə özü şərəfli olduğu üçünmü Şərəfli Quran Şərəfli gecədə enmişdir?! Düzünü bilən Yalnız Sənsən, Ya Rəbbim.*

Şərəfli qonaq təşrif etdiyi zaman onu ən şərəfli məkanda və zamanda qonaq etməzlərmi? Allah kəlamı olan Hidayət nuru Quranımıza da şərəfli məkan və zaman gərəkir. Onu oxuyanlar, onu yaşayanlar şərəfli insan dərəcəsinə çatanlar deyilmi? Qəlbinə Quran endirilən Muhammədimiz də insanlar içində şərəflilər şərəflisi deyilmi? Şərəfli Quran, şərəfli Gecə, Şərəfli İnsan. Nə möhtəşəm vəhdət, nə möhtəşəm yol. Demək ki, şərəfli yollarla Allah da bizləri şərəfli İnsan olmağa çağırır. Demək, şərəfli İnsan mərtəbəsinə çatan birinin bir gecəsi min aydan, yəni bir ömürdən daha xeyirli. Özü üçün və başqaları üçün. Üstün mərtəbəyə çatan nur sahibləri də ətrafa nur dağıtmaqdadırlar. Xeyirli biri hər kəsə fayda verəndir. Və şərəfli gecədə Rəbbinin

Hüzuruna gələn kimsə də şərəflilər cərgəsinə qoşulmuş olur. Yetər ki, qəlbində, dilində, əməlində Fatihə olsun. *Lə ilahə illallah* deyərək Allahdan başqa Rəbb, Dost, Yardımçı və daha nələr şərik qoşmasın Yaradanına. Yetər ki, Şərəfli gecədə şərəfli Fatihəni yaşayaraq "*biz*" deyə dua etsin Rəbbinə. *Biz* deyə yalvarsın, *Biz* deyə faydalı olmağa fədakar olsun. Bir bax şərəfli gecədə mələklər də *biz* deyə gəlirlər yerə. Demək, Qədr gecəsi bir ömürdən faydalı, xeyirli, nurlu, bərəkətli. O gecə mələklər və Ruh Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər. Sanki bir bayramdır, paraddır. Mələklər *biz* və ya Cəm halında bayrama gəlirlər. Qədr gecəsi - şərəfli yolda yürümək istəyənlərin bir bayram toplanışı. Qədr gecəsi Əşrəf adına layiq olmaq istəyənlərin və daha doğrusu qeyd-şərtsiz tam səmimiyyətlə Rəbbinə təslim olanların bir birliyi. Qədr gecəsi bir bayram sevincidir. Allahı sevənlərin bir-birlərinin sevgilərinə şahid olmaları sevinci. Qədr gecəsi sevgi gecəsimi? Qədr gecəsi sevənlərin sevgilərini nümayiş gecəsi... Mələklər və insanlar. Mələklər insanlara yaxınlaşır, insanlar da mələklərə yaxınlaşır. Nur varlıqların *salam* gecəsi. Səmalar duvaqlarını gecələr açırlar. Gecə görənlər gündüzlər də görməyə başlayacaq. Günəş dünyada var olanları aydınlatdığı kimi, gecələr də qaranlıqlarda olanlara aydınlıq vermə zamanıdır. Gündüzlər dünya sizi cəlb edirsə, gecə də dünyanın həqiqi rəngini sizə göstərir. Ulduzların da səmanı bəzəməsini gecələr görə bilirik. Gündüz günəş işığı ulduzları görməyə mane olur. Ulduzlar ta qədimlərdən insanlara yol göstərmişlər. Səhabələr kimi. Ayıq, səlim qəlblər gecələr oyaq qalırlar. Peyğəmbərimizin gecələr yalnız gözlərinin qapıları örtülər, qəlbinin qapıları isə daim açıq qalırdı. Səmalar duvaqlarını gecələr açırlar. Bu əzəmətdən özünü məhrum etmə. Qədr gecəsi əzəmətdir.

O gecə mələklər Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər.

*Ey Adəm övladı, Rəbbinin ayələri düşünənlər üçündür. Düşünən başlara sahib olan qəlblər ayıq qəlblərdir. Düşün, dua et yaxud dua et və düşün.*

Rəbbin Səni Qədr gecələrini yaxalamağa çağırır. Tələs, Qədr gecəsi bir ömrə dəyə bilər. Qaranlıq zənn etdiyin əslində nur olan bu gecədə qazandıqlarını bir ömrün boyu əldə edə biməzsən. Bu günlər dualarını artır, durmadan Rəbbindən elm və əməl dilə. Şərəfli ola bilmək üçün. Allahı sevənlərlə birləşdirməyi yalvar Rəbbindən. Öyrən ondan kimdir mələklər, xeyir gecəsində hansı xeyirləri daşımaqdadırlar? Hansı işlər üçün yerə enərlər nurdan yaranmış nur mələklər? Bütün elmlərin açarı Rəbbindədir. Durmadan ona yaxınlaşmaq üçün fədakarlıqlara hazır ol. Qədr gecəsini istə Rəbbindən. Çünki, O gecə dan yeri sökülənə kimi salamatlıqdır. *Salam* yalvar Rəbbindən. Kainatın yaşadığı *salam*ı dilə Rəbbindən. Mələklərin *salam*ını dilə Rəbbindən. Dur ayağa, bəlkə, bu gecə Qədr gecəsidir. Tələs, Salama tələs. Duaya tələs. Rəsulumuzun öyrətdiyi kimi, sən də de:

*Ey Allahım, şübhəsiz ki,sən çox bağışlayansan, çox bəxşiş edənsən, bağışlamağı sevirsən. O halda məni də əfv et.*

Şərəfli gecədə bizlərə şərəf olan Quranımız dua Fatihə ilə başlayıb, dualarla bitir. Elə isə biz də hər zaman dua Fatihə ilə başlayıb dualarla bitirək ki, şərəfli Quranımızdan şərəflə bəhrələnək.

*De: O Allah birdir. Allah möhtac deyildir. O nə doğmuş, nə doğulmuşdur! Onun heç bir tayı-bərabəri də yoxdur!*

*De: Pənah aparıram sübhün Rəbbinə! Yaratdıqlarının şərindən; Zülmətə bürünməkdə olan gecənin şərindən; Düyünlərə üfürən qadınların şərindən. Və bir də paxıllığı tutan anda paxılın şərindən.*

*De: Pənah aparıram insanların Rəbbinə; İnsanların ixtiyar Sahibinə; İnsanların Tanrısına. Vəsvəsə verən, qaçıb gizlənən Şeytanın şərindən; o şeytan ki, insanların ürəklərinə vəsvəsə salır. Cinlərdən də olur, insanlardan da.*

***Bismillahir Rahmənir Rahim. Mərhəmətli, Rəhmli Allahın adı ilə! Həmd olsun Allaha – aləmlərin Rəbbinə. Mərhəmətli, Rəhmli olana. Din gününün sahibinə. Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən Yardım diləyirik. Bizi doğru dinə yönəlt. Nemət verdiyin kəslərin yoluna ! Qəzəbə düçar olmuşların və azmışların yox.***

Amin. Amin. Amin.

*Allahım, doğru yolumuzu aydınlat. Qədr gecəsini bizə də yaşat. Ey qələm və kəlam Sahibi Şərəfli Kəlamının endiyi şərəfli gecədə mələklərin salamına layiq et bizi!*

***" Ha, mim. Açıq-aydın Kitaba and olsun! Biz onu mübarək bir gecədə nazil etdik. Biz Qorxuduruq! Hər bir hikmətli iş o gecə hökm olunur. Dərgahımızdan bir buyuruq olaraq! Həqiqətən, Biz göndəririk. Sənin Rəbbindən bir mərhəmət olaraq. Şübhəsiz ki, O eşidəndir, biləndir! O göylərin, yerin və onların arasında olanların Rəbbidir. Əgər tam yəqinliklə inanırsınızsa bilin, Ondan başqa tanrı yoxdur. O həm dirildir, həm də öldürür. O, həm də sizin Rəbbiniz, həm də ulu babalarınızın Rəbbidir"*** (əd-Duhan, 1-8)

Dirildən və öldürən Rəbbimiz əbədi səadətə çağıran yollarımıza işıq olaraq mübarək gecədə mübarək Kitab endirmişdir. Şərəfli gecədə şərəfli Qurana sarılan birisi şərəfə nəsib olmazmı? Demək ki, mübarək gecədə mübarək Kitaba sarılan biri mübarək birinə çevriləcək. Və mübarəklik içində, Şərəf məqamında olan biri təbii ki, insanların bu günkü acı hallarını görərək, zamanından və məkanından istifadə edərək bacı və qardaşları üçün dualar edəcək. Peyğəmbərlər, siddiqlər kimi insanların halına göz yaşları axıdaraq, *"Ya Rəbb, Sevgili Muhammədin Ümmətinə yardım et! Ümmətimizi ümmət et. Ümmət olmağı öyrət! Ümmətimizə salam nəsib et! Dünyamıza salam nəsib et!"* deyə dualar edərək, Yerə, insanlara nur istəyəcək Nur Sahibindən. *Salam* istəyəcək bütün Kainata. Çünki, o gecə mələklər Salam üçün yerə enərlər, çünki o gecə salamatlıq gecəsidir. Əminlik gecəsidir Qədr gecəmiz! Qədərlərin dəyişə biləcəyi gecədir Qədr gecəmiz! Dualarımızla, sevgilərimizlə qədərimizi, qədərlərimizi, planetimizi, kainatımızı dəyişək. Hər bir Adəm övladının üzərinə *sevgi, salam* diləyək salam gecəsində. Allaha təslim olan bütün varlıqların bayram gecəsində. Quranın gəlişi bayram deyilmi? Yaradanın Kəlamı şərəfinə nail olmaq bayram deyilmi? Salam bayram deyilmi? Qədr gecələri bayramı yaxalamağa cəhdlərdir. Qədr gecəsini yaşayan Həqiqi Ramazan sevinci və bayramını yaşaya biləcək. Səsinizi duyura biləcək hər kəsi Qədr gecəsinə səsləyin. Cəm olun! Mələklər kimi siz də O gecə cəm olun.

O gecə yer üzünə yerləşməyəcək sayda çoxluq təşkil edən mələklər yer üzünə enəcəklər. Bütün mələklər birinci səmada toplaşacaq. Zatən birinci səmada səccadə sərilə biləcək qədər hər yer mələklə doludur. Bu Kəbəyə bənzəyir. Minlərlə hacılar Məscidi – Harama girməyə

hazırlaşırlar. Hacıların bir hissəsi daxil olarkən bir hissəsi çıxır. Bax bu səbəbdən də Qədr gecəsinin əzəməti sübhün doğuşuna qədər davam edir. Allah Sübhanə - təala axirətdə mələklərin Cənnət sakini olan insanların yanına hər qapıdan daxil olaraq *" Sizə salam Olsun"* deyəcəklərini vəd etmişdir. Bu dünyada da Rəbbimiz Cənnət sakinlərini salamsız buraxmamışdır. Ey Rəbbinə mələklər kimi tam təslimiyyət və itaətlə yaşayan Qul, Mələklər sənin yanına enəcəklər, Salam vermək üçün Salam gecəsi olan Qədrdə. Mələklərin salamını almağa tələs. Allah məktəbinin ən sevimli şagirdi imam Əli belə demişdir: *"Mələklər bizə salam vermək və şəfaətçi olmaq üçün enərlər. Özlərinə mələklərin salamı çatanların günahları bağışlanır."* Bu gecənin fəziləti yer üzündəki itaətlə də bağlıdır. Mələklər itaətlərinin daha çox mükafat qazana bilmələri üçün yer üzünə enirlər. Sanki, bir insanın daha çox əmrə itaət edə bilməsi üçün Məkkəyə getməsinə və orada Allahın razılığını və sevgisini qazanmaq üçün etdiyi ibadətə bənzəyir. Allahın əmrilə Məkkəyə gedən insanlar kimi, mələklər də Rəbbimizin izni və istəyi ilə yer üzünə enirlər. Ey insanlar, tələsin... Tələsin, Salam gecəsində göy üzü sakinləri ilə birlikdə cəm halda Allahı sevməyə, əmrlərinə səmimi itaətə tələsin.

Sidrei - Müntəhanın nə olduğundan xəbəriniz varmı? Bilirsinizmi, Cənnətin qonşuluğunda, yeddinci qat göy sərhədlərində yerləşən Sidrei – Müntəhada saylarını yalnız Yaradanın bildiyi çoxluqda yalnız ibadətlə məşğul olan mələklər vardır. Ən böyük olan Vəhy mələyi Cəbrayıl (ə.s) - ın da məqamı Sidrei -Müntəhanın tam ortasındadır. Bir düşünün yalnız Rəbbə ibadətlə məşğul olan mələklərə Allahımız bir də Möminlər üçün mərhəmət etmə və onları xatırlama duyğusu vermişdir. Bu mələklər də Salam gecəsi Cəbrayıl (ə. s) - la birlikdə yerə enərlər.

*Allahım, həmd olsun Sənə nə böyük əzəmət, möminlərə nə böyük lütf. Allahım, Bizə də şərəfli Salam gecəsini mələklərin Salamına layiq olmağı nəsib et!*

Bu Salam və əminlik gecəsində yer üzünün hər tərəfində səcdəyə qapanmış, yaxud mömin və möminələrlə birlikdə dua ilə məşgul olan mələklər vardır.

*Allahım, bizə də nəsib et! Yalnız Sənə ibadət edən mələklərlə bir cərgədə qarşında səcdə nəsib et! Allahım, Sən böyüksən, Əzəmət və Cəlal yiyəsi Sənsən.* ***İyyakə nəbudu və iyyakə nəstəin. Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik. Bizi doğru yola yönəlt!***

O gecə Cəbrayıl da möminlərlə bir arada olacaq. Böyük Mələk istisna təşkil etmədən ibadətdə olan hər möminlə qarşılaşacaq, toqquşacaq, görüşəcək. Bu görüşün əlaməti isə Onun qarşılaşdığı hər möminin tüklərinin biz-biz olması və qəlbinin riqqətə gəlməsi, titrəməsi və gözlərinin yaşla dolmasıdır. Möminin bu halları Allahın sevimli quluna Allahın şərəfli, mübarək Kəlamları olan Quranımızı çatdıran Cəbrayılla görüşündən qaynaqlanır.

*Allahım, nə böyük şərəf. Sənə bütün adlarınla yalvarırıq bizi bu gözəllikdən məhrum etmə! Qəlbimizi bu sevincdən məhrum etmə! Gözlərimizi bu yaşdan məhrum etmə! Bizə Sənə layiq olmağı nəsib et! Allahım, biz Sənin qullarınıq. Bizə ayıq və səlim qəlb nəsib et ki, Sənə şərik qoşmaq xəstəliyindən xilas olaq. Bizə təslimiyyət nəsib et. Mələklərin salamından bizi məhrum etmə. Mələklər kimi bizə də Sənə itaətdə cəm olmağı nəsib et!*

*AMİN*!

**Mələklər.** Zikr mələkləri. Hər zikri Rəbbinə çatdıran mələklər vardır. O gecə kim *lə ilahə illəlah* desə günahları bağışlanar, bir də *lə ilahə illəllah* desə Cəhənnəmdən xilas olar. Bir də *lə ilahə illəllah* desə Allah Sübhanü - təala onu Cənnətinə salar. *Lə ilahə illəllah* demək və onu yaşamaq, onu duymaq, ona təslim olmaq. İnasanın günahları bağışlanar, məhv olmaq olan Cəhənnəmdən xilas olar, Əbədi xilas olan Cənnətə nail olar. Ey insanlar, Salam gecəsində *Lə iləahə iləllah* deyə zikr edin. Yalnız dilinizlə deyil. Hər hüceyrənizlə *LƏ* deyin və Yaradanınıza şəriklər qoşmayın. Allaha şərik tanıyanları Cənnət qəbul etməyəcək. *Lə ilahə illəllah* deyin, düşünün, yaşayın, xilas olun. Xilas Rəbbimizin yanındadır. Qədr gecəsi xilas gecəsidir. Xilas gecəsində bir olun, cəm olun. Bu gecə düşmənlər yoxdur. Bu gecə bir olmağa nə mane olacaq?! Nəfsmi? *Lə* deyin, nəfsdən xilas olun. Və ümmət olaraq bir olun. Çünki, bu gecə mələklər sizin ibadət və itaətinizə şahid olmaq üçün yer üzünə enəcəklər. İnasanların daha çox toplaşdığı yerlərdə mələklər də çox olacaq. Mələklər çox toplaşacaqsa, demək o yerdə rəhmət, sevgi, barış, bağışlanma, məğfirət, salam bol olacaq. Tələsin... Bu fürsəti əldən qaçırmayın. Gələn Ramazana qarant almısınızmı? Tələsin, Bayram gecələrini yaşayın ki, Ramazan bitdikdə həqiqi bayramı yaşaya biləsiniz. Ramazanın son günləri Xilas günləridir. Xilasa tələsin. Təravihlərə tələsin. Camaat olmağa, cəm olmağa, sevməyə və sevilməyə tələsin. Xilas bundadır...

Mələklər göylərdə görmədiklərini də görməyə tələsirlər yer üzünə. Allahı sevən zənginlər evlərindən yeməklər götürür və kasıblara paylayırlar. Allahı sevən fəqirlər də zənginlərin Allah sevgisi naminə gətirdikləri təamı yeyir və Allaha şükranlıqla ibadət edirlər. Bu itaət göylərdə yoxdur. Mələklər paylaşmaq sevincinə şahid olurlar. Paylayanlar və şükr edənlər mələklərin salamına nəsib olurlar... Mələklər günahkar insanların yalvarış və imdadlarını eşidirlər. Günahkarların göz yaşı tökərək bağışlanmaq diləmələri və tövbələri göylərdə rastlanmayan itaətdir. Yaradan Allah qüdsi hədisdə belə buyurur: "... *Günahkarların yalvarışları Mənə təsbih edənlərin səsindən daha sevimlidir.* "... Mələklər də " *Gəlin, yer üzünə gedək və Rəbbimizin təsbihlərinin səsindən daha sevimli gələn bir səsi eşidək"* - deyərlər... Bu səs necə gözəl olmaya bilər?! Çünki təsbih edənlərin çıxardığı səs, itaət edənlərin o mükəmməl ruh hallarının göstəricisidir. Günahkarların iniltiləri isə göylərin və yerin Rəbbinin Ğaffar, yəni bağışlayan olduğunu göstərməkdədir...

*Allahım, Sən nə böyüksən. Ğaffar, Bağışlayan, Mərhəmət edən Allahım, bizlər də Sənin günahkar qullarınıq. Quran oxuduğumuz halda durmadan xətalar eyməkdəyik. Allahım, bizləri də öz mərhəmətindən əskik etmə. Biz bağışlanacığımıza çox ümidliyik. Çünki, Allahın Rəhmətindən yalnız inanmayanlar əmin olmazlar. Allahım, bizləri Yaradan və doğru yola Yönəldən Sənsən. Qiyamət günü də günahlarımızı bağışlayacağına da ümid etdiyimiz Sənsən. Uca Rəbbimiz, bizlərə xilas, salam, əmin - amanlıq, bayram gecəsi olan şərəfli Qədr gecəsini duymağı, onun bərəkətindən bərəkətlənməyi nəsib et.*

Qədr gecəsi fəcrin, yəni sübhün doğuşuna qədər salamdır. Mələklər dəstə-dəstə gələrək itaətkər insanlara salamlar verəcək. Gecə başladığı andan ta sübhə qədər. Mələklərin çoxluğu və dəstə-dəstə gəlməsi Salamın çoxluğu deməkdir. Ey insanlar, *salam* haqda çox düşünün. Salamdakı hikmətləri açması üçün Rəbbinizə yalvarın... Allah dostu İbrahimə də yeddi mələk gəldi və Allahın Salamını gətirdi. İbrahimin şanının, şöhrətinin, məqamının, hüzur və rahatlığının nəinki dünya krallarının, hər kəsin hüzurundan artıq olması *salamın* dəyərindən xəbər vermirmi? Mələklər ona *salam* verincə Nəmrudun onu atdığı atəş İbrahim üçün sərin və salam olmadımı? Allah yer üzündə həyatın var olması üçün fiziki, kimyəvi bioloji qanunlar da var etmişdir. Və hər bir yaradılmış müəyyən bir fiziki qanuna tabe olaraq hərəkət etməkdədir. Yalnız Salama nəsib olmuş Allah dostları xaric. Məsələn, hər kəsi yandıracaq qanunlara sahib atəş İbrahimi yandırmadı və ya suyun üzərində İsa peyğəmbərin yürüməsi. Demək, Allahın əmrilə hərəkət edən qanunlar toplusu Salama çatan Allah dostları üçün Allah əmri ilə öz funksiyalarını dəyişdirir, yaxud da *Salam* əhatəsində olan Allah dostlarının *Salam*dan ibarət qoruyucu təbəqələri mövcuddur. Təvəkkül kimi. Belə ki, Allah təvəkkül edənləri sevir. İbrahim də təvəkkülün simvoludur. Beləliklə, mələklərin salamındakı bərəkətlə yandırıb-yaxan alov İbrahimə bir sərinliyə çevrildi. Ey bacı və qardaşlarım, gəlin düşünək... Bu mələklərin bizlərə verəcəyi salamın bərəkəti ilə, cəhənnəm də bizlərə bir sərinlik olmazmı? Demək, Salam Allahın var etdiyi bir qoruyucudur, bir xilasdır... İbrahimin Salam gətirən mələklərə qonaqlığı qızardılmış bir buzov idisə, demək mələklər də bizdən Allah eşqiylə belə qızardılmış və yanmış bir qəlb gözləyirlər...

*Allahım, sənin eşqinlə döyünən bir qəlb nəsib et bizlərə...*

Quranın İbrahimin qonaqları ilə bağlı hissəsində mələkələr İbrahimin yanına təşrif gətirir və *salam* çatdırırsa, Qədr surəsində isə mələklərin Ümumi Mühamməd ümmətinə endikləri göstərilir. Bu ümumi Muhamməd Ümmətinin fəzilətindən xəbər vermirmi?!

Ey insanlar tələsin, o gecə göydən yalnız *salam* yağır, Rəhmət axın - axın üzərimizə tökülür. Belə möhtəşəmliyi əldən vermək axmaqlıq deyilmi?

***Leylətül Qədr.*** ***Qədr gecəsi.***

***Bismillahir Rahmənir Rahim. Həqiqətən, Biz onu Qədr gecəsi nazil etdik. Sən nə bilirsən ki, Qədr gecəsi nədir? Qədr gecəsi min aydan daha xeyirlidir! O gecə mələklər və Ruh Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər. O gecə dan yeri sökülənə kimi salamatlıqdır***...

Şərəfli gecədə bizlərə şərəf olan Quranımız dua Fatihə ilə başlayıb, dualarla bitir. Elə isə biz də hər zaman dua Fatihə ilə başlayıb dualarla bitirək ki, şərəfli Quranımızdan şərəflə bəhrələnək.

*De: O Allah birdir. Allah möhtac deyildir. O nə doğmuş, nə doğulmuşdur! Onun heç bir tayı-bərabəri də yoxdur!*

*De: Pənah aparıram sübhün Rəbbinə! Yaratdıqlarının şərindən; Zülmətə bürünməkdə olan gecənin şərindən; Düyünlərə üfürən qadınların şərindən. Və bir də paxıllığı tutan anda paxılın şərindən.*

*De: Pənah aparıram insanların Rəbbinə; İnsanların ixtiyar Sahibinə; İnsanların Tanrısına. Vəsvəsə verən, qaçıb gizlənən Şeytanın şərindən; o şeytan ki, insanların ürəklərinə vəsvəsə salır. Cinlərdən də olur, insanlardan da.*

**QƏDR GECƏSİ** 3

***Bismillahir Rahmənir Rahim Əlhəmdulilləhi Rabbil aləmin.***

***Ərrahmənir Rahim. Məliki yevmiddin. İyyakə Nəbudu va İyyakə nəstəin İhdinə sıratəl mustaqin. Sıratəllələzinə ənamtə aleyhim ğeyril mağdubi aleyhim va la-d-dallin.*** Amin.

*Bismillahir Rahmənir Rahim. Mərhəmətli, Rəhmli Allahın adı ilə! Həmd olsun Allaha – aləmlərin Rəbbinə. Mərhəmətli, Rəhmli olana. Din gününün sahibinə. Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən Yardım diləyirik. Bizi doğru yola yönəlt. Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və azmışların yox.*

Amin. Amin. Amin.

***Leylətül Qədr. Qədr gecəsi***.

***Bismillahir Rahmənir Rahim. Həqiqətən, Biz onu Qədr gecəsi nazil etdik. Sən nə bilirsən ki, Qədr gecəsi nədir? Qədr gecəsi min aydan daha xeyirlidir! O gecə mələklər və Ruh Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər. O gecə dan yeri sökülənə kimi salamatlıqdır***

Qədr gecəsi - gecələr sultanı, şərəfli gecə. Şərəfli Quran, Şərəfli gecə və şərəfli insanların vəhdəti. Mələklər rəhmət və bərəkətlə yer üzünə enərək möminlərə, qəlbləri Allah eşqilə döyünən insanlara, durmadan *lə ilahə illəllah* deyə zikr, fikr, şükr edərək yaşayanlara, Allaha tam bir səmimiyyət və təslimiyyətlə iman gətirən və itaət göstərən Allah qullarına xeyir və salamla toxunar. Vəhy mələyi Uca Cəbrayıl iki böyük yaşıl qanadıyla günəşin qarşısını alaraq, mələklərlə yerə enər və ilahi rəhmət, bağışlanma, məğfirət, xilas müjdəsilə yerə enərək açıq, səlim qəlblərə bu gözəlliklərin mənəvi nurunu əks etdirir. Rəhmət, nur, hidayət qaynağı və yol göstəricisi olan əzəmətli və şərəfli Quranımızın enməsi üçün zaman parçası olması Qədr gecəsinin hər anlamda xeyir, bərəkət, sələmət, sevinc, xoşbəxtlik olmasına işarə deyilmi?!

İman və qəlb hüzuru ilə gecənin bu diriliş möcüzəsinə gələnlər, yaxud gəlməyi bacaranlar, yaxud gəlməsini bilənlər bir anın içərisində özlərini ilahi rəhmət, məğfirət, bərəkət, salam atmosferində tapırlar. Rahatlıq, nur, rəhmətlə işıq saçan mələklərlə cəm halda Yaradana itaət etmək xoşbəxtliyinə qovuşurlar. Bu xoşbəxtlik anında Müəllimimiz nə deyəcəyimizi bizə belə öyrətmişdir: *“Allahım, şübhəsiz, Sən Bağışlayan və Kərimsən. Bağışlamağı da sevirsən, məni də bağışla*.”

*Allahım, bizə də bu əzəməti duymağı və tövbələrlə sənə yönəlməyi nəsib et.*

İmtahanlarla zəngin olan dünya həyatında insana nə lazımdır? Allahın nəsib etdiyi ruhu almaz kimi parıldayaraq verildiyi kimi, yenə cilalanmış və nur halıyla Sahibinə qaytara bilməsi. Bunun üçün hər zaman ayıq qəlbə ehtiyac var. Ayıq qəlbin qarantı da təmiz vicdandır.

Allahımızın nəsib etdiyi hər bir nemət də təmizlənərək Ona yaxınlaşmaq üçün bir vəsilədir. Qədr gecəsi də Allahın bir neməti olması səbəbilə Allaha yaxınlaşmaq, yəni xilas olmaq üçün bir vəsilədir. Ey Yaradana yaxınlaşmaq üçün vəsilə arayanlar, Qədr gecəsindən gözəl vəsiləmi tapacağınıza ümid edirsiniz. Bu gecə Allahın mələklər ordusu sizin itaətinizə şahid olmaq üçün yanınıza axışırlar. Yaradana yaxınlaşmaq üçün buyurun gəlin, ey insanlar. Amma ruhən təmizlənərək gəlin. Çünki, Allah təmizlənənləri sevir.

"***Ey iman gətirənlər! Allahdan qorxun, Ona vəsilə axtarın. Allah yolunda cihad edin ki, nicat tapasınız!"*** (əl-Maidə, 35)

Buyurun, Rəbbimiz hər zaman Ona yaxınlaşmağın ən qısa yollarını daim göstərməkdədir. Allah yolunda səmimi qəlblə cihad etmək, Rəbbə yaxınlaşmaq necə gözəl vəsiləysə, Qədr gecəsinin şərəfinə uyğun tərzdə hər halımızla ihya etmək, yəni hər halımızla oyaq və ayıq olmaq da Rəbbimizin bəyəndiyi, dəvət etdiyi gözəl vəsilədir. Bu fürsəti qazanmaq bir ömrə bərabərsə, onu itirmək də Axirətdə durmadan kaşkilər deyərək, peşmançılıq halında yanmaq deməkdir.

*Ey iman gətirən bacı və qardaşlarım, Qədr gecəsi Allaha yaxınlaşmaq, Onun razılığını qazanmaq üçün ən gözəl vasitədir. Oyanın...*

*Allahım, müsəlmanlara yuxudan və qəflətdən oyanaraq Sənin razılığını qazanmağı müyəssər et! Muhamməd ümmətinə Salamın bərəkətini nəsib et!*

Nədən Qədr gecəsinin İlin bütün zamanlarında rastlana biləcəyinə dair hədislər də mövcuddur? Burada anlaşılmaz olan heç bir qaranlıq məqam da yoxdur. Unutmayaq, Qədr gecəsi Şərəfli Quranın nazil oduğu gecədir. Unutmayaq, bu Şərəfli Kitabı Həyatımıza endirdiyimiz gecə bizim də Qədr, yəni Şərəfli gecəmiz olacaq! Yəni Qədr və qiymət bildiyimiz gecə... Ən böyük nemət - dərk etmə zamanı, nemətin qədr və qiymətini bilmə zamanıdır... Bizlər də bu yol göstərən Kitabın həyatımızdakı qədr - qiymətini dərk etdiyimiz zaman və onu əlimizə aldığımız gecə bizim üçün Qədr gecəsi olacaq. Demək, Qədr gecəsi Quranın Həyatımızdakı qədr - qiymətini bilmək və anlamaq gecəsi. Əgər belə deyilsə, gecələr elə eynidir. Yuxudayıq ki, yuxuda. Ey millətim, Ey Quranın qiymətindən xəbərdar olmayan Oxu Kitabımızı dəsmallara büküb əlçatmaz yerlərdə qoruyanlar, ey Qədr gecəsində Quran Kitabını başlarının üstünə qoyub otaqda var - gəl edənlər. Bir durun. Quran Oxu Kitabıdır. Quran başın üstündə deyil, qəlbin içərisində qorunmaq üçündür. Quran oxunaraq, dərk edilərək, yaşanaraq Allaha yaxınlaşmaq yoludur, Quran hidayətə bir vəsilədir. Qədr gecələrində Quranı Qəlbinizə endirin. Əgər belə deyilsə, o gecəyə rastlamaq nəyi dəyişdirəcək. Belə ki, cisminiz ayaqda olsa da ruhunuz, qəlbiniz yuxuda olacaq. Qədr gecəsi ihya gecəsidir. Qədr gecəsi qəlblərin ihya gecəsidir. Qədr gecəsi ruhların sevgililəri ilə ihya görüşüdür. Qədr gecəsi ihya gecəsidir. İhya - ayıq olmaq deməkdir. Göz qapaqlarınız örtülsə də qəlbinizi daim ihyada saxlayın.

Bir düşünək. Abdullah oğlu Muhamməddi nə Muhamməd Rasulallah etdi? Onun qəlbinin ihyası Qədr gecəsində onu Peyğəmbər etmədimi? O oyanıqlıq gecəsi Qədr var olduğu halda Əbu Cəhl də elə cahil olaraq qalmadımı? O gecə kimilərin həyatını, bütün ömürlərini bərəkətləndirdiyi halda, kimiləri də yuxuda kor və kar olduqları üçün elə eyni qalırdı... Qədr gecəsi nemətlərin Qədrini bilən qəlbləri oyanıq, yəni ihya halında olan insanların bərəkət gecəsidir. Oyanın, Qədr - qiymət bilməyə tələsin!

Quranın bir ayəsini öyrənib onu həyatımıza tətbiq etməyə başladığımız gecəmiz təbii ki, Quransız yaşadığımız min aydan, min gecəmizdən daha xeyirlidir. İnsanın anlamağa çalışdığı, dərk və təfəkkür etməyə cəhd etdiyi və imanını, düşüncələrini, əməlini özünə tabe etdirən hər ayə o insana yenidən enir, yenidən ona Quran öz sirlərini açır demək deyilmi? Hər ayənin dərk edildiyi, hər yaşandığı zaman o ayə tərəfindən bərəkətləndirilib qiymətləndirilir. Təfəkkürün Allah üçün işlədiyi zaman isə o insanın ihya zamanıdır. Yəni, oyanış və yenıdən diriliş məqamı. Allah Rəsulu Allahdan Ona göndərilən vəhyi gecə özü oxuyur, o vəhyə tabe olur və vəhyi öz-özünə təkrar edirdi. Yəni Allah Rəsulu hər gecə vəhyi özünə endirirdi, beləliklə də hər gecə ihya halını yaşayırdı. İndi düşünək, *“ Mən də sizin kimi adi bir insanam, mənə vəhy olunana tabe olur və sizi də Allaha tərəf çağırıram”* deyə insanları haqqa dəvət edən Muhamməddin ardıcılları da eyni vəzifə ilə yüklənmirlərmi? Özünü Muhamməd ümmətindən hesab edən hər müsəlman Muhamməddə tabe olaraq Onun kimi yaşamalı, düşünməli və dəvət etməli deyilmi? Bir düşünək, bizə də hər gün vəhy gəlirmi? Biz də hər gecə Allahın vəhylərini qəlbimizə, düşüncələrimizə, əmələrimizə yaşadırıqmı? Biz də Muhamməd kimi hər gecə ihya halında oluruqmu? Bəlkə, *lə ilahə illəllah* deyərək xilas olan səhabənin sirri burada gizlidir. Elə deyilsə, nədən dəfələrcə *lə* deyib xilas ola bilmirik? Bir də özümüzə sual verək, hər gecə Allahın vəhylərinə nədən yönəlmirik? Hətta xilasın burada olduğunu bildiyimiz halda nədən Allahın ipinə sarılmırıq?!

İhya halını yaşamağa tələsin. Bir ömrə dəyən gecəni yaxalayın ki, Əs - Salama çatasınız.

*Allahım, hər gecəmizi Qədr gecəsi etmə nemətini yaşat bizə, necə ki, sevgili qullarına yaşatmısan. Bizləri əməllərimizlə Quran hafizləri et. Hər gecəmizdə bur ayə vəhy et bizə də. Bizə də xilasın yollarını öyrət. Allahım, vəhyin nəzarətində və Quran kontrolunda Quran əxlaqı nəsib et bizə! Allahın vəhylərinə tabe olmayan kimin vəhylərinə tabe olacaq? Allahım, bizə yardım et! Əgər sənin vəhylərinlə qidalanmırıqsa və bəhrlənmiriksə kimin vəhyləri ilə ruhumuzu qidalandırırıq?! Bəlkə, ruhlarımızı yanacaq olan kömürə çeviririk?! Allahım, bizə yardım et1 Rasulumuz, müəllimimiz, qəhrəmanımız kimi biz də hər gün vəhy almalıyıq. Biz də səhabələr kimi hər gün vəhylə qidalanmalıyıq. Allahım, əks halda Kövsər ətrafında Sənin Həbibinlə, bizlər üçün göz yaşı tökən Muhammədimizlə necə görüşərik?! Onun tabe olduğu vəhylərə tabe*

*olmadan Onun arxası ilə Cənnətinə necə daxil ola bilərik?! Allahım, bizə Qədr nəsib et. Qəlblərimizə oyanıqlıq ver!*

Ey insanlar, oyanın Qədr gecəsini arayaq, axtaraq, tapaq, öyrənək, yaşayaq. Allah bizə Kitab göndərmişdir. Kitabın missiyası oxunmaq üçündür! Kitab onu oxuyanlarındır, ondan xəbərdar olanlarındır. Şərəfli Qədr gecəsi Quran oxumağa və yaşamağa bir çağırışdır. Qalxın, Qurana sarılın, Həyat Kitabına sarılın. Quran Varlıq Kitabıdır. Varlıqdan xəbər verir. Var ola bilməkdən xəbər verir. Var olmağa can ataq. Var olanlar diri olanlardır. Diri olanlar düşünənlərdir. Allahın ayələri də düşünənlər üçündür. Allahın ayələri bizim həyat imamımız deyilmi? İmam bir rəhbərdir. İmamız olan Quran bizə hər qaranlıqda işıq olacaq və bu Yol göstərən Kitabla keçən hər günümüzü, hər gecəmizi, hər anımızı bizlərə Qədr edəcək. Mələklər və Ruh da Qədr gecəsində Qurana təfəkkürlə sarılanlar üçün enərək Rəbbindən onlara Salam söyləyəcək. Mələklər bərəkət üçün enərlər. Hər xeyirli iş üçün enərlər. Mələklər möminlərin xidmətindədirlər. Deməк, hər zaman möminlər Xeyir və *Salam* yaşayan və paylayanlardır. *Salam* Kitabından *Salam* almasalar *Salamı* necə yaya bilərlər. Mələklər *Salam* və *Dua* üçün yerə enərlər.

***"Ərşi daşıyanlar və onun ətrafında olanlar öz Rəbbini həmd – səna ilə təqdis edir, ona inanır və möminlərin bağışlanmasını diləyərək belə deyirlər: "Ey Rəbbimiz, Sənin Rəhmin və Elmin hər şeyi ehtiva etmişdir. Artıq tövbə edib, Sənin yolunla gedənləri bağışla. Onları Cəhənnəm əzabından qoru. Ey Rəbbimiz, onları da atalarından, zövcələrindən və nəsillərindən əməli saleh olanları da özlərinə vəd buyurduğun Ədn cənnətlərinə daxil et. Şübhəsiz ki, Sən yenilməz Qüvvət və Hikmət Sahibisən. Onları pisliklərdən qoru. O gün pisliklərdən kimi qorusan, şübhəsiz ki, ona rəhm etmiş olursan.Ən böyük qurtuluş budur "***
(Mömin, 7, 8, 9)

Qədr gecəsində Mələklər özləri kimi Allaha tam bir səmimiyyət və təslimiyyətlə Allaha itaət və qulluq göstərən insanlara dua etmək, onlar haqqında istiğfar etmək, onlara *Salam* vermək, onların ibadət, zikr məclislərinə qoşulmaq üçün enərlər və enərlər. Sübhə qədər, fəcrə qədər *Salam* davam etməkdədir. O gecə hər işdə Salam var. *Salam* sülhdür, *Salam - İslam*, təslim və Cənnət mənalarını da özündə daşımaqdadır. Cənnətin bir adı Darüs - Səlamdır. *Salama* tələsin. Tələsin.

***Leylətül Qədr. Qədr gecəsi.***

*Bismillahir Rahmənir Rahim. Həqiqətən, Biz onu Qədr gecəsi nazil etdik. Sən nə bilirsən ki, Qədr gecəsi nədir? Qədr gecəsi min aydan daha xeyirlidir! O gecə mələklər və Ruh Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər. O gecə dan yeri sökülənə kimi salamatlıqdır .*

Şərəfli gecədə bizlərə şərəf olan Quranımız dua Fatihə ilə başlayıb, dualarla bitir. Elə isə biz də hər zaman dua Fatihə ilə başlayıb dualarla bitirək ki, şərəfli Quranımızdan şərəflə bəhrələnək.

*De: O Allah birdir. Allah möhtac deyildir. O nə doğmuş, nə doğulmuşdur! Onun heç bir tayı-bərabəri də yoxdur!*

*De: Pənah aparıram sübhün Rəbbinə! Yaratdıqlarının şərindən; Zülmətə bürünməkdə olan gecənin şərindən; Düyünlərə üfürən qadınların şərindən. Və bir də paxıllığı tutan anda paxılın şərindən.*

*De: Pənah aparıram insanların Rəbbinə; İnsanların ixtiyar Sahibinə; İnsanların Tanrısına. Vəsvəsə verən, qaçıb gizlənən Şeytanın şərindən; o şeytan ki, insanların ürəklərinə vəsvəsə salır. Cinlərdən də olur, insanlardan da.*

## NƏDİR BAYRAM ?

***Bismillahir Rahmənir Rahim. Əlhəmdulilləhi Rabbil aləmin. Ərrahmənir Rahim. Məliki yevmiddin. İyyakə Nəbudu va İyyakə nəstəin. İhdinə sıratəl mustaqin. Sıratəlləzinə ənamtə aleyhim ğeyril mağdubi aleyhim va la-d-dallin.***

Amin.

***İ s l a m*** *- daxilimdəki, qəlbimdəki əbədi bayram.* Salamı yaşamaq, Əs-Salama təslim ola bilmək bir bayram. Ruhun qəlbi fəthi bir bayram. Vədud Allahı sevə bilmək və Onun sevgisini duya bilmək - nə böyük bayram. Bütün varlıq aləminin Allah deyə zikrini oxuya bilmək bir bayram. Cismimlə deyil, ruhumla yaşadıqlarım bayramdır. Bayram əyləncə deyil, bayram daxili sevinc halıdır. Bayram cisimlə deyil, ruhla yaşanandır. Bayram duyğularda var olandır. Pak duyğular ruha aiddir. Ruh üflənəndir. Üfləyənə ehtiyacı var. Ruhla yaşanan bayram, ruhun sevinci deməkdir. Ruhun sevinci onun tox olmasıdır. Ruhun dilədiyi onu üfləyəndir. Ruhun dilədiyi Üfləyənlə görüşmək və o görüş anında sevinməkdir. Ruh bir nurdur. Qidası da nurdandır. Nurun artması ruhun bayramıdır. Ruhu var edən ruh üçün bu dünyada da, imtahan aləmində də bayram var etmişdir. Bayram iki sevgilinin görüşməsidir. Ruh və islam, Ruh və Salam. Ruh və təslimiyyət.

*Allahım, ruhumuzu bayramlarla sevindir*. Ramazan gedir. Hər anı Sənə yaxınlıq olan Ramazanımızın bitməsinə necə sevinək, ya Rəbbim. Ya Rəbbim, bəxş etdiyin Ramazan hədiyyənə layiq ola bildikmi? Əsla. Allahım, nə olar Sən bizi layiq et, bəxş etdiklərinə. Tut əlimizdən, buraxma bizi, apar bizi aydınlığa doğru. Aydınlıq bir bayram.

Bayram Sənə yaxınlaşanda, Səni duyanda, Bəsirət açılanda. Oxu əmrinə tabe olaraq Varlıq Kitabını oxuya biləndə, Ayələrini görəndə, yaşayanda içimə axan istilik bayram, sevinc. Səni sevməyi bacarmaq bayram. Səndən utanmaq, görüşünə gecikmək, görüşünə tələsməmək, Səndən ayrı düşmək, Səni aramaq və tapmaq çətinliyi içimizdə yaranan boşluq. Bu boşluq dərddir, qəmdir. Kədər verir, üzüntü gətirir. Sənin görüşünə, qarşına, evinə tələsmək isə nə şirin duyğu.

"***Vay halına o namaz qılanların ki, ötürərlər namazının vaxtını, riyakarlıq edərlə*** " (Məun 4-5)

*Rəbbim, bizi, səni sevənləri bundan qoru. Çox qorxuram. Sənin rizanı qazanmamaqdan, sevginə nail, layiq ola bilməməkdən. Rəbbim, mənim Rəhim və Rəhman Xaliqim, yardım et, görüşünə tələsənlərin cərgəsinə qat məni. Sevginə layiq buyur. Gecələr qarşına çıxıb səcdə etməyi nəsib et, ya Rəbbim. Nəfsimə qalib gələ bilmirəm, güclü Allahım. Mənə güc ver. Məunlardan uzaq et məni. Bütün ətrafımı sənə səcdə edənlərlə, səni duyub, dərk edib, sevənlərlə zənginləşdir. Sənsən hər şeyin sahibi, Qüdrətli Allahım.*

İçimdəki bayramı hər saniyə yaşamağı nəsib eylə mənə. Səni sevmək həqiqi xoşbəxtlik. Bizə xoşbəxtlik nəsib eylə. Xoşbəxtlik ayələrini görmək, dərk etmək, yaşamaqdır. Qurani - Kərimi qəlbimdə, beynimdə bayraq et. Mayaq eylə Kitabımı, Rəbbim. Qaranlıqdan Sənə sığınıram. Dünyamı aydınlat. Düşüncələrimi idrakımı aydınlat. Nur – nur - nur. Təmizləndir nurlandır məni. Kədər, qəm, dərd sənsizlik deməkdir, mənə, hər insana, bizə, hər yaradılmışa. Dərddən sənə sığınıram. Qaranlıqdan, zülmətdən Sənə sığınıram. Şükürlər olsun sənə, Rəbbim. Bayramlarımızı gözəl yaşat bizlərə.

“ ***Ey Rəbbimiz! Biz ancaq sənə təvəkkül etdik, tövbə edib ancaq sənə qayıtdıq. Axır dönüş də ancaq Sənin hüzurunadır.”*** ( əl - Mumtəhinə 4)

Aləmlərin Rəbbinə həmd olsun. Pak və nöqsansız və Vəhhab olaraq bəxşişlər verən Allahımız On bir ayın Sultanı kimi dəyərləndirilən, nemətlər içində ən şərəfli nemət olan Ramazan kimi bir hədiyyə bəxş etmiş Onu sevən qullarına. Bizlər də Şərəfli Ramazanımızda Aydınlığa doğru yol tutaraq aydınlıq dünyaya səyahətə başladıq. Bu gün sevgili Ramazanımızla vidalaşdıq. Amma, aydınlığa doğru səyahətimiz bitmədi. Çünki Həvva anamızın da nağıllarındakı kimi bu imtahanlar dünyasının sonu Aydınlıq diyarında bitəcək. Nə qədər ki, imtahanlar aləmində varıq, aydınlıq səyahətimiz bitməyəcək. Aydınlığa doğru yürüyə bilmək üçün Rəbbimizin Oxu əmrinə tabe olaraq Varlıq Kitabını oxumalıyıq. Ramazan ərzində oxumaq istədiklərimiz və oxuya bildiklərimiz dəryadan bir damla belə deyildi. Allahın Kainatı sonsuzdur. Onun elmi də bitib tükənməz. Demək, Allahın elmi və yardımı ilə silahlanaraq, eyni zamanda mələklərin də yardımı ilə birlikdə Aydınlığa doğru can atacağıq. Çünki, aydınlıq, nur dünyaya can atmaq insanın missiyasıdır, həyat qayəsidir. Aydınlıq dünya kamillik diyarıdır. Nur silahlarla silahlanmalı və hər an hazır olmalıyıq.

Allahım, bizə növbəti Ramazana kimi təmiz qalmağı nəsib et! Allahım, gələn Ramazanımızda Sənə bir pillə də yaxınlaşmağı müvəffəq et! Allahım, gələn Ramazana qədər və bütün ömür boyu, Salamı, bizi, birliyi, vəhdəti yaşamağı nəsib et! Oyandır bizi, hər gecəmizi qədr gecələri kimi bərəkətli et! Gecələrimizi və gündüzümüzü sevgili Rəsulunun gecələri və gündüzləri kimi et. Yardım et ki, Kamillik diyarında Kamil qullarla görüşmək xoşbəxtliyini dadaq. Sən bizə Sənin yolunda edilən hər ibadətə qarşılıq vəd edirsən, hətta ibadətimizə ehtiyacın belə olmadığı halda. Ramazan nəsib etdin və bitən kimi bayram günləri. Dünya nəsib etdin, bitən kimi ibadətimizə layiq olmasa da Mərhəmətinə və Şanına layiq Cənnət... Bayram sevinci... Cənnət sevinci. Sevindirən də Sən, ağladan da Sən. Verən də Sən, qiymətləndirən də Sən. Allahım, Sənin kimi gözəlliyə layiq et bizi. Dünyalarımızı gözəlləşdir. Bacı və qardaşlar deyə bildirdiyin müsəlmanlarımız üçün göz yaşları, qəlb ağrısı ilə dua etməyi nəsib et! Allahım, bu gün evlərindən, sağlamlıqlarından məhrum olmuş bacı və qardaşlarımız var. Onlara yardım et! Bizlərə qlobal dualar etməyi öyrət! Duamız olmasa Sənin yanında nə qədir-qiymətimiz olar? Allahım, Rəsulumuz

göz yaşları içində *ümmətim, ümmətim* deyərək dualar edərdi. Allahım, Onun kimi dualar etməsək, Rəsulumuzla hansı üzlə görüşərik?! Allahım, bu gün gözləri ağlayan bacılarımı, qardaşlarımı sevindir. Sevinmək üçün də *ihya* gərəkir. Oyandır, Muhamməd ümmətini ya Rəbbim! Allahım, bu Bayram günündə Səndən yalvarırıq, Səhabələrin yaşadığı kimi bizə də *lə* deyərək, *lə iahə illəllah*ı yaşat. Ey duyanlar! Amin səslərinizi göylərə qaldırın. Xilas olmaq istəyirsinizsə *lə* deyin, Rəsulumuzun yoluna gəlin. Bir olaraq biz şəklində, ümmət halında Rəbbimizə yönələk. Allahım, bu gün və hər zaman Sənin yardımına möhtacıq. Düşmən əlində əzmə millətimi. Millətimin dostu Sənsən. Millətimizin torpaqlarından Səni tanımayanları uzaqlaşdır, ya Rəbbim... Mərhəmət, mərhəmət, mərhəmət... Mənim bu gün bayram deyərək sevinməyə haqqım çatırmı? Bilmirəm... Yardım et, ya Rəbbim. Bacılarım, qardaşlarım düşmən əlində isə, torpaqlarımız düşmən ayağı altında isə necə sevinək? Amma, biz təkbirlər deyəcəyik, bayram günlərimizdə. *Allahu Əkbər* deyərək səsimizi göylərə qaldıracağıq. Bütün varlıq aləmi *Allahu Əkbər* deyə hayqırır. Kar qulaqlara, kor qəlblərə eşitdir *Allahu Əkbər* çağırışlarımızı... *Allahu Əkbər* deyəcəyik, mələklər kimi. *Allahu Əkbər* deyə bacı və qardaşlarımız üçün dualar edəcəyik. *Allahu Əkbər* deyə aydınlığa doğru yol tutacağıq. *Allahu Əkbər* bizim məşəlimiz olacaq. *Allahu Əkbər* yolumuzu aydınladacaq. Bu aydınlıq yolunda qəlbimiz, dilimiz, əməlimiz, hər halımız *İyyakə nəbudu iyyakə nəstəin* deyə yaşayacaq. Allahım, *biz yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik. Bizi doğru yola yönəlt.* Biz Fatihə ilə doğru yolu dilədik, Sən bizə Kəlamın olan Quranı bəxş etdin. Aləmlərin Rəbbinə həmd olsun. Allahım, bayram günündə Səndən Qurana ümmət olaraq sarılmağı diləyirik. Ümmətimizə yol göstər. Yol olaraq Quran və Muhamməd verdin. Bəs nədən Quranı bilmirik, Muhammədi tanımırıq?! Allahım, elmimizi artır, beynimizi Quranla nurlandır. Qəlbimizə Sən sakin ol. Öndərimiz Muhammədi tanıt və sevdir Bizə. Onun yolundan azmaqdan Ümməti qoru. Lütfünlə bizi tərbiyələndir. Sən Rəbbsən, Yoluna qoyan və tərbiyə verənsən. Bizi Aydınlığa doğru yolumuzda Quranın və Muhammədin aydınlığı arxası ilə apar.

Allah Rəsulu bayram namazlarında çox-çox Təkbir deyərdi. Dili *Allahu Əkbər* ilə islaq qalardı. Təkbir nemətin qiymətinin bir göstəricisidir. Bayramlar sevinc anlarıdır. Ramazan bayramı bir aylıq mənəvi cəhdin qarşılığının simvoludur. Qurban bayramı fədakarlıq, təvəkkül simvolu olan Allah dostu Hz. İbrahimin qurbanının, fədakarlığının, təvəkkülünün xatirəsini canlı qalmasının və insanlara ibrət və nümunə göstərilməsi ilə bərabər, onun imanının dərəcəsinin sevincini yaşa bilməsi və şükrünü edə bilməsidir. Sanki, “ey qullarım bir düşünün verdiklərimi çəkinmədən, düşünmədən Mənim yolumda sərf edənin, heç nədən qorxmadan yalnız Mənə təvəkkül edənin qarşılığına baxın. Qiyamətə qədər hər mömin namazında Ona Salam deyəcək, qiyamətə qədər hər kəs onu tanıyacaq, sevəcək. Mənim Ona olan dostluğum isə ən böyük mükafatdır. “Kəhf mağarasında olan gənclər isə sizin kimi adi insanlardır. Lakin Allah dini naminə, *lə ilahə illəllah*ı insanlara çatdırmaq naminə yaşadıqları çətinliklərə, əziyyətlərinə görə kimsəyə nəsib etmədiyim

neməti nəsib etdim onlara. Onların Allah yolunda fədakarlığı Qiyamətə qədər dillərə dastan oldu. Allaha görə edilən hər hansı əməl qat - qat artıq mükafatlanacaq. Amma bir gör ibrət alan varmı? Kəhf mağarasındakı gənclərin əxlaqından nümunə, ibrət götürmək əvəzinə bu gün insanlar Fatihədəki *Yalnız Sənə ibadət edir və yalnız Səndən yardım diləyirik* əhdinə qarşı gələrək müşküllərinin həlli üçün Kəhf mağarası axtarışındadırlar. *İyyakə nəbudu va iyyakə nəstəin. Biz yalnız Sənə ibadət edir və yalnız Səndən yardım diləyirik*.

Ramazan boyu edilən ibadətlərin sonu bayramlarla sonuclanır. Və hər kəsə yönələn bir sual yaranır: Əgər bir aylıq orucun qarşılığı təkbirlərlə yaşanan bayram sevinci isə, Ramazan kimi yaşanmış bir ömrün qarşılığı nə?! Təbii ki. Bu Cənnətdir. Aydınlıq diyarı Cənnət. Orada üzlər də, qəlblər də aydınlıq içərisindədir. Orada hər kəs bir - birinə salam deyəcək. Mələklər salam deyəcək, Cənnətlə təbrik edəcək. Aydınlıq diyarında hər kəs bir - birinə salam deyərək, göz aydınlığı verəcək. Bayram günləri də Cənnətdə yaşana biləcək günlərin bir nümunəsidir. Bu səbəbdən də Sevgili Rəsulumuz bayram günlərimizi təkbirlərlə bəzəməyi tövsiyə etmiş ümmətinə. Bayramları təkbirlərlə bəzəmək, Cənnət kimi bir hədiyyə qarşısında mömin qulun Allaha təşəkkürünün ən gözəl ifadəsinin təkbir olduğunu aydınladır. Bayram təkbirləri ilə mömin sanki "*Bunlar mənim etdikərimin əvəzi ola bilməz. Bu yalnız Uca Allahın hədiyyəsi ola bilər.*"- deyir. Təbii, bayram sevincləri Allahın lütfünün bir hissəsidir. O etdirməsə, edə bilmərik. Verən O - dur. Hər şeyin Sahibi O- dur. *Allahu əkbər*. Bayram təbrikləri, salamları, duaları, sevinci sanki mömininin ağzına çəkilmiş bir barmaq Cənnət dadıdır. Bu dadı unutmasaq Aydınlığa doğru cəhdlərimiz daha da artar. Və İnsan da Aydınlıq olan həqiqi Cənnətin dadını bilər. Təkbir müsəlmanın daxili sevincinin, coşğusunun bir ifadəsidir.

*Allahu Əkbər. Allahu Əkbər. Allahu Əkbər...* .

Uca Allahım, Ramazanla yeniləşərək, on bir ayın sultanı ilə birlikdə yaşayaraq Sənə ibadət etməyə cəhd etdik. Bu cəhdimizi qəbul eylə. Sevdiklərimizə, dostlarımıza, elə bizə də, hər müsəlmana hidayət ver. Hidayət, hidayət, yenə də hidayət diləyirik Səndən başqa nəyə ehtiyacımız var?

*Allahın var nəyə möhtacsan? Allahın yox nəyin var?*

Allahım, biz Sənə möhtacıq, çünki Səni sevirik. Səni sevən, Sənin üçün fədakarlıq edən hər quluna sevinc nəsib et!

Allahım, faydalı ola bilməməkdən Sənə sığınırıq! Allahım, bayram sevinc olsa da Ramazandan ayrılmaq sevinc deyil. Bizə Ramazan kimi ömür yolu ver. Yalnız Ramazanda deyil, Peyğəmbərimiz kim həftənin hər 1-ci və 4-cü günlərini, hicri təqvimi ilə hər ayın 13, 14, 15-ci günlərini oruc tutmağı nəsib et ki, Sənin iftar süfrələrinin feyzindən, bərəkətindən 1 il boyu məhrun qalmayaq. Bizə gecə ibadətləri nəsib et ki, Qədr gecəsi kimi gecələrəmizi ihya edərək, Sənin nurundan pay ala bilək. Allahım, səni sevə bilmək nə böyük xoşbəxtlik, nə böyük bayram. Allahım,

bayram Səni sevə bilməkdir. Bayram Sənin əxlaqınla əxlaqlanmaq, tərbiyənlə tərbiyələnmək, Sənin rənginlə boyanmaqdır. Həmd olsun Sənə...

*Allahım, nəfəsimiz Səni zikr etdiyi kimi beynimizi və qəlbimizi də zikrindən məhrum etmə. Hər ot, hər çiçək Sənin zikrinlə yaşayırsa, zikirsiz bir insan samandan da dəyərsizdir. Bizə dəyər ver, Allahım. Quranı bizə, bizi də özü bir zikr olan Qurana sevdir.*

Şərəfli gecədə bizlərə şərəf olan Quranımız dua Fatihə ilə başlayıb, dualarla bitir. Elə isə biz də hər zaman dua Fatihə ilə başlayıb dualarla bitirək ki, şərəfli Quranımızdan şərəflə bəhrələnək.

*De: O Allah birdir. Allah möhtac deyildir. O nə doğmuş, nə doğulmuşdur! Onun heç bir tayı-bərabəri də yoxdur!*

*De: Pənah aparıram sübhün Rəbbinə!Yaratdıqlarının şərindən; Zülmətə bürünməkdə olan gecənin şərindən; Düyünlərə üfürən qadınların şərindən. Və bir də paxıllığı tutan anda paxılın şərindən.*

*De: Pənah aparıram insanların Rəbbinə; İnsanların ixtiyar Sahibinə; İnsanların Tanrısına. Vəsvəsə verən, qaçıb gizlənən Şeytanın şərindən; o şeytan ki, insanların ürəklərinə vəsvəsə salır. Cinlərdən də olur, insanlardan da.*

## Müsəlman kimdir?

Müsəlmanın kim olduğunu bilmək ücün ilk əvvəl islamın nə olduğunu bilmək lazımdır. Cünki müsəlman sözü və anlayışı islam sözündən və anlayışından qaynaqlanmışdır. Islam Allah qatında yeganə dindir. (Əli-İmran,19) İslamda yaşayanlar salam halındadırlar, yəni sevgi, barış, məhəbbət, ən əsası itaət. Cünki, islam sözü də təslim sözü ilə sinonimdir. Allaha təslim olanlar Allahın dini, yəni Allahın yolu olan islam dininə, yəni islam yoluna qədəm qoymuş olur. Daha doğrusu doğulduğu islam dininə dönmüş olur, yəni doğulan hər varlıq Allaha təslim halındadır. Təbiət və kainat kimi. Təbiət və təbiətdə var olan hər varlıq Yaradan Allahın onun üçün təyin etdiyi qanunlar sistemindən kənara çıxmır. Allahın qanunlarından kənara çıxmadığı üçün təbiət və kainat, bir sözlə bütün varlıq aləmi **vəhdət** halındadır. Beləliklə, Allahın qanunlarına təslim olaraq vəhdət halında var olan kainat müslimdir, bizim təbirimizcə desək müsəlmandır. Yaradan Rəbbimiz, İnsanı və cinləri də Ona ibadət üçün yaratdığını dönə-dönə qeyd edir və müsəlman olan kainatdan, yerdən, göydən, günəşdən, bir sözlə Allaha təslim olaraq müsəlman kimi yaşayan bütün varlıqlardan ibrət götürərək müsəlman olmağa və müsəlman kimi ölməyə çağırır. Kimdir müsəlman? Müsəlman -Yaradan və Yaratdığı aləmlərin Rəbbi (mürəbbiyəsi, tərbiyəçisi, yönləndirəni) olan Allahın qanunlarına təslim olan və müsəlman olmağa qarşı çıxan, yəni Allaha qarşı çıxan varlıqlara qarşı cihad edəndir. Müsəlman salam daşıyıcısıdır. Salamı yaşayan, salamla paylaşan. İlk döyüş Allaha qarşı şəxsi "mən"i və nəfsi, şeytan adlı düşmənlədir. Müsəlman şəxsi vücud dövlətinin keşiyində ayıq-sayıq durandır. (Vücud dövlətinin tələbatı olan yemək, geyim, danışıq, ünsiyyət, rəftar və s. daim nəzarət və mühafizə tələb edir.) Nəfs və şeytan daim pusqudadır. Müsəlmanın axtarişi və cəhdi səlim qəlb üzrədir. Müsəlman cəhd edəndir. Onun cəhdi son nəfəsə qədərdir. Belə olmasaydı örnəklərimiz olan peyğəmbərlərimiz "Allahım, bizi müsəlman olaraq öldür", yaxud "Allahım, canımızı müsəlman olaraq al" deyə dua etməzlərdi. Düşünək. Biz Yaradanımızın qanunlarına, hökmlərinə təslim olduqmu? "Ey iman gətirənlər, Allahın ipinə sarılın" əmrinə itaət edərək Onun kəlamı olan Quranımız dediyimiz Kitabımıza nə qədər sarılırıq? Quranın məcnunu ola bilirikmi? Yoxsa dünyadakı maraqlarımız arxasınca yürüməkdəyik. Dünya hara aparır?!, Quran hara aparır?! suallarını özümüzə nə qədər veririk? Hər ötən saniyə bizi ölümə yaxınlaşdırır! Mən bu gün Allahım dediyim halda, əslində özüm üçün nə etdim? Allahı çox düşündüm, yoxsa??? Dost və yardımçı olaraq Allah yetər, dediyimiz halda kimin ətəyindən yapışdıq, kimdən mədəd umduq. Allah yetər dediyimiz halda, qocalıqda bizə baxar deyə, ömrümüzü, günümüzü nəfslərini təmin etməkdə bada verdiyimiz övladlaramı sığındıq. Anamızın bətnində bizi yedirdən Allah qocalıqda yedirməyəcəkmi?! Yoxsa övladı Allahın əmanəti olaraq qəbul edib, Allahın razı olacağı və insanlara fayda verəcək övladlar - insanlar yetişdirməkdə ötdü günümüz?! Bəlkə qazandıq ömrümüzlə. Müsəlman Təslim olmaqlıa

qazanandır. Çünki onun dostu Allahdır. Allahdır yerin, göyün, malın - mülkün Sahibi. O Allahındır. Allaha qayıdacaq. Müsəlman Allahın razılığını qazanmaqla ən zəngin varlıqdır. Müsəlman üçün “Allah razı olsun” duası, yəni Allahın razılığı sahib olduğu yaxud sahib ola biləcəyi hər şeydən dəyərlidir.

Əxlaq baxımından bir müsəlmanın (muslim) keyfiyyətləri Allahdan qorxmaq, Haqqı bilmək və dürüst olmaqdır. O, dünyada bunu bilərək yaşayır: hər şeyin sahibi, ağası Allahdır, məndə və digər insanlarda nə varsa Allahın verdiyi şeylərdir, mən hər hansı bir şeyə, hətta şəxsi vücudum və bədənimə aid gücün-qüvvənin belə sahibi deyiləm. hər şey Allahın əmanətidir.Və Onun əmanətlərində təsərruf etmək üçün Mənə hansı vəzifə verilibsə, o Allahın iradəsi və istəyinə uyğun olaraq istifadə edilməlidir. Bir gün Allah məndən bu əmanəti geri alacaq və o zaman mən hər şey üçün tək-tək hesab verəcəyəm. Belə düşünərək və bilərək dünyada yaşayan bir insanın əxlaqına baxaq. Belə bir insan qəlbini pis düşüncələrdən təmizləyəcək. O öz beynini pis düşüncələrdən pak tutacaq. O öz gözlərini pis baxışdan uzaq tutacaq. O öz qulaqlarını pis şeylər duymaqdan mühafizə edəcək.O öz dilini qoruyacaqdır ki, ondan Haqqa zidd bir söz çıxmasın. O öz qarnını haram ruzi ilə doldurmaqdansa, ac qalmağı üstün tutacaq. O öz əllərini heç bir zülm üçün qaldırmayacaq. O öz ayaqlarını pislik yolunda atmayacaq. O öz başını, kəsilsə belə heç bir zaman batilin önündə əyməyəcəkdir, o heç bir arzu və istəyini zülüm və haqsızlıqla həyata keçirməyə çalışmayacaq. O yaxşılıq və dürüstlüyün etolonu olacaq. Haqq və həqiqəti hər şeyə üstün tutacaq və bunun üçün şəxsi mənfəətinin hər faydası və ürəyinin hər istəyini, hətta özünü belə fəda edəcək. Hər şeydən daha çox zülm və haqsızlığa qarşı olacaq, hər hansı bir zərərin qorxusu və ya bir mənfəətin naminə belə bir şeyə tərəfdar olmayacaq. Beləliklə, dünyadakı müvəffəqiyyət belə bir insanın haqqıdır.Dünyada ondan başı uca kimsə olmayacaq. Çünki onun başı Allahdan başqa kimsənin önündə əyilməz və onun əli Allahdan başqa kimsənin önündə açılmaz. İndi belə bir insana rəzillik heç yaraşarmı? Dünyada ondan daha güclü bir insan da olmayacaq; çünki onun ürəyində Allahdan başqa kimsənin qorxusu olmayacaq və o Allahdan başqa kimsədən mərhəmət və mükafat da gözləməyəcək. İndi belə bir şəxsi hansı güc haqq və doğruluq, həqiqət yolundan azdıra bilər? Və hansı sərvət onun imanını satın ala bilər? Dünyada ondan daha tox və zəngin də olmayacaq. Çünki o lüks və rahatlıq düşkünü deyil; nəfsinin istəklərinə məhkum deyil; həris və acgözlü deyil. Şəxsi aciz əzmi və səyi ilə kifayətlənməklə, qarşısına haqsız qazanc olaraq bir sərvət yığılsa belə onu əlinin arxası ilə rədd edər. Onda elə bir iman sərvəti var ki, bir insan üçün daha böyük bir sərvət ola bilməz. Dünyada ondan daha çox sevilən və hörmət edilən bir insan olmayacaq. Çünki o hər kəsin haqqını verəcək və kimsənin haqqını mənimsəməyəcək. Hər kəsə yaxşılıq edəcək və qarşılığında hər hansı bir tələb irəli sürməyəcək. İnsanların qəlbləri özündən ona meyl edəcək və hər kəs onu sevməyə və hörmət etməyə məcbur olacaq. Dünyada ondan daha etibarlı və əmin biri olmayacaq. Çünki o əmanətə xəyanət etməz, sözündə və işlərində doğru və əmin olacaq. Və hər işini bu düşüncə ilə doğru və üsulunə görə edəcək ki: başqa bir görən olsun və ya olmasın, Allah hər şeyi görür.Belə bir insanın

əminliyinə hər hansı bir kölgə düşə bilərmi? Kim belə bir insana güvənməz ki! Əgər biz bir Müsəlmanın əxlaq və xarakterini dərk edə bilsək, bir Müsəlmanın heç bir zaman dünyada rəzil, məhkum və məğlub olaraq yaşamayacağına ürəkdən inanarıq. Bir Müslim hər zaman qalib və hakim olaraq yaşayır, çünki İslamın onda yaratmış olduğu keyfiyyətləri heç bir güç əyə bilməz.Beləliklə, dünya adlı məkanda bir qürürlu və hörmətli həyat tərzi keçirdikdən sonra Rəbbi hüzuruna çıxdığı zaman Rəbbi ona nemət və rəhmətini yağdıracaq. Çünki o özünə verilən əmanətin haqqını tam olaraq vermiş və Allahın onun üçün təyin etdiyi imtahanı tam müvəffəqiyyətlə vermiş olacaq. Bu dünyadan axirətə qədər davam edən və heç bitməyən sonsuz bir müvəffəqiyyətdir.

İslam, İnsanın təbii dinidir.İslam hər hansı bir millətə və ya ölkəyə məxsus bir din-yol deyil. Hər çağda, hər millətdə və hər ölkədə yaşayan Allaha və Haqqa söykənən insanların dinidir bu din-yol-məqsəd-amal-yaşam tərzi. Onların şəxsi dillərində bu dinin-yolun, həyat tərzinin adı islam olsun və ya olmasın, hər biri müslimdir(müsəlmandır).

Kimdir müsəlman?-"...Sizin tanrınız yalnız bir olan Allahdır. Yalnız Ona təslim olub itaət edin. Sən də itaət edənlərə müjdə ver! O kəslərə ki, Allahın adı çəkiləndə qəlbləri titrəyər, üz verən müsibətlərə səbir edər, namaz qıar və onlara verdiyimiz ruzidən sərf edərlər." (Əl- Həcc,34,35)

# İslam nədir?

*“Allah yanında din əlbəttə, islamdır.”*(Ali-İmran,19)

İslam, təslim, salam eyni köklü sözlərdir. Allaha ibadət, Allaha təslimiyyət kimi mənaları özündə birləşdirir. İslam anlayışı, islam yolu müəyyən bir millət, insan, cəmiyyət, yaxud qrupla sərhədlənmir. Yaradanın xəlq etdiyi və eyni zamanda Yaradan Rəbbin əmrlərinə, qaydalarına təslim və tabe olan hər bir xəlq edilənin adı müsəlmandır. Beləliklə, hər bir zamanda, dövrdə yaşayaraq özündə islami keyfiyyətləri daşıyan, yəni Allahın qayda-qanunlarına riayət edənlərin adı müsəlman olmuşdur, müsəlman olmaqda davam edir və Qiyamətə qədər də Rəbbin qanunları ilə yaşayanların adı müsəlman olacaq. Onlar Rəbbin yaratdığı, var etdiyi qanunlara təslim olaraq, salamı yaşayır, salamı yaşadıqca salam “daşıyıcısına” çevrilir, yəni müsəlman olurlar.

Varlıq aləmində hər bir şeyin müəyyən qanun və ya qaydalara tabe olması sirr deyil. Ay və ulduzlar, kainatdakı bütün planetlər elə bir möhtəşəm səhmana bağlıdırlar ki, bundan zərrə qədər də kənara çıxmazlar. Dünyamız müəyyən olunmuş şəkildə və sürətlə hərəkət etməkdədir, sürətində, zamanında, yolunda ən kiçik, ən xırda dəyişikliyin olması belə kataklizmalardan, fəlakətdən xəbər verir. Kainatda, varlıq sistemində var olan hər bir yaradılmışın hərəkətində, varlığında zərrə qədər dəyişiklik olmaz və hər bir xəlq olunmuş müəyyən sistemə tabedir. Yağış və külək, işıq və istilik, gecə və gündüz, dəniz və torpaq və hər bir şey müəyyən bir sistemə bağlıdır. Maddələr, bitkilər və heyvanlar təyin olunmuş qanunlara görə doğur və doğulur, böyüyür, yaşayır, artır və ya azalır, ölür və ya dirilir. İnsanın özü belə təbiəti etibarilə təbiət qanunlarına sıx bağlıdır. Onun fiziki varlığı üçün hansı qanun qoyulmuşsa, o qanuna tabe olaraq, fiziki tələblərini ödəyir. Qəlbinin döyünməsi və işləməsi, qan dövranı, beyninin fəaliyyəti, mədəsi, ağciyərləri, dili, ayaqları, qulaqları, bir sözlə bütün bədən üzvlərinin fəaliyyəti müəyyən sistemə bağlıdır və hər bir orqan təyin olunmuş çərçivədə, formada hərəkət edir və çalışır.

Ən böyük, möhtəşəm planetlərdən tutmuş kainatdakı ən mikroskopik zərrələrin belə sıx şəkildə bağlı olduğu və insan şüurunun qəbul edə bilmədiyi bu sistem böyük və qüdrətli hökmdarın səltənətidir. Və bu əzəmətli, qüdrətli hökmdar səltənətindəki hər bir şey üçün müəyyən sistemlər çərçivəsində qanunlar var etmişdir. Bütün kainat və bu kainatdakı hər zərrəcik belə, Əzəmətli, Qüdrətli Hökmdar və tərbiyəçi Rəbbə itaət etməkdədir. Rəbbin qoyduğu qanun və qaydalara təslimdədirlər. Bütün varlıq aləmi Onun mülküdür. Varlıq aləmində var olan irili-xırdalı hər bir şeyin Sahibi, idarə edəni O-dur. Varlıq aləmi özü bir tam olaraq Rəbbin yönləndirməsinə tabe olduğu üçün müsəlmandır. Bu prizmadan da bütün kainatın, varlıq sisteminin dini-yolu islamdır. İslam Allaha sədaqət və itaət yoludur. Günəş və ay, ulduzlar müsəlmandır. Yer kürəsi də müslimdir, külək, su və işıq, ağac, daş, heyvanlar, quşlar da

müslimdir. Varlıq aləmində var olan, gördüyümüz və görmədiyimiz, duyduğumuz və duymadığımız hər bir şey Yaradanın qanunlarına təslim olduqları səbəbilə müsəlmandırlar.

*“Gördüyünüz göyləri dirəksiz olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altına alan, müəyyən vaxta qədər dolanan Günəşi və Ayı ram edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl izah edən məhz Allahdır. Rəbbinizlə qarşılaşacağınıza bəlkə inanasınız! (ər-Rəd(Göy gurultusu)surəsi,2)*

*Göylərdə və yerdə kim varsa, kölgələri səhər-axşam istər-istəməz Allaha səcdə edər! (ər-Rəd(Göy gurultusu)surəsi,2)*

*De: “Göylərin və yerin Rəbbi kimdir?” de: “Allahdır!” De:” Belə olduqda, Onu qoyub özlərinə nə bir xeyir, nə də bir zərər verə bilənlərimi özünüzə dost edirsiniz?!” De: “Heç korla görən və ya zülmətlə nur eyni ola bilərmi?! Yoxsa onlar Allaha Onun yaratdığı kimi yaradan şəriklər qərar verdilər və onların nəzərincə bu yaratma bir-birinə bənzər göründü?!” De: “Allah hər şeyin xaliqidir. O birdir, qəhr edəndir” (ər-Rəd(Göy gurultusu)surəsi,16)*

Nəticə etibarilə, göylərin və yerin Rəbbinə, yəni tərbiyəçisinə, mürəbbiyəsinə, idarə edəninə, yönləndirəninə təslim olmağın adı islamdır. Beləliklə, Xəlq edənin xəlq etdiyi qanunlara təslim olanların adı müsəlmandır. Hətta Allahı tanımayan, Allahı inkar edən, Allahdan başqalarına sığınanlar, Allaha şəriklər qoşanlar belə təbiətləri etibarilə müsəlmandırlar. Çünki onların doğulması, yaşaması, ölməsi, bir sözlə hər bir halı Yaradanın qanununa tabedir. Adəmoğlunun vücudu, cismi, əzaları, hətta hər bir tükünün dini belə islam olduğu üçün o, müslimdir. Belə ki, insanın vücudunun bütün hüceyrələri ilahi qanunlara görə təkamül edir, hərəkət edir. Hətta cəhaləti ucbatından Allaha küfr etdirdiyi dili belə müslimdir. Zorla Allahdan başqalarının qarşısında əydiyi başı belə, doğuşdan müslimdir. Savadsızlığı səbəbilə Allahdan başqalarına heyranlıq duyduğu qəlbi belə təbiəti etibarilə müslimdir. Belə ki, bütün bu varlıqlar İlahi qanuna tabedirlər və hər incə hərəkətləri bu qanuna görə baş verir.

Kainatın möhtəşəmliyinin, əzəmətinin sirri onun yolunda, yəni islamı yaşamasındadır. Sanki kainat möhtəşəmliyi ilə bizə ibrət verir: əzəmətli, güclü, işlərində müvəffəqiyyətli olmaq istəyirsənsə, bizdən örnək götürərək, Yaradanın Sənin üçün təyin etdiyi qanunlara tabe ol. Ona tərəf gedən yol da O-nun özü kimi möhtəşəmdir, əzəmətlidir, şərəflidir və nəhayət tərifəlayiq yeganə səadət yoludur.

Təbiətin, kainatın bir hissəsi və mahiyyəti etibarilə mikro kosmos olan İnsan bir baxıma digər məxluqlar kimi Təbiət qanunlarına tabedir. Cismi ilə torpaqdan yaranan və təbiət qanunlarına tabe olan insan bir də Allah tərəfindən üflənən ruha sahibdir. Əlavə olaraq təbiətdəki qardaşlarından fərqlənən daha bir xüsusiyyətə sahibdir Adəmoğlu: Ağıl sahibi olmaq kimi bir nemət bəxş etmişdir Yaradan. İnsan düşünmək, anlamaq, təfəkkür etmək və seçmək qabiliyyətinə də sahibdir. Özünəməxsus olan seçimi və qabiliyyətləri ilə nəyi isə rədd, yaxud qəbul edə bilər.

Allahın ona nəsib etdiyi iradə ilə müəyyən qanunları təyin edər, yaxud başqalarının təyin etdiyi qanunları qəbul edər. Bu baxımdan Adəmoğlu Kainatın başqa varlıqları kimi müəyyən qanunlara təslim olmağa məcbur edilməmişdir, əksinə şəxsi görüşü, həyat yolunu seçmə azadlığına sahibdir.

Beləliklə, torpaqdan yaranan İnsan təbiətin bir hissəsi olmaqla doğuşdan müsəlmandır və Müsəlman olmağa məcburdur. İkinci halda isə Müsəlman olub-olmamaq, İslami qanunlara tabe olan cismindən fərqli olaraq, ruhu və qəlbi ilə İslamı yaşamaq, yəni müsəlman olmaq insanın öz əlindədir və onun seçiminə bağlıdır. Və bu seçim səbəbilə insanlar iki qrupa bölünür.

İnsanlardan bir hissəsi Yaradanını tanıyır. Allahı öz Sahibi olaraq qəbul edərək, şəxsi həyatında da seçim azadlığına sahib olmasına baxmayaraq, Allahın onun üçün təyin etdiyi və qəbul etdiyi qanunlara tabe olur. Beləliklə, Yaradanın bütün qanunlarına tabe və təslim olan birisi tam, yəni bütöv müsəlmandır.Cisminin yaşadığı islamı, ruhu və qəlbi ilə də qəbul etməklə islamı mükəmməlləşdirmişdir. Beləki, elmi və anlayışı olmadan itaət etdiyi Sahibinə indi anlayaraq, şüurlu surətdə itaət etməyə başlamışdır. Artıq ağlı Allahın öyrətdiyi doğru yoldadır, çünki ona öyrənmək, düşünmək, qiymət vermək, seçim edə bilmək qabiliyyətini verən, onu İnsan edərək, yaradılmışlar içindən seçən Allahın əmrlərinə itaət etməyə qərar vermişdir. Artıq dili doğrunu söyləyir, çünki dilinə danışmaq qabiliyyəti, gücü verən Yaradanın varlığını qəbul edir. Qəlbinin qapılarını Yaradanına açdıqdan sonra bütün halı ilə haqq və doğruluq üzərindədir.Çünki, özü istəsə də, istəməsə də bütün hallarda Allahın qanunlarına bağlıdır. Xəlq olunduğu andan islamı yaşayan, yəni Xəlq edənin qanunlarına təslim olan birisi kainatla birlikdə salam və harmoniya halındadır. Bütün kainat kimə qulluq edirsə, Adəmoğlu da ona qulluq edir. Salamı yaşamaqla seçilmişliyə layiq olan Adəmoğlu yerüzündə Allahın xəlifidir, vəkili və təmsilçisidir. Bütün dünya onundur və o Allahındır.

"*Məgər göylərdə və yerdə olanların, günəşin, Ayın və ulduzların, dağların, ağacların və heyvanların, insanların bir çoxunun Allaha səcdə etdiyini görmürsənmi? Bir çoxuna da əzab vacib olmuşdur. Allahın alçaltdığı kimsəni heç kəs yüksəldə bilməz. Həqiqətən, Allah dilədiyini edər!" (əl-Həcc surəsi,18)*

***DUA ZAMANI***

*Bismillahir Rahmənir Rahim*

*Mərhəmətli Rəhmli Allahın adı ilə*

*Məhəmməd Peyğəmbərə (s.ə.s) və onun ailəsinə salam olsun.*

Ölmüş torpağı gözəl şəkildə dirildən, Qadir Allahım, bizləri zəlil kimsələrdən eyləmə, Sənin qarşında utananlardan eyləmə, Lütfkar, Mehriban Allahım. İzzət, Cəlal yiyəsi Rəbbim, gözəl sözlər Sənə doğru ucalar. Gözəl sözləri qaldırıb Sənə doğru ucaldan gözəl əməllər nəsib eylə bizlərə .

Hər şeydən Xəbərdar, Uca Allahımız, Sənin iznin olmadan ağacdan bir yarpaq belə yerə düşməz. Hiylə qurub pis işlər törədən kimsələrdən bizi rəhmətinlə uzaqlaşdır. Ətrafımızı Sənin Sevdiyin, əməllərini bəyəndiyin saleh insanlarla zənginləşdir, Zəngin Allahım.

Bizləri torpaqdan, sonra nütfədən yaradan, sonra kişilər və qadınlar olaraq var edən Qadir Allahım, Səndən xəbərsiz bir qadın hamilə olmaz və bari həmlini yerə qoymaz. Bunlar və hər bir

şey Sənin yazında yazılıb. Sevən, Gözəl, Həlim Allahım, yazımızı gözəl şəkildə tamamlayanlardan eylə bizləri, yazımızı Sənin qəzəbinə səbəb olacaq əməllərdən, düşüncələrdən, niyyətlərdən uzaq eylə, hifz eylə bizi.

Allahım, sənin nur vermədiyin kimsənin nuru olmaz. Ya Rəbbim, bizə nur ver, bizləri hər iki dünyada nurlu kimsələrdən eylə.

Allahım, göylərdə, yerdə olan kimsələr, göydə qanad açan quşlar həmd edir və öyürlər Səni. Hər biri də Səni necə anacağını, necə öyəcəyini bilir. Ya Rəbbim, bizə Səni gözəl şəkildə, Sənə layiq tərzdə tərif etməyi, həmd- sənə, şükr etməyi öyrət.

Buludları hərəkət etdirən Allahım, buludlardan yağış yağdıran Allahım, səmadan dalğalar kimi buludlar göndərib də buludlardan dolu endirən Allahım, istədiyin kimsəni doluyla döyüb də istədiyin kimsədən dolunu sovuşduran Allahım, Sənin qəzəbindən Sənə sığınırıq. Qəzəbinə düçar olacaq əməllərdən Sənə sığınırıq.

Bağışlayan, Mərhəmətli Allahım, gözləri kor edə biləcək şimşəklərdən bizləri qoru. Ya Rəbbim, bizləri Sənin ayələrinə kor kimsələrdən eyləmə. Hər şeyə Qadir Allahım, doğru olanları, doğru danışanları, doğruculları sevən Allahım, bizləri Sənə və Rəsuluna itaət edənlərdən eylə ki, Sənin doğru, haqq yolunu tapıb da qəzəbinə düçar olmayaq. Rəbbim, bizləri öz qəzəbindən qoru.

Güclü, Qadir, Sevən Allahım, bizim üçün seçdiyin dini möhkəmləndir, gücləndir, ya Rəbbim. Allahım, bizləri Sənin bəyəndiyin əxlaqın ən gözəli, ən üstünü, ən layiqlisi ilə hidayətləndir.

Ya Rəbbim, yalnız Sənsən dünənimizi, bu günümüzü, sabahımızı bilən, hər şeyi bilən. Göylərdəki, yerdəki hər bir şeyin ixtiyar Sahibi, bizi utandırma.

Küləkləri müjdəçilər olaraq göndərən, küləklərlə buludlarlı hərəkətə gətirən, buludları göy üzünə istədiyi kimi yayan, buludların içindən yağışı süzdürən Allahım, bəndələrindən dilədiyin kimsəyə göndərirsən bu yağışı sevindirirsən onları. Bizləri ne'mətlərinlə sevindir, ya Rəbbim.

Qur'anda hər şeydən insanlara nümunə çəkən Rəbbimiz, gözlərimizi, qulaqlarımızı kəlamlarına açıq eylə, Sənin qüdrət nişanələrini dərk edib də anlayanlardan eylə, ey ixtiyar Sahibimiz. Sənin ayələrini eşidib, dərk edib, anlayıb, düşünüb əməl edənlərdən eylə. Allahım, Sənin qəzəbindən Sənə sığınırıq. Ya Rəbbim bizləri qəlbləri, qulaqları möhürlənənlərdən eyləmə. Rəhm et bizə.

Gecəni bizlər üçün rahatlıq zamanı, gündüzü iş zamanı eləyən Qadir Allah, bəndələrinə Lütfkar, Mehriban Allahım, Sənə qarşı naşükürlükdən qoru bizi.

Hər şeyi Yaradan Rəbbimiz, Səndən başqa ilah yoxdur, ən gözəl adlar sahibi, Allahım Sənə bütün adlarınla yalvarırıq, bizləri aldanaraq imandan yayındırma, uzaqlaşdırma, Sənin uca kəlamlarını, ayələrini danan kimsələrə aldanaraq imandan yayınmaqdan qoru .

Bizlər üçün yeri məskən, göyü uca bina eləyən, bizlərə görkəm verən, görkəmimizi gözəl eləyən, tərtəmiz şeylərdən bizə ruzilər verən, Allahım, bizləri qullarına deyil- yalnız və yalnız Sənə möhtac olanlardan eylə .

Tövbə edən, iman gətirən, saleh işlər görən kimsələrin pis işlərini yaxşı-yaxşı işlərlə əvəz edən, günahlardan keçən, Rahim Allahım, bağışla bizləri. Bizlərə hər zaman tövbə, saleh əməl, gözəl, aydın təfəkkür nəsib eylə.

Elmi və Qüdrəti ilə hər şeyi bilən, Alim Allahım, elmimizi kamilləşdir ki, Səni ən gözəl şəkildə idrak edək. Allahım, Sənə dəyərincə, layiqincə ən gözəl şəkildə yönəlməyi nəsib eylə. Bizləri mələklərin Salamına layiq buyur, ey hər şeyin ixtiyar Sahibi.

Ey görünməz və görünən aləmlərin Rabbi, Sənin rizanı qazanmaq, Sənə ən gözəl şəkildə yaxınlaşmaq üçün səcdə və namazla keçirilən gecələr nəsib eylə. Allahım, Rabbimiz! Bizdən uzaq elə cəhənnəm əzabını, dəhşətlidir o əzab. Qalmalı yer, olmalı yer deyil ora .

Günəşi çıraq, ayı aydınlıq edən, gizlinin gizlisini bilən, hər ehtiyacdan uzaq, rəhməti hər şeyi əhatə etmiş, gözəlliklər yaradan, gözəlliklər sahibi Gözəl Allahımız bizlərə gözəlliklər nəsib eylə, Allahım sənə qarşı naşükürlükdən qoru bizi. Allahım, bizləri öz qəzəbindən qoru, razı qaldığın kimsələrin sırasına sal. Allahım, bizləri yalnız Sənə ibadət edənlərdən, daima son nəfəsə qədər sənə Sənə şükr edənlərdən eylə .

Göylərdə, yerdə əzəmət sahibi, Güclü, Müdrik Allahım, millətimi güclü millətlər sırasına sal. Razı qaldığın, sevdiyin Əli, Ömər kimi qeyrətli oğullar yetir bizə, onların sayını artır ki, tapdanmış namusların intiqamını alsın .

Rəbbim, millətimə rəhm et, zalım qövmlər cərgəsinə yazma bizləri, bəlalardan, təbii fəlakətlərdən hifz elə millətimi. Bəndələrini sevən Allahım, bizlərdən razı ol.

Göylərdəki, yerdəki ordular sahibi Allahım, ordumuzu gücləndir, düşmənə qarşı yardım et bizə. İnsanlığın düşmənindən və millətimin düşmənlərindən Sənə sığınırıq, Allahım.

Gizlinin gizlisini, dünənimizi, bu gününümüzü, sabahımızı, nəfsimizin bizə nə vəsvəsə etdiyini bilən yalnız Sənsən. Bilmədiyimiz bir şeyi Səndən diləməyimizdən Sən Özün bizi qoru, Rabbim. Bağışlamasan bizləri, acımasan halımıza ziyana uğrayanlardan olarıq .

Mərhəmətli, Bağışlayan, Sevən, eyiblərimizin üstünü Örtən Səttar Allahım, Sən din gününün Sahibisən. Biz Sənin aciz qulların yalnız Sənə inanır, yalnız Sənə üz tutur, yalnız Səni özümüzə dost, vəkil edirik, ya Rabbim. Bizi doğru yola yönəlt, azmaqdan, büdrəməkdən qoru.

Əbədilik ruzi verən, güc yiyəsi Allahım, millətimin övladlarının – oğullarının və qızlarının halal ruzisini artır, torpağımızı bərəkətli elə. Rəbbim, verdiyin hər bir neməti bizim üçün bərəkətli et, sənin nemətlərini dananlardan uzaq et bizləri.

Ucalardan Uca Cəlal yiyəsi, Kərəm Sahibi Rabbimiz, rəhm et bizlərə. Rabbim, bütün nemətlər Sənin əlindədir. İstədiyin kimsəyə istədiyin qədər bunlardan verirsən, ya Rabbim. Bizə verdiklərini bizim üçün bərəkətli et, haram ruzılərdən qoru bizi.

Şəfa verən Allahım, sənə əl açan xəstələrimizə şəfa ver. Sənin qarşında səcdə etmək istəyib də nəfslərinə qalib gələ bilməyənlərə qüvvət ver, qəlblərinə iman sal və onlara namaz şirinliyi nəsib et, ya Rabbim. Sənə səcdədə olanların isə cəhənnəmdən xilas edəcək səcdə izlərini artır

Bizə yol göstərən Allahım, kitabıyla qaranlıqdan aydınlığa çıxardan Allahım, Sənin kitabını Sənin buyurduğun kimi dərk edənlərdən eylə bizləri, elmimizi artır, ya Rabbim. Millətimi bölünmələrdən, ayrıseçkilikdən, təfriqəçilikdən, məzhəbpərəstlikdən, bütün pisliklərdən uzaq eylə və bizləri vahid yol olan öz haqq yoluna yönəlt.

Qeybi bilən, qəlbləri duyan, Bizlərə şah damarımızdan yaxın Allahım, indi sənə əl açan insanların qəlblərindəki dualarını, yanlız sənin bildiyin hacətləri qəbul buyur. Duaları qəbul edən Rahmən və Rəhim, Sevən, Bağışlayan, Rəhm edən Gözəl Allahımız dualarımızı qəbul buyur.

Rəbbim, həmd oxuyar sənə göylərdə nə varsa, yerdə nə varsa. Güclüsən, müdriksən, ya Rəbbim. Sənsən göylərin, yerin Sahibi. Can Verən, can Alan, Qadir Allahım, Sən Əvvəlsən, Sən Axırsan, Sən Aşkarsan, Sən Gizlisən. Ey hər şeyin İxtiyar Sahibi, Sən hər şeyi bilirsən. Göyləri, yeri altı gündə yaradan, sonra ərşdə qərar tutan Yaradan, Alim Allahım torpağa girən, torpaqdan çıxan hər şeyi bilən Allahım, səmadan enən, səmaya qalxan hər zərrəni bilən Allahım, Sən hər yerdə, hər zaman bizim yanımızdasan, tutduğumuz hər bir şeydən Xəbərdar, hər şeyə Şahid Rəbbimiz, bizləri sənin qarşında əməllərimizə, işlərimizə görə utandırma.

Ey qəlbləri yönəldən Allahım, qəlbimi dində sabit et. Mərhəmətli Allahım, qəlblərimizi mərhəmətlə zənginləşdir, doldur. Bu mərhəmət Sənə yaxınlaşmağa bir vəsilə olsun. Rəhman, Rəhim, Sevən, Bağışlayan, Yardım edən, Rauf Allahım, qəlblərimizi, əməllərimizi, niyyətlərimizi Sənin bu keyfiyyətlərinlə zinətləndir ki, Sənin sevgini, rizanı, lütfünü qazana bilək. Sevən, Vədud Allahım, Sənin sevdiklərini, yaratdıqlarını sevməyi bizə nəsib et. Nəsib et ki, sevdiklərini sevməklə Sənin sevgini qazanaq. Ey bütün ehtiyaclardan uzaq, Rəhman və Rəhim Rəbbimiz, üzümüzü Sənə tutmuşuq, Sənə yönəlmişik. İnsanları zülmətdən Nura çıxardan Kitab nazil edən, Allahım, haqq yolumuzu aydınlat, işıqlandır.

Bizi yaradan, doğru yola yönəldən Allahım, bizləri Sənə aparan Sənə yaxınlaşdıran yolda gözəl şəkildə yürüt. Bizi yedizdirən, icizdirən Allahım, xəstələnəndə bizə şəfa verirsən. Qəlblərimizi də şəfadan məhrum etmə. Bizi öldürəcək, sonra dirildəcək Qadir, Əzəmətli Güclü, Müdrik Allahım, Sən hər şeyə Qadirsən, Sən hər şeyin ixtiyar Sahibisən. Millətimi güclü, müdrik millətlər

cərgəsindən məhrum etmə. Bizlərə azadlıq verən Qadir Allahım, dünya durduqca bizləri azadlıqdan məhrum etmə.

Bizi yaradan, doğru yola yönəldən Allahım, fitrətimizə yerləşdirdiyin dini gözəl şəkildə yaşamağı və yaşatmağı nəsib eylə, Qadir Allahım, hər şeyin ixtiyar sahibi son nəfəsimizdə *lə ilahə illəlləh* deyənlərdən eylə bizi.

Qəlbləri yönəldən Allahım, qəlblərimizi kindən, həsəddən, pisliklərdən, Sənin bəyənmədiyin hər bir şeydən təmizlə və qoru. Hər şey Sənin əlindədir, beynimizi düzgün istiqamətdə yönləndir, bizi bir an da olsa öz ixtiyarımıza buraxma.

***"Ey Rəbbimiz, unutduqda və ya yanıldıqdam bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyə bizi mükəlləf etmə! Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən. Kafirlərə qələbə çalmaqda bizə yardım et"*** (əl-Bəqərə,286)

*Aləmlərin Rəbbinə həmd olsun.*
*Peyğəmbərlərə salam olsun.*
*Amin.*

## SON SÖZ ƏVƏZİNƏ:

**"Eşitdiyin və öyrəndiyinlə Allahdan qorx və əməl et."**

Muhamməd Rasulallah (sas)

**Biz bu dünyaya sahib olmağa deyil, şahid olmağa gəldik.** Həqiqi bir Allah təsəvvürünə sahib olmadan, həqiqi qulluq etmək, iman edib, təslim olmaq mümkün deyil. Qulluğun = ibadətin nə olduğunu anlamadan abd = qul olmağın şərəfini də anlamaq mümkün deyil. Sahibini tanıyan = həddini bilən İnsan belə bir Sahibə==Rəbbə, Allaha qul = abd olmağın şərəfindən nəinki məmnun olar, Allah üçün yaşamağın nemət olmasına əmin olduğu üçün hər anını sevinc, şükr və bu neməti itirmək qorxusu ilə yaşayar. Əbədi səadətə, xoşbəxtliyə, işıqlı dünyaya nail olmaq üçün öncə iman edilməlidir. İman etdiyini tanımalısan. Şəhadət verərək şahid olduğun Varlığı dərk etməlisən. İnsan seçilmiş bir varlıqdır, məxluqat içində seçilmiş şahid. **Biz bu dünyaya yalnız şahid olmağa gəldik, sahib olmağa deyil.** Düşünmək, təfəkkür etmək, dərk etmək, bir sözlə Uca Yaradanın ən şərəfli nemətlərindən olan ağıl neməti ilə

şərəflənən İnsan – yəni bizlər şahid olduqlarımızı, şahidiyəm dediklərimizi layiqiylə tanıyırıqmı?! “Əşhədu ən” - mən şahidəm deyirik. Şahidəm deməklə, Onu və öz şəxsi kimliyimizi təsdiq etmiş oluruq. Şahıdlik kəlməsini, yəni “kəlmeyi - şəhadət” deməklə, bu dünyaya şahid olmağa gəldiyimizi təsdiq etmiş olduq. *Əşhədu ən lə ilahə illəllah* – mən şahidəm ki, yoxdur ilah Allahdan başqa – söyləyərək, təsdiq edərək, şahid olmağa gəldini bildirərək, Allahı tanıyan və Ona təslim olan = müsəlman biri olduğumuzu bütün aləmə hayqırmış oluruq. Bəs aləmlər bizə inandımı?! Şahidliyimizi = şəhadətimizi isbat edə bilirikmi?! Məhkəmə günündə şahidlər çağrılır. Şahidlər olmadan mühakiməni təsəvvür etmək mümkünmü?! Məhkəmə günündə bizim də şahidliyimizə şahidlər dəvət olunacaq. Görənlər, eşidənlər. İstər lehimizə, istər əleyhimizə. Hər addımımız belə bizə şahiddir, seçimimiz belə şahiddir. Sən görməsən də, səni görürlər, xəbərsiz olduğun halda daim nəzarətdəsən. Sahibimiz heç nəyi boş - boşuna xəlq etməmişdir və heç bir xəlq olunmuş başı boş buraxılmamışdır.

O-na inana bilərsən, O-nun var olduğunu da söyləyə bilərsən. Dil ilə söyləmək dilin borcudur, ağılla dərk etmək ağlın, əməllə həyata keçirmək cismin borcudur. Müşrik dediklərimiz də O-u tanıyırdı, var olduğunu bilir, varlığından xəbərdar olduqlarını etiraf edirdilər.. Lakin müşrik təsəvvürü O-nun uzaqda olduğunu zənn edir, Ona yaxınlaşmaq üçün vasitə axtarırlar. Həqiqi iman sahibi isə **“O-nun şah damarımızdan da yaxın”** olduğuna əmindir və şahiddir. Varlığına şahid olduğumuz = şəhadət verdiyimiz Rəbbimiz olan Sahibimizi tanıyırıqmı?!

Tanı, iman et, iman et, tanı. Tanıyanlar mömin olmaq haqqını = iman edənlər adını qazanırlar. Belə olmasaydı varlığını etiraf edən müşriklərə O-nun varlığından xəbərdar oduqları üçün mömin deyərdilər. O, özünü tanıtdığı və tərif etdiyi kimi kimsə O-nu tanıda bilməz. Onu tanımaq üçün O-nun OXU əmrinə itaət edərək O-nu anladan kitablarına sarıl. Onun adı ilə Oxumağa başlamaq O-na səcdə ilə bitən yolun başlanğıcıdır. Dəryalar mürəkkəb olsa, ağaclar qələm, yenə də O-nu tanıtmağa söz aciz qalar. Kainat, Varlıq aləmi hər hüceyrəsindən tutmuş, ən mürəkkəb varlığına qədər O-nu tanıtmaqdadır. Yaradanın şah əsəri olan sən belə hər halınla O-nun möhtəşəm varlığından xəbər verirsən, istəsən də, istəməsən də. **Qalib olmaq üçün O-nu tanı.** Tanımağın yolu inanmaqdan keçir.

İnanmaq yalnız dilin söyləməsi deyil. Əsla! Ağıl ıman etməlidir. **Səhih ağlın imanı şübhəni özünə yaxın qoymaz.** İman etmək şükür etməkdir, iman etmək təslim olmaqdır, iman həddi bilməkdir, iman sədaqətdir, iman axirəti düşünməkdir, iman sevgidir, iman insanı İnsan edən dəyərdir. **İman + əməl** = bəşər halından sıyrılaraq **Yer üzünün Xəlifi** olmaq.

Rəbbimiz Vəduddur. Sevərək xəlq etdi. Sevilərək, seçilərək yaradılanda bir qüsur ola bilərmi?1 Əsla! Onun yaratdıqlarında qüsur axtarma (Mülk, 3). Sən heç yox ikən, heç bir şey deyilkən, xatırlanmağa layiq bir şey olmadığın halda (İnsan s.,1), sevdi, seçdi, əşrəf - ən şərəfli biri etdi. Sevdi və var etdi. Sən heç bir şey deyilkən O səni sevdi, ***O hər şey olduğu halda sən Onu sevdinmi?!***

Özünü sənə tanıtmaq və ya Onu tanımaq səadətinə çata bilməyin üçün Sənə düşünməyi, təfəkkür etməyi öyrətdi. O, Sənə bilmədiklərini öyrədəndir. Təfəkkür edə bilməyin üçün yaratdıqları içərisində

sənə ağıl nemətini lütf etmiş (ağıl nemətinin istifadəsindən sual olunacaqsan) və daim səndən ağıl nemətini istifadə etməyini istəyir. Bu səbədən də Kərim olan Oxu kitabında dönə - dönə təkrar edir: “Mənim ayələrim düşünənlər üçündür”.Dək etdiklərini təkrar etməyin, təkrar – təkrar dərk etməyin üçün “De” deyir. “De : Allah birdir. Allah möhtac deyildir! O nə doğmuş, nə də doğulmuşdur! O – nun heç bir tayı – bərabəri də yoxdur!” O Hayyddır, Qəyyumdur, Vəhhabdır, Rəzzaqdır, yatmaz, mürgüləməz......

## OXU... Və əməl Kitabı olan QURANa sarıl!

Bu kitabın məqsədi Onu tanıtmaq, Ona tərəf dəvət etməkdən ibarətdir. Biz heç bir yola deyil, yalnız və yalnız Allahın yoluna - dininə dəvət edirik. Əslində hər bir varlığın, var olunmuşun – xəlq olunmuşun məqsədi O-nu tanıtmaqdan ibarətdir. Hər Varlıq bir Kitabdır. Hər Kitab da O-ndan xəbər verir. Onu tanıyan hər kəsin Onun razılığı ilə yetindiyi, kifayətləndiyi kimi bizlərə də “O və Onun razılığı yetər.”

*Rəbbim, Sənin yolunda əlinə qələm alan hər kəsi razılığınla mükafatlandır.*

**İSTİFADƏ OLUNAN QAYNAQLAR:**


**ALLAHın yardımı.**

Rəbbimizin təqdiri.

Möminlərə şəfa və rəhmət olan yol göstərən **Quran**ımız.

Mustafa İslamoğlu:

”Allah”, “Ürək dövləti”, “Ürək fəthi” və başqaları

Mevdudi:

“Islama giriş”

Allah aşiqi olan digər yazarlar.

Oxuduqlarımız, öyrəndiklərimiz, şahid olduqlarımız.